# AZƏRBAYCAN DİLİ

*dövlət dili*

6

DƏRSLİK







## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Musiqisi **Üzeyir Hacıbəylinin,***
*sözləri **Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

**HAVA ABDULLAYEVA, İRADƏ ƏFƏNDİYEVA,
MƏLAHƏT ƏLƏSGƏROVA**

Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(dövlət dili)*

*fənni üzrə*

# DƏRSLİK

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

cc BY NC SA

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **kovserneshriyyat@gmail.com** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

**"KÖVSƏR" NƏŞRİYYATI**

## M Ü N D Ə R İ C A T


§ 1. BİRİNCİ ZƏNG ........................................ 5
§ 2. HƏYAT GÜZGÜSÜ .................................. 7
§ 3. MƏN DƏ TƏYYARƏÇİ OLACAĞAM! .... 9
§ 4. GÖZƏL VƏTƏN ...................................... 12
§ 5. ƏMİR VƏ LOĞMAN ................................ 14
§ 6. MİN BİR DƏRDİN DƏRMANI ................ 17
§ 7. SƏBRİN OLMASA,
HEÇ NƏ ÖYRƏNƏ BİLMƏZSƏN! .......... 19
§ 8. AZADLIQ (1-ci hissə) .............................. 23
§ 9. AZADLIQ (2-ci hissə) .............................. 26
§ 10. UCALMIŞIQ .......................................... 28
§ 11. DEYƏSƏN, TAPMIŞIQ... ....................... 30
§ 12. ÖLKƏMİN ÇİÇƏKLƏRİ ........................ 34
§ 13. KÜÇƏ FƏNƏRİNİN NAĞILI ................ 36
§ 14. GERBİM, HİMNİM, BAYRAĞIM ......... 39
§ 15. BAKI OPERA TEATRININ TARİXİ ....... 40
§ 16. ŞƏRQDƏ İLK OPERA YAZAN
QADIN BƏSTƏKAR ............................ 44
§ 17. QARIŞQANIN SƏRGÜZƏŞTİ ............... 46
§ 18. CIRCIRAMA VƏ QARIŞQA .................. 49
§ 19. AQİLİN HƏDİYYƏSİ ............................ 52
§ 20. QOCA TRAMVAYÇI ............................. 54
§ 21. PUL TAPMIŞDIM (1-ci hissə) ................ 58
§ 22. PUL TAPMIŞDIM (2-ci hissə) ................ 61
§ 23. NİL SULARINDA (1-ci hissə) ................ 63
§ 24. NİL SULARINDA (2-ci hissə) ................ 66
§ 25. H. Z. TAĞIYEV NECƏ
MİLYONÇU OLDU .............................. 68
§ 26. YAXŞI YOLDAŞ .................................... 71
§ 27. BU GÜN TƏZƏ İL GƏLİR ..................... 74
§ 28. BALACA AŞPAZ (1-ci hissə) ................ 75
§ 29. BALACA AŞPAZ (2-ci hissə) ................. 78
§ 30. UŞUN QOCA OĞLU
SƏGRƏK BOYU (1-ci hissə) ................. 80
§ 31. UŞUN QOCA OĞLU
SƏGRƏK BOYU (2-ci hissə) ............... 82
§ 32. UŞUN QOCA OĞLU
SƏGRƏK BOYU (3-cü hissə) ................. 85
§ 33. VƏTƏN ƏBƏDİ QORUQDUR ............... 88
§ 34. GÜCLÜ OĞLAN ....................................... 91
§ 35. ATIN BELİNDƏKİ KƏRƏM İDİ ............ 94
§ 36. QƏHRƏMANDIR AZƏRBAYCAN ....... 97
§ 37. QARĞA DİLİ ........................................... 100
§ 38. BALACA GİROVLAR (1-ci hissə) ....... 102
§ 39. BALACA GİROVLAR (2-ci hissə) ........ 105
§ 40. PEŞMANÇILIQ ........................................ 108
§ 41. HOPHOP ................................................... 110
§ 42. FAYDALI MƏSLƏHƏT ......................... 112
§ 43. QARA ŞANI ............................................ 115
§ 44. BAHAR GƏLSİN! ................................... 118
§ 45. PƏLƏNG OVU ........................................ 121
§ 46. QIRQOVULAM,
TƏKƏM MƏN... (ixtisarla) .................. 124
§ 47. DAŞYIĞAN ƏMİ (1-ci hissə) ............... 127
§ 48. DAŞYIĞAN ƏMİ (2-ci hissə) ............... 130
§ 49. GƏLİN ELƏ EDƏK Kİ... ........................ 132
§ 50. ÇƏKİL, İLAN GƏLİR! (1-ci hissə) ........ 134
§ 51. ÇƏKİL, İLAN GƏLİR! (2-ci hissə) ........ 136
§ 52. SƏTTAR BƏHLULZADƏ ..................... 139
§ 53. MİLLİ ORDUMUZ ................................ 141
§ 54. XİLASKAR (1-ci hissə) ......................... 143
§ 55. XİLASKAR (2-ci hissə) ......................... 146
§ 56. ƏN QİYMƏTLİ HƏDİYYƏ ................. 159
§ 57. GÜL ........................................................... 152
SÖZLÜK ........................................................ 154
SÖZ EHTİYYATI ........................................... 158


## Dərslikdə istifadə olunmuş şərti işarələr:

*– mətndə üzərində müəyyən işlər aparılması nəzərdə tutulmuş söz, ifadə və ya cümlələri fərqləndirir;
.. – çalışmaların mətnində buraxılmış hərf və ya şəkilçinin yerində işlədilir;
... – cümlələrdə buraxılmış hissənin əvəzinə işlədilir;
– – çalışmaların mətnində buraxılmış sözlərin yerində işlənir;
Qırmızı rəng (məs.: mehriban) – mətndə kontekstə uyğun mənalarının izahı nəzərdə tutulmuş söz, ifadə və söz birləşmələrini fərqləndirir;
✿ – çalışmalara aid əlavə tapşırıqları fərqləndirir;
✉ – tapmacaların cavabına işarə edir.

*EY TÜRK OĞULLARI, VƏTƏNİN BİR OVUC TORPAĞINI DÜNYANIN VAR-DÖVLƏTİNƏ, DİLİMİZİN BİR SÖZÜNÜ LƏL-CƏVAHİRATA DƏYİŞMƏYİN!*

*ŞAH İSMAYIL XƏTAİ*

## §1. BİRİNCİ ZƏNG

Nə mehriban səs gəlir!
Bu səs mənə tanışdır.
Onu şirin mahnıtək,
Qəlbim unutmamışdır.
O nə bahar çağında
Daşan çayın səsidir,
Nə budaq-budaq gəzən
Quşların nəğməsidir.
Boy atdıqca bilirəm,
Nə məna var bu səsdə.
Min xoş arzu, xoş istək
Tutmuş qərar bu səsdə.
... Sentyabr səhəri!
Məktəbə yollanıram.
Bir işıqlı binanın
Yanında dolanıram.
Yenə qulaq*larıma
O mehriban səs gəlir.
Gözlərimə gur işıq*,
Qəlbimə həvəs gəlir.
Odur, doğma məktəbin
İlk zəngidir dil açan!
Odur, hər xoş nəğmədən
Daha əziz, mehriban.
İlk zəng!.. yenə də səslən,
Ürək*ləri oxşa sən.
Sinfə çağır sən bizi,
Gəlirsən çox xoşa sən.

**Hikmət Ziya**

**SÖZLÜK**

çağ
daşmaq

**SÖZ EHTİYATI**

boy atmaq
qərar tutmaq
ürəkləri oxşamaq

1 Bu il altıncı dəfə ilk zəngin səsini eşitdiniz. Builki zəng səsini hansı duyğularla qarşıladınız? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

2 Əvvəlki illərdəki ilk zəng günlərindən nələri xatırlayırsınız? Yadınızda qalanları danışın.

3 Altıncı dəfə eşitdiyiniz builki ilk zəng səsində sizin üçün hansı arzu və istəklər səslənir? Şeirin aşağıdakı bəndini bir də oxuyun və ilk zəng səsi ilə bağlı təəssüratlarınızı yoldaşlarınızla bölüşün.

Boy atdıqca bilirəm,
Nə məna var bu səsdə.
Min xoş arzu, xoş istək
Tutmuş qərar, bu səsdə.

4 Hikmət Ziyanın "Sevimli məktəb" şeirinin sonunda deyilirdi:

"Ucalt, sevimli məktəb,
Bir pillə də bizi sən!"

Beşinci sinifdə məktəb sizi bir pillə ucalda bildimi? Ötən bir ildə məktəbin sizin həyatınızdakı, inkişafınızdakı rolu və əldə etdiyiniz uğurlar haqqında danışın.

5 Aşağıda qırmızı və göy rəngdə verilmiş şeir parçaları H. Ziyanın "Birinci zəng" şeirindən götürülmüşdür. Bu parçaları oxuduğunuz şeirin hansı hissələrinə əlavə edərdiniz? Özünüzü yoxlayın və fikirlərinizi əsaslandırın.

Yerin dərin qatından
"Qara qızıl" alanlar,
Xəzərin qucağında
Bu gün şəhər salanlar,
"Ulduz"lar göndərənlər
Ayın, Günün yanına,

Bir zaman mənim kimi
Qulaq asmışlar ona.
Bir an unutmaz səni,
Qələm tutan, söz yazan.
Sən elmin yollarında
Yorulmaz nəğməkarsan!

6 Məktəbin insan həyatındakı rolu barədə hər kəs fərqli şəkildə düşünə bilər. Necə bilirsiniz, şair niyə elə hesab edir ki, "Bir an unutmaz səni, Qələm tutan, söz yazan?" Bəs siz fikirlərinizi necə təqdim edərdiniz?

7 Həyatda əldə etdiklərimiz üçün biz ancaq məktəbəmi borcluyuq? Müzakirəyə qoşulun və fikirlərinizi əsaslandırmağa çalışın.

8 Şeirdə rənglərlə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənalarını izah edin. Çətinlik çəkdikdə lüğətə müraciət edin.

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Arzu*** – 1. Bir şeyin olmasını ürəkdən istəmək – əlaçı olmaq arzusu.
2. Daxili ehtiyac, həvəs, meyil – yemək arzusu...

Sinonimləri: istək, dilək.

***Səmimi*** – Ürəkdən gələn; həqiqi, xalis, ciddi, riyasız – səmimi arzu;
Həqiqi, doğru, düz, ən yaxın, qəlbən bağlı – səmimi dost;
Təmiz ürəklə, candan, qəlbən – səmimi danışmaq.

Sinonimləri: mehriban, istiqanlı, ürəyiaçıq.

9 "Mənim yay tətilim nə ilə yadda qaldı?" başlıqlı təqdimat hazırlayın.

10 Aşağıdakı cümlələrdən hər birinə bir neçə cümlə əlavə edərək fikirlərinizi əsaslandırın.

1. Yay tətilini çox gözləyirdim. ...
2. Bu yay istirahətim çox ürəyimcə oldu. ...
3. Yay tətili darıxdırıcı idi. ...

4. Yay tətilində xoş xəbər eşitmişdim. ...
5. Dərslərin başlanmasını istəmirdim. ...
6. Yay tətilini necə keçirdiyimi soruşmayın. ...
7. Yay istirahətimdən razı deyiləm. ...
8. Dərslərin başlanmasını səbirsizliklə gözləyirdim. ...

**11** Şeirdən əlamət bildirən beş söz seçib sualları ilə birlikdə yazın.

**12** Necə bilirsiniz, şeirdə **"say"** və **"əvəzlik"** işlənmişdirmi? Fikirlərinizi misallarla əsaslandırın.

**13** Şeirdə işlənmiş sinonimləri tapıb göstərin.

**14** Şeirdə üzərində ulduz işarəsi qoyulmuş sözləri yazılı şəkildə ismin müxtəlif halları üzrə dəyişib yazın. Sözlərdə son səsin yazılışında baş verən dəyişikliklərin səbəbini izah edin.

**15** Aforizmləri oxuyun və nəticə çıxarın. Birinci aforizmin məzmunu üzrə debat təşkil edin.

HİKMƏT XƏZİNƏSİNDƏN

*Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eləyə bilməz.* ***Nizami Gəncəvi***

*Alim olsan, özünü nadan hesab et ki,*
*bilik qapıları sənin üzünə açılsın.* ***"Qabusnamə"***

Aforizmdə qırmızı rəngdə verilmiş söz birləşməsində hansı söz məcazi mənada işlənmişdir. Fikrinizi əsaslandırın:

A) bilik–həqiqi, qapı–məcazi mənada
B) bilik–məcazi, qapı–həqiqi mənada
C) hər ikisi həqiqi mənada
D) hər ikisi məcazi mənada

## §2. HƏYAT GÜZGÜSÜ

Bir gün ata oğlu ilə meşədə gəzintiyə çıxır. Birdən ayağı ilişib yıxılır və "Off!..", – deyə qışqırır. Qarşıdakı dağın zirvəsindən də "Off!.." səsi eşidən uşaq təəccüblənir və: "Sən kimsən?" – deyə qışqırır. Aldığı cavab: "Sən kimsən?" – olur. Qəzəblənən oğlan: "Sən bir qorxaqsan!" – deyə yenidən qışqırır. Dağın cavabı oğlanın sözləri ilə eyni olur. Nə baş verdiyini anlamayan uşaq atasından bunun nə olduğunu soruşur. Atası: "Oğlum, dinlə və öyrən", – söyləyir. O, dağa tərəf çevrilib: "Sənə heyranam, sən möhtəşəmsən!" – deyə qışqırır. Dağdan gələn səs təbii ki, atanın sözləri ilə eyni olur. Oğlan nə baş ver-

diyini yenə də başa düşməmişdi. Ata oğluna izah edir: "Oğlum, insanlar buna **əks-səda** deyirlər. Əslində isə bu, həyatın özüdür. Həyat daima sənə sənin ona verdiklərini qaytarır. O, davranışlarımızın aynasıdır. Daha çox sev! Daha çox qayğı gözlədiyin zaman daha çox qayğı göstər! Hörmət istəyirsənsə, insanlara daha çox hörmət et! İnsanların səbirli olmasını istəyirsənsə, o zaman sən daha səbirli olmağı öyrən! Bu qayda həyatımızın bir parçasıdır və hər kəs üçün gərəklidir. Həyat bir təsadüf deyil, etdiklərimizin aynadakı əksidir".

| SÖZLÜK | əks-səda | səbirli |
|---|---|---|

1 Mətndən çıxardığınız nəticə barədə fikirlərinizi yoldaşlarınızla bölüşün. Atanın dedikləri ilə razılaşırsınızmı? Bu barədə debat təşkil edə bilərsiniz.

2 Verilmiş söz birləşmələrini cümlələrdə işlədin.

dağın zirvəsi, dağın cavabı, dağdan gələn səs, həyatın özü, həyatın davamı, qəzəblənən oğlan, atanın sözləri, davranışlarımızın əksi, qayğı gözlədiyin zaman, səbirli olmağın faydası, qarşıdakı dağ

3 Aşağıdakı hər bir cərgədə sözlər arasındakı məna fərqini izah edin və onların nə bildirdiyini deyin. Yadınıza salın, belə sözlər necə adlanır?

doğma – doğmalıq – doğmalaşmaq; mehriban – mehribanlıq – mehribanlaşmaq; yol – yoldaş – yolçu – yollamaq – yollanmaq; şirin – şirinlik – şirinləşmək; məna – mənalı – mənasız – mənalandırmaq; səs – səssiz – səsləmək; həvəs – həvəskar – həvəssiz – həvəslənmək — həvəsləndirmək

4 Mətndə yaşıl rəngdə verilmiş sözlərin nə bildirdiyini (hansı nitq hissəsinə aid olduğunu) izah edin.

5 Azərbaycan Respublikasının Konstitusiyasından aşağıdakı maddəni oxuyun. Qırmızı rənglə fərqləndirilmiş birləşmələrin mənasını izah edin.

### MADDƏ 42. TƏHSİL HÜQUQU

I. Hər bir vətəndaşın təhsil almaq hüququ vardır.
II. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.
III. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.
IV. Maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir.
V. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

| SÖZLÜK | icbari | zəmanət vermək |
|---|---|---|

✿ Konstitusiya maddəsindən hərəkət bildirən sözlərə aid nümunələr göstərə bilərsinizmi? Özünüzü yoxlayın.

6 Yanıltmacları öyrənin və səsləndirin. Təkrar olunan səsləri düzgün tələffüz etməyə səy göstərin.

Axşama aş asmışam, çaşıb qazanı boş asmışam.
Aşpaz aş asmışdı, asmışdısa da, az asmışdı.

## TAP GÖRƏK

7 Tapmacanı oxuyun və cavablandırın. Tapmacada işlənmiş sözlərin hər birinə sual verib nə bildirdiyini müəyyənləşdirin və ayrı-ayrı sütunlarda yazın. Necə bilirsiniz, tapmacada əvəzlik işlənmişdir, ya yox? Fikirlərinizi əsaslandırın.

Dənələri turş,
Şirin və meyxoş.
Bir sandıqçada
Yüzü oturmuş. ✉

8 "Hikmət xəzinəsi"ndə verilmiş aforizmləri oxuyun və nəticə çıxarın. Qırmızı rəngdə verilmiş sözlər arasındakı münasibəti müəyyənləşdirin.

### HİKMƏT XƏZİNƏSİNDƏN

*Yaxşılıq yolunu göstərən adam yaxşılıq edən adama bərabərdir.*

***Hz. Məhəmməd (s.a.s)***

*Yaxşı da, yaman da keçər dünyada,*
*Çalış yaxşılıqla düşəsən yada.* ***Sədi Şirazi***

✿ Aforizmlərdə eyni kökdən düzələn söz işlənmişdir. Həmin sözü səsləndirin və onunla eyniköklü hərəkət bildirən söz düzəldin.

✿ İkinci aforizmdə yaşıl rəngdə verilmiş sözlərin yaxınmənalı qarşılıqlarını deyin və cümlələrdə işlədin.

## §3. MƏN DƏ TƏYYARƏÇİ OLACAĞAM!

Bir sabah Kamal tezdən yuxudan durub, adəti üzrə, evlərinin yaxınlığındakı təpəyə çıxmışdı. O, ətrafa tamaşa edirdi. Orada, aşağıda göz işlədikcə düzənliklər*, sıx meşələr, gümüş kəmər kimi parlayan çaylar, məxmər çəmənlər* görünürdü. Dərələrdən yüngül duman ucalır, ucaldıqca sanki göydə əriyib yox olurdu. Göy üzündə bir dəstə qaraquş qanadlarını geniş açaraq halay vurub hərlənirdi*...

Birdən aşağıdan, düşərgə yanındakı düzənlikdən bir gurultu ucaldı. Bu gurultu get-gedə artdı və Kamal bir-birinin ardınca bir neçə təyyarənin havalanıb dik göyə ucaldığını gördü. Göydəki qaraquşlar bir anda dağılışıb

yox oldu. İndi onların yerində, onlardan* da xeyli ucada təyyarələr hərlənir, mayallaq aşır, qanadları üstündə fırlanır, nərə çəkib aşağı şığıyır, yenə fişəng kimi dik qalxırdı.

Sonra təyyarələr durna qatarı kimi cərgəyə düzüldü. Birdən hər təyyarədən bir-iki nöqtə ayrılıb ağır-ağır yerə enməyə başladı. Nöqtələr yaxınlaşdıqca böyüdü və qırmızı, yaşıl, sarı rəngli zolaq-zolaq çətirlərdən* adamların sallana-sallana endikləri aşkar göründü.

Bu mənzərə o qədər gözəl, o qədər maraqlı idi ki, Kamal heç yuxuda da belə gözəl bir şey görməmişdi.

Necə fikirləşirsiniz, Kamal nə edəcək? O baxmaqda davam edəcək, yoxsa paraşütçüyə yaxınlaşmaq istəyəcək?

Paraşütçülərdən biri Kamalın durduğu təpədən iki-üç yüz addım aralı məxmər otların üzərinə enirdi. Kamal yerindən* qopub düz ona doğru cumdu. Paraşütçünün ayağı yerə çatanda Kamal da ona çatdı. Bu paraşütçü cavan, qarayanız bir əsgər idi. Gülə-gülə paraşütü yığmağa başlayıb ona heyran-heyran baxan Kamala yaxınlaşdı*. Onun qolundan* tutub yuxudan oyadırmış kimi, silkələdi və mehriban bir səslə dedi:

– Hə, qoçaq, sən də təyyarəçi olmaq ______ ?

Kamal, doğrudan da, yuxudan ayılmış kimi, bir neçə dəfə gözlərini qırpdı və gözlənilməyən cürətli, inamlı bir səslə dedi:

– Olacağam, əmican! Mən də təyyarəçi ______ !

Bu gündən Kamalın xəyalında uçan xalçalar, zər qanadlı zümrüd quşları, şahzadə qəhrəmanlar* əvəzinə, polad* qanadlı təyyarələr, rəngbərəng paraşütlər və tunc üzlü cavan təyyarəçilər canlandı.

**Mikayıl Rzaquluzadə**

**SÖZLÜK**

| | |
|---|---|
| məxmər | tunc |
| aşkar | zümrüd quşu |
| havalanmaq | cürətli |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| halay vurmaq | xəyalında |
| mayallaq aşmaq | canlanmaq |
| nərə çəkmək | |

**1** Aşağıdakı planı mətnin məzmununa uyğun hesab etmək olarmı? Fikirlərinizi əsaslandırın.

1) Kamalın heç yuxuda da görmədiyi mənzərə.
2) Paraşütçü və Kamal.
3) Düzənlikdən ucalan gurultu.
4) Kamalın təpədən ətrafı seyr etməsi.
5) Kamalın xəyalları.

**2** Mətnin məzmunu üzrə aşağıdakı suallara cavab verin. Hansı suallara cavab tapmadınız? Səbəbini əsaslandırın.

1) Kamalın çıxdığı təpədən nə görünürdü?
2) Gurultu haradan ucaldı və Kamal nə gördü?
3) Kamal atası ilə nə barədə söhbət edirdi?
4) Təyyarələr göy üzündə necə hərəkət edirdi?
5) Kamalın heç yuxuda da görmədiyi gözəl mənzərə nədən ibarət idi?
6) Kamal paraşütçüyə nə vaxt çatdı?
7) Paraşütçü Kamala yaxınlaşıb nə etdi?
8) Kamal gördüyü hadisəni kimə danışdı?

**3** Kamal təyyarəçi olmaq istəyir. Bəs siz böyüyəndə kim olmaq istəyirsiniz? Arzularınız və seçdiyiniz peşə barədə "Mən təyyarəçi (müəllim, həkim, mühəndis, iqtisadçı, dizayner, aktyor və s.) olmaq istəyirəm" başlıqlı inşa yazın.

**4** Mətndən isim, sifət, say və əvəzliklərə aid misallar seçib deyin.

**5** Mətndə işlənmiş mürəkkəb sözləri və beş düzəltmə söz seçib yazın.

**6** Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözləri köçürün, tələffüzünü qarşılarında qeyd edin.

### BUNLARI BİLİRSİNİZMİ?

***Yadda saxlayın:*** qoşa "yy" ilə yazılan sözlərin çoxu bir "y" ilə tələffüz olunur: qalibiyyət – [qa:libiyət], ədəbiyyat – [ədəbiyat], səmimiyyət – [səmimiyət], əziyyət – [əziyət], nəqliyyat – [nəqliyat], hakimiyyət [ha: kimiyət] və s.

**7** Yaşıl boşluqların yerinə lazım olan sözləri qoyub, cümlələri tamamlayın.
**8** Qruplara bölünün və hərəniz mətnin bir abzası üzrə ən azı üç sual tərtib edin. Tərtib edilmiş sualların qrammatik cəhətdən düzgünlüyü və məzmunu əhatə etməsi baxımından qiymətləndirmə aparın.

**9** Aşağıdakı atalar sözlərindən hansı mətnin məzmununa uyğundur?

### ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Ayıdan qorxan meşəyə getməz. 2) Dostsuz adam köksüz ağac kimidir. 3) Elə arxalanan igidin arxası yerə dəyməz. 4) Niyyətin hara, mənzilin də ora. 5) Tikan olub ayağa batınca, gül olub yaxaya sancıl.

**10** Mətndə işlənmiş "kəmər, təyyarələr, əsgər, qoçaq, cavan" sözlərini əvvəlcə söz birləşməsi, sonra isə cümlə içərisində işlədib yazın.
**11** Mətndə yaşıl rəngdə verilmiş sözlər arasındakı münasibəti müəyyənləşdirin.
A) sinonim B) antonim C) omonim D) qohum sözlər

⑫ Mətndə göy rəngdə verilmiş sözlərin antonimlərini və sinonimlərini deyin, tapdığınız sözləri cümlələrdə işlədin.

**TAP GÖRƏK**

⑬ Tapmacanı oxuyun və cavabını tapın. Qırmızı rəngdə verilmiş sözün əvəzinə başqa hansı sözü işlətmək olar? Fikrinizi əlavə misallarla əsaslandırın.

O nədir, nəfəssizdi?
Bülbüldü, qəfəssizdi.
Uçanda quştək uçar,
Canı yox, nəfəssizdi. ✉

# §4. GÖZƏL VƏTƏN

Oxuyuruq, nəğməmiz
Uzaqlara yayılsın,
Səsimizdən hər tərəf
Tez yuxudan ayılsın.
Gözəl vətən, can vətən,
Bizə mehriban vətən.

Qarlıdır, vüqarlıdır
Papağı şiş dağların,
Barlıdır, bəhərlidir
Tarlaların, bağların.
Gözəl vətən, can vətən,
Qoynu gülüstan vətən.

Sən xoşbəxt böyüdürsən
Bizi hər gün, hər saat.
Daim ucalaq deyə
Bizə verirsən qanad.
Gözəl vətən, can vətən,
Hər gün ucalan vətən.

**Teymur Elçin**

| SÖZLÜK | şiş | bəhərli |
|---|---|---|

① Şeiri oxuyun və vətən haqqındakı fikirlərinizi yoldaşlarınızla bölüşün. Evdə düşüncələrinizi esse şəklində yazın.

② Şeirdə göy rəngdə verilmiş sözləri sinonimləri ilə əvəz edin və hər iki variantı müqayisə edin. Hansı variant daha çox xoşunuza gəlir? Səbəbini izah edə bilərsinizmi?

③ Şeirdə yaşıl rəngdə verilmiş sözlə eyniköklü olan neçə söz düzəldə bilərsiniz? Özünüzü yoxlayın. Bəs bu söz başqa hansı mənada işlənə bilər?

④ Azərbaycan Respublikasının Konstitusiyasından aşağıdakı maddəni oxuyun. 2-ci bənddə ifadə olunmuş fikri üç müstəqil cümlə şəklində yazın.

Qırmızı rənglə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edin.

**MADDƏ 72. Vətəndaşların vəzifələrinin əsası**

I. Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır.

II. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

III. Qanunu bilməmək məsuliyyətdən azad etmir.

✽ Altından xətt çəkilmiş sözlər arasında hər hansı bir münasibət varmı? Fikirlərinizi əsaslandırın.

5 Şeirdə altından xətt çəkilmiş ifadəni aşağıdakılardan hansı ilə əvəz etmək olar?

A) uçurmaq B) ürəkləndirmək C) yüksəltmək D) düzəltmək



## GÜLƏK VƏ DÜŞÜNƏK

6 Lətifəni oxuyun və əsas fikri müəyyənləşdirin. Fərqləndirilmiş sözlərin mətnə uyğun mənalarını izah edin. Molla ilə kişinin dialoqunu səhnələşdirin.

### Nə bildin, nə yazmışam?

Molla bir gün dostlarından birinə məktub yazırmış. Bir nəfər də onun yanında durub, o yazdıqca altdan-altdan yazdıqlarını oxuyurmuş. Molla axırda təngə gəlib məktubda yazır: "Əziz dostum, sənə çox şeylər yazacaqdım. Ancaq bu saat yanımda ədəbsizin biri dayanıb, hər nə yazıramsa, oxuyur".

Kişi bunu da oxuyub hirslənir ki:

– Bu nədir? Sənin nə haqqın var, məni ədəbsiz adlandırırsan?

Molla deyir: – Çünki başqasının məktubunu oxuyursan.

Kişi deyir: – Mən nə zaman sənin məktubunu oxudum?

Molla deyir:

– İndi ki oxumursan, nə bildin, mən sənin haqqında ora nə yazmışam?

**KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!**

***Ədəbsiz*** – 1) Yaxşı tərbiyə görməmiş, ədəb və tərbiyədən məhrum, cəmiyyətdə özünü apara bilməyən – ədəbsiz oğlan...

2) Ədəb qayda-qanunlarına uyğun gəlməyən, nalayiq – ədəbsiz hərəkət...

Sinonimləri: tərbiyəsiz, qaba, kobud.

# §5. ƏMİR VƏ LOĞMAN

Bir gün Buxara əmiri ağır xəstələn*ir. Əmirlikdə olan həkimlərin heç biri onun dərdinə çarə qıla bilmir. Ağrıdan qovrulan əmir əmr edir ki, bilikli bir həkim axtarıb tapsınlar. Əmirin qoyduğu vaxt **bit**əndən sonra vəzir əmirin yatağına yaxınlaş*ıb baş əyir:

– Ya əmir, ölkədə daha heç bir həkim yoxdur. Lakin yenicə həkimliyə başlamış 15-16 **yaş**larında bir uşaq var, bir o qalıb. Mənə elə gəlir ki, xəstəliklərin öhdəsindən gəlməkdə ona təbib bacarığı yox, təsadüflər kömək edir. Onu da hüzurunuza gətirməyə cürət etmədik.

Çarəsi kəsilmiş əmir yeniyetmə həkimi onun yanına gətirməyi əmr edir. Bu yeniyetmə həkim sonralar bütün Şərqdə loğman adı ilə məşhurlaş*mış böyük həkim, alim, filosof, siyasi xadim Əbu-Əli ibn-Sina idi.

Hüseyni əmirin hüzuruna gətirirlər. O, qarşısında ortayaşlı, yanaqlarından **qan** daman, şişman bir adam görür. Əmirin yatağının yanında yağlı plov, cürbəcür Şərq şirniyyatları, növbənöv çərəzlər düzülmüşdü. Hüseyn başa düşür ki, əmirin xəstəliklərinin əsas səbəbi onun düzgün qidalanmaması və hərəkətsizlikdir. Əmir güclə nəfəs alır, bədənində olan ağrılardan qovrulurdu.

Hüseyn əmiri müayinə etdikdən sonra ona pəhriz təyin edir. Saray həkimləri bir-birinə baxıb dodaqaltı gülürlər. Çarəsiz qalan əmir gənc loğmanın müalicəsini qəbul edir.

Bir həftədən sonra Hüseyn əmirin yanına gəlir. Onun müalicəsi müsbət nəticə vermişdi. Əmir ağrılardan qurtulmuş, özünü xeyli yaxşı hiss etməyə başlamışdı. Əmir gənc həkimi hörmətlə qarşılayıb onu tərifləyir* və ondan nə istədiyini soruşur. Saray həkimləri bir-birinə baxıb qımışırlar:

– Uşağın necə də bəxti gətirdi. İndi nə qədər var-dövlət istəsə, əmir ona verəcək.



Loğman isə əmirə baş əyib bu sözləri dedi:

– Ya əmir, mən var-dövlət istəmirəm, mənim üçün kitabdan böyük **dövlət** yoxdur. Saray kitabxanasına daxil ola bilməyi çoxdan arzulamışam. Mən həmin kitabxanada kitab oxumaq istərdim.

O dövrdə Buxara kitabxanası İskəndəriyyə kitabxanasından sonra dünyada ikinci böyük kitabxana idi. Burda olan kitabların qiyməti yox idi.

– Elə bu?! Saray adamları burda sakitcə gülüşdülər.

– İstədiyin elə budur? – deyə əmir gülümsəyərək soruşdu. Əmirin təəccübdən qaşları çatıldı. O başa düşdü ki, Hüseynin onu sağaltması təsadüfi deyilmiş.

Əmir loğmana kitabxanaya buraxılış verməklə yanaşı, onu saray həkimi vəzifəsinə təyin edir.

**SÖZLÜK**

| | |
|---|---|
| təbib | loğman |
| şişman | siyasi xadim |
| çərəz | müayinə etmək |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| çarə qılmaq | dodaqaltı gülmək |
| çarəsi kəsilmək | bəxti gətirmək |
| yanaqlarından qan daman | |

1 Mətndəki əsas fikri müəyyənləşdirin və mətndən çıxardığınız nəticə barəsində danışın.

2 Mətn üzrə aşağıdakı suallara cavab verin. Cavabını tapmadığınız sualları səsləndirin. Siz özünüz hansı sualları əlavə edərdiniz?

1) Necə olur ki, Hüseyni əmirin yanına gətirirlər?
2) Loğman hansı mədrəsədə təhsil almışdı?
3) Loğman nədən başa düşür ki, əmirin xəstəliklərinin əsas səbəbi onun düzgün qidalanmamasıdır?
4) Nə üçün əmir gənc həkimi hörmətlə qarşılayıb onu tərifləyir?
5) Loğman nə üçün var-dövlət istəmir?
6) Niyə əmirin təəccübdən qaşları çatıldı?
7) Loğman əmirdən nə üçün var-dövlət yox, vəzir vəzifəsini xahiş edir?

3 Aşağıdakı atalar sözlərini oxuyun və yadda saxlayın. Onların içərisində mətnin məzmunu ilə səsləşən varmı?

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

1. Malını yaxşı saxla, qonşunu oğru tutma.
2. Dama-dama göl olar, addım-addım yol!
3. Keçmişi unutma, gələcəyin müəllimidir.
4. Bilik ağlın aynasıdır.
5. Aza qane olmayan çoxa çatmaz .
6. Adam gərək özü öz həkimi olsun.

4 Mətndə yaşıl rəngdə verilmiş sözləri sinonimləri ilə əvəz edib cümlələri yenidən oxuyun. Cümlələrin məzmununda dəyişiklik müşahidə etdinizmi?

5 Aşağıdakı cümlədə işlənmiş "ağır" sözünü çoxmənalı söz hesab etmək olarmı? Fikirlərinizi əsaslandırın.

Bir gün Buxara əmiri ağır xəstələnir.

6 Mətnin məzmununa əsasən düzgün cavabı göstərin.

**Əmir loğmanın müalicəsini ona görə qəbul edir ki, ...**

A) loğman onu müayinə etmişdi.
B) başqa çarəsi yox idi.
C) loğman çox məşhur idi.
D) saray həkimləri loğmanı tərifləyirdilər.

7 Aşağıdakı cümlələrdə **"ağır"** sözünün əvəzinə hansı sözləri işlədə bilərsiniz? Həmin sözləri tapıb hər birinin qarşısında mötərizədə yazın. Hansı cümlədə bu sözün həqiqi, ilk mənasında işləndiyini müəyyənləşdirin.

1) Əmir **ağır** yuxuya getdiyindən onu qaldırmaq istəmirlər. 2) Loğman **ağır** addımlarla əmirə yaxınlaşdı. 3) Otağın havası **ağır** olduğundan pəncərəni açmışdılar. 4) Hüseyn kişi **ağır** xasiyyətli adam idi. 5) Onların həyatı çox **ağır** keçirdi. 6) Yoldaşları Zeynalabdinə kömək edir, **ağır** çanağı qaldırıb başına qoyurdular. 7) Həbib aldığı **ağır** zərbədən huşunu itirib yıxıldı.

8 Mətndə göy rəngdə verilmiş sözlər başqa hansı mənalarda işlənə bilər? Fikrinizi misallarla əsaslandırın.

9 Sualların qoyuluşunda yol verilmiş səhvləri tapıb düzəldin.

1) Yaxınlaşıb vəzir əmirin yatağına nə vaxt baş əyir? 2) Kimi cürət etmirdilər əmirin hüzuruna gətirməyə? 3) Qarşısında necə bir adam loğman görür? 4) Özünü xeyli yaxşı hiss edirdi əmir nə üçün? 5) O dövrdə müqayisə edirdilər Buxara kitabxanasını hansı kitabxana ilə?

### HİKMƏT XƏZİNƏSİNDƏN

*Mal-dövlət cəhətdən yoxsul olsan, çalış ağıl və kamalca dövlətli ol. Çünki ağıl-kamal zənginliyi var-dövlət zənginliyindən daha yaxşıdır. Ağılla dövlət əldə etmək olar, dövlətlə ağıl qazanmaq isə olmaz. Cahil adam tez yoxsullaşa bilər, lakin ağlı oğru apara bilməz, su və od məhv edə bilməz.*

***"Qabusnamə"***

10 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərə sual verin və onların nə bildirdiyini izah edin. Sonra həmin sözləri kök və şəkilçiyə ayırıb yazın. Sözlərin kökünə sual verin və onların hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

# §6. MİN BİR DƏRDİN DƏRMANI



Hələ qədimdən bəri Abşeronda yetişən zeytun insan **sağlamlığı** üçün ən faydalı meyvələrdən biri hesab olunmuşdur. Zeytun ağacının kökü, yarpağı, budağı, meyvəsi, tumunun yağı, hətta yağın çöküntüsü də insan üçün şəfalıdır. Zeytun yağının tərkibi ilə ana südündəki yağın tərkibi bir-birinə çox bənzərdir. Odur ki, ana südü ilə qidalanmayan uşaqlara zeytun yağı ilə hazırlanmış yemək vermək məsləhət görülür.

Qan təzyiqi olan adamlara zeytun ağacının yarpaqlarından istifadə etmək məsləhət görülür. Damarlarda kirəcləşmənin qarşısını alan zeytun yağının **qidalılığı** çox yüksəkdir. Ürəyində müəyyən problemlər olan adamlara zeytun yağından istifadə etmək xeyirlidir. E, A, D və K vitamini ilə zəngin olduğu üçün bu yağ uşaqların sağlam böyüməsinə müsbət təsir göstərir. Öd kisəsində ağrıları olanlar da zeytun yağından istifadə edərək şəfa tapa bilərlər. Bu yağ uşaq və yeniyetmələrdə sümüyün inkişafına, minerallarla təmin olunmasına kömək edir.

Zeytun yağı həzmi asanlaşdırır, dəriyə parlaqlıq verir. Bu yağdan qastrit və mədə yarasına qarşı da təbii bir qoruyucu kimi istifadə olunur.

Qısası, insan orqanizmi üçün ən faydalı yağ zeytun yağıdır. Zeytunun özü də orqanizm üçün çox faydalıdır. Hətta bəzi tibb alimləri yazırlar ki, hər gün süfrəsində zeytun olan adamın **xəstəliyi** olmaz.

Azərbaycanımızın ən gözəl nemətlərindən biri olan zeytundan faydalanmağa çalışın.

### SÖZLÜK

| | | | |
|---|---|---|---|
| çöküntü | şəfalı | qan təzyiqi | kirəcləşmə |
| öd kisəsi | həzm | mədə yarası | qidalılıq |

1 Azərbaycanda yetişən zeytunun insan sağlamlığı üçün ən faydalı meyvələrdən biri olduğunu bilirdinizmi? Mətni oxuyun, qiymətləndirmə aparın və BİBÖ cədvəlini (bilirəm, istəyirəm biləm, öyrəndim) doldurun.

2 Qruplara bölünün və mətnin məzmunu üzrə bir-birinizə suallar verin.

3 Mətndə yaşıl rəngdə verilmiş sözlərin kökünü müəyyənləşdirin. Kökdəki son samitin yazılışında dəyişikliyin səbəbini izah etməyə çalışın.

4 Mətndə göy rəngdə verilmiş sözlərdə neçə şəkilçi olduğunu müəyyənləşdirin. Köklərə artırılan şəkilçilərin həmin sözlərin mənasını dəyişib-dəyişmədiyini izah etməyə çalışın.

5 “Fayda, yağ, zəngin, kök, hazır, qida, yarpaq, sümük” sözlərinə müvafiq şəkilçilər artıraraq əşya, əlamət və hərəkət bildirən sözlər düzəldib yazın. Düzəltdiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlədin.

***Köməkçi:*** çiçək – çiçəklik – çiçəkli – çiçəkləmək

## GÜLƏK VƏ DÜŞÜNƏK

6 Lətifəni oxuyun və əsas fikri müəyyənləşdirin. Qırmızı rənglə fərqləndirilmiş birləşmə və ifadələrin mətnə uyğun mənalarını izah edin.

### Zeytun yağı tökürəm

Molla bir nəfərlə yol yoldaşı olur. Şəhərdən ikisi şərikli bir qab **qatıq** alırlar. Yolun yarısında əyləşib nahar eləməyə başlayırlar.

Yoldaşı **cibindən** bir az qənd ovuntusu çıxarıb deyir:

– Mən öz tərəfimə **qənd** tökəcəyəm.

Molla: – Olmaz ki, onu hər tərəfə tökəsən?

Yoldaşı: – Yox, öz tərəfimə tökəcəyəm.

Molla: – Adamsan, çıxart hər tərəfə tök!

Yoldaşı inad eləyir ki: “Olmaz! Öz tərəfimə tökəcəyəm”.

Molla **acıqlanıb** cibindən bir şüşə zeytun yağı çıxardıb deyir:

– Mən də öz tərəfimə zeytun yağı tökəcəyəm.

Yoldaşı: – Molla, dayan! Nə qayırırsan? Heç qatığa da zeytun yağı tökərlər?

Molla: – Sənə nə var? Öz tərəfimə tökürəm də...

Yoldaşı: – Molla, axı o yağ duru bir şeydi, axıb bu tərəfə də gələcək.

Molla: – Bilmirəm. Mənə dəxli yoxdu. Ya qəndi qabın hər tərəfinə tök, ya da mən öz tərəfimə zeytun yağı tökürəm.

| SÖZLÜK | şərikli | qənd ovuntusu |
|---|---|---|

Lətifədə göy rəngdə verilmiş sözlərin tələffüz şəklini deyin.

7 Aşağıdakı atalar sözlərindən lətifənin məzmununa uyğun olmayanı varmı? Cavablarınızı əsaslandırın.

1) Söz danışıqdan keçər. 2) Dil yanılar, doğrusunu deyər. 3) Yoldaşı yolda tanı! 4) Dedilər: – Qardaşın necə adamdır? Dedi: – Yoldaş olmamışam! 5) Yoldaşın yaxşı olsa, uzun yol yaxın olar. 6) Əvvəl yoldaş, sonra yol.

## TAP GÖRƏK

8 Tapmacanın cavabını tapın. Yaşıl rəngdə verilmiş sözlərin başqa hansı mənalarda işləndiyini deyin və onları cümlələrdə işlədin.

Gəzər bostan tağını,
**Üzər** gül yarpağını.

Öz belində gəzdirər
Evini, otağını. ✉

SÖZLÜK | tağ | bel

✿ Necə düşünürsünüz, göy rəngdə verilmiş söz burada hansı mənada işlənmişdir?

A) çimmək B) qopartmaq C) yuyunmaq D) sifət

9 "Sınamalar"ı oxuyun, eşitdiyiniz və bildiyiniz "sınamalar" varsa, söyləyin. Göy rəngdə verilmiş sözlərin yazılışında baş vermiş dəyişikliyin səbəbini izah edin.

1) Səfərə gedənin arxasınca su **atsan**, işi uğurlu olar, sağ-salamat qayıdıb gələr. 2) **Ürəyi** düz adam sözünün üstünə gəlib çıxar. 3) Yuxuda od yandırmaq xoş işlərin olacağına işarədir. 4) Yuxuda duz alsan, **bolluğa** qovuşarsan. 5) Yuxuda su görsən, xoşbəxtliyə qovuşarsan.

SÖZLÜK | sınama | qovuşmaq

✿ Qara şriftlə verilmiş sözü aşağıdakılardan hansılarla əvəz etmək olar?

A) səpmək B) tökmək C) tullamaq D) axıtmaq

## §7. SƏBRİN OLMASA, HEÇ NƏ ÖYRƏNƏ BİLMƏZSƏN!

Qədim zamanlarda aqil bir qoca yaşayırmış. **O**, quşların dilini bilirmiş. Quşlara nəğmə oxumağı, uçmağı, üzməyi, qaçmağı öyrətmək istəyirmiş. Quşlar **bu** xəbəri eşidib **aqil** qocanın yanına gəlir. Durna, qartal, şahin və başqa quşlar aqil qocadan xahiş edirlər ki, onlara uçmağı öyrətsin. **Ördəklər, qazlar** üzmək, **bülbüllər, turaclar** və başqaları **şirin** nəğmələr oxumaq istədiklərini bildirirlər. Dəvəquşular isə aqil qocadan xahiş edirlər ki, onlara lap bərk qaçmağı öyrətsin…



Toyuq bu xəbəri eşidib sevinir. O da aqil qocanın yanına gəlib deyir:

– **Mən** uçmağı öyrənmək istəyirəm.

Aqil qoca toyuğa deyir:

– Yaxşı, **sənə** uçmağı öyrədərəm. Ancaq gərək bir az səbirli olasan ha! Səbrin olmasa, heç nəyi öyrənə bilməyəcəksən!

**Toyuq** bir-iki günə qocadan uçmağı öyrənir. Sonra aqil qocaya deyir:

– Eh! Mən elə bilirdim ki, uçmağı öyrənmək **çətin**dir. Burda çətin nə var ki?! **Qanad**larını aç və uç! Mən daha uçmağı öyrənmişəm! İndi isə nəğmə oxumağı öyrənmək istəyirəm!

Toyuq lovğalanır, elə bilir ki, heç bir **quş** onun kimi uça bilməz! O, **bir-iki** günə qocadan nəğmə oxumağı da öyrənir. Özündən razı halda aqil qocaya deyir:

– Mən oxumağı da öyrəndim! Eh, burada çətin **nə** var ki? Bax mən **necə** gözəl oxuyuram: – qaqq – qaqq – qaqqq…

Hə, lovğa toyuq bu dəfə də üzməyi öyrənmək istəyir. Bir-iki gündə üzməyi öyrənib aqil qocaya deyir:

– Üzməyi də bacarıram! Heç bir quş mənim kimi üzə bilməz! İndi **mənə** qaçmağı öyrət!

Hə, **lovğa** toyuq qaçmağı da qocadan öyrənir. Amma heç birini əməlli-başlı bacarmırdı. Bir sənəti axıracan öyrənməyə səbri çatmırdı. O, qaçmağı da yaxşı öyrənməyib qocaya dedi:

– Mən qoçağam! Mən uçmağı, nəğmələr oxumağı, üzməyi, həm də qaçmağı öyrənmişəm. Mən qoçağam!

Mətnin davamı necə olacaq? Öz variantınızı təqdim edin.

Bir gün lovğa toyuq uçmaq istədi, lakin yaxşı uça bilmədi. Qanadları yoruldu. Baxıb gördü ki, **durnalar**, **qartallar**, **şahinlər** elə gözəl uçurlar ki! Özünü danladı:

– Onda nəğmələr oxuyacağam, – dedi.

Lakin bülbülün, turacın xoş səsini eşidib **öz** səsindən utandı… heç oxuya bilmirdi!

– Yəqin heç üzə də bilmirəm! – deyə toyuq özünü danladı. Balaca bir gölə girdi. Üzə bilməyib güclə sahilə çıxdı. Qazlar, ördəklər isə çayda üzürdü… Onlar yorulmurdular ha!

Toyuq peşman oldu. Qaçmaq istədi, gördü ki, dəvəquşunun adi yerişinə çata bilməz! O, kor-peşman aqil qocanın yanına gedib dedi:

– Mən **heç nə** öyrənməmişəm. Mən nə uçmağı bilirəm, nə üzməyi, nə də nəğmə oxumağı, qaçmağı. O, ağlamağa başladı. Aqil qoca ona dedi:

– Ağlama, bütün bunlara özün bais oldun. Səbrin çatmadı ki, bir sənəti axıracan yaxşı-yaxşı öyrənəsən. Yadında saxla: bir iş tutmaq istəsən, səbirli ol, onu bütün incəliklərinə qədər öyrən. Səbrin olmasa, heç nə öyrənə bilməzsən! Tələsmə, bir də heç zaman özünü öymə!

**Mirzəli Hüseynzadə**

## SÖZLÜK

| | | |
|---|---|---|
| aqil | dəvəquşu | əməlli-başlı |
| kor-peşman | incəliklərinə qədər | |

1 Mətndəki əsas fikri müəyyənləşdirin və qruplara bölünərək mətnin məzmunu üzrə suallar hazırlayın. Sonra sualların sayı, məzmunu əhatə etməsi və dil normaları baxımından düzgünlüyü ilə əlaqədar qiymətləndirmə aparın.

2 Mətndə göy rəngdə verilmiş sözləri nitq hissələri üzrə qruplaşdırın və sualları ilə birlikdə ayrı-ayrı sütunlarda yazın.

## HİKMƏT XƏZİNƏSİNDƏN

*Hər kəs nəsihət eşitməsə, danlaq eşitməlidir.* ***Sədi Şirazi***

*Ağıllı adamla edəndə söhbət, Çalış öyrənəsən yaxşı nəsihət.* ***Sədi Şirazi***

3 "Lovğa" sözünün antonimi aşağıdakılardan hansıdır?

A) təvazökar B) səmimi C) mehriban D) ürəyiaçıq

4 Aşağıdakı atalar sözlərində yol verilmiş səhvləri tapıb düzəldin. Necə bilirsiniz, bu atalar sözlərindən mətnin məzmununa aid olanlar varmı?

## ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1. Halva-halva deməklə, ağız şirin olar.
2. Sonrakı peşmançılıq fayda verər.
3. Bacarıq ağlın nişanəsi deyil.
4. Yaxından baxana döyüş asan gələr.
5. Ağac bar verəndə başını yuxarı qaldırar.
6. Ad adamı bəzər, adam adı bəzəyər.

5 Mətndə yaşıl rəngdə verilmiş sözlərin kökünü müəyyənləşdirin və köklərə suallar verin. Onların nə bildirdiyi barədə mülahizələrinizi söyləyin.

6 Mətndən hərəkət bildirən bir neçə söz və ifadə seçib səsləndirin, onlardan bir neçəsini cümlələrdə işlədin.

7 Aşağıdakı cümlələrdə yerinə düşməyən sözləri müəyyənləşdirin. Sonra onları mötərizədəki uyğun sözlə əvəz edib cümlələri yenidən oxuyun.

Səhər gimnastikası dünənki qurtarmışdı (yenicə, axşam, gecə). Uşaq birliyinin çobanı qonşu düşərgəyə getmişdi (müəllim, rəhbər, hesabdar). O, birlikdə keçirəcəkləri viktorina oyununun qaydalarından darıxırdı (danışırdı, öyrənirdi,

lovğalanırdı). Söhbət zamanı darvazanın köməyi açıldı (üzməyi, qanadları, qapısı). Uşaqların dünən çöldə gördükləri peşman Səftər içəri girdi (keşikçi, qapıçı, gəmiçi). Əlində nə isə üzürdü (doğramışdı, tutmuşdu, sürüdü). O, uşaq birliyinin rəhbərinə sıxlaşıb (yaxınlaşıb, qaçıb, öyrənib) dedi: – Bu, yəqin ki, sizin uşaqlarındır. Kiminsə dostundan çıxıb qalıb (cibindən, yadından, əlindən).

### KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Lovğa*** – Özü haqqında yüksək fikirdə olan, başqalarına xor baxan; özünü öyən, tərifləyən – lovğa hakim…

Sinonimləri: təkəbbürlü, iddialı, təşəxxüslü, ədabaz.

***Təvazökar*** – Öz üstünlüklərini gözə çarpdırmağı, öz xidmətləri ilə öyünməyi sevməyən, şöhrətpərəstlikdən, lovğalıqdan uzaq olan; özünü sadə aparan – təvazökar hakim...

Sinonimləri: ədəbli, sakit, sadə, utancaq.

### GÜLƏK VƏ DÜŞÜNƏK

**8** Lətifəni oxuyun, əsas fikri müəyyənləşdirin, sonra səhnələşdirin.

## Söz vermisən, söz almısan da!..

Bir gün bir dərviş yolda Mollanın qabağını kəsib bir qəsidə deyir.

Molla qulaq asır. Qəsidə qurtarandan sonra Molla yönəlir ki, getsin, dərviş deyir: – Molla, di bir şey ver də!

Molla: – Baş üstə, sabah gəl, verərəm.

Dərviş sabah Mollanı bazarda tutur ki: – Ver pulu!

Molla soruşur: – Nə pul?

Dərviş: – Dünən vəd etdiyin pulu.

Molla:

– Yaxşı, mən dünən sənə nəyi vəd etmişdim ki?.. Yadımda deyil*.

Dərviş: – Mən sənə söz oxudum, sən də mənə vəd etdin.

Molla: – Yaxşı, mənə bir şey-zad verib eləmədin ki?

Dərviş: – Yox, şey vermədim.

Molla bir də soruşur: – Ancaq söz oxudun da?..

Dərviş: – Bəli, ancaq söz oxudum.

Molla: – Yaxşı, sən mənə söz oxudun, mən də sənə söz verdim. Daha nə pul? Bir şey vermiş olsaydın, o başqa məsələ. Yoxsa söz vermisən, əvəzində də söz almısan da!..

| SÖZLÜK | qəsidə | dərviş |
|---|---|---|

⑨ Lətifədə müxtəlif rənglərlə fərqləndirilmiş sözlərin nə bildirdiyini (əşya, əlamət, miqdar və s.) izah edə bilərsinizmi? Özünüzü yoxlayın.

⑩ Lətifədə üzərində ulduz işarəsi qoyulmuş sözün əvəzində başqa hansı sözü işlətsək, məna dəyişməz?

⑪ Lətifədə yaşıl rəngdə verilmiş eyni sözlər arasında fərq nədən ibarətdir?

BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, 5-ci sinifdə siz dilimizdə işlənən sözlərin bəzi qrupları ilə tanış olmuşsunuz. Dilimizdəki söz qruplarından biri də **feillərdir**.

Feillər **əşyanın hərəkətini** bildirən sözlərdir. Məsələn: uç, yoxla, hazırlaş, çağır, qulaq as, eşit, axtar, dincəl və s.

Feillər nə etdi?, nə oldu?, nə edir?, nə olur? , nə edəcək?, nə olacaq? və s. suallarından birinə cavab verir. Məsələn: dincəlir – nə edir?, fikirləşdi – nə etdi?, hücuma keçəcək – nə edəcək?, barışar – nə edər?, batdı – nə oldu?

⑫ Aşağıdakı cümləni oxuduğunuz mətnin məzmununa əsasən davam etdirin.

**Toyuq bir-iki günə qocadan uçmağı öyrənir. Sonra aqil qocaya deyir: ...**

# § 8. AZADLIQ

***1-ci hissə***

Bazar günü idi. Böyük **şəhərlərin** birində meydanın **dörd** bir tərəfindən səs-küy eşidilməkdə idi. Həsən **kənd** uşağı idi. Bu şəhərdə bir tacirə ayda iki manata qulluq edirdi. Bu gün bayram günü olduğuna görə Həsən, ağası verən bayramlığı ovcunda bərk tutub, meydanın quşlar satılan tərəfinə gəldi. Burada çoxlu qəfəslər və qəfəslərin içində cürbəcür, rəngarəng quşlar var idi. Bir çox adamlar bu qəfəslərin ətrafında durub quşlara tamaşa edirdilər. Tamaşaçılardan bəziləri bu **quşlardan** satın alıb, balaca əsirləri dar və çirkli qəfəslərdən xilas edirdilər. Bülbül, sarıköynək*, bildirçin, torağay, qaratoyuq* bir-birlərinin dalınca uçub havanın yuxarı **qatlarında** gözdən itirdilər. Quşların belə azad olmalarını, işıqlı dünyaya çıxmalarını gördükcə Həsənin ürəyi titrəyirdi. Uçub gedən quşların sevindiklərini Həsən bütün varlığı ilə hiss edirdi. Bəlkə də, o, azad olmuş **əsirlərin** xoşbəxtliyinə onlardan daha artıq şad olurdu.

Bədbəxt quşların bəziləri qaldıqları dar **qəfəslərdə** bu bucaqdan o bucağa atılıb-düşürdülər. Bəziləri **qanadlarını** sərərək özlərini günə verirdilər. Bir

çoxu isə qəmgin və məzlumanə bir hal ilə civildəşir, bu biçarələr də azad olub, **vətənləri** olan çöllərə, meşələrə getməyi arzu edirdilər.

Quşların bu halları yumşaq qəlbli Həsənə çox təsir etdiyindən əlindəki pula bir quş alıb **azad etmək** fikrinə düşdü. Bu niyyətlə pulu ağsaqqal quşsatan kişiyə verdi. Quşsatan kişi əlini qəfəsə uzadanda sevindiyindən Həsənin ürəyi döyünməyə başladı. Həsən quşu əllərinə alıb **meydandan uzaqlaşdı**...



Necə bilirsiniz, Həsən quşu azadlığa buraxacaqmı? Yoxsa fikrini dəyişib onu öz yanında balaca bir qəfəsdə saxlayacaq? Hekayəni davam etdirin.

**SÖZLÜK**

əsir, niyyət, torağay, sərmək, bildirçin

**SÖZ EHTİYATI**

gözdən itmək, ürəyi titrəmək, məzlumanə, biçarə, özlərini günə vermək

1 Mətndəki əsas fikri müəyyənləşdirin və fikirlərinizi əsaslandırın.

2 Mətnə aid plan tərtib edin və onun məzmununu qısaca danışın.

3 Sualların mətnə aid olmadığını əsaslandırın.
1) Həsən nə üçün bu gün məktəbə getməmişdi?
2) Ağa Həsənə verdiyi pulu niyə onun əlindən almaq istəyirdi?
3) Quşsatan kişi əlini qəfəsə uzadanda Həsən niyə qışqırdı?
4) Həsən niyə meydanın quşlar satılan hissəsindən uzaqlaşmaq istəyirdi?

4 Aşağıdakı cümləni mətnin məzmununa əsasən tamamlayın.
**Bu gün bayram günü olduğuna görə Həsən ...**
A) dostları ilə parka gəzməyə getmişdi.
B) meydanın quşlar satılan tərəfinə gəldi.
C) yuxudan gec durmuşdu.
D) bayram paltarını geyinib evdən çıxdı.

5 Mətndə altından xətt çəkilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu deyin və hər birini cümlədə işlədin.

6 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözləri ismin halları üzrə dəyişib yazın.

7 Mətndə çəhrayı rəngdə verilmiş sözləri köçürün. Qarşılarında tələffüz şəkillərini göstərin və hər sözün yazılışı ilə tələffüzü arasındakı fərqi müqayisə edin.

8 Aşağıdakı cümlədəki fikri mətnin məzmunu əsasında davam etdirin.

**Quşların bu halları yumşaq qəlbli Həsənə çox təsir etdi və ...**

9 Mətndə yaşıl rəngdə verilmiş ifadələri sinonimləri ilə əvəz edib, cümlələri yenidən oxuyun.

10 Yanıltmacları öyrənin və deyin. Necə düşünürsünüz, burada "yaş" sözü eyni, yoxsa fərqli mənada işlənmişdir? Fikrinizi misallarla əsaslandırın.

Acmışam, sac asmışam, bilməmişəm, külləməmiş **yaş** asmışam.
Boz atın **boz** torbasın **boş** as başından, apar, islat gətir, **yaş** as başından.

| SÖZLÜK | külləmək | yaş |
|---|---|---|

Yanıltmacda göy rəngdə işlənmiş sözü elə dəyişin ki, o həmin əlaməti həm normadan az, həm də normadan çox göstərə bilsin.

Necə düşünürsünüz, aşağıdakı birləşmələrdə fərqləndirilmiş sözlər əşyanın, yoxsa hərəkətin əlamətini bildirir? Biliklərinizə əsasən müqayisə edin və mülahizələrinizi söyləyin.

| | |
|---|---|
| **boz** at | **boş** as(maq) |
| **boz** torba | **yaş** as(maq) |

11 Yanıltmacda işlənmiş hansı sözlərin antonimlərini deyə bilərsiniz?

12 Hər bir cərgəyə mənaca uyğun hərəkət bildirən sözlər tapıb yazın və sözlər arasındakı məna fərqini izah edin.

işıq – işıqlı – ...; bayram – bayramlıq – ...; çirk – çirkli – ...; azad – azadlıq – azad ...; qəm – qəmgin –... ; gözəl – gözəllik – ...; bərk – bərklik – ... ; hiss – hissiz – hiss ..; fikir – fikirli – ...

Sözlərin quruluşunu müəyyənləşdirin.

13 Aşağıdakı cümlədə fərqləndirilmiş sözlərin ismin hansı halında olduğunu müəyyənləşdirin və onları adlıq halda deyin,

Mən **uçmağı**, nəğmələr **oxumağı**, **üzməyi**, həm də **qaçmağı** öyrənmişəm.

## BUNLARI BİLİRSİNİZMİ?

**Məsdər** hərəkətin adını bildirir. Məsdər feillərə **-maq**, **-mək** şəkilçisi artırmaqla düzəlir: qaç+maq, gül+mək, gizlən+mək, fikirləş+mək, cavab ver+mək və s.

**Məsdər** isim kimi hallana bilir. Məsələn: geyinmək, geyinməy+in, geyinməy+ə, geyinməy+i, geyinmək+də, geyinmək+dən və s.

# § 9. AZADLIQ

***2-ci hissə***

Quş çox balaca, **arıq** və **zəif** idi. Həsən qorxurdu ki, onu barmaqları arasında əzər. Həsən bir neçə addım gedib dayandı və ovcunu açdı ki, quş uçsun. Quş isə uçmayıb rahatca yerdə oturdu və ətrafa baxdı. Həsən nə qədər "şşş" elədisə də, balaca quş Həsənin üzünə baxıb əsla tərpənmədi. Həsən naçar qaldığından quşu götürüb şəhərdən kənara çıxdı.

Yaz vaxtı idi. Qar ərimişdi. İsti külək ağacların yenicə açılmış yarpaqlarını tərpədirdi. Yerin üzünü göy ot örtmüşdü. Həsən yolun kənarında, bir daşın üstündə oturub bir az **dincəlmək** istədi. Ətrafda heç kəs yox idi. Çox sakitlik idi. Həsən bir əlini başına qoyub, balaca quşa baxırdı və fikir edirdi. Birdən öz Vətənini, ata və anasını yada salıb çox qəmgin və pərişan oldu. Və dərindən bir ah çəkib öz-özünə dedi: "Ah! Kaş mən də bu saat öz Vətənimdə olaydım! İndi oralar necə gözəl, necə səfalıdır! Otlar göyərmiş, çiçək*lər açılmış, əkinçilər yazlıq əkirlər... Quşlar **ötməyə** başlamışlar! Hər yerdə təzə* həyat başlanır. Qonşularımızın uşaqları hər gün məktəbə dərs oxumağa gedirlər!.. Ax, ay üzüqara kasıblıq! Sən nə yamansanmış?! Əgər mənim də atam **dövlətli** olsa idi, mən də nökərçilik etməyib, **oxumağa** gedərdim!"

Həsən belə fikir dəryasına qərq olduğu halda, birdən altında oturduğu ağac*ın başında bir quş səsləndi. Bu zaman ovcundakı quşun da tərpəndiyini hiss elədi. Bu quş boğazını uzadıb **ətrafa** bir qədər təəccüblə baxdı, sonra uçub bir alçaq budağa qondu. Sonra budaqdan budağa atılıb dərdli-dərdli oxudu və öz oxumağı ilə sanki azadlıq əvəzində Həsənə razılıq etdi. Bir az budaqlarda dayanandan sonra balaca qanadlarını çaldı və **gözdən itdi**.

Həsən quşa heyran-heyran baxıb öz-özünə deyirdi: "Azadlıq aldı. Hürriyyət aldı!".

**Məmməd Qarayev**

**SÖZLÜK**

| | |
|---|---|
| əsla | alçaq |
| pərişan | səfalı |
| heyran-heyran | üzüqara kasıblıq |

**SÖZ EHTİYATI**

hürriyyət
fikir dəryasına qərq olmaq
naçar qalmaq

1 Mətni oxuyun, əsas fikri müəyyənləşdirin. Necə bilirsiniz, mətnin 1-ci hissəsini "Qəfəslərdəki bədbəxt quşlar", 2-ci hissəsini isə "Azadlıq əvəzində razılıq" adlandırmaq olarmı? Mülahizələrinizi söyləyin.

2 Hekayənin davamı kimi düşündüyünüz variantla oxuduğunuz mətnin məzmunu arasında uyğunluq tapdınızmı? Fərqli cəhət nədə özünü göstərdi?

3 Aşağıdakı plan mətnin məzmununu əks etdirirmi? Fikirlərinizi əsaslandırın:

1) Həsənin çarəsiz qalması.
2) Həsənin fikrə getməsi.
3) Azadlıq əvəzində razılıq.
4) Bayram tədarükü.
5) Dost hədiyyəsi.

4 Cümlələri mətnin məzmunu əsasında tamamlayın.

1) Həsən qorxurdu ki, … . 2) Həsən bir neçə addım gedib dayandı və … . 3) Həsən nə qədər "şşş" elədisə də, … . 4) Həsən bir əlini başına qoyub, ... . 5) Əgər mənim də atam dövlətli olsa idi, … . 6) Həsən belə fikir dəryasına qərq olduğu halda, …

5 Aşağıdakı cümlələrdə hərəkət bildirən sözləri tapın və müxtəlif zamanlar üzrə dəyişib dəftərinizə yazın.

1) Həsən yolun kənarında, bir daşın üstündə oturdu, bir az dincəldi. 2) Birdən Həsənin altında oturduğu ağacın başında bir quş səsləndi. 3) Həsən birdən ovcundakı quşun da tərpəndiyini hiss elədi. 4) Bu quş boğazını uzadıb ətrafa bir qədər təəccüblə baxdı. 5) Balaca quş budaqdan-budağa atılıb dərdli-dərdli oxudu.

6 Mətndə altından xətt çəkilmiş feilləri məsdər formasında yazın. Qara şriftlə verilmiş məsdərlərin ismin hansı halında olduğunu müəyyənləşdirin.

7 Aşağıdakı hər bir cərgədə sözlər arasındakı məna fərqini izah edin.

zəif – zəiflik – zəifləmək; rahat – rahatlıq – rahatlamaq – rahatlanmaq; daş – daşlıq – daşlaşmaq; dinc – dinclik – dincəlmək; sakit – sakitlik – sakitcə – sakitləşmək; dərin – dərinlik – dərinləşmək; göy – göylük – göyərmək

✿ Hər bir cərgədən hərəkətin adını bildirən sözləri (məsdərləri) müəyyənləşdirin və həmin sözlərin quruluşunu izah edin.

8 Mətndə altından xətt çəkilmiş sözlər üzərində müşahidə aparın. Həmin sözlərdə hərəkətin hansı zamanda icra edildiyi barədə mülahizələrinizi söyləyin.

## BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində feillər **üç zamana** görə dəyişir: **keçmiş** zaman, **indiki** zaman, **gələcək** zaman. Məsələn: əzbərlədim, əzbərləmişəm, əzbərləyirəm, əzbərləyəcəyəm, əzbərləyərəm.

9 Mətndə göy rəngdə verilmiş sözlərin əvəzinə onların sinonimlərini qoyub cümlələri yenidən oxuyun. Hər iki variantı müqayisə edin. Əvvəlki, yoxsa sonrakı variant daha çox xoşunuza gəlir?

10 Mətndə yaşıl rəngdə verilmiş sözlərin əksmənalı qarşılığını deyin və sözlərin hər birindən hərəkət bildirən sözlər düzəldin. Necə bilirsiniz, bəs düzəltdiyiniz sözləri biri-birinin antonimi hesab etmək olarmı? Fikrinizi bildirin.

## § 10. UCALMIŞIQ

Sən ey evim, ana torpaq,
Sən bir tarix, sən bir kitab.
Çevirdiyim hər bir vərəq
Min suala verir cavab.

Həyat dəniz, ömür gəmi,
Yollarımız çətin* olub.
**Qaralmışıq** kömür kimi,
İradəmiz mətin olub.

Quduz düşmən **at oynatdı**
Gül-çiçəkli çəmənimdə.
Yadlar qultək alıb-satdı
Məni doğma vətənimdə.

Dözdük, **dözdük** hər zillətə,
Məşəl kimi **sönmədik** biz.
Qovuşmaqçün səadətə
Haqq yolundan **dönmədik** biz.

Qaranlığa **od saçmışıq**
Səməndərtək yana-yana.
Köksümüzlə yol açmışıq
Bu xoş günə, xoş dövrana.

Pillə-pillə qalxa-qalxa
Zirvələrə **ucalmışıq**.
Biz can verib bu torpağa,
Bu torpaqdan güc almışıq.

**Hikmət Mahmud**

**SÖZLÜK**

| | | |
|---|---|---|
| çevirmək | quduz | mətin |
| kömür | səadət | köks |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| od saçmaq | zillət |
| haqq yolu | |

1 Şeirdəki əsas fikri müəyyənləşdirin. Necə düşünürsünüz:
**“Köksümüzlə yol açmışıq**
**Bu xoş günə, xoş dövrana”**, – misraları ilə şair nə demək istəyir?

2 Şeirin 3-cü bəndində işlənmiş antonim sözləri tapıb deyin. Həmin sözlərdən hərəkət bildirən sözlər düzəldə bilərsinizmi? Düzəltdiyiniz sözləri cümlədə işlədin.

3 Necə düşünürsünüz, şeirdə niyə torpaq kitabla, tarixlə müqayisə olunur? Mülahizələrinizi söyləyin.

4 Necə düşünürsünüz, şairin dediyi kimi, torpaq tariximizlə bağlı bizi maraqlandıran suallara cavab verə bilərmi? Müzakirəyə qoşulun.

5 Şeirin axırıncı bəndində işlənmiş “can vermək” ifadəsinin kontekstə uyğun mənası aşağıdakılardan hansıdır?

A) son dəqiqələrini yaşamaq B) ruhlandırmaq
C) qorumaq D) diriltmək, canlandırmaq, həyat vermək

6 Şeirdə üzərində ulduz işarəsi qoyulmuş sözün yaxınmənalı və əksmənalı qarşılıqlarını tapıb deyin. Tapdığınız sözlərdən hərəkət bildirən sözlər düzəldin. Necə düşünürsünüz, düzəltdiyiniz sözlər arasında da sinonimlik və antonimlik münasibəti özünü göstərirmi?

7 Aşağıdakı misralardakı fikri necə başa düşmək lazımdır?

**Quduz düşmən at oynatdı**
**Gül-çiçəkli çəmənimdə.**

A) Düşmənlər çəmənlərimizdə at sürmək yarışına çıxmışdılar.
B) Düşmənlər çəmənlərimizə səyahətə çıxmışdılar.
C) Quduz düşmənlər yurdumuzu çapıb-talayır, istədiklərini edirdilər.

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***At oynatmaq*** – at minib hünər göstərmək, at minməkdə məharət, igidlik göstərmək; məcazi mənada – meydanı boş görmək, meydan oxumaq, istədiyini etmək

***Can vermək*** – 1) son dəqiqələrini yaşamaq, can üstə olmaq; 2) ölmək, həyatından keçmək; məcazi mənada – 1) diriltmək, canlandırmaq, həyat vermək; 2) ruhlandırmaq.

8 18 Oktyabr Dövlət Müstəqilliyi Günü ilə əlaqədar material toplayın və "Müstəqilliyimiz əbədidir" mövzusunda inşa yazın.

9 Şeirdə göy rəngdə verilmiş feillər üzərində müşahidə aparın və hərəkətlərin hansı zamanda baş verdiyi ilə bağlı mülahizələrinizi söyləyin.

10 Azərbaycan Respublikasının Konstitusiyasından aşağıda verilmiş maddələri oxuyun. Fərqləndirilmiş birləşmələrin mənasını izah edin.

**MADDƏ 76. Vətəni müdafiə**

I. Vətəni müdafiə hər bir vətəndaşın borcudur.
Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər.

**MADDƏ 77. Tarix və mədəniyyət abidələrinin qorunması**

Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur.

**MADDƏ 78. Ətraf mühitin qorunması**

Ətraf mühitin qorunması hər bir şəxsin borcudur.

SÖZLÜK: ətraf mühit — hərbi xidmət

# § 11. DEYƏSƏN, TAPMIŞIQ...

Maşın gümüş kəmər kimi parıldayan dağ yolundan keçib qalın meşəliyə girəndə sürücü yolu rahat görüb **arxayınlaşdı**. Arxada oturmuş iki nəfər gursaçlı kişi səfərdən əliboş qayıtdıqlarına görə sanki bir-birindən **küsmüşdü**. Heç biri dinib **danışmırdı**. Onlar ildə bir dəfə belə səfərə çıxar, lakin heç vaxt bugünkü kimi ümidsiz qayıtmazdılar. Hər dəfə ya gözəl səsli qız, ya da istedadlı oğlanla qayıdardılar. Elələrini bu dəfə də tapmışdılar. Ancaq kiminin atası, kiminin də anası övladlarının onlarla getməsinə **razı olmamışdı**.

Maşın yoxuşu çıxanda solda oturan ağsaçlı kişi pəncərədən bayıra– intəhasız meşəliyə boylandı. Bu əsrarəngiz təbiət sanki onu **ovsunlamışdı**. Lap uzaqlarda bir-birinə söykənmiş alçaqlı-hündürlü təpələr boyunca buludlar sürünürdü. Maşın yamaca çathaçatda dümağ köpüklü şəlalə göründü. Şair tələsik:



– Saxla! – dedi.

Maşın **dayandı**.

– Üzeyir bəy, düş, bu gözəl təbiətə tamaşa edək, burdan belə tez keçib getmək insafdan deyil.

Bəstəkar Üzeyir bəy də zarafatından qalmadı:

– Nə oldu, şair, yenəmi coşdun?

Şair onun dediklərini eşitmirmiş kimi, dodaqaltı zümzümə edə-edə aşağıya, şəlaləyə tərəf enirdi. O lap dərəyə enib ________ kənarında dayandı. Əyilib əlini buz kimi suya toxundurdu.

Ovuclarını doldurub suyu üzünə vurdu. Sonra yaş əliylə yarı ağarmış saçlarını **sığalladı**.

– Üzeyir əmi, ay Üzeyir əmi, en aşağı! – deyə gücü gəldikcə qışqırdı.

Bəstəkar əsasına dirənə-dirənə aşağı **endi**. Onlar yanaşı dayanıb bu şairanə mənzərəyə maraqla ________ .

Bəstəkar əsası ilə yaxındakı böyük palıd ağacını ________ .

– Deyəsən, o ağacın dibində bulaq var. Yaxşı yerinə düşdü, **acmışıq**, gəlin oturaq çörək yeyək, naharın vaxtı keçir.

Sürücü yemək bağlamasını **gətirdi**. Üçlükdə oturub nahar etdilər. Şair də, bəstəkar da çörək yeyə-yeyə gözlərini nə şəlalədən, nə də bu sonsuz meşədə titrəşən yamyaşıl yarpaqlardan yayındıra bilmirdi.

Kimsə yuxarıda gözəl səslə oxuyurdu. Hər üçü bir-birinin üzünə **baxdı**. **Durdular**. Maşının ________ qalxıb oradan səs gələn tərəfə getməyə başladılar.

Şair sevinclə:

– Üzeyir əmi, deyəsən, **tapmışıq**, – dedi, – özü də çobandı.

Qoca bəstəkar **dinmədi**. O hələ də eşitdiyi bu gözəl səsin təsirindən ayrıla bilmirdi...

*Şəmistan Nəzirli*

**SÖZLÜK**

| | |
|---|---|
| ovsunlamaq | şairanə |
| insaf | dodaqaltı |
| üçlükdə | dirənə-dirənə |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| intəhasız | əsrarəngiz |
| yerinə düşmək | |
| gözlərini yayındırmaq | |

1 Necə düşünürsünüz, Üzeyir bəylə axtarışa çıxan şair kim idi? Mətndə şairi xarakterizə edən bəzi cəhətlərə diqqət yetirsəniz, cavabı asanlıqla tapa bilərsiniz.

2 Aşağıdakı suallara ətraflı cavab versəniz, mətnin məzmununu danışmış olarsınız. Özünüzü yoxlayın.

1) Qalın meşəliyə girəndə sürücü niyə arxayınlaşdı?
2) Maşında oturmuş şair və bəstəkar niyə küsülü kimi oturmuşdular?
3) Şairlə bəstəkar ildə bir dəfə nə məqsədlə səfərə çıxardılar?
4) Şair maşını niyə saxlatdı, o nə görmüşdü?
5) Bəstəkar nəyə işarə edərək “yaxşı yerinə düşdü” ifadəsini işlədir?
6) Bəstəkarın gözəl səsin təsirindən ayrıla bilmədiyini nədən bilmək olur?
7) Çoban niyə şəhərə getmək istəmədi?

- Hansı suala cavab tapa bilmədiniz? Səbəbini izah edin.
- Bəs siz mətn üzrə bir-birinizə hansı sualları vermək istərdiniz?

3 Mətndəki yaşıl boşluqların yerinə aşağıdakı sözlərdən hansıları qoysanız, səhv etməzsiniz? Cümlələrin məzmununa diqqət yetirsəniz, cavabı asan taparsınız.

nəzər salmaq, baxmaq, tamaşa etmək, seyr etmək, nəzərdən keçirmək; göstərmək, işarə etmək, nişan vermək, vurmaq; şəlalə, çay, göl, kanal, bulaq; yan, arxa, qabaq

4 Siz mətni necə davam etdirərdiniz? Öz variantınızı yoldaşlarınıza danışın.

5 Necə düşünürsünüz, çoban şair və bəstəkarla şəhərə getməyə razı olacaqmı? Sonluq aşağıdakı variantlardan biri ola bilərmi?

1) İncə, kövrəkqəlbli şair və qoca bəstəkar onu öz doğma sürüsündən, bu

dağlardan ayırmağa qıymadılar. Hər ikisi qayıdıb maşına oturdu. Maşın yola düşdü. Şair hələ də gözünü dağların uca zirvəsindən ayırmamışdı...

2) Çoban duruxdu. Gülümsünüb: – Yox, qardaş, – dedi, – bəs bu qoyunlar, bu dağlar üçün kim oxusun? Qoca anamı kimin ümidinə qoyum?

Şair və bəstəkar çobanı inandırdılar ki, ona şəhərdə hər cür şərait yaradacaqlar...

**6** Atalar sözlərini oxuyun və yadda saxlayın. Necə düşünürsünüz, bunların içərisində mətnin məzmunu ilə səsləşən varmı?

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

1) Axtaran tapar, yoğuran yapar. 2) Görünən kəndə nə bələdçi?! 3) Gəzən ayağa daş dəyər!

**7** Cümlələri mətnin məzmunu əsasında tamamlayın və yazın. Tapşırığı icra edərkən mətnə baxmamağa çalışın.

1) Arxada oturmuş iki nəfər gursaçlı kişi səfərdən əliboş ... . 2) Onlar ildə bir dəfə belə səfərə çıxar, lakin ... . 3) Maşın yamaca çathaçatda ... . 4) Şair onun dediklərini eşitmirmiş kimi, ... . 5) Maşının yanına qalxıb oradan ... .

**8** Mətndə yaşıl rəngdə verilmiş sözlərin əvəzinə hansı sözləri işlətmək olar? Hansı halda belə bir əvəzetmə mümkündür?

**9** Mətndə göy rəngdə verilmiş sözlər üzərində müşahidə aparın. Necə düşünürsünüz, həmin sözlər hərəkətin söhbət gedən vaxtdan əvvəl, yoxsa sonra baş verdiyini bildirir?

**BUNLARI BİLİRSİNİZMİ?**

Feilin keçmiş zamanı hərəkətin keçmişdə yerinə yetirildiyini, icrasının söhbət gedən vaxtadək başa çatdığını bildirir.

Hərəkətin keçmiş zamanda baş verdiyini bildirmək üçün feillərə -dı,-di, -du, -dü; -mış, -miş, -muş, -müş, -ıb, -ib, -ub, -üb şəkilçilərindən biri artırılır. Məsələn: bağışla+dı+m, keç+di+n, yuyun+du, döz+dü+k, seç+di+niz, qoru+du+lar, al+mış+am, kökəl+miş+sən, oxu+muş+dur, oyan+ıb+san, öyrən+ib+siniz, üşü+yüb, gecik+ib+lər və s.



## GÜLƏK VƏ DÜŞÜNƏK

**10** Lətifəni oxuyun. Fərqləndirilmiş feillər üzərində müşahidə aparın. Necə bilirsiniz, bu sözlər hərəkətin icrasının başa çatdığını, yoxsa davam etdiyini bildirir?

## YUXUM QAÇIB

Molla gecə yarısı çıxıb küçələri **axtarmağa başlayır**. Qarovulçu gəlib onu **tutur** ki:

– Gecənin bu vaxtı buralarda nə **axtarırsan**?

Molla **deyir**:

– Yuxum **qaçıb**, onu **axtarıram**.

❁ Feilləri dəftərinizə köçürün. Sonra -ır, -ir, -ur şəkilçilərini keçmiş zaman şəkilçilərindən uyğun gələni ilə əvəz edib qarşılarında yazın.

**11** Necə düşünürsünüz, mətndə altından xətt çəkilmiş sözlərdə əlamət normadan az, yoxsa çoxdur? Fikrinizi əlavə misallarla əsaslandırın.

**12** Aşağıdakı atalar sözlərində yol verilmiş səhvləri tapıb, düzgün şəklini deyin.

1) Əyri yol gedən yorulmaz. 2) Hər oxuyandan Molla Pənah olar. 3) Qələm düz yonulsa da, əyri yazar. 4) Elmli adam meyvəsiz ağac kimidir. 5) Ağıl başda yox, yaşda olar. 6) Ağıl başdan üstün olar.

**13** Aşağıdakı "alqış"larla tanış olun və onlardan yeri gələndə istifadə edin. Təhsil aldığınız dildə bu alqışların qarşılığını deyə bilərsinizmi?

1) Aqibətin xeyir olsun. 2) Ağ günə **çıxasan**. 3) Ağıl-kamal sahibi olasan. 4) Ağrı **görməyəsən**. 5) Ağ bəxt olasan. 6) Bolluq içində **üzəsən**. 7) Canın **ağrımasın**. 8) Dərd-bəla görməyəsən. 9) El **dadına çatsın**.

❁ Göy rəngdə verilmiş feilləri keçmiş zamanda işlədin və düşünün: həmin cümlələri alqış hesab etmək olarmı?

**SÖZLÜK**

| | | |
|---|---|---|
| alqış | aqibətin xeyir | dadına çatmaq |

**14** Aleksandr Fadeyevin Səməd Vurğuna göndərdiyi teleqramı oxuyun və teleqram yazmağı öyrənin.

*Bakı şəhəri, Azərbaycan Yazıçılar İttifaqı, Səməd Vurğuna!*

### Teleqram

*Əzizim Səməd!*

*Ali mükafatla təltif olunmağın münasibətilə səni səmimi qəlbdən təbrik edirəm. Anadan olmağın münasibətilə göndərdiyim teleqramı aldınmı? Səhhətin barədə mənə teleqram vur.*

*Məhəbbətlə səni bağrıma basıram.*

***Moskva, Aleksandr Fadeyev.***

✿ Qırmızı rəngdə verilmiş ifadənin sinonimini cümlədə işlədin.

⑮ Necə düşünürsünüz, oxuduğunuz mətndəki hadisə ilə bağlı şair aşağıdakı məzmunda bir teleqram ala bilərdimi? Oxuyun və istədiyiniz mövzuda teleqram mətni yazın.

*Bakı şəhəri, Azərbaycan Yazıçılar İttifaqı, Səməd Vurğuna.*

**Teleqram**

Hörmətli şair! Sizin tanış olduğunuz çoban Bakıya getməyə razıdır. Sizdən cavab gözləyirik.

***Hörmətlə: Adil Cavadov, Ağsu rayonu, Altıağac kəndi.***

# § 12. ÖLKƏMİN ÇİÇƏKLƏRİ

Ölkəmin çiçəkləri, –
Ey qızlar, ey oğullar!
Bu **əziz** ana Vətən,
Bu **qəlbi** odlu **diyar**
Mərd-igid babalardan
Qalıb sizə yadigar!
Sizindir **şiş** ucları
Göydələn qarlı dağlar!
Sizindir şırıl-şırıl
Axan büllur bulaqlar!
Üstü parlaq ulduzlu
Üçrəng bayraq bizimdir.
Füzulinin, Sabirin,
Vurğunun şirin dili
Sizinkidir, balalar,
Sevin bu azad eli!..

Sizindir, bu Vətənin
Hər nəyi var, sizindir!
Bütün Şərqə **nur** saçan
**Odlu** diyar sizindir!
Sizindir...
ancaq sizə
Bu Vətən yadigardır!
Bu günün də, balalar,
Əlbət, sabahı vardır!..
Siz də bu yadigarı
Öz alın **tər**inizlə,
Daha da abad edin.
Sizə ümid bəsləyən
Bu elləri şad edin!..

**Mikayıl Rzaquluzadə**

| SÖZLÜK | |
|---|---|
| büllur | abad |

| SÖZ EHTİYATI | | |
|---|---|---|
| qalmaq | nur saçmaq | ümid bəsləmək |

① Şeirdəki əsas fikri müəyyənləşdirin və çıxardığınız nəticə barəsində danışın.

2 Aşağıdakı bəndi şeirin hansı hissəsinə əlavə edərdiniz? Fikrinizi əsaslandıırın.

Ölkəmin çiçəkləri, –
Ey qızlar, ey oğullar!
Bu əziz ana Vətən,
Bu qəlbi odlu diyar
Sizdən də gələcəyə
Qalacaqdır yadigar!

3 Deyə bilərsinizmi, şair oğlan və qızlara niyə "ölkəmin çiçəkləri" deyərək müraciət edir? Fikrinizi əsaslandıırın.

4 Verilmiş söz birləşmələrini tərcümə edin və cümlələrdə işlədin.

ölkəmizin çiçəkləri, odlu diyar, qarlı dağlar, üçrəngli bayraq, igid babalar, büllur bulaqlar, parlaq ulduz, şirin dil, doğma vətən, gecənin yarısı

5 "Çiçək" sözündən eyniköklü sözlər düzəldib cümlələrdə işlədin.

6 Aşağıdakılardan biri "büllur" sözünün sinonimi deyil.

A) təmiz B) şəffaf C) dumduru D) saf E) bulanıq

7 Şeirdə göy rəngdə verilmiş sözlərə yaxınmənalı sözlər tapıb cümlələrdə işlədin.

8 Şeirdə yaşıl rəngdə verilmiş sözlərdən birincisi dörd, ikincisi iki müxtəlif mənada işlənir. Sözlərin hansı mənalarda işləndiyini tapıb deyin və cümlələrdə işlədin.

9 Şair sizlərə nəyi tövsiyə edir? Necə düşünürsünüz, demək olarmı ki, gələcək nəsillər üçün siz də indidən nəsə edirsiniz? Müzakirəyə qoşulun.

10 "Bulaq" və "çiçək" sözlərini ismin halları üzrə dəyişib yazın. Sözlərin kökündəki son səsin yazılışında baş verən dəyişikliyin səbəbini izah edin.

11 Şeiri oxuyarkən orada çoxlu əvəzliklərin işləndiyini gördünüz. Necə bilirsiniz, şeirdə sual əvəzlikləri işlənmişdirmi? Fikrinizi əsaslandırın.

12 Deyə bilərsinizmi, şair ana Vətəni niyə "qəlbi odlu diyar" adlandırır?

13 Azərbaycan bayrağındakı rənglərin mənasını izah edin.

14 "Bir kərə yüksələn bayraq bir daha enməz" sözlərinin kimə məxsus olduğunu deyin və bu mövzuda inşa yazın.

# §13. KÜÇƏ FƏNƏRİNİN NAĞILI

Keçmiş zamanlar lap uzaqda qalmışdı. Hər şey dəyişmişdi. Yollara asfalt döşənmişdi. Yolların kənarlarına dirəklər basdırılıb, onlardan işıq* fənərləri asılmışdı. Artıq küçələr axşamlar da işıqlı olurdu. Yoldan keçən maşınlar və adamlar əziyyət çəkmirdilər. Fənərlər söhbət etməyə bir kimsə tapmadıqları üçün gündüzlər çox darıxırdılar. Bikar qalan fənərlər axşam düşənə qədər yatırdılar.

Bir gün yol kənarında olan dirəklərə* üçrəngli bayraqlar asdılar. Bayraqlar **vüqarla** dalğalanırdı. Bunu görən fənərlər çox təəccübləndilər. Fənərlərdən biri yanına sancılan bayraqdan soruşdu:

– Səni bura niyə asıblar? Sən də küçələri işıqlandıracaqsan?

Üçrəngli bayraq **qürurla** dedi:

– Yox! Mən küçələri yox, insanların ömür yolunu işıqlandırıram! Mən onları işıqlı gələcəyə aparıram!

Küçə fənəri bir şey başa düşmədi. Odur ki, maraqla soruşdu:

– Bu necə olur? Axı onların yolunu mən **işıqlandırıram**. Məni axşamlar **yandırırlar**, bəzən səhərlər söndürmək yaddan çıxır, günorta **söndürürlər**. Mən **işıq saçıram**, sənin isə işığın yoxdur. Sən onların ömür yoluna necə işıq saçırsan?

Üçrəngli bayraq vüqarla dedi:

– Mən insanlara azadlıq* gətirirəm, məni uca tutub, başlarının üstündə gəzdirirlər. Müharibə vaxtlarında əgər bayrağı aparan əsgər yaralanarsa, başqa bir əsgər tez məni əlinə götürür ki, yerə düşməyim. Axı bayraq yıxılsa, bu artıq məğlubiyyət olar. Ən möhtəşəm bayramlarda, idman yarışlarında qalib gələnlərin şərəfinə həmin ölkənin bayrağını ucaldırlar.

Küçə fənəri bütün bu sözlərə diqqətlə qulaq asırdı. Bayraq sözünü bitirəndən sonra fənər ondan soruşdu:

– Bəs bu gün səni nəyə görə buraya asıblar? Məgər burada idman yarışları var?

Bayraq dedi:

– Sabah bu ölkənin – Azərbaycan Respublikasının ən əziz bayramıdır. Bu bayram, həqiqətən, insanları azadlığa çıxarıb. Onlara ağ günləri bəxş edib, ona görə də bütün yolların kənarına, möhtəşəm binaların divarlarına bayraqlar sancıblar. İnsanlar üçrəngli bayrağı görəndə ürəkləri sevinclə döyünür. Uşaqlar* fərəhlə bu bayrağa baxıb deyirlər: ”Bu bizim bayrağımızdır!” Heç bilirsən, körpə balaların dilindən bu sözləri eşidəndə nə qədər sevinirəm?!

Küçə fənəri bir gündə o qədər **təzə** şeylər öyrənmişdi ki, istəyirdi, bayraq yenə danışsın. Bayraq isə ona dedi:

– Bugünlük bəsdir. Sən bütün gecəni yatmamısan, indi gəlib səni söndürəcəklər. Yat, dincəl, axşam yenə söhbət edərik.

Fənər təəccüblə soruşdu:

– Bəs sən yatmırsan?

Bayraq qürurla dedi:

– Mənim işim indi başlanır! Mən axşama qədər dalğalanıb yoldan keçənlərə əl edəcəyəm. Onlar da mənə salam verəcəklər. İnsanlar gül-çiçəklə gəzməyə çıxacaqlar, bu bayramı **iftixarla** qeyd edəcəklər. Axı bu, müstəqillik bayramıdır. Bu bayramı əldə etmək üçün insanlar çox əziyyət çəkiblər, bu yolda nə qədər qanlar tökülüb. İndi isə bu xalq azaddır.

Fənər dedi:

– Kaş bu gün də bizi söndürmək yaddan çıxaydı, mən də bayrama gedən adamlara baxardım.

Bayraq fənəri başa saldı ki, əgər işıqlar boş yerə yansa, bu işıq hədər olar. İşığı yalnız axşamlar yandırmaq olar.

Elə bu vaxt küçə fənərini söndürdülər. O, yavaşca yuxuya getdi...

**Gülarə Munis**

**SÖZLÜK**

| | |
|---|---|
| məğlubiyyət | iftixarla |
| sancılmaq | hədər |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| bikar | əziyyət çəkmək |
| ağ günlər | |

1 Mətndəki əsas fikri müəyyənləşdirin və nağılı səhnələşdirin.

2 Aşağıdakı sualların içərisindən mətnin məzmununa uyğun olanları seçib cavablandırın.

1) Nədən bilmək olardı ki, yoldan keçən maşınlar və adamlar əziyyət çəkmirdilər? 2) Fənərlər niyə gündüzlər çox darıxırdılar? 3) Küçə fənərləri nəyə təəccübləndilər? 4) Bayraq hansı binanın üstündən asılmışdı? 5) Üçrəngli bayraq insanların ömür yoluna necə işıq saçır? 6) Evlərin pəncərələrindən asılan bayraqların ölçüsü necədir? 7) Üçrəngli bayrağı görəndə nəyə görə insanların ürəkləri sevinclə döyünür? 8) Bayraq niyə küçə fənəri ilə söhbətini yarımçıq qoydu?

3 Qruplara bölünün və hərəniz aşağıdakı planın bir maddəsi üzrə danışın.

1) Fənərlərin təəccübü. 2) Üçrəngli bayrağın qüruru.

3) Müstəqillik bayramı.

4 Mətndə altından xətt çəkilmiş sözləri köçürün və düzgün tələffüzünü qarşılarında qeyd edin.

5 Verilmiş söz birləşmələrini cümlələrdə işlədin.

işıqlı gələcək, həyat yolu, idman yarışlarında, küçə fənəri, üçrəngli bayraq, yolların kənarında, bütün gecə, əziz bayram, fənərlərdən biri

⑥ Mətndə yaşıl rəngdə verilmiş ifadələri bir sözlə əvəz edib cümlələri yenidən oxuyun. Necə düşünürsünüz, hansı variant daha maraqlıdır?

⑦ Mətndən "bayraq" sözünün müxtəlif formalarını seçib yazın. Bu sözün yazılışında müşahidə etdiyiniz qaydanı izah edin.

⑧ Mətndən cəmdə işlənmiş on isim seçib deyin. Seçdiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlədin.

⑨ Mətndə çəhrayı rəngdə verilmiş sözlərin bir-birinə münasibətini izah edin və onları keçmiş zamanın müxtəlif növlərində yazın.

⑩ Mətndə göy rənglə fərqləndirilmiş sözlər arasında hər hansı bir bağlılıq görürsünüzmü? Bu sözlərin sırasına başqa hansı sözü əlavə edə bilərsiniz? Fikirləşin.

⑪ Üzərində ulduz işarəsi qoyulmuş sözləri ismin müxtəlif halları üzrə dəyişib yazın. Sözlərin kökündə baş verən dəyişikliyin səbəbini izah edin.

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Vüqarla*** – Əzəmətlə, başını dik tutaraq, təmkinlə–cərgələrin önündən vüqarla keçmək; məcazi mənada: iftixarla – vüqarla addımlamaq.

***İftixarla*** – qürurla, fəxrlə, iftixar hissi ilə – iftixarla bayram etmək.

***Qürurla*** – 1. Məğrurluqla, təmkinlə, iftixar hissi keçirərək, öz mənliyini hiss edərək, cəmiyyətdə öz rolunu, üstünlüyünü duyaraq – qürurla dillənmək; məcazi mənada: əzəmətlə, möhtəşəm – qürurla dayanmaq. 2) Təkəbbürlə, iddialı, təşəxxüslə, başqalarına alçaq nəzərlə baxan.

⑫ Necə düşünürsünüz, mətndə işlənmiş "boş yerə" birləşməsinin kontekstə uyğun mənasının izahında aşağıdakılardan hansını işlətmək doğru olmaz?

A) lüzumsuz B) hədər C) faydasız Ç) səmərəsiz D) nahaq, əbəs

⑬ Hər üç sütunda verilmiş feillər üzərində ayrı-ayrılıqda müşahidə aparın, sonra sütunları bir-biri ilə müqayisə edin. Necə bilirsiniz, hansı sütundakı sözlər hərəkətin icrasının başa çatdığını bildirir? Bəs digər sütunlardakı sözlər barədə nə deyə bilərsiniz?

| | | |
|---|---|---|
| təəccübləndilər | işıqlandırıram | işıqlandıracaqsan |
| söndürdülər | yandırırlar | salam verəcəklər |
| asılmışdı | sevinirəm | qeyd edəcəklər |
| yuxuya getdi | gəzdirirlər | gəzməyə çıxacaqlar |
| əziyyət çəkiblər | yatmırsan | söhbət edərik |
| asıblar | dalğalanır | əl edəcəyəm |

14 Bənövşəyi rəngdə verilmiş sözün sinonimini deyin və hər iki sözdən feillər düzəldib keçmiş zamanda işlədin.

**BUNLARI BİLİRSİNİZMİ?**

**Feilin indiki zamanı** hərəkətin söhbət gedən vaxtda yerinə yetirildiyini bildirir və nə edir?, nə olur? suallarından birinə cavab verir.

Hərəkətin **indiki** zamanda başverdiyini bildirmək üçün feillərə **-ır, -ir, -ur, -ür** şəkilçilərindən biri artırılır. Məsələn: danış+ır+am, keç+ir+sən, yuyun+ur, döyüş+ür+ük, ucal+ır+sınız, qoru+yur+lar, axtar+ır+am, axtar+ır+ıq, qur+ur+san, qur+ur+sunuz, gözlə+yir, gözlə+yir+lər və s.

## § 14. GERBİM, HİMNİM, BAYRAĞIM

Sərvətimdi, varımdı,
Yenilməz vüqarımdı.
Andım, ixtiyarımdı
Gerbim, himnim, bayrağım!

Sinəmdəki bu həvəs,
Şəhid qanına əvəz.
Aləmə salıbdı səs
Gerbim, himnim, bayrağım!

Ana Kürdü, Arazdı,
Vəsf eləsəm də, azdı.
Təzə bahardı, yazdı
Gerbim, himnim, bayrağım!

Varlığımdır, səddimdir,
Basılmaz sərhədimdir.
Səsim, imzam, xəttimdir
Gerbim, himnim, bayrağım!

Kəpəzdi, Savalandı,
Ürəyimdəki **qan**dı.
Anam Azərbaycandı!
Gerbim, himnim, bayrağım!

**İsmayıl İmanzadə**

**SÖZLÜK**

| | |
|---|---|
| yenilməz | sədd |
| basılmaz | imza |

**SÖZ EHTİYATI**

vəsf eləmək
ixtiyar

1 Gerbimizin üzərində təsvir olunmuş atributlar barədə nə bilirsiniz?

2 Bayrağımızın təsvirini (ölçülərini, rənglərinin mənasını və s.) verin.

3 Himnimizi əzbər deyin.

4 “Anam Azərbaycandı! Gerbim, himnim, bayrağım!” – misraları ilə şair nə demək istəyir? Fikirlərinizi açıqlayın.

5 Şair niyə belə hesab edir ki, bayrağımız, himnimiz və gerbimiz bizim səsimiz, imzamız, xəttimizdir? Bu fikri başa düşdüyünüz şəkildə izah edin.

6 Dövlət rəmzlərimiz barədə nə bilirsiniz? Azərbaycan Respublikasının Konstitusiyasından aşağıdakı maddələri oxuyun. Qırmızı rənglə fərqləndirilmiş birləşmələrin mənasını izah edin. BİBÖ cədvəlini doldurun.

**MADDƏ 23. Azərbaycan dövlətinin rəmzləri**

I. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir.

**MADDƏ 75. Dövlət rəmzlərinə hörmət**

Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə – bayrağına, gerbinə və himninə hörmət etməlidir.

7 Şeirin birinci və üçüncü bəndlərindəki sinonimləri tapıb deyin. Hər birini ayrı-ayrılıqda əvvəlcə birləşmə, sonra isə cümlələrdə işlədin.

8 Şeirdə yaşıl rəngdə verilmiş sözün sinonimlərini yazın. Hər birini bir cümlədə işlədin.

9 Şeirdə göy rəngdə verilmiş sözün hansı mənada işləndiyini deyin və onun omoniminin mənasını izah edin. Sonra bu sözdən hərəkət bildirən sözlər düzəldib keçmiş və indiki zamanlarda işlədin.

10 Kür və Araz çayları barədə nə bilirsiniz? Məlumatınızı genişləndirmək üçün axtarış aparın və tədqiqatınızın nəticəsini təqdimat formasında hazırlayın.

11 Himnimizin musiqisi kimindir, onun haqqında nə bilirsiniz? Bu bəstəkarın başqa hansı məşhur əsərlərinin adını bilirsiniz?

12 Kəpəz və Savalan dağları barədə nə bilirsiniz? Məlumatınızı genişləndirmək üçün axtarış aparın və tədqiqatınızın nəticəsini yoldaşlarınıza oxuyun.

## § 15. BAKI OPERA TEATRININ TARİXİ

Bakıdakı opera teatrı üçün tikilən binanın tarixi çox maraqlıdır. 1910-cu ildə Bakıya bir xanəndə qadın gəlir. O, səsinin ahəngi və gözəlliyi ilə Bakı milyonçularının diqqətini cəlb edir. Milyonçu Mayılov qardaşlarından böyüyü bu qadına bərk **vurulur**. Ona hədiyyələr **bağışlayır**.

Xanəndə xanım gah ağac və taxtadan tikilmiş "Sirk" binasında, gah da "Qış" klubunda **konsert verirdi**. Qastrol **başa çatanda** xanəndə xanımın şərəfinə təntənəli vida mərasimi düzəldirlər. Söhbət zamanı xanımdan soruşurlar: "Bizim şəhərə bir də nə vaxt **gələcəksiniz**?"

Xanım başını bulayıb cavab verir: “Yəqin ki, heç zaman. Çünki mən sirk və kazino salonlarında oxumağa adət etməmişəm. Sizin bu gözəl, **zəngin** Bakıda münasib bir opera binası yoxdur ki, müğənni istedadını, məharətini **nümayiş etdirə** bilsin”.

Mayılov deyir: “Bir ildən sonra bizim şəhərə gəlin, münasib bina **hazır olacaq** və onu siz **açacaqsınız**.”

Razılaşırlar.

Hacı Zeynalabdin Tağıyev həmin **əhvalatı** eşidir. Mayılova rast gələndə söhbət əsnasında binanın tikilməsini xəbər alır. Mayılovun cavabından sonra deyir: “ Ağlım kəsmir o boyda binanı bir ilə tikdirib **başa çatdırmaq** mümkün olsun. Mən özüm bənna, sonra da podratçı olmuşam. Çoxlu evlər tikmişəm. Hər şeyi bilirəm. Çətin işdir”.

Mayılov gülümsəyib deyir: “Hacı, gəl mərcləşək. Əgər bina bir ilə hazır olmasa, mən onu başa çatdırıb **verərəm** sənə, olar səninki, xərci məndən. Yox, əgər başa çatdırsam, çəkdiyim xərci sən **ödəyərsən**, bina **qalar** mənə”.

Razılaşırlar. Mayılov binanı bir ilin əvəzinə səkkiz aya tamamlatdırır.

Səs bayıra yayılmasın, içəridə qalsın deyə, tavana başdan-başa ikiqat **qalın** məxmər, onun üstündən də keçə döşəyiblər...

Mayılov xanəndə xanıma teleqram vurur. O da Bakıya gəlir, operanın açılışında iştirak edir və birinci mahnını oxuyur. Şəhərin varlı adamları, musiqi və teatr ustaları açılışda iştirak edirlər. Xanəndə xanım ariyanı qurtaranda başına pul yağır. Səhnə başdan-başa gül-çiçək içində idi.

Mayılov xanıma gül və çiçək əvəzinə pullardan düzəldilmiş böyük bir çələng göndərir. Bu barədə şəhərdə uzun-uzadı söhbət gedir.

**Manaf Süleymanov**

**SÖZLÜK**

| | | |
|---|---|---|
| mərcləşmək | boyunbağı | münasib |
| məharət | tavan | keçə | ahəng |

**SÖZ EHTİYATI**

ağlı kəsməmək

**1** Mətn üzrə aşağıdakı suallara cavab verin. Necə bilirsiniz, onların içərisində mətnin məzmununu əks etdirməyən suallar varmı?

1) Bakıya qastrola gəlmiş xanəndə xanım harada konsert verirdi?
2) Xanəndə xanım niyə Bakıya bir daha gəlmək istəmədiyini söyləyir?
3) Mayılov xanəndə xanıma necə bir təklif edir?
4) Tağıyev binanın bir ilə hazır olacağına niyə inanmır?
5) Mayılov Tağıyevlə nə barədə mərcləşmək istəyir?
6) Bəs nə üçün Mayılov binanı bir ilə başa çatdıra bilmir?
7) Tavana niyə məxmər və keçə döşəyirlər?
8) Binanın açılışında xanəndə xanım niyə iştirak edə bilmir?

**2** Mətndə işlənən feillərin çoxu indiki zamanda işlənib. Həmin feilləri seçib yazın. Sonra indiki zaman şəkilçilərini keçmiş zaman şəkilçiləri ilə əvəz

edib sözləri oxuyun. Zamanın necə dəyişməsi, sözlərin mənalarında yaranan dəyişiklik üzərində müşahidə aparın.

3 Mətndə işlənmiş say bildirən sözləri seçib deyin. Onlardan hansının miqdar, hansının sıra bildirdiyini izah etməyə çalışın.

4 "Təntənəli" sözünü aşağıdakılardan hansı ilə əvəz etmək olmaz?
A) dəbdəbəli B) cah-calallı C) təmtəraqlı Ç) əzəmətli

5 Mətndə böyük hərflə yazılan isimlər üzərində müşahidə aparın. Onların nə bildirdiyini və nə üçün böyük hərflə yazılmasının səbəbini izah edin.

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Münasib*** – uyğun, müvafiq, yaraşan – münasib işlər, münasib yer

Sinonimləri: əlverişli, məqbul, yararlı, layiq
***Münasib görmək*** – layiq bilmək, müvafiq hesab etmək, yaraşdırmaq.
***Münasib olmaq*** – uyğun olmaq, müvafiq gəlmək, yaraşmaq, yerində olmaq.

***Məharət*** – bir iş görməkdə ustalıq, bacarıq, qabiliyyət, hünər.

Sinonimləri: 1) bacarıq, qabiliyyət, hünər;
2) çəldlik, diribaşlıq, zirəklik, çeviklik
***Məharət(ini) göstərmək*** – qabiliyyətini, bacarığını, hünərini göstərmək.

6 Mətndə çəhrayı rəngdə verilmiş söz və ifadələri yazın. Hər birinin qarşısında yaxınmənalı qarşılıqlarını qeyd edin.

7 Mətndə altından xətt çəkilmiş feillərin tələffüzü üzərində müşahidə aparın və necə tələffüz olunması ilə bağlı mülahizələrinizi söyləyin.

**Yadda saxlayın:** İndiki zaman şəkilçilərindən sonra "-lar, -lər" gəldikdə zaman şəkilçilərindəki [r] səsi [l] kimi, yəni aşağıdakı şəkildə tələffüz olunur:

| ***Belə yazılır*** | ***Belə deyilir*** |
|---|---|
| yaz+ır+lar | [yaz+ıl+lar] |
| barış+ır+lar | [barış+ıl+lar] |
| dincəl+ir+lər | [dincəl+il+lər] |
| güləş +ir+lər | [güləş +il+lər] |
| küsüş+ür+lər | [küsüş+ül+lər] |
| gülüş+ür+lər | [gülüş+ül+lər] |
| yuyun+ur+ lar | [yuyun+ul+ lar] |
| qoru+yur+lar | [qoru+yul+lar] |

8 Mətndə göy rəngdə verilmiş sözlər üzərində müşahidə aparın. Necə bilirsiniz, bu sözlər işin başa çatdığını, davam etdiyini, yoxsa gələcəkdə olacağını bildirir? Fikirlərinizi əsaslandırın.

9 Cümlələri mətnin məzmununa uyğun tamamlayın.

1) Xanəndə xanım gah ağac və taxtadan tikilmiş "Sirk" binasında, ... . 2) Sizin bu gözəl, zəngin Bakıda münasib bir ... . 3) Qastrol başa çatanda ... . 4) O da Bakıya gəlir, ... . 5) Mayılov xanıma gül və çiçək əvəzinə ... .

10 Mətndə yaşıl rəngdə verilmiş sözlər hərəkətin hansı zamanda baş verdiyini göstərir? Həmin sözləri elə dəyişin ki, hərəkətin icrası gələcəyə aid olsun.

## BUNLARI BİLİRSİNİZMİ?

Feilin gələcək zamanı hərəkətin söhbət gedən vaxtdan sonra yerinə yetiriləcəyini və ya yetirilməyəcəyini bildirir: nə edəcək?, nə olacaq?, nə edər?, nə olar? suallarından birinə cavab verir.

Hərəkətin gələcək zamanda baş verdiyini bildirmək üçün feillərə -acaq, -əcək; -ar, -ər şəkilçilərindən biri artırılır. Məsələn: danış+acağ+am, keç+əcək+sən, yuyun+acaq, döyüş+əcəy+ik, ucal+acaq+sınız, qoru+yacaq+lar, axtar+ar+am, qur+ar+san, gözlə+yər, qaytar+ar+ıq, qalib gəl+ər+ siniz, işlə+yər+lər və s.

11 Aşağıda verilmiş sözlərin hər birindən biri feil olmaq şərti ilə sözlər düzəldib yazın. Bu sözlərin quruluşunu izah edin və aralarındakı münasibəti müəyyənləşdirin.

maraq, gözəl, bərk, söhbət, zəngin, aç(maq), razı, cavab, ev, çətin, xərc, qalın

**Nümunə:** qoru(maq) – qoruq – qoruqçu – qoruqçuluq – qorun(maq)

12 Azərbaycan Respublikasının Konstitusiyasından aşağıdakı maddəni oxuyun. Qırmızı rənglə fərqləndirilmiş birləşmələrin mənasını izah edin.

**MADDƏ 40. Mədəniyyət hüququ**

I. Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

II. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

**SÖZLÜK**

mənəvi irs

**SÖZ EHTİYATI**

təsisat

# § 16. ŞƏRQDƏ İLK OPERA YAZAN QADIN BƏSTƏKAR

Şəfiqə Axundova 1924-cü ildə Şəki şəhərində anadan olmuşdur. O, 1943-1944-cü illərdə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində oxumuş, dahi bəstəkar Üzeyir Hacıbəyovdan dərs almışdır. 1956-cı ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir.

Şəfiqə xanım tələbəlik illərindən onun üçün çox əziz olan bir hədiyyəni səliqə ilə **saxlayırdı**. Bu, sevimli müəllimi Ü.Hacıbəyovun "Cəngi" not dəftəri idi. Onun titul vərəqində bəstəkar öz xətti ilə yazmışdı: "Gənc bəstəkar, istedadlı tələbə Şəfiqəyə bir xatirədir. Ü.Hacıbəyov ".

Gənc bəstəkar hələ tələbə ikən "Layla", "Zəfər marşı", "Zəfər bizimlədir" mahnılarının, fortepiano üçün süita, simli kvartet üçün iki pyes və digər musiqi əsərlərinin müəllifi kimi tanınırdı. Bəstələdiyi mahnıları məşhur müğənnilər Şövkət Məmmədova, Bülbül və başqaları **ifa edirdilər**.

Onun "Nəğmədir həyat", "Şəki", "Vətən sevgisi", "Doğma diyarım", "Qadın əlləri", "Mehriban olaq", "Yaşa, ürəyim", "Həyat, sən nə şirinsən" və s. mahnıları çox məşhurdur. Nizaminin, Füzulinin, Vaqifin, Puşkinin, Natəvanın sözlərinə yazdığı romanslar xalq arasında geniş yayılmışdır.

Bir zaman Ş.Qurbanov adına Musiqili Komediya Teatrının afişaları tamaşaçıları Şəfiqə Axundovanın "Ev bizim, sirr bizim" musiqili komediyasına baxmağa **dəvət etdi**. Bəstəkarı musiqili komediya müəllifi kimi də **tanıdılar**.

1972-ci ildə "Gəlin qayası" operasını yazmaqla, Şəfiqə Axundova Şərqin ilk opera yazan qadın bəstəkarı kimi tarixə düşdü. Operanın Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulması Şəfiqə Axundovanın yaradıcılığında əlamətdar hadisə oldu. Bu opera neçə illərdir ki, teatrın repertuarındadır. Opera tam şəkildə vala da yazılmışdır. Bu hadisəni bəstəkar özü üçün səadət **adlandırırdı**.

Şəfiqə xanım uşaqlar üçün də bir sıra mahnılar – "Əziz müəllim", "Doğma məktəb", "Əkiz bacılar", "Zümrüd" "Pişik", "Kukla", "Bacılar" vəs. **yazmışdır**.

Bəstəkar xanım 1998-ci ildə Azərbaycan Respublikasının Xalq artisti adına **layiq görülmüş**, 2004-cü ildə isə "Şöhrət" ordeni ilə **təltif edilmişdir**.

500-dən artıq mahnının müəllifi olan bəstəkarın ürəyi ömrünün ixtiyar çağında da xalqının sevinci və kədəri ilə birgə döyünür, onu daha maraqlı əsərlər yaratmağa **ruhlandırırdı**.

26 iyul 2013-cü ildə Şəfiqə Axundova əbədi dünyasına qovuşdu.

**SÖZLÜK**

| | | |
|---|---|---|
| simli | əlamətdar | val |
| ixtiyar | ruhlandırmaq | |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| ifa etmək | təltif edilmək |
| layiq görülmək | |

1 Qruplara bölünün. Hərəniz mətn üzrə 10 sual tərtib edin. Sualların qrammatik cəhətdən düzgün tərtibinə diqqət yetirin.

2 Mətndə qara şriftlə verilmiş feilləri gələcək zamanın hər iki formasında işlədib yazın. Sonra onlardan ikisini cümlələrdə işlədin.

3 Mətndə yaşıl rəngdə verilmiş sözləri sinonimləri ilə əvəz edib cümlələri yenidən oxuyun. Həmin sözləri başqa cümlələrdə də işlədin.

4 Mətndə altından xətt çəkilmiş sözlərin əvəzinə hansı sözləri işlətmək olar? Tapdığınız sözləri cümlədə işlətməklə fikirlərinizi əsaslandırın.

5 Şərqdə ilk operanı kim yazmışdır və bu hansı operadır?
A) Müslüm Maqomayev – "Şah İsmayıl" operası
B) Üzeyir Hacıbəyov – "Leyli və Məcnun" operası
C) Üzeyir Hacıbəyov – "Koroğlu" operası
Ç) Fikrət Əmirov – "Sevil" operası

6 Azərbaycan Respublikasının Konstitusiyasından aşağıdakı maddəni oxuyun. Qırmızı rənglə fərqləndirilmiş birləşmələrin mənasını izah edin. Birinci birləşmədəki sözləri mənalı hissələrə ayırıb yazın.

**MADDƏ 51. Yaradıcılıq azadlığı**

I. Hər kəsin yaradıcılıq azadlığı vardır.

II. Dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir.

**SÖZ EHTİYATI** təminat vermək

7 Mətndə işlənmiş sıra saylarını sözlə yazın.

**Nümunə:** 1924-cü – min doqquz yüz iyirmi dördüncü

8 Mətndə çoxlu dırnaq işarəsindən ("") istifadə edilmişdir. Bunun səbəbini izah edə bilərsinizmi? Özünüzü yoxlayın.

9 Mətndə göy rəngdə verilmiş sözlərin feilin hansı zamanında olduğunu müəyyənləşdirin və onları feilin öyrəndiyiniz hər üç zamanı üzrə dəyişib yazın.

10 Mətndə işlənən sayların çoxu sıra bildirir. Necə bilirsiniz, mətndə miqdar bildirən say işlənmişdirmi? Fikrinizi əsaslandırın.

⓫ Verilmiş söz birləşmələrini tərcümə edin və bir neçəsini cümlələrdə işlədin.

gənc bəstəkar, istedadlı tələbə, zəfər marşı, musiqi əsərlərinin müəllifi, not dəftəri, fortepiano üçün süita, doğma diyar, qadın əlləri, teatrın repertuarında, maraqlı əsərlər, operanın tamaşaya qoyulması, bəstəkarın yaradıcılığı, ömrünün ixtiyar çağında

⓬ Aşağıda verilmiş laylanı oxuyun. Hərəkət bildirən sözləri tapın. Bu sözlərdə hərəkətin neçənci şəxs tərəfindən yerinə yetirildiyini müəyyən edə bilərsinizmi?

Layla dedim ağlama,
Ürəyimi dağlama,
Böyü bir qoç igid ol,
Mənə ümid bağlama.

Altından xətt çəkilmiş sözləri "-ma" şəkilçisiz oxuyun və müşahidə etdiyiniz dəyişiklik barədə fikirlərinizi söyləyin.

### TAP GÖRƏK

⓭ Tapmacaları oxuyun və cavablandırın. Feilləri tapıb zamanını müəyyənləşdirin. Sonra həmin feilləri hər üç zamanda işlədin.

1. Hay gedər, huy gedər,
Bircə qarış yol gedər.

2. Baş üstə durar,
Baxıb göz vurar.

3. O tayda durar, gedər,
Boynunu burar gedər.
Bir sürüyə girəndə
Qırxını qırar gedər.

Necə düşünürsünüz, tapmacada iki söz niyə yaşıl rəngdə verilmişdir? Bununla bağlı hər hansı fikriniz varmı?

## § 17. QARIŞQANIN SƏRGÜZƏŞTİ

Qədim zamanlarda qarışqalar heç də indiki qədər **çalışqan** deyilmişlər. Gün boyunca veyil-veyil gəzib dolaşar, ya da yatıb xor-xor xoruldayarmışlar. Arabir* **ac** qalmamaq üçün işləyərmişlər. Hələ içlərində bir qarışqa varmış ki, lap şah tənbəliymiş. Hər gün yuxudan oyanıb gözlərini açan kimi: "Ah, ah... Nə eləyim, necə eləyim ki, bu gün əlimi ağdan qaraya vurmayım, ancaq qarnımı doyuzdura bilim", - deyərmiş.

Günlərin bir günü həmin qarışqanın ağlına belə bir fikir gəlir: "Eeeh... Bu qədər dostum-tanışım var. Hər gün birinə qonaq getsəm, bundan kimə zərər dəyəcək ki?! Belə eləsəm, həm qarnımı doyuzduraram, həm də işləyib yorulmaqdan canım qurtarar".

Qarışqa ağlına necə gəlibsə, elə də eləyir. Birinci dəfə gedib arıya qonaq olur. Taq, taq, taq..., – deyə qapını döyür.

Arı: – Kimdir gələn? – deyə soruşur.

Qarışqa isə: – Aç qapını, arı qardaş. Mənəm, dostun qarışqayam. Qarnımı doyurmağa gəlmişəm, azdan-çoxdan nəyin varsa, ver yeyim, - deyə cavab verəndən sonra arı qapını açır. Qarışqanı böyük mehribanlıqla qarşılayır. Ona ən gözəl ballarından gətirib verir. Sonra da həm gözəl, həm də bacarıqlı arılarını çağırıb qonağını **şənləndirir**.

Axşam düşənə yaxın qarışqa arıya təşəkkür eləyib evinə qayıdır. Yatağına uzananda da öz-özünə: "Oxay, canım, dincəl. Nə çalışdım-vuruşdum, nə də yoruldum. Yenə də qarnımı doyuzdurdum", – deyə düşünür.

Qarışqa ertəsi gün hörümçəyin evinə qonaq getməyi qərara alır. Birbaşa hörümçəyin yaşadığı yerə gəlir. Taq, taq..., – deyə qapını döyür.

Hörümçək soruşur: – Kimdir qapımı döyən?

Qarışqa cavab verir: "Aç qapını, hörümçək qardaş. Mənəm, dostun qarışqadır. Acmışam. Bugünlük sənin yanında qarnımı doyurmaq istəyirəm".

Hörümçək də qarışqanı çox yaxşı qarşılayır. Ən gözəl yeməklərdən, ən dadlı nemətlərdən gətirir düzür onun qarşısına. Sonra da hördüyü torları gəzdirib öz **qabiliyyətini, bacarığını** ona göstərir. Axşam düşəndə də torlarını qarışqanın yuvasına qədər uzadır ki, qonağı öz evinə qayıdanda yorulmasın.

Qarışqa yuvasına dönəndən sonra yenə yatağına girib **arxası** üstə uzanır:

– Oxay, canım, dincəl. Nə çalışdım-vuruşdum, nə də yoruldum. Ancaq* yenə qarnımı doyuzdurdum.

Aradan beləcə günlər gəlib-keçdi. Qarışqanın daha qonaq gedəcəyi başqa dost-tanışı da artıq* qalmamışdı. Balaca qarışqa hey fikirləşdi. Qayğı canını almışdı. "İndi nə eləyim? Bəlkə, dostları bir də yenidən ziyarətə başlayım, görən necə olar?" – deyə düşünürdü ki, budur, "taq, taq..." evinin qapısını döydülər. Qarışqa gəlib qapını açdı. Bir də nə görsə yaxşıdır?! Bütün dostları yığışıb onun evinə qonaq gəliblər. Qarışqa çaşıb qaldı, nə edəcəyini bilmədi. Axırda utana-utana, sıxıla-sıxıla dedi:



– İnanın mənə, çox istəyərdim ki, sizləri evimdə qonaq eləyim. Amma təəssüflər olsun ki, nə oturmağa yerim, nə də yeməyə bir parça çörəyim var.

Qarışqanın onları belə qarşılamağı dostlarının qəlbinə yaman* toxundu. Ondan **küsdülər** və bir daha qarışqaya kömək göstərməməyi qərara aldılar.

Qarışqa həm dostlarını küsdürdüyü üçün peşman oldu, həm də tənbəlliyinə görə xəcalət çəkdi. Bax o gündən qarışqalar tənbəlliyin daşını atıblar və dayanmadan çalışmağa adət eləyiblər.

Türkcədən çevirəni: **Mehman Musaoğlu**

**SÖZLÜK**

| | |
|---|---|
| veyil-veyil | arabir |
| tor | təəssüf |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| sərgüzəşt | zərər dəymək |
| ziyarətə başlamaq | qəlbinə toxunmaq |
| qayğı canını almaq | |

1 Parta yoldaşınızla birlikdə mətn üzrə ən azı beş sual tərtib edin. Sualların dilin normaları baxımından düzgünlüyünə diqqət yetirin.

2 Mətn üzrə tərtib edilmiş planı nəzərdən keçirin. Necə düşünürsünüz, bu ardıcıllıq mətnin məzmununa uyğundurmu? Burada mətnin məzmunu ilə səsləşməyən maddə varmı? Fikirlərinizi əsaslandırın və düzgün ardıcıllığı bərpa edin.

1) Qarışqanın çaşıb qalması.
2) Bütün dostların yığışıb qarışqanın evinə qonaq gəlməsi.
3) Hörümçəyin qarışqanı qarşılaması.
4) Qarışqanın arıya qonaq getməsi.
5) Qarışqaların tənbəlliyi.
6) Dostların qarışqadan küsməsi və qarışqanın peşmanlığı.
7) Qarışqanın cırcırama ilə dostluğu.

3 Əmək, zəhmət mövzusunda bildiyiniz atalar sözlərini söyləyin.

4 Mətndə göy rəngdə verilmiş sözlərin antonimlərini cümlələrdə işlədin.

5 Mətndə çəhrayı rəngdə verilmiş sözlərin bir-birinə münasibətini müəyyənləşdirin.

A) sinonimdir B) omonimdir C) antonimdir Ç) qohum sözlərdir

6 Aşağıdakı sözlərdən ən azı biri feil olmaqla, eyniköklü sözlər düzəldib yazın. Düzəltdiyiniz feilləri gələcək zamanın hər iki növündə işlədin.

dinc, dad, yat(maq), iş, ağıl, dost, qonaq, mehriban, şən, yaxşı, küs(mək)

7 Aşağıdakı sözləri işlətməklə söz birləşmələri düzəldib yazın və tərcümə edin. Bir neçəsini cümlədə işlədin.

dinc, dad, yat(maq), iş, tənbəl, ağıl, dost, qonaq, mehriban, şən, yaxşı

**HİKMƏT XƏZİNƏSİNDƏN**

*Çətinlik görməsə, dünyada heç kəs,*
*Xoş keçən günlərin qədrini bilməz.* ***Sədi Şirazi***

8 Mətndə yaşıl rəngdə verilmiş söz və ifadələrin əvəzinə hansı sözləri işlətmək olar? Cümlələri tapdığınız sözlərlə yenidən oxuyun və hər iki variantı müqayisə edin. Fikrinizi söyləyin: cümlələrin məzmununda fərq müşahidə etdinizmi?

9 Üzərində ulduz işarəsi qoyulmuş sözləri mətnə uyğun mənada cümlələrdə işlədin. Sonra onların sinonimlərini tapıb onları da cümlələrdə işlədin.

10 Mətndə altından xətt çəkilmiş feilləri zamanlar üzrə qruplaşdırıb ayrı-ayrı sütunlarda yazın və zaman şəkilçilərinin altından xətt çəkin. Tədris dilindəki biliklərinizə əsasən həmin feillərdə işin kim tərəfindən (neçənci şəxs) icra olunduğu barədə fikrinizi bildirin.

**BUNLARI BİLİRSİNİZMİ?**

Hərəkətin hansı şəxs tərəfindən yerinə yetirildiyini bildirmək üçün feillərə müxtəlif şəkilçilər artırılır ki, bunlar şəxs şəkilçiləri adlanır. Şəxs şəkilçiləri zaman şəkilçilərindən sonra gəlir. Məsələn:

Keçmiş zamanda: acmış+am, acdı+m, acmış+san, acdı+n, acmış+dır, acdı, acmış+ıq, acdı+q, acmış+sınız, acdı+nız, acmış+lar, acdı+lar;

İndiki zamanda: uzanır+am, uzanır+san, uzanır, uzanır+ıq, uzanır+sınız, uzanır+lar;

Gələcək zamanda: gətirər+əm, gətirəcəy+əm, gətirər+sən, gətirəcək+sən, gətirər, gətirəcək, gətirər+ik, gətirəcəy+ik, gətirər+ siniz, gətirəcək+ siniz, gətirər+ lər, gətirəcək+lər və s.

11 Aşağıdakı cümlələri mətnin məzmunu əsasında tamamlayın və tərcümə edin.

1) Qarışqanın onları belə qarşılamağı ... .
2) Ondan küsdülər və bir daha ... .
3) Qarışqa həm dostlarını küsdürdüyü üçün ... .
4) Qarışqanın daha qonaq gedəcəyi... .

## § 18. CIRCIRAMA VƏ QARIŞQA

Cırcırama yay, bahar
Nəğmə oxur biqərar!.
Hər çiçəyin* yarpağı*
Olmuş idi oylağı*.
Kefə alışmış idi,
Başı qarışmış idi.
Tutdu xəbər bir zaman

Qış yetişib, ay aman!
Yayı keçirmiş hədər,
Yox daha güldən əsər.
Hər yeri çovğun alıb,
Gül-çiçək, hər yan solub.
Qaldı o biçarə ac,
Susdu daha naəlac.

Qarışqaya o zaman
Yalvarıb dedi: – Aman,
Qonşucuğaz, yazadək
Bəslə məni, ver yemək,
**Acından ölürəm** mən.
Dedi qarışqa: – Sənin
Yayda nə idi işin?

– Güllər arasında mən
Eyləmiş idim vətən.
– Neyləyirdin yayda sən?
– Nəğmə oxurdum da mən.
– Yayda oxurdun, demək,
İndi də bəs oyna, bəy!

**İvan Krılov**
**Tərcümə edən: Abdulla Şaiq**

| SÖZLÜK | |
|---|---|
| əsər | acqarına |

| SÖZ EHTİYATI | | |
|---|---|---|
| biqərar | kefə alışmaq | naəlac |

1 Şeirin məzmunu üzrə suallara cavab verin.
1) Cırcırama niyə ac qalmışdı, onun başı nəyə qarışmışdı?
2) Cırcırama qışın gəlməsini nədən başa düşdü?
3) Cırcırama qarışqaya niyə yalvardı, o, qarışqadan nə istəyirdi?
4) Qarışqanın sualına cırcırama necə cavab verdi?
5) Qarışqa cırcıramaya niyə kömək etmək istəmədi?

2 Atalar sözlərini oxuyun və yadda saxlayın. Onların içərisində mətnin məzmununa uyğun olmayan varmı?

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

1) Qonşuya ümid olan şamsız qalar. 2) Yayda çəkən zəhməti, qışda görər ləzzəti. 3) Keçəl baxar güzgüyə, adın qoyar özgəyə. 4) Vaxtı itirsən hədər, görərsən böyük zərər.

Sonuncu atalar sözünü feilləri birinci şəxsin cəmində işlətməklə yenidən oxuyun. Bu fikirlə razılaşırsınızmı? Bu mövzuda debat təşkil edin.

3 Şeirdə nədən bəhs olunur? Şeirdən çıxardığınız nəticə barədə danışın.

4 Şeirdə cırcırama niyə məhz qarışqaya müraciət edir? Burada şairin məqsədi nədir? Fikirlərinizi açıqlayın.

5 Deyə bilərsinizmi, qarışqa və cırcırama kimləri (hansı insanları) təmsil edir?

6 Altından xətt çəkilmiş sözlərin başqa hansı mənalarda işləndiyini deyə bilərsinizmi? Fikrinizi əsaslandırmaq üçün bu sözləri cümlə içərisində digər mənalarda da işlədin. Belə sözlərə aid özünüzdən əlavə misallar söyləyin.

7 Şeirdə göy rəngdə verilmiş feilin zamanını və şəxsini müəyyənləşdirin. Sonra onu həmin zamanda müxtəlif şəxslər üzrə dəyişib yazın və mənasını izah edin.

8 Şeirdə üzərində ulduz işarəsi qoyulmuş sözləri ismin adlıq halında yazın və cümlələrdə işlədin.

9 Aşağıdakı cümlələrdə rənglərlə fərqləndirilmiş sözlərin yazılışında baş vermiş dəyişikliklərə diqqət yetirin və səbəbini izah edin.

Qarışqa **hörümçəyin** yaşadığı yerə gəlir. Ondan yemək istəyir. **Hörümçək** qarışqanı çox yaxşı qarşılayır. Ən gözəl yeməklərdən onun qarşısına düzür. Qarışqa yeməyini yeyəndən sonra **hörümçəyə** təşəkkür eləyib evinə qayıdır.

Cümlələrin sonunda işlənmiş feilləri elə dəyişin ki, onlar birinci şəxsi bildirsin. Sonra cümlələrdəki artıq sözləri atıb, onları birinci şəxsə uyğun yenidən qurun və səsləndirin.

10 Şeirdə işlənmiş əvəzlikləri seçin və nə bildirdiyini izah edin.

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Alışmaq¹*** – Odlanmaq, alovlanmaq, od tutub yanmaq: Ocaq alışdı.

***Alışmaq²*** –1) Öyrəşmək, vərdiş etmək, adət etmək: Çətinliyə alışdım; 2) Dadanmaq, öyrənmək; 3) Əhliləşmək, ələ öyrənmək, isinişmək.

***Bəsləmək*** – 1) Tərbiyə edib böyütmək, boya-başa çatdırmaq – Vətənə layiqli övladlar bəsləmək; Yetişdirmək, becərmək–körpə quzuları bəsləmək. 2) Qidalandırmaq, yedirmək, yedirib-içirtmək, yedirib-kökəltmək – qidalı yeməklərlə bəslənmək; 3) Duymaq, hiss etmək, ürəyində saxlamaq – məhəbbət bəsləmək; 4) Məcazi mənada – qorumaq, saxlamaq.

## TAP GÖRƏK

11 Tapmacaları oxuyun və cavablandırın. Tapmacada işlənmiş feillərin zamanını və şəxsini müəyyənləşdirin.

1.Qoyun deyil, otlayır,
Toyuq deyil, yumurtlayır. ✉

2. Bir tabaq qara üzüm,
Bir-bir yollara düzüm. ✉

3. Yazda yığır yeməyini,
Çox sevir öz əməyini,
Yeyib yatar baharadək,
Nədir adı, tapın görək.
✉

12 Aşağıdakı mətndə yaşıl boşluqların yerinə mötərizədəki sözlərdən uyğun gələnini əlavə edib cümlələri oxuyun.

Savalan Azərbaycanda ən ____ zirvədir (alçaq, yüksək, əzəmətli). O, dəniz səviyyəsindən ____ 4850 metr yüksəklikdədir (təxminən, deyəsən, dəqiq). Belə deyirlər ki, kim onun təzə qarından ____, yüz il yaşayar (dadsa, yesə, götürsə).

Savalan dörd tərəfdən 100 kilometrlərlə ____ (ərazidə, sahədə) yerləşən neçə-neçə kəndləri və şəhərləri öz suyu və saf havası ilə ____ döndərir (cənnətə, zibilliyə, meşəliyə). Onun ____ il uzunu yüzlərlə bulaq və kəhrizi büllur kimi saf su ilə təmin edir (suyu, buzu, qarı). Yamaclarında saysız-hesabsız qoz, ərik, alma, armud, gilas ____ və meşələri var ( ağacları,bağları, kolları).

## § 19. AQİLİN HƏDİYYƏSİ

Gülsüm xala bir tabaq xəmir yoğurmuşdu. O, lavaş yapmaq* istəyirdi. Ancaq kündələri yaymaq* üçün nə oxlov, nə də yuxayayan vardı. O, təndiri qalayıb, bayıra **çıxdı**. Qonşunun çəpərinə yaxınlaşıb həyətə **boylandı**. Aqili səslədi:

– Aqil, oğlum, orada nə **iş görürsən**?

– ____ qurumuş budaqlarını* **doğrayıram**. Necə bəyəm?

– Anan hardadır?

– Evdədir.

– **Zəhmət olmasa**, yuxayayanla oxlovu anandan* al, mənə gətir.

– Bu saat, – deyə Aqil bıçqını çinarın haçasına qoyub evə **qaçdı**.

Şeyləri Gülsüm xalaya verəndə nə isə soruşmaq, demək istədi. Lakin dinmədi. Gülsüm xalanın dalınca baxıb **fikrə getdi**.

İki gündən* sonra Gülsüm xala yuxayayanı və oxlovu götürüb ____ getdi.

– **Çox sağ ol**, ay qonşu. Bunlar* yaxşıca dadıma çatdı.

– **Dəyməz**, ay Gülsüm bacı. Bir burda dur, görüm, – deyə Aqilin anası tələsik mətbəxə girdi.

Mətbəxdən çıxanda onun ____ ağappaq hamar taxtadan hazırlanmış yuxayayan və bir oxlov vardı. O, gətirdiklərini Gülsüm xalaya verərək dedi:

– Götür bunları. Qoy səninki də olsun.

– Yaman gün görməyəsən, ay qonşu! **Bu nə zəhmətdir çəkirsən**? Yəqin, bazardan **almısan**, eləmi? Bəs qiyməti neçədir?

Aqilin anası gülümsəyərək dedi:

– **Eh, səni sağ olasan!** Nə bazar, nə qiymət! Bunları Aqil özü **düzəldib**, məktəb emalatxanasında. Məndən **xahiş etdi** ki, sənə verim. Apar, **sağlıqla işlədəsən**.

– Böyük oğlan olsun! Boya-başa çatsın! Necə də gözəl düzəldib!.. Əlləri lap qızıldır, – deyə Gülsüm xala yuxayayanı və oxlovu bir də gözdən keçirdi. O, **gözlərinə inanmır**, öz-özünə deyirdi: “Doğrudanmı, bunları Aqil düzəldib?”

**İsa Hümmətov**

| SÖZLÜK | |
|---|---|
| yapmaq | kündələr |
| yuxayayan | bıçqı |

| SÖZ EHTİYATI | |
|---|---|
| sağlıqla işlədəsən | tabaq |
| gözlərinə inanmamaq | |

1 Aşağıdakı planla tanış olun. Bu plan mətnin məzmununu əhatə edirmi? Planda hər hansı dəyişiklik etmək istərdinizmi? Fikirlərinizi əsaslandırın.

1) Gülsüm xalanın Aqili səsləməsi.
2) Aqilin fikrə getməsi.
3) Gülsüm xalanın qonşuya təşəkkür etməsi.
4) Aqilin hədiyyəsi.
5) Gülsüm xalanın alqışı.

2 Mətnin məzmununa aid olmayan sualları səsləndirin.

1) Gülsüm xala nə üçün qonşunun həyətinə boylandı?
2) Gülsüm xala nə üçün Aqilə hirslənmişdi?
3) İki gündən sonra Gülsüm xala nə məqsədlə qonşuya getdi?
4) Aqil dostları ilə nə barədə söhbət edirdi?
5) Gülsüm xala Aqilin hədiyyəsini niyə qəbul etmədi?
6) Gülsüm xala niyə gözlərinə inanmırdı?

3 Mətndəki narıncı boşluqların yerinə lazım olan sözləri qoyub cümlələri oxuyun. Sonra onları tərcümə edin.

4 Mətndə çəhrayı rəngdə verilmiş ifadələr barədə nə deyə bilərsiniz? Nitqinizdə belə ifadələrdən yerli-yerində istifadə edirsinizmi? Özünüzdən belə misallar deyin.

5 Mətndə bir neçə cümlənin altından xətt çəkilib. Bu cümlələrdə ifadə olunmuş fikirlər necə adlanır? Siz artıq bunların nə olduğunu bilirsiniz. Nümunələr deyə bilərsinizmi?

6 "Həyətə, evə, qonşuya" sözləri ismin hansı halında işlənmişdir?

A) təsirlik B) çıxışlıq C) yerlik Ç) yönlük

7 Mətndə yaşıl rəngdə verilmiş sözləri sinonim qarşılıqları ilə əvəz edib cümlələri yenidən oxuyun.

8 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözləri köçürün, qarşılarında düzgün tələffüzünü qeyd edin.

9 Mətndə göy rəngdə verilmiş feillərin zamanını və şəxsini müəyyənləşdirin.

HİKMƏT XƏZİNƏSİNDƏN

*Böyüklük mərifət və bilikdədir, haralı və kimlərdən olmaqda deyildir.*
***Qabusnamə***

*Əvvəlcə "nə deyim?" haqqında fikirləşmək, sonradan "niyə dedim?" peşmançılığından yaxşıdır.* ***Sədi Şirazi***

**10** Alqışları oxuyun və öyrənin. Uyğun situasiyada onlardan istifadə etməyə çalışın. Fərqləndirilmiş sözlərin və ifadələrin mənasını izah edin.

1) Canın sağ olsun!
2) Əziz olasan!
3) Əlin var olsun!
4) Dilin gödək olmasın!
5) Evin abad olsun!
6) Ev-eşik sahibi olasan!
7) El gözündə uca olasan!
8) Əliaşağı olmayasan!
9) Əməyinin bəhrəsini görəsən!
10) Əzab-əziyyət görməyəsən!
11) Dost-düşmən yanında başın aşağı olmasın!

**11** Mətndə yaşıl rəngdə verilmiş sözlərdən biri işin icra edilmədiyini bildirir. Həmin sözü tapıb deyin.

### TAP GÖRƏK

**12** Tapmacanın cavabını tapın. Feillərin hansı zamanda işləndiyini deyin.

Uzun qız oba gəzər,
[Xəmirnən] özün bəzər. ✉

### KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Ötmək*¹** – 1. Keçmək, keçib getmək, gəlib keçmək – Yoldan ötmək. Kənddən ötmək // Uçub getmək, uçaraq keçmək – quşlar ... ötdü; 2. Hərəkətdə, yerişdə, qaçışda qabaqlamaq, irəli getmək, ötüb keçmək, geridə buraxmaq – Yük maşınını ötmək. Yarışda ötmək. // məcazi mənada: Bir şeydə o birilərinə görə daha çox müvəffəq olmaq, daha çox nailiyyət əldə etmək – Dərsdə yoldaşlarını ötmək; 3. Keçmək, aşmaq, sovuşmaq, qurtarmaq (saat, mövsüm, zaman, yaş haqqında). Saat ikini ötdü. Yaşı əllini ötüb. İsti günlər ötdü. – Qış ötdü.

***Ötmək*²** – Oxumaq, cəh-cəh vurmaq, civildəşmək – Səhər-səhər quşlar ötürdü.

## § 20. QOCA TRAMVAYÇI

Bu əhvalatdan bir həftə keçmişdi. Bir səhər* yenə Sahab yuxudan oyanan kimi yatağından qalxıb təzə* kostyumunu geydi. Bu dəfə özü ilə əsa da götürdü. Evdən çıxanda bazardan qayıdan arvadı ilə rastlaşdı. Gülgəz əvvəlcə gözlərinə inanmadı.

– A kişi, sənsən? – deyə heyrətlə  soruşdu.

– Mən olmamış, kim olacaq?

O ötüb keçmək istədi. Arvadı qolundan yapışdı.

– Kişi, bir dayan görüm. – Ərini başdan-ayağa süzdü. – Yenə hara belə? Xeyir ola?

– Xeyirdir, arvad, xeyirdir. Gedirəm, bir tramvaya **min**im. Görüm indi necədir? Deyirlər ki, o, yuxarı mikrorayonda hələ də işləyir.

Gülgəz  sinə dolusu yanıqlı ah çəkdi:

– A kişi, vallah, səndən qəribə işlər çıxır...

Sahab söhbətin uzanmaması üçün əsasını yerə döyəcləyərək yola düzəldi. Dərədəki* zeytun cəngəlliklərini ötüb yola çıxdı. Taksiyə oturub, dedi:

– Məni tramvay yoluna apar. Dayanacaqda saxla.

Sahab dayanacaqda maşından ________ gözlərini uzanan relslərə zillədi.

... Bir azdan ağacların dalından tramvay özü də göründü. Əvvəlki zəng səsləri, çarxların xırçıltısı... Tramvay düz onun qabağında dayandı. ________ Sahab dəstəkdən yapışıb, çox çətinliklə yuxarı* qalxdı. İçəridə* cəmi beş-altı sərnişin vardı. Ancaq keçib **oturmadı**. Elə oradaca, tamburda sürücünün yanında durdu.  Gözləri alacalandı və nəzərləri həsrətlə sürücünün əllərinə zillənib qaldı. Nə qədər belə qaldığını özü də bilmədi. Bayaqdan bəri zümzümə edən qara* bığlı gənc sürücü qocanın tamburda durduğunu görüb:

– Əmican, dedi, – boş* yer çoxdur, keçin ________ .

– Yerim yaxşıdır, bala. Burada durmuşam ki, görüm, tramvayın necə gedir.

Sürücü oğlan təəccüblə qanrılıb ona baxdı və gülümsədi:

– Tramvaydır da, gedir.

Sahab oğlanın səsindəki istehzanı duyub köksünü ötürdü.

– Gülmə, oğul, – dedi, – bu tramvayı Bakıda birinci mən sürmüşəm.

Qocanın sözlərindən mütəəssir olan sürücünün **sifət**i mehriban  bir ifadə aldı. Gözlərini relslərdən çəkməyən Sahab haçandan-haçana dilləndi:

– Bəs, oğul, sən niyə burada işləyirsən?

– Bəs harada işləyim, əmican?

– Sən də gedib başqaları kimi trolleybusda, metroda işləsənə.

Sürücü başını bulayaraq gülümsədi. Başqa vaxtda olsaydı, o belə sualdan **inci**yə də bilərdi.

– Bəs burada kim işləsin ? Tramvayı da bir adam sürməlidir, ya yox?

Sahab başı ilə onun sözlərini təsdiq etdi:

– Onu da **düz** deyirsən, bala! – dedi.

Tramvay çox sürətlə* irəli* şütüyürdü...

Sürücü qanrılıb, qocaya bir də baxanda onun gözlərini ________ gördü. Ancaq **başa düşmədi** ki, bu nə göz yaşlarıdır...

**Qılman İlkin**

**SÖZLÜK**

| | |
|---|---|
| sinədolusu | qanrılmaq |
| yanıqlı | istehza |
| cəngəllik | şütümək |
| çarxların xırçıltısı | tambur |

**SÖZ EHTİYATI**

köks ötürmək
mütəəssir olmaq
gözləri alacalanmaq

1 Qruplara bölünün və mətnin məzmunu üzrə on sual tərtib edin. Sonra sualların ədəbi dilin normaları baxımından düzgün tərtibi üzrə qiymətləndirmə aparın. Düzgün qurulmayan suallardakı səhvləri əsaslandırmağa çalışın.

2 Mətndə altından xətt çəkilmiş cümlələrdəki ifadələri müəyyənləşdirin və kontekstə uyğun mənalarını izah edin.

3 Mətndə çəhrayı rəngdə verilmiş sözlər üzərində müşahidə aparın və onların eyni rənglə fərqləndirilməsinin səbəbini izah edin. Fikrinizi əsaslandırmaq üçün həmin sözləri cümlələrdə başqa mənalarda işlədin.

4 Mətndəki yaşıl boşluqların yerinə uyğun gələn sözləri qoyub cümlələri oxuyun və tərcümə edin.

5 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərə əksmənalı sözlər tapıb deyin və həmin sözləri söz birləşmələrində işlədin.

6 Mətndə yaşıl rəngdə verilmiş sözlərin əvəzinə aşağıdakılardan hansını işlətmək olar? Fikirlərinizi əsaslandırın.

qarşılaşmaq, qorxutmaq, tutmaq, saxlamaq, vurmaq, toxundurmaq, keçmək, adlamaq, aşmaq, gözləri, baxışları, dayanmaq, söykənmək, təki, digər, zaman, gün

7 Mətndə göy rəngdə verilmiş feillər üzərində müşahidə aparın. Sonra feillərdəki "-ma, -mə" şəkilçilərini ataraq onları səsləndirin. Necə fikirləşirsiniz, bu feillərdə işin görülmədiyini nədən bilmək olar?

**BUNLARI BİLİRSİNİZMİ?**

Azərbaycan dilində feillər təsdiqdə və inkarda işlədilir: inandı (təsdiq)-inanmadı (inkar).

Hərəkətin yerinə yetirilmədiyini bildirmək üçün feillərə –ma, –mə şəkilçiləri artırılır. Bu şəkilçilər inkar şəkilçiləri adlandırılır. İnkar şəkilçiləri zaman və forma şəkilçilərindən əvvəl gəlir. Məsələn: öyrən+dim – öyrən+mə+dim, öyrən+mə+mişəm, təmizlə+din–təmizlə+mə+din; süz+ür– süz+m+ür; sür+əcək – sür+mə+yəcək, soruş+acaqsınız - soruş+ma+yacaqsınız və s.

8 Yanıltmacı oxuyun və altından xətt çəkilmiş feillərin zamanını deyin.

Dəmirçi Dadaş dayı, dədəm deyir ki, dəmiri daşa, daşı dəmirə döyməsin. Dəmiri daşa, daşı dəmirə döysə, dəmir deşilər.

Yanıltmacda işlənmiş feillərdən birində işin görülmədiyi anlaşılır. Həmin feili səsləndirin.

9 Cümlələri mətnin məzmunu əsasında genişləndirin.

1) Bir səhər yenə Sahab kostyumunu geydi. 2. Evdən çıxanda arvadı ilə rastlaşdı. 3) Sahab köksünü ötürdü. 4) Sahab yuxarı qalxdı. 5) Elə oradaca durdu. 6) Sürücünün sifəti mehriban bir ifadə aldı. 7) Sürücü onun gözlərini yaşlı gördü.

10 "Şərəfli əmək" ifadəsinin mənasını izah edin və bu mövzuda debat təşkil edin. Sonra fikirlərinizi esse formasında ifadə edin.

11 Nizaminin hikmətli sözlərini oxuyun və nəticə çıxarın.

### HİKMƏT XƏZİNƏSİNDƏN

*Keçənlər zəhmətlə əkdiyi bağdan*
*Gələnlər meyvəni dərmiş hər zaman.*
*Köçənlər bir çox şey əkmişlər bizə,*
*Biz də əkməliyik gənc nəslimizə.* ***Nizami Gəncəvi***

### TAP GÖRƏK

12 Tapmacaları oxuyun. Onların cavabını bildirən sözləri mətnin birinci və sonuncu abzasında tapıb səsləndirin.

1. Əvvəl meşədə idi,
Bircə peşədə idi.
İndi yaraq olubdu,
Babama dayaq olubdu.

2. Evləri yanaşı iki qardaşım var,
Hər şeyi görürlər,
Bir-birini görmürlər.

2-ci tapmacada işlənmiş feillər üzərində müşahidə aparın. Bu feillər bir-birindən nə ilə fərqlənir?

### KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Süzmək*** – 1) Mayeni qatışıqdan, xıltdan və s.-dən təmizləmək, saflaşdırmaq üçün süzgəcdən keçirmək - Südü süzmək. // Suyunu çıxarmaq, sudan ayırmaq. Düyünü süzmək. Qatığı süzmək; 2) Tökmək (ancaq içməli şeylər, xüsusən çay haqqında). – çay süzmək; 3) Yarıqapalı gözlərlə baxıb nəzərdən keçirmək – Başdan-ayağa süzmək; 4) Qanad çalmadan sakit-sakit, səssiz uçmaq – Qartal havada süzürdü. 5) Məcazi mənada: Oynamaq, rəqs etmək. – Toyda çox gözəl süzdün.

# § 21. PUL TAPMIŞDIM

### *1-ci hissə*

Başıaşağı məktəbə gedirdim. Bağça-bağa **yaxınlaşmışdım** ki, gördüm ayağımın altında bir şey işıldayır. Əyilib baxanda bir abbasılığı gördüm və götürdüm. Xəyalıma gəldi ki, bu kiminsə cibindən düşüb. Sağıma-soluma baxdım, gəlib-gedən görmədim. Pulu cibimə qoyub sevincək məktəbə **yollandım**.

Dərsə getdim. Sinifdə bir neçə dəfə abbasını cibimdən çıxardıb baxdım, yenə cibimə qoydum. Tələsirdim ki, dərsdən sonra evə gəlim. Pul tapmağımı anama danışım. Doğrudur, anam hər gün mənə üç, ya beş qəpik yol pulu, su pulu verirdi. Amma birdən iyirmi qəpik vermirdi. Evə gələn kimi pulu anama göstərdim:



– O nədir?

– İyirmi qəpik!

– Hardan almısan?

– Tapmışam!

Anam pulu alıb baxdı, təkrar mənə qaytardı və soruşdu:

– Hardan tapmısan?

– Küçədən.

– Düzünü de!

– Vallah küçədən.

– Adam çox idi sən tapanda?

– Yox!

– Kiminsə yırtıq cibindən düşüb. Gərək sahibinə verəsən.

– Kimdi sahibi?

– Soruşsan, tapardın.

– Kimi tapacaqsan?

– Özgənin pulunu evə gətirərsən, ev dağılar! Haram pul kibrit kimi şeydir. Düşdüyü yeri **yandırar**. Anam diqqətlə mənim üzümə baxdı, abbasılığa işarə ilə təkid etdi: – Haram pul ev dağıdar, aparıb sahibinə ________ .

Anamın sözləri məni çətin vəziyyətdə qoymuşdu: Sahibini necə tapım?

Gəlib-gedən yox idi. Pul göydən düşməyib. Hansı yazığın cibindən düşüb, onu götürüb **xərcləmək** olar? Tap, sahibinə qaytar, bala! Bizə haram yapışmaz, atan bilsə, qiyamət qopardar!

Dərsdən qayıdanda necə **sevinirdim**! İndi anamın sözlərini eşidəndə məni dəhşət götürdü. “Haram pul ev dağıdar”. İndi mən pul tapan, sevinən adam yox, bir xəyanət işləmiş müqəssirə oxşayırdım. “Bu nə iş idi düşdüm, İlahi!”

Bəlkə, bu abbasını aparıb tapdığım küçəyə atım! Nə isə, pulu gətirib anama verdim: – Götür, nə eləyirsən, elə!

Anam əlini pula vurmadı. Siçan ölüsünü götürən kimi, maşa ilə götürüb evin aşağı başında külqabının içinə qoydu: – Qoy orda qalsın, atan gələndə görək nə deyər.

Bu söz mənə daha da ağır idi. Bilirdim ki, atam sorğu-suala tutacaqdır. Bəlkə də, bərk **danlayacaqdır**. "Atama demə, özün neyləyirsən elə!" – demək istədim. Cürətim çatmadı. Bilirdim ki, anam heç nəyi ondan gizlətməz. Bəlkə də, mənim belə bir xahiş elədiyimi də ona deyər, kişi mənə daha da **hirslənər**.

**Mir Cəlal**

**SÖZLÜK**

| | |
|---|---|
| yırtıq | haram |
| müqəssir | maşa |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| dəhşət götürdü | xəyalına gəlmək |
| cürəti çatmaq | xəyanət işləmək |

1 Aşağıdakı cümlələri oxuyun. Necə bilirsiniz, buradakı sıralama mətndəki hadisələrin ardıcıllığını əks etdirə bilirmi? Fikrinizi əsaslandırın və mətnin məzmununu düzgün ardıcıllıqla danışmağa çalışın.

1) Anam əlini pula vurmadı.
2) Haram pul kibrit kimi şeydir.
3) Pulu cibimə qoyub sevincək məktəbə yollandım.
4) Bizə haram yapışmaz, atan bilsə, qiyamət qopardar!
5) "Bu nə iş idi düşdüm, İlahi!"
6) Bilirdim ki, anam heç nəyi ondan gizlətməz.
7) Tələsirdim ki, dərsdən sonra evə gəlim.

2 Sizcə, oğlan pulu tapanda necə hərəkət etməli idi? Bəs siz necə hərəkət edərdiniz? Müzakirəyə qoşulun və fikirlərinizi yoldaşlarınızla bölüşün.

3 Aşağıda verilmiş atalar sözlərini oxuyun. Necə düşünürsünüz, onların hamısının mətnin məzmunu ilə səsləşdiyini söyləmək olarmı? Fikrinizi bildirin.

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

1) Zərərin yarısından da qayıtmaq xeyirlidir. 2) Haram mal bərəkət tutmaz. 3) Haramın binası olmaz. 4) Kasıb pul tapdı, qoymağa yer tapmadı. 5) Pul olmayan yerdə qəpik də puldur. 6) Əmanətə xəyanət olmaz. 7) Pul əl çirkidir.

4 Zaman və şəxs şəkilçilərini artırmaqla cümlələri oxuyun.

1) Bu qədər şeyi mən apara bilm.. , – dedi. 2) – A bala, dəymə, hamısı sənə lazım ol.. , uzaq yol ged.. . Gəmidə yeməli şeyləri yeyəndən sonra lap

yüngülləş.. . 3) Bu qədər zəhmət çəkib var-dövlət yığ.. . İndi qocal.. , gözlərimə tor gəlib, yeri əməlli görmür.. , bu gün, sabah ölə.. , oğlum Fərəməz dövlətimi zay ed.. . Mənim qoca yoldaşlığıma hörmət eləy.. . Ticarət səfərinə gedəndə oğlumu özünüzlə apar.. , gözü açıl.. .

5 Cümlələri yazın və şəxs şəkilçilərinin altından xətt çəkin.

1) Tələsirdim ki, dərsdən sonra evə tez gəlim. 2) Pul tapmağımı anama danışım. 3) Gərək pulu sahibinə verəsən. 4) Özgənin pulunu evə gətirərsən, ev dağılar. 5) Sahibini necə tapım? 6) İndi mən pul tapan, sevinən adam yox, bir xəyanət işləmiş müqəssirə oxşayırdım. 7) Qoy orda qalsın, atan gələndə görək nə deyər.

6 Mətndə təsvir edilmiş uşağın sevincinin səbəbi nə idi?

A) Başqasının pulunu götürməyi.
B) Birdən-birə iyirmi qəpik pul tapması.
C) Tapdığı pulu evə gətirib anasına verməsi.
D) Cibində həmişəkindən çox pulun olması.

7 Pul tapan uşağın peşman olmasına hansı fikirlər təsir etdi? Həmin fikirləri mətndən seçib səsləndirin.

8 Mətndəki sarı boşluğa hansı feili yazmaq olmaz?

A) ver B) at C) çatdır Ç) qaytar

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Oxşamaq¹*** – Bənzəmək – Ülkər bacısına oxşayır;

***Oxşamaq²*** – 1) Nəvaziş etmək, öz sevgisini ifadə etmək; nazlamaq – Ana körpəsini oxşamağa başladı. // Nəvaziş, sevgi, əlaməti olaraq əli ilə sığallamaq, əlini sürtmək – saçlarını oxşamaq. 2. Məcazi mənada – ləzzət vermək, ruhunu oxşamaq – Ruhumu oxşayır dağlar küləyi.

9 Mətndə yaşıl rəngdə verilmiş feilləri oxuyun, onların neçənci şəxsdə işləndiyini qarşısında yazın.

10 Mətndə göy rəngdə verilmiş feillərin içərisindən kökü isim olanları seçin və hansı şəkilçilərlə düzəldiyini deyin.

11 Mətndən seçilmiş aşağıdakı feilləri şəxslər üzrə dəyişin.

gizlə (mək), sevin (mək), danla (maq), tap (maq), eşit (mək), hirslən (mək)

**"Eşit"** feilində sözün sonundakı "t" samitinin saitlə başlanan şəkilçi artırıldıqda "d" samiti ilə əvəz olunmasına fikir verin.

⑫ Mətnin sonuncu iki abzasında işlənmiş feillərin zamanını müəyyənləşdirin. Sonra onların içərisindən inkarda işlənənləri seçib səsləndirin.

⑬ Qırmızı rəngdə verilmiş sözləri sinonimləri ilə əvəz edərək lətifəni oxuyun və feillərin şəxsini müəyyənləşdirin.

### YANDIRIB ALMIŞAM

Molla bir gün oğlunu bazara göndərir ki, kibrit alıb gətirsin. Oğlu kibriti alıb gətirir. Molla soruşur: – Hanı? Aldınmı?

Oğlu deyir: – Bəli, almışam.

Molla soruşur: – Yaxşı, yaş deyillər ki?

Oğlu deyir: – Xeyr. Lap yaxşı yanırlar.

Molla: – Nədən bilirsən ki, yaxşı yanırlar?

Oğlu: – Çünki alanda hamısını qabaqca yandırıb, baxıb, sonra almışam.

## § 22. PUL TAPMIŞDIM

### 2-ci hissə

Axşam yeməyindən sonra anam abbasını ortalığa gətirdi.

– Oğlun, – dedi, – məktəbdən gələndə* pul tapıb!

Kişi abbasıya, sonra da mənim üzümə baxdı: – Hardan tapmısan?

– Məktəb **yol**undan.

– Bəlkə, birinin əlindən düşüb?

– Bilmirəm.

– Adam-zad var idi, ya sən tək idin?

– Heç kəs yox idi.

– Apar, **at** yerinə, kim itiribsə, gəlib axtaracaq!

Anam söhbətə qarışdı: – Yerə atmaqdansa, bir fağıra ver.

– Nə eləyirsiniz, özünüz eləyin, mən istəmirəm.

– Dayan, mən də çıxıram, göstər görüm hardan tapmısan?

Atam geyinib çıxanda məni də çağırdı.

– Məktəbdəkilər bilir sənin pul tapmağını?

– Məktəbdə deməmişəm.

– Gedək!

Məktəbə bir **az** qalmış, məhəllə məscidinin qabağına çatanda atam məndən soruşdu: – Burdan tapmısan?

– Səkinin yanından, lap qapının ______ .

– **Mənə pulu!**

Atam bir abbasını əlimdən aldı, həmin yerə atdı*.

– Yeri, qayıt evə, – dedi və iri addımlarını yeyinlətdi. Böyük bir təhlükədən

qurtarmış kimi, sevinə-sevinə evə yollandım*.

Odu-budu, qarşıma çıxan heç bir şeyə tamah salmıram. Çünki anam mənə tapşırmışdır ki, bizim ev haram götürməz. Bir damcı murdar su böyük hovuzu korlayar*. Atan zəhmətlə pul qazanıb ev dolandırır*. Evini alın təri ilə abad eləyən adamdır. Heç kəsin bir qəpiyini də bu halal əmlaka qatma ki, hamısı dağılıb gedər.

Məktəb günlərində tapılan bir abbasının macərası indi də yadımdan çıxmayıb*.

**Mir Cəlal**

**SÖZLÜK**

| | |
|---|---|
| murdar | əmlak |
| macəra | fağır |

**SÖZ EHTİYATI**

tamah salmamaq
korlamaq

1 Oğlunun tapdığı pulu nə edəcəklərinə ata necə qərar verdi?
A) Pulu bir fağıra verməyi təklif etdi.
B) Pulu tapıldığı yerə atmağı tapşırdı.
C) Pulu istədiyi kimi xərcləməyə oğluna icazə verdi.
D) Pulu aparıb məktəbə təhvil verməyi məsləhət gördü.

2 Pulu tapdığı yerə atdıqdan sonra oğlan hansı hissləri keçirdi? Mətndən həmin hissəni bir daha oxuyun. Orada işlənmiş feillərə sual verin və hansının təsdiqdə, hansının isə inkarda olduğunu, həmçinin zamanını müəyyənləşdirin.

3 Oğlanın valideynləri nəyə görə küçədən tapılmış pulun evdə qalmasını istəmirdilər? Bu suala cavab olan hissəni mətndən tapıb oxuyun. Həmin fikirlərlə bağlı debat təşkil edin.

4 Mətndə çəhrayı rəngdə verilmiş cümlədə hansı nitq hissəsi buraxılıb?
A) isim B) sifət C) feil Ç) əvəzlik

5 Mətndəki yaşıl boşluqda hansı bədən üzvünün adını yaza bilərsiniz ki, cümlədəki fikir bitmiş hesab olunsun?
A) üzündən B) gözündən C) ağzından D) qolundan

6 Əgər siz pulu tapmış uşağın dostu olsaydınız, ona nə məsləhət görərdiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

7 Mətndə göy rənglə fərqləndirilmiş sözlər üçün ümumi cəhət nədir?
A) Hamısı indiki zamanda işlənmiş feillərdir.
B) Bu sözlərin hamısının omonim qarşılığı var.
C) Sözlərin hamısı həm nə?, həm də nə et? sualına cavab verir.

8 Mətndə altından xətt çəkilmiş feilləri elə dəyişin ki, onlar 1-ci, 2-ci və 3-cü şəxslərin cəmini bildirsin.

**Nümunə:** gedək, gedin, getsinlər

9 Mətndə yaşıl rənglə fərqləndirilmiş feilləri yazın. Onların hansı zamanda və şəxsdə işləndiyini qarşılarında qeyd edin.

10 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərin əvəzinə hansı sözləri işlətmək olar? Həmin sözləri tapıb səsləndirin.

HİKMƏT XƏZİNƏSİNDƏN

*Doğruya azacıq bənzəyən yalan*
*Yaxşıdır yalana bənzər doğrudan.* ***Nizami Gəncəvi***

12 Sınamalarla tanış olun. Eşitdiyiniz sınamalar varsa, deyin.

1) Ayağın altı qaşınsa, yol gedərsən. 2) Bir kimsəyə yaylıq bağışlasan, araya ayrılıq düşər. 3) Qaşın üstü qaşınsa, kimsə səni sevindirər. 4) Qışda ilan görən arzusuna qovuşar. 5) Evdə çox siçan görünsə, il qıtlıq olar. 6) İlin axır çərşənbəsində eşidilən söz düz çıxar.

Cümlələrin sonundakı feilləri gələcək zamanın digər növü ilə əvəz edib, sınamaları yenidən oxuyun. Necə düşünürsünüz, oxuduğunuz variant sınama hesab oluna bilərmi? Mülahizələrinizi söyləyin.

## § 23. NİL SULARINDA

### *1-ci hissə*

Nil çayının bulanıq suları göz qamaşdırırdı. Afrika günəşi bu gün daha şiddətlə yandırıb yaxırdı. Timsahlar sahilə doğru sürünərək qızınırdılar. Sahibkar uzaqdan kərtənkələyə oxşayan iri timsahlara həvəslə baxırdı. Bir az sonra beş-altı metr uzunluğunda olan bu timsahlardan bir neçəsi onun olacaqdı.

Günortaya yaxın ovçular sahibkarın durduğu yerə toplaşmışdılar. Nasir yenə də gəlməmişdi. Bu, sahibkarı **qəzəbləndirirdi**[2]. Belə günlərdə Nasir təkbaşına iki timsah **ovlaya**[1] bilərdi. Bəs o niyə gəlməsin?! Yoxsa dünən Nasirlə onun arasında baş vermiş narazılıq buna səbəb olmuşdur? Hər **ovlanmış**[1] timsaha verilən pulun yarıyadək əskilməsi çoxlarını, o cümlədən Nasiri də narazı salmışdı.* Axı həyat üçün təhlükəli olan bu iş üçün onlara verilən pul onsuz da az idi. Əslinə baxsan, sahibkar ovçuların bu gün işə çıxacaqlarına inanmırdı. Lakin ehtiyac insanı çox şeyə məcbur edir. Sahibkar da elə buna arxayın idi.

Çox keçmədi ki, xurma ağaclarının dalından Nasirin arıq bədəni göründü. O yaxınlaşdı və sahildə quma batırılmış qayıq üstündə çömbəlib oturdu. Sa-

hibkar altdan-altdan ona baxdı, ancaq bir söz demədi. Nasir gündən qamaşan gözlərini qıyaraq **ovçu**[1] yoldaşlarına baxırdı.

Sahibkar guya Nasiri indicə görürmüş kimi, ona yaxınlaşdı:

– Bəs niyə soyunmursan?



Nasir dinmədi. Sahibkar bir də soruşdu.

Bu dəfə Nasir onu acıqlı-acıqlı süzüb dedi:

– Mən o qiymətə suya girmərəm.

Sahibkar Nasirin çox **qəzəbli**[2] olduğunu görüb dinmədi. Hər gün timsahla təkbaşına vuruşan bu adama nə deyə bilərdi?!

Nasir timsahların çayın içərilərinə tərəf çəkib apardıqları adamlara baxdıqca, öz gəncliyi, timsah ovuna başladığı ilk illəri xatırladı. O, iyirmi ildən artıq idi ki, bu peşədə işləyirdi. Timsah iki dəfə onun qolunu zədələmiş, bir dəfə isə o, ayağını timsahın ağzından güclə xilas edə bilmişdi. Bəli, o zaman gənc, özü də naşı idi. İndi gözlərinin qabağında ilk dəfə timsah ovuna gedən o gənc kimi cavan və cansız idi.

Nasir ovçulara baxdıqca ötən günlər gəlib gözlərinin qabağından keçirdi.* Birdən onun nəzərini gənc ovçu cəlb etdi.* O hətta oturduğu yerdən ayağa qalxdı. “Bu nədir?” – deyə Nasir qorxu içində gözlərini suya zillədi.* Timsah gənc ovçunu suyun içində **təqib edirdi**. Ovçu onun gözlərinə hücum etmək fürsətini əldən vermişdi.

Sahildə durmuş sahibkar isə **qəzəblənmişdi**[2].

Heyif, çox heyif, timsah əldən çıxdı, – deyə söylənirdi.

| SÖZLÜK | |
|---|---|
| naşı | əskilmək |
| əslinə baxsan | ehtiyac |
| o cümlədən | qamaşdırmaq |

| SÖZ EHTİYATI | |
|---|---|
| çömbəlib oturmaq | |
| fürsəti əldən vermək | |
| əldən çıxmaq | təqib etmək |

1 Aşağıdakı suallardan hansına mətndə cavab tapa bilmədiniz?

A) Nasir nə üçün əsəbi idi?
B) Nasir gənc ovçuya baxdıqca nəyi xatırlayırdı?
C) Sahibkar ovlanmış timsaha verilən pulu nə qədər artırmışdı?
D) Sahibkar nə üçün Nasirə bir söz demədi?

2 Yer kürəsində altı qitədən biri sayılan Afrika haqqında nə bilirsiniz? Məlumatınızı genişləndirmək üçün axtarış aparın və tədqiqatınızın nəticəsini yoldaşlarınızla bölüşün.

3 Qara rəngdə verilmiş sözləri aşağıdakılardan hansına aid etmək olar?

A) sinonim  B) kökləri eynidir  C) antonim  Ç) omonim

4 Mətndən oxuduqlarınız əsasında Nasirin xarici görünüşünü təsvir edin və xarakterini səciyyələndirin.

5 Timsah gənc ovçunu təqib edərkən sahibkar niyə qəzəblənmişdi?

A) Timsah gənc ovçunu öldürə bilərdi.
B) Ovçu timsahın gözlərinə hücum etmək fürsətini əldən vermişdi.
C) Timsah gənc ovçunu öldürsə, timsah əldən çıxacaqdı.

6 Verilmiş söz birləşmələrini tərcümə edin və cümlələrdə işlədin.

gənc ovçu, bulanıq su, təhlükəli vəziyyət, varlı sahibkar, timsah ovu, qırıq qayıq, ovlanmış timsah, iyirmi ildən artıq, ötən günlər, suyun içində

7 Oxuduğunuz hissədə hansı abzasın sonunda aşağıdakı cümlə verilə bilər? Fikrinizi əsaslandırın.

**Bir neçə dəqiqədən sonra timsah onu parça-parça edə bilərdi.**

8 Hər iki cərgədən uyğun gələn sözləri işlətməklə söz birləşmələri düzəldib cümlələrdə işlədin. Cümlələri dəftərinizdə yazın.

1) qəzəbli, ötən, gənc, Afrika, iri, naşı, verilən, timsah;
2) günəş, ovçu, timsah, pul, oğlan, günlər, baxış, ov

9 Mətndə göy rəngdə verilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etmək olar?

A) qorxudurdu  B) izləyirdi  C) pusurdu  Ç) oynadırdı

10 Cümlələri mətnin məzmunu əsasında sərbəst şəkildə tamamlayın.

1) Hər ovlanmış timsaha verilən pulun azalması çoxlarını, ... . 2) O, iyirmi ildən artıq idi ki, ... . 3) Timsah iki dəfə onun qolunu zədələmiş, ... . 4) Nasir ovçulara baxdıqca ... . 5) Nasir ovçulara baxdıqca ötən günlər... .

11 Mətndə qara rəngdə verilmiş sözlər cərgəsinə onlarla eyni kökdən olan başqa hansı sözləri əlavə etmək olar? Siz həmin sözləri bilirsiniz.

12 Mətndə yaşıl rənglə fərqləndirilmiş sözləri mənaca yaxın qarşılıqları ilə əvəz edib cümlələri oxuyun.

13 Aşağıdakı sözlərdən biri feil olmaq şərti ilə eyniköklü sözlər düzəldib yazın. Sonra onlardan bir neçəsini cümlələrdə işlədin.

cavan, arxayın, yol, yaxın, qiymət, acıq, zədə, güc

14 Mətndə bəzi feillərin altından xətt çəkilmişdir. Bunun səbəbini izah edə bilərsinizmi?

# § 24. NİL SULARINDA

***2-ci hissə***

Nasir **qəzəblə** dönüb sahibkara baxdı, lakin ona söz deməyə macal tapmadı. Bircə dəqiqə də keçsəydi, gənc oğlan timsahın ______ .

Nasir əlindəki papirosu **hirslə** yerə tulladı və tez suya cumdu. O, bircə anın içində Nilin bulanıq sularını üzə-üzə yarıb özünü timsaha yetirdi. Yırtıcı heyvan təcrübəsiz gənc oğlanı haqlamışdı. Nasir birdən suyun içindən atılıb timsahın boynuna sıçradı. Barmaqlarını cəld yuxarıdan timsahın gözlərinə soxdu.

Heyvan ağzını bir dəfə ayırıb yumdu və gözlərinin ağrısından suyun içində **çırpına-çırpına** hərlənməyə başladı. Gənc oğlan üzüb timsahdan uzaqlaşdı. Sahildə hazır duran qayıqçılar qorxunun sovuşduğunu görüb yaxınlaşdılar və kəndirlə timsahı **sarı**dılar. Sonra onu çəkib sahilə apardılar. Gənc ovçu bütün bədəni göyərmiş halda sahilə çıxdı. Onun dalınca Nasir də üzüb sahilə çıxdı. O, adamların toplaşdığı yerdən ötüb keçmək istərkən sahibkar onu səslədi:

– Ey Nasir, artıq pul verməyəcəyəm ha!

Nasir **tərs-tərs** ona baxdı.

– Ağa, – dedi, – pulu özün üçün saxla. Mən bu gün lap çox **qazan**dım. Odur bax, – deyə gənc oğlanı göstərdi.

Gənc ovçu **tez** Nasirə ______ :

Eybi yoxdur, – dedi, – mənim payımı siz alarsınız.

Nasir qorxudan hələ də özünə gəlməmiş gənc ovçunun iri, qara gözlərinə baxdı, lakin heç bir söz ______ .

O, papiros yandırıb damağına qoydu, **tüstülədə-tüstülədə** Nilin sahilindən ______ ...

***Xalidə Hasilova***

**SÖZLÜK**

haqlamaq
göyərmək
yarmaq

**SÖZ EHTİYATI**

macal tapmaq
qurbanı olmaq
damağına qoymaq

1 Mətnin birinci abzasını hansı sözlə bitirmək olar?
A) qonağı olacaqdı B) qurbanı olacaqdı C) düşməni olacaqdı

2 Mətnin son hissəsindəki göy boşluqların yerinə lazım olan sözləri qoyub cümlələri tamamlayın. Nəzərə alın ki, bu sözlərdən ikisi antonimdir.

3 Qruplara bölünün. Hər qrup mətnin məzmunu əsasında ən azı beş sual tərtib edib digər qrup üzvlərinə verməlidir. Sualların təkrar olunmamasına səy göstərin.

4 Necə düşünürsünüz, Nasirin gənc oğlanı xilas etməsini "qazanc" hesab etmək olarmı? Yoldaşlarınızla müzakirəyə qoşulun.

**– Ağa, – dedi, – pulu özün üçün saxla. Mən bu gün lap çox qazandım.**

5 Cümlələri tərcümə edin.

O, bircə anın içində Nilin bulanıq sularını üzə-üzə yarıb özünü timsaha yetirdi. Yırtıcı heyvan təcrübəsiz gənc oğlanı haqlamışdı. Nasir birdən suyun içindən atılıb timsahın boynuna sıçradı.

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Yandırmaq*** – 1) Yanmağına səbəb olmaq; alışdırmaq – kağızı yandırmaq; 2) Şiddətli təsir etmək (isti, qızmar, qaynar şey – Əlimi çay yandırdı. Gün yandırır; 3) Qaraltmaq, rəngini tündləşdirmək – Özünü niyə belə yandırmısan? 4) Acışdırmaq, dalamaq – Bibər əllərimi yandırdı;

***Məcazi mənada*** – mənəvi əzab və iztirab vermək, ruhən incitmək, çox ağır təsir etmək – Dostunun itkisi onu yandırdı.

6 Necə düşünürsünüz, Nasir gənc ovçunun ona təklif etdiyi payı alacaqmı? Müzakirəyə qoşulun.

7 Verilmiş cümlələrdən hansı mətnin məzmununa uyğun deyil?

A) Nasir gənc ovçunu ölümdən qurtardı.
B) Sahibkar çox qazanmaq məqsədilə ovçuların haqqını kəsirdi.
C) Nasir daha çox qazanmaq üçün gənc ovçunu ölümün pəncəsindən aldı.
D) Gənc ovçunun bütün bədəni göyərmişdi.

8 Uyğun gələn sözləri əlavə edib cümlələri tamamlayın və köçürün.

1) Nasir sahibkardan haqqını –. 2) Sahibkar ovçuların haqqını –. 3) Sahibkar timsah ovu ilə –. 4) Yırtıcı heyvan gənc ovçunu –.

**Köməkçi:** udacaqdı, parçalayacaqdı, xilas edəcəkdi, kəsirdi, yeyirdi, varlanırdı, qazanırdı, ödəyirdi, tələb edirdi, kömək edirdi.

9 Aforizmlərin mənasını izah etməyə çalışın. Deyilən fikirlərlə razılaşırsınızmı? Yoldaşlarınızla müzakirə edin.

## HİKMƏT XƏZİNƏSİNDƏN

*Bir çörək doldurar bağırsaqları,*
*Acgözü doydurmaz dünyanın varı.* ***Sədi Şirazi***

*Sərvəti olmadan dövlətli olmaq istəyirsənsə, gözütox ol.* ***"Qabusnamə"***

10 Cümlələri mətnin məzmunu əsasında genişləndirin və tərcümə edin.

1) Nasir sahibkara baxdı, lakin macal tapmadı. 2) O, bircə anın içində özünü timsaha yetirdi. 3) Heyvan suyun içində hərlənməyə başladı. 4) Sahildə

hazır duran qayıqçılar timsahı sarıdılar. 5) Nasir gənc ovçunun gözlərinə baxdı, lakin heç bir söz demədi. 6) O, Nilin sahilindən uzaqlaşdı.

⓫ Necə bilirsiniz, mətndə iki söz niyə eyni (yaşıl) rəngdə verilib? Əsaslandırın.

⓬ Atalar sözlərini oxuyun və yadda saxlayın. İnkarda işlənmiş feilləri səsləndirin.

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

1) Doğru yolla gedən yorulmaz.
2) Saqqız çeynəməklə qarın doymaz.
3) Acıqla qalxan, ziyanla oturar.
4) Dost sirrin dost bilər.
5) Doğru söz acı olar.
6) Sözü at, yiyəsi götürər.

⓭ Mətndə göy rənglə verilmiş sözlərə sual verin və onları aid olduqları sözlərlə yanaşı yazın. Bu sözlərin cümlədəki hərəkət, yoxsa əşya bildirən sözlərə aid olması üzərində müşahidə aparın.

## § 25. H. Z. TAĞIYEV NECƏ MİLYONÇU OLDU

Hacı Zeynalabdin Tağıyev bütün müsəlman aləmində tanınmış milyonçu idi.

Zeynalabdinin atası Tağı başmaqçı idi. Güzəranları çox ağır keçirdi. O hələ uşaq ikən anası vəfat etmişdi. Atası istəyirdi ki, balaca Zeynalabdin onun əlinin altında işləsin, gündəlik çörək pulu qazanmaq üçün ona bacardığı qədər ______ . Ancaq Zeynalabdin bildirir ki, o, başmaqçı yox, bənna olmaq istəyir.

Zeynalabdin uşaqlıqdan bənnanın əlinin altında işləyir, başında çanaqda palçıq daşıyır, 6 qəpik günəmuzd alırdı. Yaşı az olduğundan palçıq çanağını **çətinliklə** daşıyırdı. Yoldaşları ona kömək edir, ağır çanağı qaldırıb başına ______ . Bütün günü bir an belə bikar qalmır, **canla-başla** çalışır, işə **tez** gəlib, **gec** gedirdi. Beləliklə, Zeynalabdin 15 yaşında daşyonan, 18 yaşında bənna, sonra da memar-podratçı oldu.

1873-cü ildə iki nəfərlə şərik olub Bibiheybətdə icarəyə yer götürür. Avadanlıq alır, usta və fəhlələr tutur, buruq qurdurub, quyu qazdırmağa başlayır. **Günbəgün** xərc artır, ancaq neft görünmür. Düşmənləri Hacıya gah tamahkar, gah kələfin ucunu itirən adam kimi baxırlar. Şəriklər ümidlərini itirir, öz paylarını satmağa müştəri axtarırlar. Axırda Hacı özü onların pulunu verib buruğa və yerə yiyələnir. İş daha da ağır gedir. Hacı darıxmır, tək-tənha məşəqqətə dözür. Fəhlələrin muzdunu **vaxtında** verir.

Nəhayət, quyu gözlənilmədən fontan vurur. Başmaqçı Tağının oğlu palçıqçı Zeynalabdin dönüb milyonçu Tağıyev olur.

Üç ilə ( 1895-1897-ci illər) şəhərin mərkəzində böyük bir saray tikdirir. Sarayın hər dörd fasadı və damdakı nəhəng qübbələr diqqəti uzaqdan cəlb edirdi. Binanın hər dörd tinində və baş girəcəyinin qabağında nəhəng qaz fanarı ________ hər tərəf işığa qərq olurdu.

Tağıyev həm neftxuda, həm dəyirman sahibi, həm fabrikant, həm böyük balıq sənayeçisi, həm də ticarət və yük gəmilərinin sahibi idi. Quba tərəfdə, Yevlax ətrafında böyük meşələri, Moskvada dördmərtəbəli iri sarayı, İranda karvansaraları vardı...

| SÖZLÜK | |
|---|---|
| avadanlıq | güzəran |
| qübbə | günəmuzd |
| daşyonan | şərik |
| müştəri | karvansara |

| SÖZ EHTİYATI | |
|---|---|
| icarəyə götürmək | çanaq |
| məşəqqətə dözmək | neftxuda |
| kələfin ucunu itirmək | |
| işığa qərq olmaq | |

1 Sualların mətnin məzmununu əks etdirmədiyini faktlarla əsaslandırmağa çalışın.

1) Zeynalabdin niyə atasının əlinin altında işləməyə razı olur?
2) Yoldaşları nədən Zeynalabdinə kömək etmək istəmirdilər?
3) Zeynalabdinin atası varlı olduğu halda niyə oğlu palçıq daşıyırdı?
4) Zeynalabdin niyə şəriklərinə xəyanət edir, onların payına yiyələnir?
5) Zeynalabdin niyə fəhlələrin muzdunu vaxtında vermir?
6) Başmaqçı Tağının oğlu, palçıqçı Zeynalabdin niyə hər şeyini itirir?
7) Yevlax ətrafındakı böyük meşələri, Moskvadakı dörd mərtəbəli sarayını, İrandakı karvansaraları Tağıyev niyə şəriklərinə verməli olur?

2 Mətndəki sarı boşluqların yerinə hansı sözləri yazsanız, yerinə düşər?

3 Verilmiş əlamətlərdən hansının Tağıyevə aid olduğunu seçib deyin və cümlələrdə işlədin.

tamahkar, xeyirxah, zirək, hazırcavab, zəhmətkeş, səbirli, paxıl, kinli, varlı, iradəli, dözümlü, davakar, əliaçıq, işgüzar, səxavətli, tənbəl, zülmkar

4 Mətndən peşə və sənət bildirən sözləri seçib, quruluşca növləri üzrə ayrı-ayrı sütunlarda yazın. Tağıyev bu peşələrdən hansı ilə məşğul olmamışdır?

5 Mətndə yaşıl rəngdə verilmiş sözləri yaxınmənalı sözlərlə əvəz edib cümlələri yenidən oxuyun, məna incəlikləri üzərində müşahidə aparın.

6 Mətndə göy rəngdə verilmiş sözlərin əlaqələndikləri sözləri tapıb səsləndirin.

7 Hansı sözlərin tələffüz şəkli düzgün göstərilməmişdir?

A) Palçıqçı, uşaqlıqdan – [palçıxçı, uşaxlıxdan]
B) müştəri, başmaqçı – [müşdəri, başmaxçı]
C) fontan, düşmənlər – [fantan, düşmənnər]
Ç) dörd, nəhəng – [dörd, nəhəng]
D) buruq, dəyirman – [burux, dəyirman]

8 Birinci sütundakı söz birləşmələrinin hər iki tərəfinə sual verib, onların hansı nitq hissəsi olduğunu müəyyənləşdirin. Sonra bu əməliyyatı ikinci sütun üzrə də yerinə yetirin və gəldiyiniz nəticələr barədə mülahizələrinizi söyləyin.

| | |
|---|---|
| böyük saray | çətinliklə daşıyırdı |
| nəhəng fanar | canla-başla çalışır |
| balaca Zeynalabdin | tez gəlir |
| dördmərtəbəli saray | gec gedirdi |
| ağır çanaq | günbəgün artır |
| nəhəng qübbələr | vaxtında verir |

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, siz Azərbaycan dilində işlənən sözlərin bəzi qrupları ilə artıq tanışsınız. Belə söz qruplarından biri də zərflərdir. Zərflər hərəkətin tərzini, zamanını, yerini, miqdarını bildirməyə xidmət edən sözlərdir.

Zərflər necə?, nə zaman?, nə vaxt?, haçan?, hara?, nə qədər? və s. kimi suallardan birinə cavab verir. Məsələn: hündürdən (necə?, nə cür?) danışır, dünən (haçan?, nə vaxt?) yuyulan, içəri (hara?) keçdi, xeyli (nə qədər?) gözlədi.

9 Aşağıdakı şeiri oxuyun və əsas fikri müəyyənləşdirin.

## HƏMRƏYLİK BAYRAMINDA

**Qoşa** vurdu ürəklər,
Gözəl arzu, diləklər.
Kəsildi duz-çörəklər,
Həmrəylik bayramında.

Bu bayram mənim elim,
Yığış türküm, azərim.
Aydın olsun gözlərim,
Həmrəylik bayramında.

Birləşək, birgə olaq,
**Kürək-kürəyə** duraq.
Sülhlü bir dünya quraq,
Həmrəylik bayramında.

10 Xalqımızın Dünya Azərbaycanlılarının Həmrəylik Gününü bayram kimi qarşılaması şeirdə necə təsvir edilir? "Qoşa vurdu ürəklər" deyəndə şair nəyi nəzərdə tutur? Fikrinizi yoldaşlarınızla bölüşün.

11 Necə düşünürsünüz, Həmrəylik bayramının keçirilməsi xalqımız üçün nə dərəcədə əhəmiyyətlidir? Fikirlərinizi əsaslandırın.

12 Şeirdə işlənmiş yaxınmənalı sözləri tapıb, qarşı-qarşıya yazın və tərcümə edin. Hər birini cümlədə işlədib, məna incəlikləri üzərində müşahidə aparın.

13 Şeirdə göy və yaşıl rəngdə verilmiş sözlər üzərində müşahidə aparın və aralarındakı fərqi müqayisə edin. Göy rəngdə verilmiş sözlərə sual verib nə bildirdiyini müəyyənləşdirin. Özünüzdən bu cür misallar deyin.

14 Şeirdə qırmızı rəngdə verilmiş cümlədəki ifadəni deyin və mənasını izah edin.

## § 26. YAXŞI YOLDAŞ

Zəng vuruldu. Hamı yerində oturdu. Ancaq Lalə çox pərt idi; çünki səhər məktəbə gələndə qələm götürməyi unutmuşdu.

Müəllim sinfə girdi, izahat verdikdən sonra sinfə yazılı tapşırıq verdi.

Lalə Reyhandan ehtiyat qələmini ona verməsini xahiş etdi.

Reyhan: – Qələm özümə lazımdır, – deyib qələmi Laləyə vermədi.

Lalə yoldaşının bu hərəkətindən çox pərt oldu. Amma heç bir söz demədi. Arxa cərgədə oturan qızlardan biri Laləyə qələm verdi; Reyhanın hərəkəti isə onun ________ .

İmtahanlar yaxınlaşdı. Sinif rəhbəri yenə hamıdan çox Reyhan haqqında narahat idi. Bütün rüb müddətində Reyhan rus dili dərslərindən çox geri qalmışdı.* Buna görə onu imtahanlara yaxşı hazırlaşdırmaq üçün kömək etmək lazım idi. Bir gün müəllim Laləyə dedi:

– Lalə, Reyhan rus dilindən zəifdir. Belə gedərsə, o, imtahanda pis qiymət alacaqdır. Sən ona kömək etməlisən. Biz bu gün kinoya gedəcəyik.

Reyhan, müəllimin onu Laləyə tapşırdığını eşidəndə başını aşağı dikdi.* Laləyə qələm vermədiyi gözünün qabağına gəldi.* Yanaqları qıpqırmızı qızardı və ürəyi şiddətlə döyünməyə başladı.* O özlüyündə belə fikirləşdi ki, Lalə indicə ayağa qalxıb bu məsələni müəllimə deyəcək və ona kömək etməkdən boyun qaçıracaqdır.*

Müəllim:

– Hə, Lalə, nə deyirsən, onu imtahana yaxşı hazırlaşdıra bilərsənmi? – təkrar soruşduqda, Lalə:

– Baş üstə, – deyib yerində oturdu.

Reyhan Lalənin belə cavab verəcəyini heç gözləmirdi. Buna görə Lalənin sözləri onu daha da utandırdı. O, dərsin axırınadək başını yuxarı qaldırmadı.*

Yalnız zəng çalınandan sonra Laləyə yaxınlaşıb yavaşcadan:

– Lalə, məni bağışla, – dedi.

Onun səsi titrədi. Lalə hətta onun axırıncı sözünü çətinliklə eşitdi.

***Xalidə Hasilova***

**SÖZLÜK**

izahat

**SÖZ EHTİYATI**

boyun qaçırmaq

1 Suallara cavab versəniz, Reyhanın utanmasının səbəbini biləcəksiniz?

1) Lalənin pərtliyinin səbəbi nə idi?

2) Sinif rəhbəri niyə hamıdan çox Reyhan haqqında narahat idi?

3) Niyə Reyhanın yanaqları qıpqırmızı qızardı və o, başını aşağı dikdi?

4) Hansı hadisə Reyhanı daha da utandırdı və o, dərsin axırınadək başını yuxarı qaldıra bilmədi?

5) Lalənin hərəkətini necə qiymətləndirirsiniz? O, düzmü hərəkət etdi?

6) Lalə və Reyhan necə şagirdlərdir? Onları xarakterizə edin.

2 "Hikmət xəzinəsi"ndəki fikri oxuyun və bu mövzuda debat təşkil edin. Fikirlərinizi əsaslandırmaq üçün mətndəki situasiyadan istifadə edin: Lalə Reyhanı bağışlamalıdırmı?

**HİKMƏT XƏZİNƏSİNDƏN**

*Səndən üzr istəsə əgər təqsirkar,*
*Bağışla suçunu, olma çox qəddar.* ***Sədi Şirazi.***

3 Mətndə hansı cümlə artıqdır? Fikrinizi əsaslandırın.

4 Zərf haqqında verilmiş məlumatı diqqətlə oxusanız, mətndə yaşıl rəngdə verilmiş sözlərin zərfin mənaca hansı növündə olduğunu asanlıqla təyin edə bilərsiniz. Sualların köməyindən istifadə edin.

5 Mətndəki sarı boşluqda hansı ifadə işlənməlidir?

A) xoşuna gəlmədi
B) yadına düşdü
C) yadından çıxmadı
D) ürəyincə oldu

6 "Onu imtahana yaxşı hazırlaşdıra bilərsənmi?" cümləsində işlənmiş "yaxşı" sözü zərfdir, çünki ...

A) əşyanın əlamətini bildirir
B) hərəkətin əlamətini bildirir
C) cümlənin mənasını qüvvətləndirmək üçün işlənmişdir
D) necə? sualına cavab verir

7 Mətnə hansı atalar sözü uyğundur?

1) Xain dost ən təhlükəli düşməndir.
2) Əsl dost yaxşı və pis günlərimizə ortaq olandır.
3) Dostunu göstər, sənin kim olduğunu deyim.
4) Dost başa baxar, düşmən ayağa.
5) Dostun versə qum, al ovcunda yum.

8 Cümlələri istədiyiniz şəkildə genişləndirib yazın.

1) Müəllim tapşırıq verdi. 2) Lalə çox pərt oldu. 3) Sinif rəhbəri narahat idi. 4) Lalə xahiş etdi. 5) Qayıqçılar yaxınlaşdılar. 6) Nasir papirosunu tulladı. 7) Həsən bir az dincəlmək istədi.

9 Oxuyun, əvvəlcə əksmənalı zərfləri tapın, sonra onları uyğun hərəkət bildirən sözlərlə işlədərək qarşılarında mötərizə içərisində yazın.

asan, tez, geri, ucadan, gecə, aşağıda, əvvəl, çətin, sonra, gec, irəli, astadan, gündüz, yuxarıda

**Köməkçi:** tez-tez – hərdənbir (tez-tez yoxlamaq, hərdənbir görüşmək);

10 Nə vaxt? nə zaman? suallarına cavab olan bir neçə zərf deyin, sonra onları cümlələrdə işlədin.

11 Üzərində ulduz işarəsi qoyulmuş cümlələrin hər birində bir sabit birləşmə işlənmişdir. Həmin ifadələri tapıb səsləndirin və kontekstə uyğun mənalarını izah edin. Çətinlik çəksəniz, müəllimin köməyindən istifadə edin.

12 Aşağıdakı "İzahat"ı oxuyun və müzakirə edin. Hadisə barədə məlumat verməklə Toğrul düzmü hərəkət edir? Bu "İzahat"ı yazmaq nə üçün lazım idi?

31 saylı məktəbin direktoru Nərminə Hacıyevaya
həmin məktəbin 6-cı sinif şagirdi Toğrul Cəfərovdan

**İzahat**

Pəncərənin qabağından keçərkən uşaqlardan biri məni itələdi. Qolum pəncərəyə bərk toxundu və pəncərənin şüşəsi sındı. Hadisə barədə məlumat verməyi özümə borc bildim. Mən atamdan xahiş edəcəyəm ki, pəncərənin şüşəsini düzəltdirsin. Bunu bilərəkdən etmədiyimi nəzərə alaraq məni bağışlamağınızı xahiş edirəm.

İmza: Toğrul Cəfərov

18 noyabr 2013-cü il

# § 27. BU GÜN TƏZƏ İL GƏLİR

Ana Vətən sevinir,
Bu gün təzə il gəlir.
Çəmənləri, düzləri
Gəzə-gəzə il gəlir.
Gəlir günəş nurundan
**Qızılı** don geyərək,
Gəlir dilində nəğmə,
Əllərində gül-çiçək.
**Mehriban** gəlişindən
Qəlbimə vüqar gəlir.
Bir əlində **qarlı** qış,
Birində bahar gəlir.

Onu qarşılamaqçın
Ulduzlar, aylar gəlir.
O gəlir bəzənərək
Mənim ana yurdumun
Toyu, büsatlarıyla.
O gələndə donunu
Bizim Şaxta babatək
**Yumşaq** qardan geyəcək.
Bax bu gün gecə yarı
O deyəcək: gəlmişəm,
Mən ki **nurlu** bahardan
Libas geyib gəlmişəm.

Sizi deyib gəlmişəm,
Sizin **böyük** zəfərə,
Rəşadətə, hünərə
Mən baş əyib gəlmişəm!
Mən də deyəcəyəm ki,
Xoş gəlmisən bu yurda,
**Təzə** ilim, ay ilim!
Bizim eli, obanı
Bəzə, ilim, ay ilim!
Gözüm üstə yerin var,
Xoş gəlmisən, ay ilim!

**Nəbi Xəzri**

SÖZLÜK

büsat rəşadət

SÖZ EHTİYATI

gözüm üstə yerin var

1 Təzə ilin gəlməsi insanın həyatında hansı yeniliklərə səbəb olur? Şeirin məzmunundan istifadə edərək, fikirlərinizi yoldaşlarınızla bölüşün.

2 Sizcə, Yeni il haqqında:

"Gəlir dilində nəğmə, əllərində gül-çiçək", – misraları ilə şair nə demək istəyir? Düzgün hesab etdiyiniz cümlələri seçib səsləndirin.

1) Təzə ildə havalar istiləşir, hər tərəf gül-çiçəyə bürünür.

2) Təzə il insanlara sevinc əhval-ruhiyyəsi bəxş etdiyi üçün hər yerdə nəğmə səsləri eşidilir, hər tərəf gül-çiçəyə bürünür.

3) Təzə ildə yeni-yeni mahnılar bəstələnir, hamı bir-birinə gül bağışlayır.

4) İnsanlar yeni ili qarşılamaq üçün şənliklər keçirirlər, hər yerdə şən nəğmələr oxunur, evlər bəzədilir, hər yer sanki gül-çiçək içində olur.

3 Verilmiş atalar sözü şeirin hansı misralarına uyğundur? Bu hissəni tapıb başa düşdüyünüz şəkildə izah edin.

**Payızdan qorx, arxasınca qış gəlir, qışdan qorxma, dalınca bahar gəlir.**

4 Şeirdə qəhrəman ruhlu, əməksevər xalqımızın ötən ildə bir çox uğurlar, nailiyyətlər qazanmasına işarə edilir. Həmin hissəni şeirdən tapıb səsləndirin və şairin fikirlərini genişləndirib öz sözlərinizlə danışın.

5 Şeirdə göy rəngdə verilmiş sözlərin hamısına aid olan fikirləri seçib, səsləndirin.

A) Bütün sözlər necə? sualına cavab verir, sifətdir.

B) Bütün sözlər düzəltmədir.

C) Bütün sözlər sadədir.
D) Bütün sözlər hərəkətlə bağlıdır.
E) Bütün sözlər isimdən əvvəl işlənib, onu izah edir.

6 Şeirdə yaşıl rəngdə verilmiş sözlərin sinonimlərini tapıb deyin və bir neçəsini cümlələrdə işlədin. Sonra şeirdə işlənmiş sinonimləri tapıb səsləndirin.

7 Şeirdə işlənmiş feilləri müvafiq sütunlarda yazın.

| İndiki zaman | Keçmiş zaman | Gələcək zaman |
|---|---|---|

KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Hünər* 1.** – a) Bacarıq, məharət, ustalıq, qabiliyyət, fərasət – Sənin hünərini alqışlayıram; b) cəsarət etmək, şücaət göstərmək. **Hünər göstərmək** – öz ustalığını, məharətini, bacarığını nümayiş etdirmək – Bu işə hünər lazımdır.

2. Çətin şəraitdə mühüm bir işi, tədbiri, tapşırığı həyata keçirmək üçün rəşadət, şücaət, qoçaqlıq, fədakarlıq – Onun hünəri hər kəsə bəllidir; **Hünər göstərmək** – qəhrəmanlıq etmək, qoçaqlıq, igidlik göstərmək.

8 Aşağıdakı sözlərin mənalarını izah edin, aralarındakı münasibəti və quruluşca növünü müəyyənləşdirin.
qarşı – qarşılıq – qarşıla(maq) – qarşılaş(maq) – qarşılan(maq);
dil – dilli – dilsiz – dillən(mək); hünər – hünərli – hünərsiz;
təzə – təzəlik – təzələ(mək) – təzələn(mək);
baş – başlıq – başla(maq) – başçı – başsız;
xoş – xoşluq – xoşla(maq) – xoşlan(maq);

❁ Aşağıdakı sözlərdən eyniköklü sözlər düzəldib qarşı-qarşıya yazın və düzəltdiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlədin.
nur, qızıl, mehriban, böyü(mək), qar, gecə, don

9 Aşağıdakı misraları şeirin məzmunu əsasında tamamlayın.
1) Bir əlində qarlı qış, ... 2) Gəlir dilində nəğmə, ... 3) Gəlir günəş nurundan ... 4) Sizin böyük zəfərə ... 5) Mən də deyəcəyəm ki, ... 6) Bizim eli, obanı ...

## § 28. BALACA AŞPAZ

### *1-ci hissə*

Təranənin atası Səlim dayı dəniz buruqlarında mühəndis, anası Səkinə xala isə uşaq həkimi idi. Təranə altıncı, qardaşı Hafiz isə üçüncü sinifdə oxuyurdu. İkisi də dərsə **səhər** gedirdi. Uşaqlar məktəbdən qayıtdıqdan sonra evə verilən tapşırıqları yerinə yetirib, analarına da kömək edirdilər.

Təranə otağı qaydaya salmağı, döşəməni yumağı, paltar ütüləməyi, paltarın düyməsini, sökülən yerini tikməyi də bacarırdı. O həmişə bacarmadığı işləri anasından öyrənməyə can atırdı.* Ancaq xörək bişirmək Təranəni hər şeydən çox maraqlandırırdı. Ona görə də anası xörək bişirəndə Təranə yanında durub, gözünü onun əlindən çəkmirdi.*

Bir dəfə Təranə anasına dedi:

– Anacan, qoy bu gün xörəyi mən hazırlayım, yaxşımı?

– Yox qızım, atanın işdən qayıtmasına az qalıb. Gərək xörəyi tez hazırlayım. Bir də ki, bu gün qonağımız olacaq, layiqli xörək hazırlamaq lazımdır. Yaxşı olar ki, sən hələlik bax, gör mən xörəkləri necə bişirirəm.



Günlər keçdikcə Təranənin xörək bişirməyə həvəsi daha da artırdı. Bir gün Səkinə xala xəstə uşağın yanında ləngiməli oldu. O, evə zəng edib **gec** qayıdacağını Təranəyə xəbər verdi.

Bu vaxt saat beş idi. Təranə dərslərini hazırlayıb **təzəcə** ayağa durmuşdu.* O, dibçəklərdəki güllərə su verdi, evi səliqəyə saldı və bütün işləri görə-görə axşama xörək hazırlamaq haqqında fikirləşdi.* Axı **bir azdan** onun atası işdən qayıdacaqdı. **Hələ** də heç bir şey hazır deyildi. Təranə mətbəxə girdi. **Əvvəlcə** qazanı pilətənin üstünə qoyub içinə xeyli su tökdü, əti doğradı. Bir ayrı qabda noxud bişirib qazanda qaynatdığı ətə qarışdırdı. Soğan doğrayanda gözlərindən yaş axmağa başladı. O, dəsmalla gözlərini dönə-dönə sildisə də, yaş dayanmadı. Elə bu vaxt Hafiz yan otaqdan çıxıb onun yanına gəldi.

– Boy, sənə nə oldu, niyə ağlayırsan?

– Ağlamıram ey, soğan gözlərimi acışdırdı. Sən narahat olma, get dərslərini hazırla...

Hafiz dinməzcə mətbəxdən çıxdı. Təranə isə öz işi ilə məşğul oldu.

Xörəyin hazır olmasına az qalanda onun yadına düşdü ki*, ______ . Axı anası bibərli xörəyi çox sevirdi. O, kasadakı göy bibərlərdən dörd-beşini doğrayıb xörəyə tökdü. Sonra isə stolu hazırlamağa başladı.

**İsa Hümmətov**

| SÖZLÜK | | |
|---|---|---|
| layiqli | ləngimək | noxud |

| SÖZ EHTİYATI |
|---|
| qaydaya salmaq |

1 Sualları oxuyun və cavablandırın. Hansı sualın cavabı mətndə yoxdur?

1) Təranə hansı işlərdə anasına kömək edirdi?
2) Təranəni hər şeydən daha çox nə maraqlandırırdı?
3) Təranənin xətrinə kim dəymişdi?
4) Necə oldu ki, Təranə xörək hazırlamalı oldu?
5) Təranənin gözlərindən yaş gəlməsinin səbəbi nə idi?
6) Təranə xörək bişirəndə birdən yadına nə düşdü?

2 Mətndəki sarı boşluğa hansı variantda verilmiş cavabı yazmaq olar?

A) anası tez qayıdacaq B) əti bişirməyib C) xörəyə bibər atmayıb Ç) atası işdən gec qayıdacaq D) xörəyə duz tökməyib

3 Mətndən Təranənin işgüzarlığını və xarakterik xüsusiyyətlərini bildirən cümlələri seçib səsləndirin.

4 Verilmiş söz birləşmələrini cümlələrdə işlədin.

yemək hazırlamaq, məktəbdən qayıtdıqdan sonra, dibçəkdəki güllər, xəstə uşaq, mətbəxə keçmək, əti qaynatmaq, soğan doğramaq, kasadakı bibər, paltar ütüləmək

5 Aşağıdakı atalar sözlərindən mətnin məzmunu ilə səsləşməyən varmı? Fikirlərinizi əsaslandırın.

1) Böyük tökəni kiçik yığar. 2) Bacarmadığın bir işi bacarıram demə! 3) Çalışqan əl nəyə dəysə, qızıl olar. 4) Iş bacaranın, aş yeyənindir!

6 Azərbaycan milli xörəklərindən bir neçəsinin adını yazın. Bunların içərisindən birinin hazırlanma qaydasını yazılı şəkildə təsvir edin.

7 Qruplara bölünün və "Ən yaxşı aşpaz" müsabiqəsi keçirin. Qalib qrupu hədiyyə ilə mükafatlandırın.

8 Mətndə üzərində ulduz işarəsi qoyulmuş cümlələrdəki ifadələri müəyyənləşdirib, mənasını izah etməyə çalışın.

9 Mətndə göy rəngdə verilmiş sözlərin hansı sözlərlə əlaqələndiyini və nə bildirdiyini sualların köməyi ilə müəyyənləşdirin.

10 Mətndə altından xətt çəkilmiş sözləri hansı sözlərlə əvəz edə bilərsiniz? Cümlələri həmin sözlərlə də oxuyun və məna incəlikləri üzərində müşahidə aparın.

11 Mətndə iki feil sarı rənglə fərqləndirilib. Sizcə, hər iki feil üçün ümumi cəhət nədən ibarətdir?

# § 29. BALACA AŞPAZ

## 2-ci hissə

Qapının zəngi çalındı. Təranə tez qaçıb qapını açdı. Gələn atası idi. O, qızının halını soruşdu.* Paltarlarını dəyişdi.* Yemək otağına keçəndə Təranə dedi:

– Ata, anam zəng etmişdi, bu gün evə bir az **gec** qayıdacaq.* Çay hazırdır, gətirimmi? Atacan, xörəyimiz də var.

– Bala, nəyin var, gətir, düzü, **bərk** acmışam.*

Təranə **dərhal** nimçəyə xörək töküb atasının qabağına qoydu. Qızının qulluğundan xoşallanan Səlim gülümsəyirdi. Tərənənin isə gözləri atasının üzünə dikilib qalmışdı. Elə bil ki, az bilən şagird tələbkar müəllimə imtahan verirdi. O öz-özünə: "Görəsən, xörək atamın xoşuna gələcəkmi?" – deyirdi.

Səlim xörəkdən bircə qaşıq ağzına alan kimi üz-gözünü turşutdu. Düşündü ki, yəqin, arvad tələsib, yoxsa bu qədər bibər tökməzdi. O, Tərənənin xörək bişirməsini isə heç ağlına belə gətirmirdi. Səlim xörəkdən bir neçə qaşıq da yedi. Lakin dili, ağzı od tutub odlandığı üçün kənara çəkildi. Tərənə atasının gözlərindən yaş axdığını görcək təəccübləndi.* Onu fikir götürdü: "Atamın gözü niyə yaşardı? Yəqin xörək ________. O utandığından yan otağa keçdi. Lakin atası onu çağırdı:

– Qızım, içməli su gətir. Uşaqlar həyətdə qartopu oynayırdılar.*

Atası xörəyin çoxunu yeməmişdi. Bu, balaca aşpazı **yamanca** narahat etdi.* "Görünür, xörək atamın xoşuna gəlməyib". O, xörəyi mətbəxə apararkən bir qaşıq ağzına aldı. "A... bu ki lap zəhərdir!.." Tərənə səhvini yalnız indi başa düşdü. O utandığından bir müddət atasının gözünə görünə bilmədi.

Aradan bir **xeyli** keçmişdi ki, Tərənənin anası gəldi. Qız qapıda anasının boynunu qucaqlayıb onu mətbəxə apardı. Orada bütün əhvalatı anasına danışdı. Sonra da xahiş etdi ki, bu barədə atasına heç bir söz deməsin. Anası qızının bərk xəcalət çəkdiyini görüb onu bağrına basdı və dedi:

– Mənim balaca aşpazım, niyə bu qədər narahat olursan?! Hər iş başlanğıcda çətin olur. Fikir etmə, **yavaş-yavaş** öyrənərsən.* Atana da bu haqda heç bir söz demərəm.

***İsa Hümmətov***

**SÖZLÜK**

| | |
|---|---|
| düzü | başlanğıc |
| tələbkar | nimçə |
| bir müddət | qulluq |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| fikir götürmək | od tutub odlanmaq |
| gözünü çəkməmək | gözləri dikilib qalmaq |
| üz-gözünü turşutmaq | |

1 Mətn üzrə sadə plan tərtib edin və onun əsasında məzmununu danışın.

2 Qruplara bölünün və mətnin məzmunu üzrə hərəniz ən azı beş sual tərtib edin. Sualların dilin normaları baxımından düzgünlüyünə diqqət yetirin.

3 Təranənin utanmasının səbəbi nə idi? Məgər adam xörək bişirməyinə görə xəcalət çəkər? Müzakirəyə qoşulun.

4 Mətndəki mavi boşluqda hansı söz yazılmalıdır?

A) dadlıdır B) yağlıdır C) duzludur Ç) şirindir

5 Mətnə hansı atalar sözü uyğundur?

A) Uşaq atasından güclüsün bilməz. B) Uşaq yıxıla-yıxıla böyüyər.
C) Uşaq gördüyün götürər. D) Göz gördüyünə inanar.

6 Buraxılmış şəkilçiləri artırmaqla cümlələri yazın.

Ruslar.. "şaşlık" dediyi bu söz mənşəcə türk sözü olan "şişlik" sözün.. götürülüb. "Kitabi-Dədə Qorqud" dastanın.. "şişlik" sözü.. dəfələrlə rast gəlinir. Azərbaycan kababı.. müxtəlif növləri var. XIX əsr.. ortalarında Azərbaycan.. səfər etmiş Aleksandr Düma, səyahət boyu rast gəldiyi ən ləzzətli yeməy.. məhz kabab olduğu.. yazırdı.

7 Aşağıda verilən aforizmləri oxuyun və nəticə çıxarın. Bu fikirlər hansı mətnin məzmunu ilə səsləşir. Bu fikirlər ətrafında debata qoşulun.

### HİKMƏT XƏZİNƏSİNDƏN

*Bilmədən edilən səhv yanlışlıq, qəsdən edilən səhv isə cinayətdir.* ***B.Brext***

*Bəzi adamlar heç vaxt səhvə yol vermirlər, çünki heç nə etmək istəmirlər.*
***İohann Volfqanq Höte***

8 Mətnin məzmunu ilə əlaqəsi olmayan cümləni tapıb səsləndirin.

9 Cümlələrdə altından xətt çəkilmiş sözlərdə səhvə yol verilmişdir. Səhvləri tapıb düzgün şəkildə yazın.

1) Təranə tez qaçıb <u>qapıda</u> açdı. 2) Təranə atasının <u>gözləri</u> yaş axdığını görcək <u>təəccübləndilər</u>. 3) Qızının <u>qulluğuna</u> xoşallanan Səlim <u>gülümsəmişdim</u>. 4) Səlim <u>xörəyin</u> bircə qaşıq <u>ağzıma</u> alan kimi üz-gözünü <u>turşutdun</u>.

10 Mətndə göy rəngdə verilmiş sözləri aid olduğu sözlərlə birgə yazın. Sualların vasitəsi ilə hər birinin nə bildirdiyini ( yer, zaman və s.) izah edin.

11 Üzərində ulduz işarəsi qoyulmuş və altından xətt çəkilmiş feilləri ayrı-ayrı sütunlarda yazın. Hər iki sütunda verilmiş feillərin zamanını və şəxsini

müəyyənləşdirin. Deyə bilərsinizmi, feilləri niyə ayrı-ayrı sütunlarda yazdınız? Bu sütunlar bir-birindən nə ilə fərqlənir?

### TAP GÖRƏK

⑫ Tapmacanı oxuyun və cavabını tapın. Altından xətt çəkilmiş sözü cümlədə elə işlədin ki, o, əşyanın əlamətini bildirsin.

Ələk boyda üzü var,
Yüz əllicə gözü var.
Ağzı yuxarı baxar,
Altından yağış yağar. ✉

## § 30. UŞUN QOCA OĞLU SƏGRƏK BOYU *(ixtisarla)*

### *1-ci hissə*

Oğuzların zamanında Uşun Qoca deyilən bir kişi vardı. Onun iki oğlu vardı. Böyük oğlunun adı Əgrək idi. Pəhləvan, cəsur, yaxşı bir igid idi. Haçan istəsə, Bayandır xanın divanına gedib-gəlirdi. Bəylərbəyi olan Qazanın divanında* onun üçün qapı-baca yox idi. Bəyləri aşağı başda qoyub, Qazanın lap önündə otururdu.

... Qardaşı Əgrək Əlincə qalasında zindana ______ Səgrək hələ beşikdə idi. İndi isə böyüyüb pəhləvan cüssəli bir igid olmuşdu.

Bir gün Səgrək gördü ki, iki uşaq dalaşır.

– Ə, sizə nə olub, niyə dalaşırsınız? – deyib hərəsinə bir şillə vurdu.

Acığı tutan oğlan dedi: – Bizi niyə vurursan? Qardaşın Əlincə qalasında əsirdir, hünərin varsa, get, onu qurtar.

– Ədə, qardaşımın adı nədir?

– Əgrəkdir.



Səgrək öz-özünə: “Əgrəyə Səgrək yaraşır; qardaşım sağmış,* daha fikir eləmərəm. Qardaşsız oğuz elində durmaram”, – deyib atasının evinə gəldi. Anasından bir söz almaq üçün: “Ana, Qalın Oğuz elində bir məclisdə idim. Ora bir çapar gəldi. Dedi ki, Əgrək adlı bir igid çoxdan əsir idi, Allahın köməyilə dustaqlıqdan

çıxıb gəlib. Hamı o igidi qarşılamağa getdi, mən də gedimmi?”- dedi.

Anasının gözləri yaşla doldu və dedi: “Nə durmusan, oğul, atını çap, Qalın Oğuz bəyləri ilə sən də get! O igidə çatan kimi atından en, əllə görüş, əlini öpüb, boynunu qucaqla!”

Səgrək anasının sözlərindən hər şeyi başa düşdü və dedi: – Mənim öz qardaşım varmış, yolumdan dönmərəm, oğuz elində qardaşsız durmaram.

Ata-anası nə qədər “yanlış xəbərdir, getmə, qoca ata-ananı gözüyaşlı qoyma”, – deyib yalvardılarsa da, Səgrək razılaşmadı. Dedi:

– Məni yolumdan eləməyin. Qardaşım tutulan qalaya getməyincə, onun **ölü**, ya **diri** olduğunu bilməyincə, ölübsə, qanını almayınca Qalın Oğuz elinə qayıtmaram.

Ata-ana ağlaşıb Qazan xana xəbər ________ . “Oğlan qardaşını yada salıb gedir. Bizə nə məsləhət verirsən?” – dedilər.

Qazan xan onu evləndirməyi məsləhət ________ .

Səgrəyin nişanlısı vardı. Ata-anası tez yır-yığış edib Səgrəyə toy etdilər ki, bəlkə, onu fikrindən döndərə bildilər. (ixtisarla)

Necə düşünürsünüz, Əgrək ata-anasının sözünə qulaq asıb, fikrindən dönəcəkmi, yoxsa qardaşının arxasınca Əlincə qalasına gedəcək?

**SÖZLÜK**

| | |
|---|---|
| zindan | çapar |
| yanlış | nişanlı |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| söz almaq | qanını almaq |
| fikrindən döndərmək | divan |

1 Sirri öyrənmək üçün Səgrək necə hərəkət etdi? Cavabınızı əsaslandırın.

A) Əsirlikdən gələn bir oğuz igidi ilə görüşdü.
B) Uşağı döyüb qardaşının yerini öyrəndi.
C) Anasını sirri açmağa məcbur etdi.
D) Anasına yalan danışdı və əsirlikdən qayıdan Əgrək adlı bir igidlə görüşmək üçün ondan icazə istədi.

2 Səgrəyin yerində olsaydınız, sirri öyrənmək üçün siz də onun kimi hərəkət edərdinizmi? Müzakirəyə qoşulun.

3 Verilmiş cümlələri tərcümə edərək, “Kitabi-Dədə Qorqud” dastanı haqqında məlumatınızı artırmağa çalışın.

“Kitabi-Dədə Qorqud” dastanı ana dilimizin və tariximizin ən möhtəşəm abidəsidir. Dastan 12 hissədən ibarətdir. Hər hissə “boy” adlanır. Dastan belə başlayır: “Məhəmməd peyğəmbərin zamanına yaxın Bayat (24 oğuz tayfasından birinin adı) boyunda (tayfasında) Qorqud ata deyilən bir kişi vardı. O kişi oğuzların kamil bilicisi idi: nə deyirdisə, olurdu ...”.

“Uşun Qoca oğlu Səgrək boyu” dastanın 10-cu boyudur.

4 Mətndə yaşıl rəngdə verilmiş sözləri və ifadələri hansı sözlərlə əvəz etmək olar? Cümlələri tapdığınız sözlərlə yenidən qurun və yazın. Oxuduğunuz cümlələri siz qursaydınız, bu sözlərdən hansına üstünlük verərdiniz?

5 Mətndəki yaşıl boşluqlar hansı variantdakı sözlərin yerinə qoyulub?

A) atılanda, yolladılar, verdi
B) tullananda, elədilər, bildi
C) salınanda, göndərdilər, gördü
D) göndəriləndə, yazdılar, elədi

6 Deyə bilərsinizmi, mətndəki iki söz niyə eyni rəngdə (göy) verilib? Fikrinizi əsaslandırmaq üçün özünüzdən bu cür misallar deyin.

7 "Cəsur" sözünü aşağıdakılardan hansı ilə əvəz etmək olmaz? Fikrinizi əsaslandırın.

A) qoçaq B) igid C) cürətli D) mərd E) ağıllı

8 Mətndən seçilmiş aşağıdakı sözləri kök və şəkilçiyə ayırıb yazın. Həmin köklərdən başqa hansı sözləri düzəldə bilərsiniz? Özünüzü yoxlayın və düzəltdiyiniz sözləri də dəftərinizə yazın.

çapar, görüşmək, qarşılamaq, dustaqlıq, qucaqlamaq, evləndirmək

9 Mətnin məzmunu üzrə beş bənddən ibarət plan tərtib edib, yazın.

10 Uzun ayrılıqdan sonra insanlar bir-biri ilə görüşəndə hansı sözləri işlədirlər? Düzgün olanlarını seçib səsləndirin.

1) Ömrün uzun olsun! 2) Xoş gördük! 3) Sizi gördüyümə çox sevindim! 4) Gözləriniz aydın olsun! 5) Uğur olsun! 6) Sizin üçün darıxmışdıq! 7) Gözlərim yolda qalmışdı! 8) Nə yaxşı ki, gəldiniz! 9) Gəldiyinizə çox sevindim! 10) Xeyir aparasınız! 11) Sağ gedib, salamat qayıdasan. 12) Allah ürəyinizcə versin!

11 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözün bildiyiniz mənalarını cümlələrdə işlədin.

## § 31. UŞUN QOCA OĞLU SƏGRƏK BOYU

### *2-ci hissə*

Səgrək toy günü nişanlısına: "Qardaşımın üzünü görməyincə, ölmüşsə, qanını almayınca, qoy qılıncıma doğranım!" – deyib atını yəhərlədi. Döyüş paltarını geyindi.

Nişanlısı nə qədər yalvarıb onu saxlamaq istəsə də, Səgrək: "Qardaşımın başına and içmişəm, dediyimdən dönmərəm", – dedi.

Ata-anası çox ah-nalə etdilər, yalvardılar, "oğul, getmə", – dedilərsə də, çarə olmadı. Səgrək: "Qardaşım tutulan o qalaya getməyə bilmərəm!" – dedi.

Belə olduqda ata-anası: “Get, oğul! Yolun açıq olsun! Gedib-qayıtmaq qismətində varsa, sağ-salamat gedib gələsən!” – dedilər.

Səgrək ata-anasının əlini öpdü. Sıçrayıb Qaracıq atına mindi. Gecəni gündüzə qatıb üç gün, üç gecə at çapdı. Dərəşam sərhədindən keçib, qardaşının tutulduğu qoruğa gəldi. Qılınc çəkib 6 ilxıçı kafiri yerə sərdi. Üç gün gecə-gündüz at çapdığından onu yuxu basdı. Atının yüyənini biləyinə bağladı, yatıb yuxuya getdi.

Qara Təkurun casusları ona xəbər verdilər ki, bir oğuz igidi gəldi, ilxıçıları öldürdü, dayları hürkütdü, gətirib qoruğa saldı.

Kafirin başçısı onu tutub gətirmək üçün 60 silahlı göndərdi. **Səgrəyin** atı yaxşı atlardan idi. At kişnərtisini eşidib, çəkib onu oyatdı. **Səgrək** yerindən sıçradı, onların hamısını qılıncdan keçirdi, atının yüyənini biləyinə keçirib yenə yatdı.

Necə düşünürsünüz, Səgrək qardaşını xilas edə biləcəkmi? Əhvalatı necə davam etdirərdiniz?

Kafirlərin sağ qalanları qaçaraq olanları Qara Təkura **çatdırdılar**. Bu dəfə Təkur **əsəbiləşib** 100 adam göndərdi. At yenə oğlanı oyatdı. Səgrək gördü ki, bir alay atlı gəlir. Durdu, atına mindi, salavat çəkdi. Kafirlərin hamısını qılıncdan keçirdi, yenə **dönüb** öz yerinə gəldi. Atının yüyənini biləyinə keçirdi, ancaq bu dəfə at oğlanın qolundan açılıb qaçdı.

Təkur bu dəfə 300 adam **göndərmək** istədi. Ancaq kafirlər dedilər ki, getmirik, kökümüzü kəsib hamımızı qırar. Gördülər ki, **Səgrəklə** bacara bilməyəcəklər, dedilər ki, oğuz oğlunu oğuz oğlu məğlub edə bilər. Gəlib **Əgrəyə** dedilər: “İgid, təkur sənin gücünə-qeyrətinə sığındı. Burada bir dəli igid yolçunun-dilənçinin, çoban-çoluğun çörəyini əlindən alır. Tut o igidi öldür, səni azad eləyək, çıx get!” (ixtisarla)

Necə düşünürsünüz, Əgrək kafirlərlə razılaşacaqmı? Bəs siz bu əhvalatı necə davam etdirərdiniz? Öz variantınızı təqdim edin.

**SÖZLÜK**

| | |
|---|---|
| qismət | yüyən |
| ilxıçı | day |
| alay | hürkütmək |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| qılıncdan keçirmək | kökünü kəsmək |
| gecəni gündüzə qatmaq | salavat çəkmək |
| gücünə-qeyrətinə sığınmaq | |

1 Aşağıdakı sualların mətnin məzmununu əks etdirmədiyini faktlarla əsaslandırmağa çalışın.

1) Səgrəyin nişanlısı nə etdi ki, o, döyüş paltarını soyundu və atını açıb buraxdı?

2) Ata-anasının icazə verməsinə baxmayaraq, Səgrək niyə qardaşının əsir düşdüyü qalaya getmək istəmədi?

3) Qardaşının tutulduğu qoruğa çatanda Səgrək nədən qorxdu?

4) Səgrək yatanda kafirlər onun atını necə ələ keçirdilər?

5) 60 silahlı Səgrəyi əsir götürəndə at niyə kişnəmədi?

6) Səgrəyi Qara Təkurun yanına gətirəndə o, kafirin əlini öpüb nə xahiş etdi?

**2** Mətndə altından xətt çəkilmiş feillərdən təsdiq və inkarda olanları seçib ayrı-ayrı sütunlarda yazın. Hər bir feilin zamanını və şəxsini müəyyənləşdirib qarşısında mötərizədə qeyd edin.

**3** "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı deyilənlərdən biri səhvdir.

Testin düzgün cavabını tapmaq üçün tədqiqat aparmağınız lazım gələcəkdir.

A) "Uşun Qoca oğlu Səgrək boyu"nun qəhrəmanı Qazan xandır.

B) "Kitabi-Dədə Qorqud" dastanının əlyazma nüsxələrindən biri Almaniyanın Drezden kitabxanasında, biri isə İtaliyada Vatikan kitabxanasında saxlanılır.

C) "Kitabi-Dədə Qorqud" dastanı elm aləminə 1815-ci ildə məlum olmuşdur.

D) "Kitabi-Dədə Qorqud" dastanı 12 boy və bir müqəddimədən ibarətdir.

### TAP GÖRƏK

**4** Tapmacanı oxuyun. Necə bilirsiniz, cavabın oxuduğunuz mətnlə hər hansı bir əlaqəsi varmı?

Gözü bənzər ceyrana,
Xidmət edər insana.
Adam çıxsa üstünə,
Baş əyməz heç sultana.

**5** Aşağıdakı cavablardan hansını Səgrəyə aid etmək olmaz?

A) sözünün üstündə duran
B) dediyindən dönməyən
C) qardaşı üçün canından keçməyə hazır olan
D) kafirlərdən qorxub qaçan

**6** Mətndəki sayları tapıb sözlə yazın və cümlələrdə işlədin.

**7** Mətndə göy rəngdə verilmiş sözləri elə sözlərlə əvəz edin ki, cümlələrin mənası dəyişməsin.

**8** Dastanın 1-ci və 2-ci hissəsində işlənən xüsusi isimləri seçib müvafiq sütunlarda yazın və hər birinin nə bildirdiyini izah edin.

9 Mətndə çəhrayı rəngdə verilmiş sözlərin yazılışı ilə bağlı bildiyiniz qaydanı yadınıza salın və izah edin. Bu sözləri ismin müxtəlif halları üzrə dəyişib yazın.

10 Mətndə işlənmiş alqışları seçib səsləndirin, sonra Dədə Qorqudun aşağıda verilmiş alqış və dualarını oxuyun, mənasını izah etməyə çalışın.

1) Haqq yandıran çırağın daim yansın! 2) Qanadlarının ucları qırılmasın! 3) Qarlı uca dağların yıxılmasın! 4) Kölgəlik hündür ağacın kəsilməsin! 5) Coşqun axan gözəl suyun qurumasın! 6) Tanrı səni namərdə möhtac etməsin!

## § 32. UŞUN QOCA OĞLU SƏGRƏK BOYU

### *3-cü hissə*

Əgrək kafirlə razılaşdı. Onun saç-saqqalını ülgüclədilər. Bir at, bir qılınc verdilər, 300 kafiri də ona qoşdular.

Kafirlər Səgrəyi kənardan Əgrəyə göstərib qorxularından yaxına getmədilər. Əgrək dedi:

– Siz gözləyin, mən gedim onun əl-ayağını bağlayım, siz sonra gələrsiz.

Əgrək atından düşüb onu bir budağa ilişdirdi. Gördü ki, bir gözəl, ala gözlü gənc igid puçur-puçur tərləyib yatır, gələndən-gedəndən xəbəri yoxdur. Birdən gözü yanına qoyduğu qopuza sataşdı. Öz eli-obası yadına düşdü. Qəhərləndi və qopuzu əlinə aldı, dərdli-dərdli çalıb oxudu.

Səgrək gərnəşib ayağa durdu. Əli qılıncının dəstəyindən yapışdı ki, onu vura, gördü ki, əlində qopuz vardır. Dedi: "Ay kafir, dədəm Qorqudun qopuzuna hörmət edib səni vurmadım. Əgər əlində qopuz olmasaydı, qardaşımın başına and olsun, səni iki para edərdim".

Səgrək çəkib qopuzu onun əlindən aldı və dedi: "Ey kafir, mənə de görüm, qalanızda dustaq varmı, atımı yorub bura gəlməyim qardaş üçündür".

Əgrək dedi: "Qardaş, yerin-yurdun haradır, hansı eldənsən? Döyüş günü öndə gedən igidiniz, böyük bayraq götürən xanınız kimdir? İgid, sənin atan kimdir? İgid adamın iqiddən ad gizlətməsi eyibdir, sənin adın nədir? İgid, söylə mənə, yoxsa sən mənim beşikdə qoyub gəldiyim qardaşımsanmı?"

Əgrəyin sözü Səgrəyi tutdu. Odur ki, dedi:

– Böyük bayraq götürən xanımız Bayındır xandır!
Döyüş günü öndə gedən igidimiz Salur Qazandır!
Atamın adını soruşursan, Uşun Qocadır!
Mənim adımı bilmək istəsən, Səgrəkdir!
Qardaşım varmış, deyirlər, adı Əgrəkdir.

Sonra dedi: "Beşikdə qoyub gəldiyin qardaşınam".

İki qardaş qalxıb qucaqlaşıb görüşdülər. Əgrək kiçik qardaşının boynunu, Səgrək isə böyük qardaşının əlini öpdü.

Sonra iki qardaş birləşib qara donlu kafirləri qırıb-çatdılar, qovub qalaya saldılar. Dərəşam suyunu üzüb keçdilər. Gecəni gündüzə qatıb, Oğuz yurdunun sərhədinə **yetişdilər**. Səgrək ağ saqqallı atasına muştuluqçu göndərdi.

Uşun Qocanın qapısına çapar gəldi: ”Muştuluq! Gözün aydın! Oğullarının ikisi də sağ-salamat gəldi!” – dedilər.

Uşun Qoca eşidib şad oldu. Gumbur-gumbur təbillər çalındı. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirildi. Şadlıq, yemək-içmək oldu.

Uşun Qoca böyük oğlu üçün də gözəl gəlin gətirdi.

Elin ağsaqqalı Dədə Qorqud da gəldi, igidlərə xeyir-dua verdi.

**“Kitabi-Dədə Qorqud” dastanından**

### SÖZLÜK

ülgücləmək
qəhərlənmək
muştuluqçu
ilişdirmək
gərnəşmək

### SÖZ EHTİYATI

ayğır
buğra
xeyir-dua vermək

1 Mətn üzrə tərtib edilmiş planda ardıcıllıq pozulmuşdur. Düzgün ardıcıllığı bərpa edin və plan əsasında məzmunu qısaca danışın.

1) Əgrəyin kafirlə razılaşması.
2) İki qardaşın qucaqlaşması.
3) Səgrəyin  atasına muştuluqçu göndərməsi.
4) Əgrəyin qopuzu görməsi.
5) Əgrəyin Səgrəyin kimliyini soruşması.
6) Dədə Qorqudun xeyir-dua verməsi.

2 Qardaşların biri-birini tanımasına nə səbəb oldu? Bunu tapmaq üçün verilmiş cümlələrdə boşluqların yerinə hansı sözü qoymaq lazımdır? Sözü əlavə edərək, cümlələri yazın.

– Ay kafir, dədəm Qorqudun ______ hörmət edib səni vurmadım. Əgər əlində ______ olmasaydı, qardaşımın başına and olsun, səni iki para edərdim!

3 “Oğuz oğlunu oğuz oğlu məğlub edə bilər” ifadəsini necə izah edərsiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

4 Mətndə qardaşların görüşdüyü hissəni səhnələşdirin. Bu işdə müəlliminizin köməyindən istifadə edin.

5 Cümlələri mətnin məzmunu əsasında tamamlayın.

1) Siz gözləyin, mən gedim ... . 2) Qəhərləndi və qopuzu əlinə ...  . 3) Səgrək qılıncın dəstəyindən yapışdı ki, ... . 4) Ey kafir, mənə de görüm, qalanızda dustaq

... . 5) Əgrək kiçik qardaşının boynunu, ... . 6) Döyüş günü öndə gedən ... .

6 Mətndə yaşıl rəngdə verilmiş sözləri aid olduğu sözlərlə birlikdə yazın. Sualların köməyi ilə həmin sözlərin nə bildirdiyini müəyyənləşdirin və hansı söz qrupuna aid olduğunu izah edin. Həmin sözləri başqa cümlələrdə də işlədin.

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***İlişdirmək*** – 1. Bir şeyi başqa bir şeyə keçirib bənd etmək, taxmaq; bir şeyi çəngəl, mıx, düymə və s. bu kimi şeylərlə tutdurmaq; Bağlamaq, bənd etmək – Atı budağa ilişdirdi; Dolaşdırmaq, dolaşıq salmaq – Açar ilişir.

2. Məcazi mənada: Bərk vurmaq, çəkmək (sillə, yumruq, təpik və s.) – Oğruya bir yumruq ilişdirdim.

3. (Birisinin) işini qarışdırmaq, pis bir əngələ salmaq, dolaşığa salmaq, dolaşdırmaq – Dostumu yamanca ilişdirdilər.

7 Dastandan götürülmüş aşağıdakı parçanı oxuyun və düşünün: bu sözləri dastan qəhrəmanlarından hansı söyləyə bilər?

Ağzın üçün ölüm, qardaş!
Dilin üçün ölüm, qardaş!
Ərmi, igidmi oldun, qardaş?!
Qəribliyə qardaşın üçün sənmi gəldin, qardaş?!

8 Mətndə göy rəngdə verilmiş sözün mətnə uyğun mənasını izah edin və onu cümlələrdə müxtəlif mənalarda işlədin.

9 Dastanın axırıncı cümləsini bir daha oxuyun. Əvvəl öyrəndiyiniz alqış və duaları yadınıza salın və Dədə Qorqudun yerinə xeyir-duanı indi siz verin.

Yadınızda saxlayın ki, "Kitabi-Dədə Qorqud" dastanındakı 12 boyun hamısının sonunda Dədə Qorqud gəlib söz söyləyir, xeyir-dua verir.

10 Buraxılmış şəkilçiləri artırmaqla cümlələri köçürün.

İgidim, mən sən.. bir il gözlər.. ,
Bir ilə gəlmə.., iki il gözlər.. .
... Altı yol.. ayrıcında çadır qurar.. ,
Gedən.. , gələndən xəbər soruşar.. .
Xeyir xəbər gətirən.. at, don verər.. ,
qaftanlar geydirər.. .

11 Dədə Qorqudun yeni alqış-dualarını oxuyun və yeri gələndə onlardan istifadə edin.

## DƏDƏ QORQUD ALQIŞ-DUALARI

1) Qadir Allah üzünü ağ etsin! 2) Allah-Təala sənə bir oğul versin! 3) Elimizdə çalıb oxuyan ozan olsun! 4) Allah verən umudun üzülməsin! 5) Çaparkən ağ-boz atın büdrəməsin! 6) Çalanda qara poladüz qılıncın kütləşməsin! 7) Vuruşarkən uzun nizən əyilməsin! 8) Əlin var olsun! 9) Bu ad, bu yigidə qutlu olsun!

✿ Fərqləndirilmiş söz və ifadələrin mənalarını lüğətdən öyrənin.

# § 33. VƏTƏN ƏBƏDİ QORUQDUR ...

Vətəni sevmək azdır,
Onu qorumaq gərək ...
Vətənim demək azdır,
Vətənin olmaq gərək ...

Onun adi torpağı
Ruhdan, candan irəli.
O, atadan qabaqdır,
O, anadan irəli...

Övlad gərək vətənə!
Vətəndir yol, – deyirlər.
Ona qurban gedənə
Əsil oğul deyirlər.

Onun əvəzi olmur,
O, hər kəsdən irəli ...
Gözdən əzizi olmur,
Vətən gözdən irəli ...

Nə vaxt viran olur o,
Zülmət gəzir üzündə,
Cığırını, yolunu,
Yad çəkmələr əzəndə ...

Bilir ərlər, ərənlər
Vətənə tay olmayır ...
Ömürdən pay verərlər,
Vətəndən pay olmayır ...

***Cabir Novruz***

**SÖZLÜK**

| | | | |
|---|---|---|---|
| əzmək | ərlər | ərənlər | viran olmaq |

1 Şair nə üçün Vətənini əbədi qoruğa bənzədir? Hansı variant şeirin məzmunu ilə birbaşa əlaqələnmir? Fikirlərinizi əsaslandırın.

A) Qoruq qiymətli məkan olduğu və onu qorumaq hamının borcu olduğu üçün.

B) Qoruqda çoxlu sayda nəsli kəsilməkdə olan canlılar saxlandığı üçün.

C) Vətən yolunda minlərlə oğul və qızlarımız canlarından keçib şəhid olduqları üçün.

D) Vətən gözdən də, candan da əziz olduğuna görə.

E) Vətən torpağı atadan da, anadan da qabaq olduğuna görə.

2 “Vətən hər şeydən şirindir!” – atalar sözü ilə şeirin hansı misraları uyğunluq təşkil edir? Həmin misraları öz sözlərinizlə izah edin.

3 Aşağıdakı sözlərin suallarını qarşılarında yazın. Hansı sözlərə sual vermək olmur? Tədris dilindəki biliklərinizə əsasən mülahizələrinizi söyləyin.

övlad – , görə –, torpağı –, qurban –, ərənlər –, üçün –, əziz –, zülmət –, oğul –, qorumaq –, ötrü –, gözdən –, cığırını –, deyirlər –, ancaq –, ilə –.

Sual verə bilmədiyiniz sözləri cümlədə işlədin. Onların cümlədəki başqa sözlərlə necə əlaqələndiyinə fikir verin.

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, hər birimiz nitqimizdə əsas məna ifadə edən sözlərlə yanaşı, **köməkçi nitq hissələr**indən də istifadə edirik. Köməkçi nitq hissələri konkret mənaya malik olmadığı üçün onlara sual vermək olmur.

Azərbaycan dilində işlənən köməkçi nitq hissələri **qoşma**, **bağlayıcı**, **ədat**, **modal sözlər** və **nida**dır.

4 Hansı fikir şeirin məzmununa uyğun gəlmir?

A) Vətən üçün canından keçənlərə Vətən əsl oğul deyir.

B) Vətəni dünyada təbliğ etmək üçün bir sıra ölkələrə səyahət etmək, həmin ölkələrin insanları ilə görüşmək tələb olunur.

C) Vətəni sevdiyini göstərmək üçün onu tərifləmək azdır, Vətənə xidmət etmək, onu qorumaq, ona layiqli övlad olduğunu işlə sübut etmək lazımdır.

D) Göz insan üçün ən əziz nemət sayılır, ancaq Vətən gözdən də əzizdir.

5 Şeirin 2-ci və 4-cü bəndlərindəki “irəli” sözü hansı mənalarda işlənib?

A) əziz B) öndə C) vacib D) qabaqda E) vəfalı

6 Vətənimizin təhlükə ilə qarşılaşması, düşmənlərin doğma torpaqlarımızın müəyyən hissəsini tapdaq altında qoyması şeirin hansı bəndində təsvir olunur? Həmin bənddə məcazi mənada işlənmiş ifadənin mənasını izah edin.

7 Verilmiş atalar sözləri əvvəlki siniflərdən sizə tanışdır. Oxuyun, səhvləri tapıb, onların düzgün şəklini yazın.

1) Elə arxalanan igidin arxası yerə dəyər. 2) Torpaq deyər: – Dirilt məni, öldürüm səni! 3) Vətənə gəldim, limana gəldim. 4) Qürbət Vətən olsa, yenə cənnət yaxşıdır. 5) Vətənin min qışı qürbətin yüz baharından yaxşı deyil. 6) Bülbül vətənini sevər, insan – gülü. 7) Gözsüz yaşamaq olar, vətənsiz də yaşamaq olar.

8 Aşağıdakı cümlələri diqqətlə oxuyun. Hansı cümlədə “doğru” sözü əşyaya, hansı cümlədə isə hərəkətə aid əlamət bildirir? Bəs 3-cü cümlədə bu söz nə bildirir?

1) Doğru söz acı olar. 2) Doğru ol, asan yol ilə get. 3) Evə doğru qaçmağa başladı. 4) Doğru yolla gedən yorulmaz. 5) Doğrusu, sənə inanmağım gəlmir.

❁ Çalışmada verilmiş cümlələrdən hansılar atalar sözləridir. Onları seçib səsləndirin və mənasını izah edin.

**9** Aşağıda1990-cı ilin 20 yanvar gecəsində şəhid olmuş 20 yaşlı tələbə – şair Ülvi Bünyadzadənin ölümündən xeyli qabaq yazdığı "And"dan bir neçə cümlə verilmişdir. Oxuyun və nəticə çıxarın: əsl vətənpərvər necə olmalıdır?

## A N D

"Mən, Bünyadzadə Ülvi Yusif oğlu, həyatımda ilk və son dəfə öz vicdanım qarşısında and içirəm: bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam; Azərbaycan torpağımın qürurdan, qeyrətdən yoğrulmuş adını müqəddəs tutacaq, bu ada ləkə vurmaq istəyən bütün ünsürlərə qarşı duracağam; … nəyin bahasına olursa-olsun, öz azərbaycanlı "mən"imi təsdiq edəcəyəm. Əgər vədimə xilaf çıxsam, qoy anamın südü, elimin çörəyi mənə haram olsun, Vətən üzü görməyim.

İmza: B. ÜLVİ. 10.IX-89".

| SÖZLÜK | ünsür | təmsil etmək |
|---|---|---|

❁ Qırmızı rəngdə verilmiş söz və ifadələrin mənasını lüğətdən tapıb öyrənin və hərəsini bir cümlədə işlədin.

**10** Verilmiş aforizmi əzbərləməyə çalışın. Bu aforizmi Ülvi Bünyadzadə kimi şəhidlərə aid etmək olarmı? Fikrinizi açıqlayın.

### HİKMƏT XƏZİNƏSİNDƏN

*Ölüm var ki, həyat qədər dəyərli,*
*Həyat var ki, ölümdən də zəhərli...* ***Hüseyn Cavid***

**11** Ülvi Bünyadzadənin "Vətən üçün ölməliyik" şeirindən aşağıdakı bəndi oxuyun. Nəzərə alın ki, şəhid şair bu şeiri yazanda sizinlə eyni yaşda idi. Necə düşünürsünüz, vətənə sevgi nə vaxtdan başlamalıdır? Müzakirəyə qoşulun.

## VƏTƏN ÜÇÜN ÖLMƏLİYİK

(Sinif yoldaşlarıma)

Döyüşlərdə yoğrulmuşuq,
Gələcəyə qaranquşuq.
Həyat üçün doğulmuşuq,
Vətən üçün ölməliyik!

**1982-ci il**

❀ Şeirdə işlənmiş feillərin zamanını və şəxsini müəyyənləşdirin.
❀ Şeirin adındakı “üçün” sözünün əvəzinə aşağıdakılardan hansını işlətmək olmaz?

A) yolunda B) uğrunda C) naminə D) düşünüb

KƏLMƏLƏRİN “DİLİ”Nİ ÖYRƏNƏK!

***Tutmaq*** – 1.Əli ilə bir şeydən yapışmaq. – Divardan tutmaq; əlində saxlamaq – Pulu əlində bərk tut. 2. Diri-diri ələ keçirmək, ovlamaq – Balıq tutmaq. 3. İşğal etmək, zorla bir yeri almaq, ələ keçirmək – Gecə düşmənlər kəndi tutdular. 4. Yoluxmaq, xəstələnmək – Qrip tutmaq. 5. Göyərmək, bitmək – Tinglərin bir hissəsi tutmadı. – 6. Qapmaq, dişləmək – İt onu tutdu.

## § 34. GÜCLÜ OĞLAN

Bu vaxtacan tay-tuşları arasında hələ heç kəs İlqarın kürəyini yerə vura bilməmişdi. On iki yaşı olsa da, hər cəhətdən yaşıdlarından seçilirdi.*

Bir gün qonşuları Hətəm əmigilə qonşu kənddən bir oğlan qonaq gəlmişdi. Uşaqlar bir yerə toplaşıb söhbət edirdilər. Hətəm əminin oğlu Əziz lap uzaqdan İlqarın gəldiyini görüb onu yanına çağırdı. Qonağı göstərib dedi:

– Tanış ol. Adı Elmardır. Kəndlərində yaşıdlarının hamısının kürəyini yerə vurur. Onunla güləşə bilərsənmi?

– Niyə güləşmirəm? – İlqar tez cavab verdi.

– Hə, onda başlayın.

Hər ikisi köynəklərini soyunub bir-birinə yaxınlaşaraq tutaşdılar. İlqar özü imkan verdi ki, birinci fəndi Elmar işlətsin. Həm də onun gücünü öyrənmək istəyirdi. Ancaq Elmarın işlətdiyi fənd **baş tutmadı**. İlqar cəld hərəkətlə onu başı üstündən aşıraraq kürəyini yerə vurdu. Ətraflarına toplaşan uşaqlar da, Əziz də açıq-açığına tərəfgirlik eləyib dedilər ki, yox, bu, kov deyil. Elmarın ayağı daşa ilişdi. Təzədən güləşin.

İlqar bir az hirslənsə* də, üzə vurmadı. Təzədən tutaşdılar. Bu dəfə yenə bir göz qırpımında İlqar Elmarın ayaqlarından yapışıb arxasını yerə vurdu. Uşaqlar hay-küy qopardılar.* Əziz yenə dilləndi:

– Yox, bu da kov deyil. Sən güləşə başlamamışdan Elmarın ayağından tutdun.* Yenə təzədən güləşin. Bu dəfə kim qalib gəlsə, demək, o, güclüdür.

Bir də tutaşdılar. Bu dəfə Elmar çox ehtiyatla, çəkinə-çəkinə güləşirdi, nə qədər fənd işlətsə də, bir şey çıxmırdı.

Elmar İlqarın qollarından tutub geri qanıranda İlqar qəflətən çevrilib onu üstündən aşırdı və kürəyini yerə vurdu.

Uşaqlar yenə qışqırışdılar. Əziz dedi :

– Sən Elmarın arxasını yerə vurmamışdan **əvvəl** çevriləndə kürəyin yerə dəydi.* Odur ki, Elmar səndən güclüdür .

İlqar hirsindən qəhərlənə-qəhərlənə ayağa durdu. Gözgörəsi ona qarşı edilən haqsızlıq İlqara o qədər pis təsir etmişdi ki, elə bil uşaqların hamısı üstünə düşüb onu möhkəmcə əzişdirmişdilər. Ağlamaq istəsə də, özünü zorla saxlayırdı. Yorğun-yorğun, gözlərinə heç nə görünmədən köynəyi əyninə geydi və kitab-dəftərini qoyduğu yerə **sarı** addımladı.*

Kitab-dəftərini qoltuğuna vurub, fikirli-fikirli evə **tərəf** gedirdi ki, birdən kiminsə əlini çiynində hiss etdi. Fikrindən ayrılıb yana çevrildi. Elmar gülümsəyə-gülümsəyə ona baxırdı. Onu görcək qeyri-ixtiyarı İlqar da gülümsündü, bayaqdan ürəyinə dolmuş hirsi-hikkəsi elə bil bircə anda yoxa çəkildi.

– Sən incimə, İlqar, – deyə Elmar sözə başladı. – Əzizgil qonaq olduğum **üçün** mənə tərəfgirlik elədilər. Sən məndən güclüsən .

Bayaqdan pərtlikdən rənginə qaranlıq çökmüş İlqarın sir-sifəti elə bil duruldu və bu ara o başa düşdü ki, Elmar yaxşı oğlandır. Mehribanlıqla Elmarın təbəssümdən işıqlanmış üzünə baxıb yumşaq-yumşaq etiraz etdi :

– Yox, sən məndən güclüsən!..

**Könül Abdullayeva**

## SÖZLÜK

| | | | |
|---|---|---|---|
| fənd | gözgörəsi | aşırmaq | qanırmaq |
| tərəfgirlik eləmək | | əzişdirmək | tutaşmaq |

1 Cümlələri mətnin məzmununa uyğun olaraq ardıcıl sıralayın.
1) Elmar İlqarın ondan güclü olduğunu etiraf etdi.
2) Üç dəfə döyüşdükdən sonra Elmar İlqarın kürəyini yerə vura bilmədi.
3) İlqar yaşıdları içərisində güclü oğlan sayılırdı.
4) Yaşıdlarının Elmara tərəfgirlik etmələri İlqara pis təsir etmişdi.
5) Bir gün qonşu kənddən qonşu Hətəm kişigilə qonaq gəlmişdi.

2 Hansı fikir mətnin məzmununa uyğun gəlir?
A) Elmar qonaq olduğu üçün uşaqlar onun tərəfini saxladılar.
B) Əslində Elmar İlqardan güclü idi.
C) İlqar özünün gücsüz olduğunu başa düşüb qəhərləndi.
D) Elə ilk cəhddə Elmar İlqarın kürəyini yerə vurdu.

3 Necə düşünürsünüz, uşaqların Elmara tərəfgirlik etməsi düzgündürmü? Sizlərdən biri o uşaqların arasında olsaydınız, necə hərəkət edərdiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

4 “Hikmət xəzinəsi”ndən aşağıdakı aforizmi oxuyun və yadda saxlayın. Aforizmdə deyilən fikri bu hekayənin qəhrəmanlarına aid etmək olarmı?

HİKMƏT XƏZİNƏSİNDƏN

*Dostlarla lovğa davranan adam onların səmimi məhəbbətini qazana bilməz.* ***Əbu Səid Təbrizi***

5 Mətnin məzmunu üzrə suallar tərtib edib yazın. Sualların düzgün tərtibinə diqqət yetirin.

6 Mətndə göy rəngdə verilmiş sözlər üzərində müşahidə aparın. Onların aid olduğu sözlərin ismin hansı halında işləndiyini müəyyənləşdirin.

7 Mətndə yaşıl rəngdə verilmiş feilləri kök və şəkilçiyə ayırıb yazın.

Bu feillərdən ikisi quruluşuna görə o birilərindən fərqlidir. Həmin sözləri tapıb səsləndirin və fikrinizi əsaslandırın.

8 Mətndə yaşıl rəngdə verilmiş feillərin köklərindən eyniköklü sözlər düzəldib yazın. Düzəltdiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlədin.

9 Hansı atalar sözü mətnin məzmununa uyğundur? Nə üçün?

A) El gücü, sel gücü.
B) Hər şeyin təzəsi, dostun köhnəsi.
C) İgidlik biləklə deyil, ürəklədir.
D) Yaxşılıq yerdə qalmaz.

10 Mətnin məzmunu əsasında cümlələri tamamlayın.

1) İlqar bir az hirslənsə də, ... . 2) Bu dəfə kim qalib gəlsə, ... . 3) Bu vaxtacan tay-tuşları arasında hələ heç kəs.... 4) İlqar fikirli-fikirli evə tərəf gedirdi ki, .... 5) İlqarın sir-sifəti elə bil duruldu və ... . 6) İlqar ağlamaq istəsə də, ... .

11 Mətndə qara rəngdə verilmiş sözü aşağıdakı variantlardan hansı ilə əvəz etsək, məna dəyişməz?

A) işə yaramadı B) alınmadı C) nəticə vermədi D) kömək etmədi

12 Mətndə altından xətt çəkilmiş sözlərin quruluşunu müəyyənləşdirib müvafiq sütunlarda yazın və hər birinin qarşısında suallarını qeyd edin.

| Sadə | Düzəltmə | Mürəkkəb |
|---|---|---|

✿ Onların aid olduğu sözləri hansı cəhətdən ( zaman, yer, tərz və s.) izah etdiyini aydınlaşdırın.

13 Mətndə işlənmiş mürəkkəb sözlərin yazılışı üzərində müşahidə aparın. Onların nə üçün bitişik və ya defislə yazılmasının səbəbini bilirsinizmi?

BUNLARI BİLİRSİNİZMİ?

Müxtəlifmənalı sözlərdən düzəlib bir vurğu altında deyilən mürəkkəb sözlər **bitişik yazılır**. Məsələn: ayaqqabı, itburnu, sarıköynək, hazırcavab, gözgörəsi, hərdənbir, günorta.

**Aşağıdakı mürəkkəb sözlər defislə yazılır:**

a) eyni sözün təkrarından əmələ gələnlər: dəstə-dəstə, fikirli-fikirli, yorğun-yorğun, top-top, bir-bir, tez-tez, şirin-şirin, dadlı-dadlı və s.

b) yaxın mənalı və antonim sözlərdən əmələ gələnlər: dost-tanış, oğul-uşaq, gec-tez, dərə-təpə, gecə-gündüz, get-gəl, dost-düşmən, az-çox və s.

c) tərəflərindən biri ayrılıqda işlənməyən sözlərdən əmələ gələnlər: əyri-üyrü, uşaq-muşaq, kağız-kuğuz, kələ-kötür, qarma-qarışıq, zir-zibil və s.

d) əvvəlinci hissəsi "qeyri, əks, anti, eks, super" və s. kimi sözlərdən ibarət olanlar: qeyri-ixtiyari, qeyri-adi, anti-faşist, eks-prezident və s.

14 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərin kontekstə uyğun qarşılıqlarını tapıb səsləndirin.

## § 35. ATIN BELİNDƏKİ KƏRƏM İDİ...

İsrafil nəsə demək istəyirdi ki, birdən atasını təzə görmüş kimi təəccüblə* ona baxdı. Gözlərini döyə-döyə soruşdu:

– Ağam, papağın hanı?

Nəzərlər ağaya dikildi. Bəlkə, kişi papağını çıxarıb yanına qoymuşdu? Baxışlar onun yan-yörəsində dolaşdı. Yox, qaragül buxara papaq gözə dəymədi. Görünür, bu vurhavurda, bu qaçhaqaçda papağın nə vaxt, harada düşdüyündən heç kəsin xəbəri olmamışdı. Bəlkə, kişinin özü də bundan xəbərsiz idi? Yox, ağa bayaqdan elə buna görə tutulubmuş. Kədərli halda bildirdi:

– Ağ yalda güllə yerə saldı.

Hamı məyus oldu. Araya soyuq sükut çökdü.



Kərəm fikirli-fikirli gəldiyi yollara boylandı. Sükutu İsrafil ağa pozdu:

– Mən gedib gətirərəm.

Oruc ağa oğluna baxdı. Ona güvəndi. İsrafil sözünü tamamladı:

– Amma indi yox, sabah. İndi ora getmək xatadı.

Ağanı elə bil don vurdu. O, oğlundan belə cavab gözləmirdi. Bu Acı dərə onu havasız bir zindan

kimi sıxdı. Təəssüflə* köksünü ötürdü və sinəsinə əyilmiş başını buladı. Bir xeyli heç kəs dinmədi. Sükutu pozmağa kimsə cəsarət etmədi. Nəhayət, Oruc ağa özü dilləndi:

– Yaxşı, siz gedin!

Bəs sən?! – İsrafil sadəlövhlüklə soruşdu. Ağa oğlunun üzünə baxmadan astadan israr etdi.

– Papaqsız kəndə getmərəm. Hava çox istidir.

Sözün dərinliyinə varmayan İsrafil yenə:

– Ağam, axı...

Ata oğlunun sözünü ağzında qoydu:

– Sənə dedim, papaqsız kəndə ayaq basmaram. Kişinin ya papağı qaldı, ya başı fərqi yoxdur. Demirsən, sabah gətirərsən? Mən də sabah kəndə gedərəm.

Elə bu zaman qəflətən at ayaqlarının tappıltısı eşidildi. Dərəni toz dumanı bürüdü. Hürkmüş nəzərlər tez o **səmtə** dikildi. Əllər silahları qamarladı. Atlının kimliyi bilinmədi. O yalnız tozlu dərədən döşə qalxanda elə bil şimşək çaxdı.

Atın belindəki Kərəm idi...

**Fərman Eyvazlı** – "Qaçaq Kərəm" romanından

**SÖZLÜK**

| | |
|---|---|
| sükut | qamarlamaq |
| xata | bürümək |
| səmt | israr etmək |
| sadəlövhlüklə | |

**SÖZ EHTİYATI**

Ağ yal
dərinliyinə varmaq
sözünü ağzında qoymaq
qaragül buxara papaq

1 Mətni oxuyun, əsas fikri müəyyənləşdirin. Necə düşünürsünüz, mətni "Kişinin ya papağı qaldı, ya başı ..." adlandırmaq olardımı?

2 Ağanın papağının başında olmaması niyə təəccüblə qarşılandı? Mətndən çıxardığınız nəticə əsasında düzgün hesab etmədiyiniz variantı səsləndirin.

A) Heç kəs ağanı indiyədək papaqsız görməmişdi.
B) Hava çox isti olduğu üçün ağa papağını çıxarmışdı.
C) Azərbaycanlı kişisi üçün papağın başında olmaması pis məna verirdi.
D) Vurhavurda, qaçhaqaçda heç kəs ağanın papağının düşdüyünü görməmişdi.

3 Aşağıdakı suallara cavab verin və mətni səhnələşdirin.

1) Oruc ağanın papağı niyə başında deyildi?
2) Ata ilə oğul arasında nə barədə dialoq gedir?
3) Oruc ağanın papağı harada düşmüşdü və buna nə səbəb olmuşdu?
4) Oruc ağa niyə kədərli görünürdü?
5) Oruc ağa niyə təəssüflə köksünü ötürdü?
6) Bir azərbaycanlı kişisi üçün nə qeyrət rəmzi sayılır?
7) Kərəmin gedişi nə üçün hamını təəccübləndirdi?

4 Mətndə yerində işlənməyən bir cümlə var. Onu tapıb səsləndirin və fikrinizi əsaslandırın.

5 Mətndə çəhrayı rəngdə verilmiş sözün yerində hansı ifadəni işlətmək olmaz?

A) tutuldu  B) xəyala daldı  C) pərt oldu  D) sarsıldı

6 Mətndə yaşıl rəngdə verilmiş sözləri aşağıdakı sütunlara uyğun olaraq qruplaşdırıb yazın və suallarını qarşılarında qeyd edin. Sonra həmin sözləri mənalı hissələrinə ayırın. Hər sözdə neçə mənalı hissə olduğunu müəyyənləşdirməyə çalışın.

İsimdən düzələn  Sifətdən düzələn  Feildən düzələn

7 Mətndə altından xətt çəkilmiş sözləri aid olduqları feillərlə yanaşı yazın. Onların aid olduğu sözləri hansı cəhətdən aydınlaşdırdığını izah edin.

8 Mətndə hansı xalq qəhrəmanından söhbət gedir? Onun haqqında nə bilirsiniz? Mövzu sizdə maraq oyatdısa, məlumatınızı genişləndirmək üçün tədqiqat aparın və topladığınız məlumatı yoldaşlarınızla bölüşün.

9 “Nəzərlər, getmərəm, baxışlar, kədərli, ayaq basmaram, məyus” sözləri işlənmiş cümlələri mətndən tapıb oxuyun. Həmin cümlələrdəki yaxınmənalı sözləri tapıb qarşı-qarşıya yazın və məna fərqi üzərində müşahidə aparın.

10 Aşağıdakı cümlədə altından xətt çəkilmiş söz mətndə hansı mənada işlənmişdir.

**Yox, ağa bayaqdan elə buna görə <u>tutulubmuş</u>.**

A) həbs edilmək  B) pərt olmaq  C) xəstələnmək  D) pozulmaq

11 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərin yazılışı və tələffüzü üzərində müşahidə aparın və özünüz də belə misallar deyin.

## BUNLARI BİLİRSİNİZMİ?

Dilimizdə elə sözlər var ki, onlarda iki sait hərf yanaşı işlənir. Bunlar qoşasaitli sözlər adlanır. Məsələn: saat, ailə, səadət, camaat, şair, şeir, radio, təəccüb, təəssüflə, bədii, mətbəə, təbii, maarif , müalicə, müasir və s.

Belə sözlərin əksəriyyəti yazıldığı kimi deyilmir.

Eynicinsli qoşasaitli sözlərdəki belə saitlər bir uzun sait – [a:], [ə:], [i:] kimi tələffüz olunur: saat – [sa:t], camaat – [cama:t], təəccüblə – [tə:ccübnən], təəssüf – [tə:ssüf], bədii – [bədi:],təbii – [təbi:] və s.

## TAP GÖRƏK

⑫ Tapmacaları oxuyun və cavablandırın. Hansı cavabın mətnlə əlaqəsi var?

1. Ağzını aşağı elərəm dolar,
Yuxarı elərəm boşalar. ✉

2. Gündüzlər dolanar,
Gecələr ağzı açıq yatar. ✉

✿ Tapmacalarda üç antonim cütlük (altı söz) işlənmişdir. Həmin sözləri seçib səsləndirin və cümlələrdə işlədin.

# § 36. QƏHRƏMANDIR AZƏRBAYCAN

Gəl Şirvana, Qarabağa, –
Üzündən nur yağa-yağa
Süfrə açar hər qonağa –
Mehribandır Azərbaycan.

Bağlarında hər cür nübar,
Meşələrin öz hüsnü var,
Həm şairdir, həm bəstəkar,
Həm bağbandır Azərbaycan.

Cavanlaşıb qədim diyar,
Şəhər gözəl, kənd bəxtiyar.
Torpaq verir – hər nəyi var
Firavandır Azərbaycan.

İnsanları duz-çörəkli,
Saf arzulu, saf diləkli.
Hər qarışı gül-çiçəkli
Bir məkandır Azərbaycan.

İgid oğlu, mərd qızı var,
Düz ilqarı, düz sözü var.
Sinəsində ulduzu var
Qəhrəmandır Azərbaycan!

**Həmid Abbasov**

| SÖZLÜK | |
|---|---|
| ilqar | hüsn |

| SÖZ EHTİYATI | |
|---|---|
| süfrə açmaq | üzündən nur yağmaq |

① Şeirdə Azərbaycandan “qonaqpərvər, mehriban bir insan, sinəsi ulduzlu qəhrəman, şair, bəstəkar, bağban” kimi bəhs edilir. Sizcə, bununla şair nə demək istəyir? Müzakirəyə qoşulun və fikirlərinizi yoldaşlarınızla bölüşün.

② Tərtib edilmiş planda şeirin məzmununa uyğun gələn sıralamanı bərpa edin və düzgün cavabı tapın.

1) Yaradıcı məmləkət.
2) Sinəsi ulduzlu qəhrəman.
3) Varlı ölkə.
4) Mehriban diyar.
5) Gözəl məkan.

A) 1, 2, 3, 4, 5 B) 5, 2, 1, 4, 5 C) 4, 1, 3, 5, 2 D) 3, 5, 2, 1, 4

3 Şeirdə yaşıl rəngdə verilmiş sözü aşağıdakı variantlardan hansı ilə əvəz etmək olar? Fikrinizi əsaslandırın və bu sözü cümlələrdə işlədin.

A) sevimlidir B) varlıdır C) doğmadır D) əzizdir

4 "Hikmət xəzinəsi"ndəki aforizmlərdə sualların əvəzinə uyğun gələn sözləri əlavə edib oxuyun.

**HİKMƏT XƏZİNƏSİNDƏN**

*(Harada?), hətta çiçəklər də ayrı cür ətir saçır.* ***Kuprin***

*Qürbətin odu da (haranın?) tüstüsü qədər parlaq deyil.* ***Alman atalar sözü.***

*(Haraya?) vurulmuş yaranı bizim hər birimiz öz ürəyimizin dərinliklərində hiss edirik.* ***Viktor Hüqo***

5 Şeirin 2-ci bəndində işlənmiş hansı düzəltmə sözün kökü həmin bənddə işlənmişdir? Həmin kökdən qohum sözlər düzəldin və onları əvvəl birləşmələrdə, sonra isə cümlələrdə işlədib yazın.

6 "Torpaq verir – hər nəyi var", – misrasını necə başa düşürsünüz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

7 Şeirin 4-cü və 5-ci bəndlərində işlənmiş sinonim sözləri tapıb səsləndirin, onları söz birləşmələri və cümlələrdə işlədin.

**BUNLARI BİLİRSİNİZMİ?**

Yadda saxlayın: Müxtəlifcinsli qoşasaitli sözlər fərqli tələffüz olunur: a) bir qrup sözlərin tələffüzündə saitlərin arasına "y" artırılır: ailə – [a:yilə], zəif – [zəyif], şair– [şa:yir], radio – [radiyo] və s. ; b) tələffüz zamanı qoşa saitlərdən biri düşür: səadət– [sa:dət], müalicə – [ma:licə], fəaliyyət – [fa:liyət] və s.; c) bəzi qoşasaitli sözlər yazıldığı kimi tələffüz olunur: sual – [sual], fauna – [fauna] və s.; d) qoşa saitlərdən biri fərqli tələffüz olunur: şüar – [şuar], bioloji – [bialoji] və s.

**SÖZLÜK** müxtəlifcinsli

8 Azərbaycanın paytaxt şəhərlərindən biri olmuş Təbriz haqqında nə bilirsiniz? Mətni oxuyun, məzmununu öyrənin, tərcümə edin və BİBÖ cədvəlini doldurun.

## İranın "gözü və çırağı"

Təbrizin səsi min illərin o üzündən gəlir. Tarixi araşdırmalar göstərir ki, şəhərin yaşı bizim eramızdan qabaq ikinci minilliyin əvvəllərindən başlayır. Yəni Təbrizin təxminən dörd min il yaşı var. 1960-cı illərdə ingilis arxeoloqları Təbriz yaxınlığında yerləşən Qaratəpədə qədim ərzaq anbarları, emalatxana və

yaşayış evləri aşkar etmişlər. Bu yaşayış məskəni eramızdan əvvəl 2100-1900-cü illərə aid edilir.

Təbriz Azərbaycanın güzgüsüdür. Orta əsrlərdə onu İranın "gözü və çırağı" adlandırırdılar.

**Sabir Rüstəmxanlı**

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|

9 Aşağıdakı sözlərə ikinci tərəf artırmaqla müxtəlif söz birləşmələri düzəldin və yazın. Həmin sözlərin nə bildirdiyini və quruluşunu müəyyənləşdirin.

mehriban, cavan, gözəl, bəxtiyar, firavan, duz-çörəkli, gül-çiçəkli, igid, mərd, düz, qəhrəman, ulduzlu, qədim, meşəli, ətirli, ütülü

10 Aşağıdakı sözləri oxuyun və hər birinin qarşısında düzgün tələffüzünü yazın. Çətinliklə qarşılaşsanız, müəlliminizə müraciət edin.

maneə, aviasiya, aerovağzal, aid, akvarium, aktual, dairə, daimi, dair, geoloji, müəllim, mütaliə, pansion, poema, realizm, poeziya, radius, raund

11 Aşağıdakı mətni oxuyun və altından xətt çəkilmiş sözlərin düzgün tələffüzünü səsləndirin.

Sol qapının müdafiəçilərindən biri güclü zərbə ilə topu geri qaytardı. Lakin top meydançanın xəttini keçib armud bağına düşdü. Rəşid cəld hasara dırmaşaraq bağa düşmüş topu götürmək istədi. Buna görə hasarın üstündən bayıra çıxmış armud ağacına çıxıb bağa enmək lazım idi. O belə də etdi: hasara dırmaşıb, ayağını budağın üstünə qoydu və bağa atılmağa hazırlaşdı. Bu zaman ayağının altındakı budaq onun ağırlığına davam gətirməyib şaqqıldadı. Rəşid tez bağın içinə atıldı. O, topu götürüb hasarı aşarkən yekə bir budağın qopub, asılı qaldığını gördü...

**Xalidə Hasilova**

Öyrəndiyiniz "İzahat" formasını yadınıza salın və baş vermiş hadisə barəsində Rəşidin yazdığı "İzahat"da yol verilmiş səhvləri müəyyənləşdirin.

Məktəbin uşaq birliyinin rəhbərinə
Rəşid Həsənovdan

Mən bağa düşmüş topu götürmək istərkən bilmədən armud ağacının budağını sındırmışam. Mən budağın sındığını sonra gördüm . Bildirmək istəyirəm ki, mən bunu qəsdən etməmişəm. Bağbana əlimdən gələn köməyi edəcəyimə söz verirəm. Məni bağışlamağınızı xahiş edirəm.

Rəşid Həsənov.

# § 37. QARĞA DİLİ

Qarğaya elə gəlirdi ki, quşların içərisində onun dili kimi zəngin və gözəl bir dili olan yoxdur. Qarıldaya-qarıldaya bütün meşəyə car çəkirdi:

– Bütün quşlar qarğa dilində danışmalıdır.

Qarğa canfəşanlıq edərək neçə yerdə məktəb açmışdı. Bütün quşlar qarğadan qorxub öz balalarını hər səhər onun məktəbinə göndərirdilər. Qarğa quş balalarına öz dilini öyrədib deyirdi:

– Meşədə bütün quşlar ancaq bir dildə danışmalıdırlar. Yalnız qarğa dilində! Hansınız başqa dildə danışsanız, dilinizi dibindən kəsəcəyəm!

Sağsağanın balası cükküldəyərək dedi:

– Bizim hər birimizin öz ana dilimiz var. Bunu tərgitmək üçün gərək analarımızın dilini kəsəsən. Bunu isə bacarmazsan!

**Əli Səmədli**

**SÖZLÜK**

tərgitmək canfəşanlıq etmək

**SÖZ EHTİYATI**

car çəkmək dilini dibindən kəsmək

**1** Necə düşünürsünüz, sağsağanın balasının sözləri ilə müəllif nə demək istəyir? Müzakirəyə qoşulun və fikirlərinizi əlavə misallarla əsaslandırın.

**2** Buraxılmış şəkilçiləri artırmaqla cümlələri köçürün, sonra məzmun fərqlərini nəzərə almaqla dəqiq tərcümə edin.

**I.** 1) Öz dili.. bilmək hər bir Azərbaycan vətəndaşı.. borc..dur. 2) Dövlət dili.. bilmək Azərbaycan Respublikası.. hər bir vətəndaşı.. borcudur. 3) Azərbaycan Respublikası.. vətəndaş.. Azərbaycan dili.. bilməlidir

**II.** 1) 1999-cu il.. noyabr ayınd.. YUNESKO-da belə qərar.. gəldilər ki, 21 fevral Ana Dil.. Gün.. elan edilsin. 2) YUNESKO-nun 1999-cu il noyabr qərarı.. əsasən 21 fevral Ana Dil.. Gün.. kimi qeyd olunur. 3) 1999-cu il.. noyabrın.. YUNESKO-nun konfransın.. 21 fevralın Beynəlxalq Ana Dili Günü elan edilmə.. qərar.. alındı.

**3** "Yalnız" sözünü aşağıdakılardan hansı ilə əvəz etmək olmaz?

A) ancaq B) təkcə C) bircə D) sözsüz

**4** Cümlələri mətnin məzmunu əsasında tamamlayın.

1) Qarğaya elə gəlirdi ki, ... . 2) Qarğa canfəşanlıq edərək ... . 3) Hansınız başqa dildə danışsanız, ... . 4) Bunu tərgitmək üçün gərək ... . 5) Bütün quşlar qarğadan qorxub ... . 6) Meşədə bütün quşlar ancaq ... .

**5** Şeiri oxuyun və qırmızı rəngdə verilmiş sözlərin, ifadələrin kontekstə uyğun mənalarını izah edin.

## ANA DİLİ

Qalxıb Şah dağına söz istəyirəm,
Çatsın hay-harayım dinləyənlərə.
Mən nankor deyirəm, nacins deyirəm
Öz ana dilini bilməyənlərə.

Bu dil şirinlikdə şərbət kimidir,
Saflığı qorunan sərhəd kimidir.
Anamız vətən də qürbət kimidir
Öz ana dilini bilməyənlərə.

Beyninə girmədi ana öyüdü,
Əsilsiz yaşayıb, o, küt böyüdü.
Görüm haram olsun ananın ______
Öz ana dilini bilməyənlərə.

Bu gün azad dilli Azərbaycanam,
O taylı-bu taylı vahid bir canam.
Baxır ögey ______ ağbirçək anam
Öz ana dilini bilməyənlərə.

**Tofiq Bayram**

**SÖZLÜK**

öyüd
küt
əsilsiz
ögey

**SÖZ EHTİYATI**

nacins
beyninə girməmək

6 Şair öz doğma ana dilini bilməyənləri necə adlandırır? Bəs siz bu barədə nə düşünürsünüz: şairin dedikləri ilə razılaşırsınızmı? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

7 “Bu gün azad dilli Azərbaycanam”, – fikrini necə başa düşürsünüz? Şeirdə deyilənlərə nə əlavə etmək istərdiniz? Fikirlərinizi əsaslandırmaq üçün dövlət dili ilə bağlı konstitusiya maddəsinə və konkret faktlara istinad edin.

**MADDƏ 21. Dövlət dili**

I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.
II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

8 Şeirdə yaşıl rəngdə verilmiş ifadəni variantlardan hansı ilə əvəz etmək daha çox yerinə düşər?

A) səsim B) fikirlərim C) düşüncələrim D) qışqırığım

9 Şeirdəki qırmızı boşluqda hansı söz yazılmalıdır?

A) öyüdü B) südü C) çörəyi D) laylası

10 Şeirdəki sarı boşluqda hansı söz yazılmalıdır?

A) qədər B) doğru C) kimi D) üçün

11 Verilmiş ifadələri cümlələrdə işlədin.

ana öyüdü, anamız Vətən, ana dilimiz, ağbirçək anam, şərbət kimi, vahid bir can kimi, ögey kimi, sərhəd kimi

KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Bağışlamaq*** – 1. Bir şeyi qarşılıqsız (əvəzsiz) olaraq başqasına vermək, hədiyyə etmək – Dəniz anasına gül bağışladı. 2. Alacağından könüllü olaraq əl çəkmək; özünə çatacaq şeyi daha istəməmək – Xəritəmi qaytarma, mən onu sənə bağışlayıram. 3. Günahından, təqsirindən keçmək, əfv etmək – Xahiş edirəm, məni bağışlayın! 4. "Bağışla, bağışlayın, bağışlayınız" şəklində – 1) üzr istəmək və ya söylənmiş bir fikri düzəltmək üçün deyilir – Bağışlayın, bilmədən oldu! Bağışla, bilmədim ki, inciyərsən.

## § 38. BALACA GİROVLAR

### 1-ci hissə

– Rafiq, yatmısan?

– Sən necə, oyaqsan, Kərim?

– Oyağam ki, sənlə danışıram da!

– Quran haqqı, acından ölürəm!

– Gərək dözəsən. Ağlıma* bir şey gəlib. – Kərim səsini içinə çəkdi. – Gəl bir-birimizi boğub öldürək, canımız biryolluq qurtarsın bu əzablardan.

Rafiq gözlənilməz təklifdən qorxdu. Xırıltılı səslə soruşdu:

– Nə təhər?! Sən dəli olmusan?!

Kərimin ağzının* üstündən dəyən tərs şillə onun sözünü ağzında* qoydu. Şillə vuran girovların yaşca ən böyüyü Murtuza idi.



– Siz dəli olmusuz nədi?! – deyə o, uşaqlara acıqlandı. – Özünü öldürməyə nə var ki?! Oğul odur, çətin vəziyyətdən çıxmağı bacara. Biz yatmamalıyıq, hər çətinliyə dözməliyik. Ümidimizi üzməyək gərək, uşaqlar!

Cırcıramadan can diləyən, güclə nəfəs alan Elçin məsləhət verdi:

– Sabah yekəqarın Aşot yeməkdən qabaq bizi yenə güləşdirsə, kişi kimi imtina eləyək! Lap dərimizi boğazımızdan çıxartsa da, bir-birimizi döyüb, əldən salmayaq.

– Onda bir tikə quru, kifli çörəyi də bizə çox görəcəklər, – deyə balaca Malik ağlamsındı.

... Qaradolaq kəndi **dinc** günlərini yaşayırdı. Camaat öz işində-gücündəydi. Kənd **ara-sıra** atəşlərə məruz qalsa da, doğma yurdu tərk etmək heç kimin ağlına* gəlmirdi.

Bir gün erməni faşistləri altı kilometr aralıda yerləşən kənd orta məktəbinə qəfil ______. Qırdıqlarını qırdılar, qırmadıqlarını isə qabaqlarına qatıb, döyə-döyə maşınlara doldurdular. Qız uşaqlarını ortayaşlı bir qadına təhvil verdilər. Oğlan uşaqlarını isə **nəm**, qaranlıq bir zirzəmiyə salıb, ağzını* **qıfılladılar**. **Səhərisi** girov götürdükləri uşaqları sıraya düzüb, **ac-susuz** səngər qazmağa apardılar. Biçarələrin əsl faciəsi də həmin andan başladı. Qansızlar günahsız körpələri cəzalandırmağın, acından öldürməyin yeni-yeni üsullarını icad edirdilər. Uşaqları sübh tezdən sıraya düzüb aparır, onlara meşənin içində əldən düşənəcən erməni dilində mahnılar öyrədirdilər.

**Qorxmaz Abdullayev**

Qansız düşmənlərin əziyyət verdikləri girovların taleyi, görəsən, necə olacaq? Onlar əsirlikdə məhv olacaq, yoxsa onları xilas edəcəklər? Hekayəni siz necə davam etdirərdiniz?

**SÖZLÜK**

| | |
|---|---|
| girov | kifli |
| biryolluq | qansız |
| imtina etmək | rütubətli |

**SÖZ EHTİYATI**

icad etmək
məruz qalmaq
səsini içinə çəkmək
dərisini boğazından çıxartmaq

1 Mətndəki hadisə hansı illərə təsadüf edir? Bu illər haqqında bildiklərinizi yoldaşlarınızla bölüşün.

2 Murtuzanın uşaqlara dediyi sözləri bir də oxuyun. Onun göstərdiyi çıxış yolunu düzgün hesab edirsinizmi? Siz də bu cür hərəkət edərdiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

3 Mətndə hansı suala cavab yoxdur? Fikrinizi əsaslandırın.
1) Uşaqlar nədən canlarını qurtarmaq istəyirdilər, onları narahat edən nə idi?
2) Murtuza nəyə görə Kərimi şillə ilə vurdu?
3) Uşaqlara necə işgəncələr verilirdi?
4) Elçinin uşaqlara məsləhəti nədən ibarət idi?
5) Erməni faşistləri neçə nömrəli məktəbə basqın etdilər?

4 Mətndə yaşıl rəngdə verilmiş sözlərlə bağlı düzgün cavab hansıdır?
A) isim B) sifət C) zərf D) qoşma E) feil

5 Verilmiş hikmətli sözlərdəki səhvləri tapın və düzgün variantı səsləndirin.

1) Əgər danışmaq fikrindəsənsə, bilmədiyin mövzularda danış, bildiyin şeylər haqqında fikir yürütmə. 2) Söylədiyiniz acı sözlərin meyvəsini geridə görərsiniz. 3) Qazanmaq çətindir, onu qorumaq isə asandır.

6 “Qədər, -dək, kimi” sözlərini “əldən düşənəcən” birləşməsində hansı hissənin əvəzinə işlətmək olar? Bu sözlərin hansı mənanı ifadə etdiyini izah edin və onları cümlələrdə işlədin.

7 Mətndəki sarı boşluğun əvəzinə aşağıdakı variantlardan hansını işlətmək daha çox yerinə düşər?

A) gəldilər B) basqın etdilər C) hücum etdilər D) təmir etdilər

8 Aşağıdakı cümlələri mətnin məzmunu əsasında tamamlayın.

1) Kərimin ağzının üstündən dəyən tərs şillə ... . 2) Kənd ara-sıra atəşlərə məruz qalsa da, ... . 3) Sabah yekəqarın Aşot yeməkdən qabaq bizi yenə güləşdirsə, ... . 4) Oğlan uşaqlarını nəm, qaranlıq ... . 5) Uşaqları sübh tezdən sıraya düzüb aparır, ... .

9 Mətndə göy rəngdə verilmiş sözləri aid olduqları sözlərlə birlikdə yazın. Sonra 2-ci tərəfləri başqa sözlərlə əvəz edib yeni birləşmələr düzəldin.

10 Sualların köməyi ilə söz birləşmələrindəki birinci tərəflərin nə bildirdiyini, hansı nitq hissəsi olduğunu müəyyənləşdirin və üstündə qeyd edin. Sonra həmin əməliyyatı ikinci tərəflərə də tətbiq edin.

tərs şillə, quru, kifli çörək, dinc günlər, qulaqları sırğalı bir zənciyə, nəm, qaranlıq bir zirzəmiyə, günahsız körpələr, çətin vəziyyətdən

11 Mətndən oxuduqlarınız əsasında “balaca girovları” səciyyələndirin.

12 Mətndə altından xətt çəkilmiş birləşmələri oxuyun. Sonra hər birinin qarşısında ilkin formasını yazın və mənalarını izah etməyə çalışın. Çətinlik çəksəniz, müəlliminizə müraciət edin.

**Köməkçi:** Ağlıma bir şey gəlib – ağlına gəlmək

13 Mətndə qara hərflərlə verilmiş sözlərin kontekstə uyğun sinonim qarşılıqlarını tapıb səsləndirin və onları cümlələrdə işlədin.

14 Mətndə ulduz işarəsi ilə fərqləndirilmiş sözlərin kökündə baş verən dəyişiklik üzərində müşahidə aparın və bu dəyişikliyin səbəbini öyrənməyə çalışın.

BUNLARI BİLİRSİNİZMİ?

Yadda saxlayın: Dilimizdə bəzi elə ikihecalı isimlər var ki, onlara saitlə başlanan şəkilçi artırıldıqda kökün son saiti düşür. Məsələn, şəkil – şəkl+im, şəkl+imiz, şəkl+i, sinif – sinf+in, sinf+i, sinf+imiz, oğul–oğl+um, oğl+unuz və s.

Bu sözlər, əsasən, aşağıdakılardır:

a) Sinif, fikir, ətir, ömür, eyib, isim, cisim, fəsil, şəkil, nəsil, səbir və s.

b) Beyin, çiyin, ağıl, qarın, alın, burun, ağız, boyun, oğul və s.

15 "Sinif, fəsil, şəkil, fikir" sözlərini hallandırıb yazın. Hansı hallarda köklərdə dəyişiklik baş verdiyinə diqqət yetirin və bunun səbəbini izah edin.

## § 39. BALACA GİROVLAR

### *2-ci hissə*

Quduzlaşmış ermənilər paslı kəlbətinlə oxumaq istəməyənlərin dilini dartıb qopardır, soyundurub ələ salırdılar. İşləməyə aparanda, işdən qaytaranda, yeməkdən **əvvəl** də, **sonra** da heydən-hərəkətdən düşənə**cən** onlara mahnı oxutdururdular. Gün ərzində girovlara iki dəfə əl boyda quru çörək, bir içim bulanıq su verirdilər. Yeməkdən **qabaq** bir qazan xörəyi gətirib, ortalığa qoyur, beş-on dəqiqədən sonra götürüb aparırdılar. Uşaqlar xörəyin ətrindən* bihuş olur, ağızlarının* suyu axır, gözlərini yumub, "ay ana" deyib ağlaşırdılar. Gecələr onları tunelə doldurub, ağzını* bərk-bərk örtürdülər. Girovlar o dərəcədə zəifləmişdilər ki, yerlərindən tərpənməyə taqətləri qalmamışdı. Yazıqlar soyuq, rütubətli çubuqların üstünə ölü **kimi** döşənirdilər.

Bir gün uşaqlar meşənin qabağındakı aşırımda səngər qazırdılar. Onlara nəzarət edən ermənilər talada kef məclisi qurmuşdular. Birdən lap yaxınlıqda atəş səsləri eşidildi. Bizimkilər girov saxlanan uşaqları xilas etməyə gəlmişdilər. Uşaqlar çığırışa -çığırışa özlərini maşına saldılar, ermənilər isə girov götürüldü...

Bir müddətdən sonra dirçəlmiş uşaqların soluxmuş çöhrələrinə qızartı çiləndi, yaraları sağalmağa başladı.

Tutulmuş düşmənləri bizim meyitlərlə dəyişmək **üçün** kəndə gətirdilər. İkiayaqlı vəhşilər işgəncə verdikləri uşaqları görəndə başlarını aşağı saldılar. On bir yaşlı dilli-dilavər Hikmət qartalburun, yekəpər Aşotun çənəsinin altına girib:

– Məni tanımadın? – dedi. – Yadındadı, mənə deyirdin ki, denən erməniyəm, sənə bir saçaqlı konfet verim. Dillənmədiyimi görəndə huşumu itirənə**cən** döyürdün məni. Üstümu-başımı murdarlayırdın.Yaxşı, indi sən denən ki,"Qarabağ Azərbaycanındır, bir qələtdi eləmişəm", mən də səni buraxım, çıx get balalarının yanına.

Yekəpər Aşot daz başını əlləri arasına alıb saxladı. Qan çilənmiş iblis gözlərini yumub yerə çökdü. Zabitin ayaqlarına düşüb yalvardı:

– Ərə, məni **çevir balalarının başına**, bir qələtdi eləmişəm! Vallah, bizdə günah yoxdu, eli. Bizi məcbur eləyirlər! Qarabağ da sizin olsun, lap Yerevan da! Təki mən axmağı burax, çıxım gedim xarabama. Uşaqlarım yetim qalmasın, öldürmə məni!

Zabitin nəzərləri ona yalvaran erməninin başı üstündən uzaqlara dikilmişdi...*. (ixtisarla) **Qorxmaz Abdullayev**

| SÖZLÜK | |
|---|---|
| paslı | aşırım |
| dilli-dilavər | yekəpər |
| daz | iblis |

| SÖZ EHTİYATI | |
|---|---|
| çöhrə | işgəncə vermək |
| bihuş olmaq | huşunu itirmək |

1 Aşağıdakı suallara cavab verin və mətnin məzmununu danışın.

1) Quduzlaşmış ermənilər bir qazan ətirli xörəyi nə üçün ortalığa qoyur, sonra götürüb aparırdılar?
2) Uşaqlar niyə yerlərindən tərpənə bilmirdilər?
3) Necə oldu ki, uşaqları xilas etmək mümkün oldu?
4) Əsir tutulmuş erməniləri nə üçün kəndə gətirdilər?
5) Hikmət yekəpər Aşota hansı sözləri xatırlatdı?
6) Yekəpər Aşot zabitə yalvarıb nə deyirdi?

❀ Siz mətnlə bağlı bir-birinizə hansı sualları vermək istərdiniz? Öz variantınızı dəftərinizdə yazın.

2 Qruplara bölünün və mətnin məzmunu üzrə plan tərtib edin. Hər bir qrupun tərtib etdiyi planın məzmunu əhatə etməsi və düzgünlüyü baxımından qiymətləndirmə aparın.

3 Aşağıdakı cümləni mətnin məzmunu əsasında tamamlayın.

**Əsir tutulmuş düşmənləri bizim kəndə gətirdilər ki, ...**

A) işgəncə versinlər
B) meyitlərlə dəyişsinlər
C) ələ salsınlar
D) uşaqlara göstərsinlər

4 Aşağıdakı söz birləşmələrində birinci tərəfləri başqa sözlərlə əvəz edərək yeni birləşmələr düzəldib yazın. Sonra bir neçəsini cümlələrdə işlədin.

mərd uşaqlar, qorxulu düşmən, uşaqların intiqamı, qorxaq erməni, zabitin nəzərləri, kifli çörək, günahsız körpələr

**Köməkçi:** Vətənin harayı – torpağın harayı, uşaqların harayı ...

5 Mətndə yaşıl rəngdə verilmiş sözləri mənaca uyğun müxtəlif feillərlə əlaqələndirib cümlələrdə işlədin.

6 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərin yazılışı üzərində müşahidə aparın və köklərdə baş verən dəyişikliyin səbəbini izah etməyə çalışın.

7 Mətndə altından xətt çəkilmiş ifadələri oxuyun və müəllimin köməyi ilə ilkin formalarını qarşılarında yazın.

8 Mətndə qara rəngdə verilmiş ifadənin mənasını izah edə bilərsinizmi? Çətinlik çəkdiyiniz halda müəllimin köməyindən istifadə edin.

9 Bildiyiniz kimi, müzəffər Azərbaycan ordusu işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etdi və Xocalı qurbanlarının intiqamı artıqlaması ilə alındı. Aşağıdakı şeiri oxuyun və düşünün: Xocalı faciəsini unutmağa haqqımız varmı?

## HƏR GECƏ XOCALIDA

Hər gecə Xocalıda
Canım ağrıyır mənim.
Güllələnən qocaya,
Parçalanan körpəyə
Ruhum ağlayır mənim.
Hər gecə Xocalıda
Göytürklərin ruhunda
Yanıq yeri sızlayır.
Gülməyi unutmuşam,
Xocalının qisasın
Alanda güləcəyəm.
Mən öləndən sonra da
Xocalıda yenidən
Dünyaya gələcəyəm.
Bu qisası alınca,
Ölüb-diriləcəyəm
Hər gecə Xocalıda.

**Fikrət Qoca**

SÖZLÜK — qisas — sızlamaq

10 Hansı fikir şeirin məzmununa uyğun deyil?

A) Xocalının intiqamını alana qədər mübarizəni davam etdirməliyik.
B) Bu ölkənin hər bir vətəndaşı Xocalı faciəsini öz faciəsi hesab etməli və onu unutmamalıdır.
C) Xocalı ən qədim yaşayış məskənlərindən biridir.
D) Tökülən qan yerdə qalmamalıdır.

11 Mətni oxuyun, məzmununu danışın və sayları sözlə yazın.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə Xocalı şəhərinə hücum etdilər. Əvvəlcə şəhər hər tərəfdən mühasirəyə alındı, sonra isə yandırıldı. Bir gecənin içində qədim Xocalı yerlə yeksan edildi. Bu, əsl soyqırım idi.

Xocalı soyqırımı nəticəsində 613 Xocalı sakini qətlə yetirilib. Bunlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı idi. Bu faciədə 8 ailə tamamilə məhv

edilib. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb, 1275 nəfər əsir götürülüb. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Artıq Xocalı faciəsinin qisası alınmışdır. Lakin Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmayacaqdır.

## § 40. PEŞMANÇILIQ

Əhmədin ayağının lap altından pırıltı **ilə** bir bildirçin qalxdı. Ox **kimi** **süzüb** darılığa **doğru** uçdu. Əhmədin gülləsi **ilə** bir vaxtda kiminsə tüfəngi də açıldı. Quş bir-iki dəfə qanad çalıb otluğa düşdü. Əhməd quşu yerdən <u>qaldırdı</u>. Elə bu vaxt <u>qəzəbli</u> və cingiltili bir səs eşitdi:

– Ey, Rus Əhməd, bildirçini mən vurmuşam!

O dönüb əlində tüfəng otluğun içində dayanan oğlana baxdı. Onun on dörd-on beş yaşı ancaq olardı. Əynində vəznəli qara çuxası vardı. Göy buxara papağını geri itələmişdi. Zil qara saçının <u>qıvrım</u> teli alnına düşmüşdü. Sivri burnu pərələnir, sinəsi qalxıb-enirdi. Uşaq yaman həyəcanlanmışdı.

– Nədən bilirsən?

– Necə yəni nədən? Hələ mənim əlimdən bir quş qaçmayıb.

– Amma bu dəfə qaçıb. Deyirlər ki, bu il hava çox isti olacaq.

– Ver deyirəm sənə!

– Verməsəm, nə edərsən?

Oğlan tüfəngi hərlədi:

– Vuraram.

– Adam da bir quşdan **ötrü** dalaşarmı? İstəyirsən bildirçini sənə bağışlayım.

– Lazım deyil. Mən vurmuşam, qaytar özümə. Bir də ki, bura bizim çəmənlikdir.

Əhməd gülümsəyərək, hələ də acığı soyumayan Əşrəfi başdan-ayağa süzdü. Uşağın ağ sifəti alışıb yanırdı.

– Bütün bu yerlərin hamısı sizindir?

– Bəs nə?!

– O taydakı meşə də?

– Hamısı.

– Su da?

– Zarafatı <u>burax</u>, bildirçini <u>bəri</u> ver!

Əhməd quşu Əşrəfə uzatdı. Oğlan cəld bildirçinin haradan yaralanmasına baxdı. Onun sifətindəki qəzəb yox oldu. Əhməd uşağın <u>tutqun</u> çöhrəsini* məsum bir təbəssüm bürüdüyünü gördü. Onun gözlərində həm sevinc, həm də hüznlü bir kədər vardı. O, ovçudan çox, bir uşaq marağı ilə quşu **süzürdü**.

– Acığın soyudumu?

Əşrəf gülümsündü. Onun hərəkətlərində maraqla bərabər, bir peşmançılıq da vardı. Ancaq onun quşu vurduğunamı, yoxsa onu Əhmədin əlindən almasınamı peşman olduğunu təyin etmək çətin idi.

**İsmayıl Şıxlı**

**SÖZLÜK**

| | |
|---|---|
| cingiltili | sivri |
| məsum | hüznlü |

**SÖZ EHTİYATI**

pərələnmək
vəznəli çuxa

1 Suallara verilmiş cavablardan hansı mətnin məzmunu ilə səsləşmir?
**Əşrəf vurulmuş quşu nəyə görə Əhməddən almağa cəhd edirdi?**
A) Əşrəf düşünürdü ki, çəmənlik onların olduğu üçün quş da onun olmalıdır.
B) Əşrəf əmin idi ki, bildirçini o vurub.
C) Əşrəf ağa oğlu olduğu üçün həmişə istədiyini almağa adət etmişdi.
D) Əşrəf yaralı quşu xilas etmək istəyirdi?

2 Mətnin məzmunu əsasında Əşrəfin xarici görünüşünü təsvir edin.

3 Bütün çəmənliyin, meşənin, hətta axan suyun onlara aid olduğunu iddia edən Əşrəf sizə necə təsir bağışlayır? Fikrinizi yoldaşlarınızla bölüşün.

4 Mətndəki hadisələri hansı ardıcıllıqla düzmək olar?
1) Uşaq yaman həyəcanlanmışdı.
2) Əhməd quşu yerdən qaldırdı.
3) Onun gözlərində həm sevinc, həm də kədər vardı.
4) Əhməd quşu Əşrəfə uzatdı.
5) Onun on dörd-on beş yaşı ancaq olardı.
A) 1, 3, 5, 4, 2 B) 3, 4, 5, 1, 2 C) 2, 5, 1, 4, 3 D) 4, 5, 1, 2, 3

**HİKMƏT XƏZİNƏSİNDƏN**

*Kim səninlə höcətə başlasa, susmaqla onu susdur.*
*Çünki axmaqların cavabı susmaqdır.* ***"Qabusnamə"***

5 Mətndəki hansı ifadəni "qızarmışdı" sözü ilə əvəz etmək olar?
A) Sinəsi qalxıb-enirdi. B) Sifəti alışıb-yanırdı.
C) Sivri burnu pərələnirdi. D) Çöhrəsini təbəssüm bürümüşdü.

6 Mətndəki dialoqda bir cümlə yerində işlənməmişdir. O hansıdır?
7 Necə düşünürsünüz, mətndəki hadisələri bu günümüzə, yoxsa keçmişə aid etmək olar? Müzakirə edin.

8 Mətndə çoxlu əlamət bildirən söz işlənmişdir. Onları seçib aid olduqları sözlərlə bərabər yazın. Bir neçəsini cümlələrdə işlədin.

9 Mətnin sonuna yaxın cümlələrdən birində antonim sözlər işlənmişdir. Həmin sözləri tapıb səsləndirin və cümlələrdə işlədin.

10 Mətndə qara rəngdə verilmiş sözlərin eyni, yoxsa fərqli mənalar ifadə etdiyini əsaslandırın. Bu sözü cümlələrdə müxtəlif mənalarda işlədin.

11 Üzərində ulduz işarəsi qoyulmuş sözün sinonimi mətndə iki cümlədə işlənmişdir. Həmin cümlələri seçib səsləndirin və sinonim sözü tapıb göstərin.

12 Mətndə altından xətt çəkilmiş sözlərin əvəzinə başqa hansı sözləri işlətmək olar? Fikrinizi əsaslandırın.

## § 41. HOPHOP

Haqqında ən çox rəvayət söylənilən quşlardan biri də hophopdur. **Hophop**lar yaz-yay aylarında ölkəmizə gəlir, payız-qışda isə köçüb isti yerlərə gedirlər. Bu bəzəkli quşun başındakı tüklər bir cərgə ilə düz qalxdığına görə ona bəzən **şanapipik** də* deyirlər. Sanki quşun başına daraq sancılıb. Bax bu darağa oxşarlıqdan da əfsanə, rəvayətlər yaranıb.

**Biz**ə bənzər uzun dimdiyi, enli qanadı, **düz** quyruğu olan bu quşlar ağaclara, kollara, daşlara qonaraq "hophop" sədasını xatırladan səslər çıxarırlar. **Yaz**da və* **yay**da kəndlərdə, tarlada, çöldə, meşədə saatlarla bu quşların nəğməsinə qulaq asmaq olar. Onlar daim bir yerdə durub oxumurlar. Tez-tez yerlərini dəyişirlər. Ona görə də adama elə gəlir ki*, quşlar bir-birini axtarırlar.

Əsasən, kürən rəngdə, üzərlərində ağ-qara, gil rəngli çillər olan hophoplar ağac koğuşlarında, daşların arasında, yarğanlarda yuva qururlar. Adətən, dörd-altı yumurta qoyan dişi hophop on səkkiz gün kürt yatır. Həmin müddətdə erkək hophop həm* özünə yem tapır, həm də* dişi hophop üçün dimdiyində yem gətirir.

Yumurtadan çıxmış ətcə balaları erkək və* dişi hophoplar birgə yedirdirlər. Balalar uçmağı öyrənəndən sonra pərvazlanıb, isti ölkələrə gedirlər.

| SÖZLÜK | |
|---|---|
| rəvayət | kürən |
| hophop (şanapipik) | gil |
| pərvazlanmaq | yarğan |

| SÖZ EHTİYATI |
|---|
| koğuş |
| səda |
| kürt yatmaq |

1 Aşağıdakı suallardan biri mətnə aid deyil. Fikrinizi əsaslandırın.
1) Hophop quşuna nə üçün şanapipik də deyirlər?

2) Hophoplar  yuvalarını harada qururlar?
3) Hophopların  nəğməsinə  harada qulaq asmaq olar?
4) Hophoplar balalarını necə yemləyirlər?
5) İyirmi altı gün kürt yatan hophopa hansı quş yem gətirir?

2 Cümlələri mətnin məzmunu əsasında tamamlayın və tərcümə edin.

1) Hophoplar yaz-yay aylarında ölkəmizə gəlir, ... . 2) Bu bəzəkli quşun başındakı tüklər bir cərgə ilə düz qalxdığına görə ... . 3) Adətən, dörd-altı yumurta qoyan dişi hophop ... .4) Həmin müddətdə erkək hophop həm özünə yem tapır, ... . 5) Yumurtadan çıxmış ətcə balaları erkək və ... .

3 Mətndə göy rəngdə verilmiş sözlər üçün ümumi cəhət nədir? Fikrinizi əlavə misallarla əsaslandırın .

4 Aşağıdakı söz birləşmələrində ikinci tərəfləri başqa sözlərlə əvəz edərək yeni birləşmələr düzəldib yazın. Sonra bir neçəsini cümlələrdə işlədin.

uzun dimdik, düz quyruq, isti ölkələr, enli qanadlar, daşların arasında, uçmağı öyrənmək, quşların nəğməsi, bəzəkli quşlar, başındakı tüklər

5 Mətndə qara rəngdə verilən və altından xətt çəkilmiş sözlər arasında hər hansı bir bağlılıq varmı? Fikrinizi əsaslandırın və həmin sözləri əlamət bildirən sözlərlə işlədərək söz birləşmələri düzəldib yazın.

6 Hophopun xarici görkəmini təsvir edən ifadələri seçib dəftərinizdə yazın və cümlələrdə işlədin.

7 Oxuduğunuz mətnin aşağıdakı janrlardan heç birinə aid olmadığını əsaslandırın.

A) nağıl B) hekayə C) əfsanə D) lətifə

8 Necə düşünürsünüz, mətndə üzərində ulduz işarəsi qoyulmuş köməkçi vasitələr işləndikləri cümlələrdə hansı vəzifəni yerinə yetirir?

A) Sözləri və cümlələri bir-birinə bağlayır.
B) Əşyaları adlandırmağa xidmət edir.
C) Hərəkətlə bağlı əlamət bildirir.
D) Sözlərə qoşulub onlarda müəyyən məna çaları yaradır.

9 Mirzə Ələkbər Sabirin “Hophop” təxəllüsü ilə hophop quşu arasında əlaqə tapmaq olarmı? Fərqli və oxşar cəhətləri müqayisə edin və fikirlərinizi yoldaşlarınızla bölüşün.

10 [Ğ] səsini düzgün tələffüz etməklə tapmacanı oxuyun və cavabını tapın. Fərqləndirilmiş dil işarəsinin hansı nitq hissəsinə aid olduğunu tapın.

Nağaraçı nağara çalır, nə nağarası var, nə çubuğu.

A) sual əvəzliyi B) bağlayıcı C) qoşma

⑪ Mətndə yaşıl rəngdə verilmiş sözlər arasında ümumi cəhət nədən ibarətdir? İzah edin və fikirlərinizi əsaslandırın.

## § 42. FAYDALI MƏSLƏHƏT

Rizvan işləməyi çox sevirdi. Əkinçilik işləri ona xüsusi həzz verirdi. Torpağı belləyir, sahədəki alaq otlarını vurur, bitkiləri suvarırdı. Bir sözlə, hər bir işdə atasının yaxın köməkçisi idi.

Rizvangilin bağında **ayrıca** lobya əkilən sahə var idi. Hər il o sahə əkilər və çoxlu məhsul verərdi. Rizvan quru lobyaların yığılma vaxtını səbirsizliklə gözləyərdi. Kolları kökündən çıxarıb dəstələyər, evə gətirib lobyaları yığardı. Artıq lobyalar yavaş-yavaş qurumağa başlayırdı. Partlamış qabıqların içindən lobyalar görünməyə başlayanda Rizvan anasına dedi: "Deyəsən, lobyaların yığılan vaxtıdır..."

– Hə, oğlum, dünən atan dedi ki, tədricən yetişənləri yığmaq lazımdır.

Rizvan sevincək dilləndi: "Onda gedim, kolları çıxarım!"

Rizvan sahəyə gəldi. Lobyaları yetişmiş kolları çıxarmağa başladı. Artıq xeyli kol yığılmışdı. Bu vaxt qonşuları Əjdər əmi gəlib çıxdı. Təəccüblə üst-üstə **qalaqlanmış** kollara baxıb soruşdu:

– A bala, kolları niyə kökündən ________?

Rizvan diksindi. Çevrilib pərt halda bir Əjdər əmiyə, bir də lobya qalağına baxdı. Heç bir şey **anlamadı**. Əjdər əmi onun **donub qaldığını** görüb dilləndi:

– Oğlum, lobya kollarını kökü ilə çıxarmazlar. Paxlalı bitkiləri elə yığmaq lazımdır ki, kökləri torpaqda qalsın.

– Niyə? – Rizvan maraqla soruşdu.

Əjdər əmi çıxarılmış kollardan birini əlinə götürüb dedi:

– Bax, oğlum, görürsənmi kökə birləşmiş yumruları. Paxlalı bitkilərin köklərində yumrucuq bakteriyaları olur. Bu bakteriyalar atmosferdə olan azotu bitkinin qəbul edə biləcəyi şəklə salır. Onlar torpaqda nə qədər **çox** olarsa, bitkilər azotla bir o qədər yaxşı təmin olunar. Əlavə azot gübrəsinə də ehtiyac olmaz. Yumrucuq bakteriyaları **ancaq** paxlalı bitkilərdə olur. Azot isə bütün bitkilərə lazımdır. Ona görə də paxlalı bitkiləri yığanda köklərini torpaqda saxlayırlar. Yığımdan sonra isə torpağı çevirirlər. Həmin yerə tərəvəz bitkiləri əkirlər. Bu bitkilər torpaqdakı azotla xeyli müddət qidalana bilirlər.

Rizvan fikrə getdi. Bu vaxta kimi bunları bilmədiyinə heyifsiləndi.

Eybi yoxdur, oğlum. Bilməmək eyib deyil, öyrənməmək eyibdir, – deyib Əjdər əmi onun pərtliyini aradan qaldırmaq üçün gülümsədi.

Rizvan Əjdər əmiyə faydalı məsləhət üçün təşəkkür etdi.

**Sona Xəyal**

## SÖZLÜK

| | | |
|---|---|---|
| alaq otları | gübrə | diksinmək |
| qalaqlamaq | əkinçilik | tədricən |

1 Mətnin məzmununu aşağıdakı suallar əsasında danışmaq olarmı? Özünüzü yoxlayın. Hansı sualın əlavə olunmasını istərdiniz?

1) Rizvan atasına necə kömək edirdi?
2) Rizvan lobya yığılan vaxtı niyə səbirsizliklə gözləyirdi?
3) Rizvan lobyaların yetişən vaxtı nə etmişdi ki, bu, Əjdər əmini təəccübləndirmişdi?
4) Əjdər əminin məlumatından Rizvan nə öyrəndi?
5) Rizvan nəyə heyifsiləndi və Əjdər əmiyə niyə təşəkkür etdi?

2 Mətndə işlənən atalar sözünü tapıb səsləndirin və təhsil aldığınız dildə qarşılığını deyin.

3 Cümlələr düzəldin və yazın.

| | |
|---|---|
| İşləmək ona | səbirsizliklə gözləyərdi |
| Sahə hər il | göstəriş verdi |
| O, atasından | bilmədiyinə heyifsiləndi |
| O, çox şeyi | ləzzət verirdi |
| Rizvan yığımı | bol məhsul verərdi |
| Əjdər əmi ona | məsləhət alardı |

4 Mətndən seçilmiş aşağıdakı sözləri mənalı hissələrinə ayırıb yazın. əkinçilik, belləyir, sahədəki, bitkiləri, köməkçisi, səbirsizliklə, maraqla, gözləyərdi, faydalanar

**Köməkçi:** yığılmışdı – yığ + ıl + mış + dı

Qırmızı rəngdə verilmiş şəkilçilərlə sözlər düzəldib müxtəlif formalarda işlədin.

**Qeyd.** Yeni sözlər düzəldərkən yaşıl rəngdə verilmiş sözlərdəki “-la, -lə” şəkilçisi ilə feil düzəldən “-la,-lə” (belləyir) şəkilçisini qarışdırmayın: “-la, -lə” omonim şəkilçidir. Dilimizdə bu şəkilçi ilə həm feil, həm də zərf düzəlir.

5 Aşağıda verilmiş atalar sözlərindən hansı mətnin məzmununa uyğundur?
A) Bağ salan barın yeyər.
B) Zərərin yarısından qayıtmaq da qazancdır.
C) Bar verən ağacı kəsməzlər.

6 Mətndəki mavi boşluqda hansı ifadə yazılmalıdır?
A) qırırsan B) çıxarırsan C) basdırırsan D) sulayırsan

7 Söz birləşmələrini cümlələrdə işlədin və tərcümə edin.

məhsul yığımı, faydalı iş, yetişmiş paxla, məhsul yığımından sonra, məsləhət almaq, tərəvəz bitkiləri, lobyanın faydası , lobya kolları, azot gübrəsi

KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Yetişmək*** – 1. Bir istiqamətdə gedərək nəzərdə tutduğu bir yerə çatmaq – Kəndə yetişib atdan düşdü; Özünü çatdırmaq, vaxtında çatmaq – Həkim vaxtında yetişdi; Göndərilən ünvana, yerə, şəxsə çatmaq – Məktubun mənə yetişməyib. 2. Yetmək, çatmaq – Sənə yetişmək olmur. 3. Müəyyən bir həddə, yaşa çatmaq; böyümək; yetkinləşmək, təcrübə qazanmaq, bişmək – Balaca deyilsən, yetişmiş oğlansan! 4. Bitmək, hasil olmaq (bitki haqqında) – Burada limon yetişməz. 5. Dəymək, yeməli hala gəlmək – Ərik hələ yetişməyib. 6. Gəlib çatmaq, yaxınlaşmaq – Ayrılıq zamanı yetişdi..

8 Mətni oxuyub hansı nəticəyə gəlmək olar? Fikrinizi söyləyin.
A) Düşündüyün hər bir işi tez həyata keçirmək lazımdır.
B) Hər bir işi başlamazdan əvvəl məsləhət almaq faydalı olar.
C) Yetişmiş meyvə və tərəvəzləri vaxtında yığmaq lazımdır.

HİKMƏT XƏZİNƏSİNDƏN

*Bilmədiyin şeyi öyrənməyə çalış. Bunun sənə iki faydası olar: ya bildiyin şeyi təcrübədən keçirmiş olarsan, ya bilmədiyin şeyi öyrənərsən.*

***"Qabusnamə"***

9 Mətndə işlənmiş feillərin zamanını müəyyənləşdirib müvafiq sütunlarda yazın.

**İndiki zaman** **Keçmiş zaman** **Gələcək zaman**

10 Mətndə göy rəngdə verilmiş sözləri elə qarşılıqları ilə əvəz edin ki, cümlələrin məzmunu dəyişməsin. Özünüzü yoxlayın.

11 Nöqtələrin yerinə lazım olan şəkilçiləri əlavə edərək cümlələri oxuyun.

1) Siz hər bir ağac .. və ya kol.. kəsəndə torpağ.. qorumaq üçün bitkilər... əhəmiyyətini xatırlasa .., əliniz.. saxlayarsınız.

2) Sel ətraf mühit.., təbiət.. çox böyük zərər vurur. Torpağ.. yuyub dərələr.. tökür, uçqunlar əmələ gətirir. Bağlar.., tarla.., yol.. və kəndlər.. dağıdır.

⑫ Mətndə bir qoşasaitli söz işlənmişdir. Həmin sözü tapıb səsləndirin və düzgün tələffüz qaydasını izah edin. Qaydaya aid əlavə misallar söyləyin.

## § 43. QARA ŞANI

Axşamüstü idi. Seyranın atası işdən qayıtmışdı. Eyvanda oturub çay içirdi. Birdən gözləri uşaqların top zərbələri altında titrəyən qoca meynəyə sataşdı.* Qaşlarını çatıb fikirləşdi **və** dedi:*

– Mən bu qoca meynəni dirildəcəyəm, cavanlaşdıracağam, **hətta** sizə üzüm də verəcəyəm.

Atası eyvandan həyətə düşdü. Seyranı da çağırdı. Bu zaman Seyranın məktəb yoldaşı Səfər də onlarda idi. O da Seyranla aşağı endi. Atası hardansa dəstəyi sınıq bir bel tapdı. Meynənin dibini belləyib açdı. Sonra mişarla onun qara kötüyünü, gömgöy nazik çubuqlarını kəsdi. Üstündə yeganə bir çubuq saxladı.

– İndi su gətirin! – dedi.

Seyrangil həvəslə ataya kömək edirdilər. Qaçıb evdən vedrə gətirdilər, su doldurub meynənin dibinə tökdülər; torpağı doydurana **qədər** su daşıdılar.



– İndi gəlin talvar düzəldək, qara şanı talvarı sevir! – deyib atası həyətin küncünü göstərdi.

Kimin əlinə nə gəldi bura atdığından, bura **dəmir-dümürlə**, taxta parçaları **ilə** dolu idi.

– Seçin, **az-çox** yararlı taxta parçalarını və məftilləri **zir-zibildən** ayırın! – deyə atası göstəriş verdi. Seyrangil işləyirdilər.

İyirmi dəqiqə keçməmiş, onlar xeyli yararlı taxta və məftil ayırdılar. Atası talvar düzəltməyə başladı. Seyranla Səfər ona kömək etdilər. Talvar hazır olanda ata çubuğu qaldırıb məftilə ilişdirdi:

– Bircə ilə bütün həyəti basacaq, **həm** kölgə salıb bizi yayın istisindən qoruyacaq, **həm də** dadlı şanıya qonaq edəcək ...

Doğrudan da, o biri ilin yazında, may girib havalar qızanda meynə **qol-budaq** atdı.* Çox keçməmiş talvarı tutdu. Yamyaşıl və iri yarpaqları ilə həyəti

çətir kimi örtüb günəşin yandırıcı şüalarını aşağı buraxmadı. İyun ayının ortalarında isə noxud boyda göy gilələrlə dolu salxımlar talvardan aşağı sallanırdı. Ata canlanmış meynəyə və bu salxımlara baxıb qürurla deyirdi:

– Hə, gördünüz **ki**, qara şanı necə şeydir! Əmək itirən deyil, bir versən, on dəfə artığı ilə qaytaracaq.

**Mirzə İbrahimov**

**SÖZLÜK**

| | | |
|---|---|---|
| meynə | talvar | məftil |
| yararlı | şanı | |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| qol-budaq atmaq | əmək itirən |
| göstəriş vermək | |

1 Mətnə aid bir-birinizə hansı sualları vermək istərdiniz? Sualları təqdimat formasında hazırlayın və səsləndirin.

2 Mətnin məzmununa aid olmayan cümlə hansıdır?
A) May girib havalar qızanda meynə qol-budaq atdı.
B) Şanı əməksevən olur: bir versən, on dəfə artığı ilə qaytarır.
C) Şirəyə yığılan arılar uşaqları işləməyə qoymur, onları qorxudurdu.

3 Aşağıdakı cümlələrdə hansı sözlər yerində işlənməyib? "Köməkçi"-dən istifadə edərək cümlələri düzgün şəkildə oxuyun.

Ata böyükləri səslədi. Həyətdəki meynəni qırmaq istədiyini bildirdi. Hamı həvəssiz razılaşdı. Ertəsi gün toplaşdılar. Meynənin dibini bərkitdilər. Bir neçə ilə meynə daha da balacalaşdı. Hamı kədərləndi.

**Köməkçi:** sevindi, bir ilə, həvəslə, uşaqları, həmin gün, diriltmək, boşaltdılar, böyüdü

4 Mətnə hansı atalar sözləri uyğundur?
A) Ağac bar verəndə, başını aşağı dikər.
B) Bağa bax, üzüm olsun, yeməyə üzün olsun.
C) Yıxılan ağaca balta çalan çox olar.
D) Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.

5 Uyğun gələn sözləri əlavə edib cümlələri yazın.

1) Uşaqlar bağda üzüm – əkdilər. 2) Yayda tənəklər – atdı. 3) Nazik budaqlarda – göründü. 4) İsti avqust günlərində salxımlar –. 5) Anam ağ şanıdan – bişirdi. 6) Nənəm şipşirin və dadlı üzümlərdən – düzəltdi.

**Köməkçi:** mürəbbə, tənəkləri, qol-budaq, bəkməz, salxım, şirələndi

6 Bəlkə, bilirsiniz, üzüm daha çox Azərbaycanın hansı bölgələrində yetişdirilir? Bəs Abşeronda ən çox sevilən və yetişdirilən üzüm növləri hansılardır? Məlumatınızı genişləndirmək üçün araşdırma aparın və tədqiqatınızın nəticəsini yoldaşlarınızla bölüşün.

7 Mətndəki mavi boşluqda hansı sözü yazmaq olar?

A) hərarətlə B) həvəslə C) deyinə-deyinə D) səbirsizliklə

8 Mətnin ikinci abzasında işlənmiş feillərin zamanını və şəxsini müəyyənləşdirin. Sonra birinci abzasda işlənmiş feilləri də həmin zamanda və şəxsdə işlədin.

9 Mətndə üzərində ulduz işarəsi qoyulmuş cümlələrdəki sabit ifadələri tapıb, ilkin formasını yazın. Çətinlik çəksəniz, müəlliminizə müraciət edin.

10 Mətndə altından xətt çəkilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etsək, məna dəyişməz?

A) canlandırmaq B) həyata qaytarmaq C) ruhlandırmaq

11 Mətndə göy rəngdə verilmiş köməkçi nitq hissələri nitqdə eyni vəzifə yerinə yetirir, yoxsa fərqli? Fikrinizi əsaslandırın və həmin nitq hissələrinin yazılışı üzərində müşahidə aparın.

12 Mətndə yaşıl rənglə fərqləndirilmiş sözləri elə dəyişin ki, əlamət normada və normadan az olsun.

**Köməkçi:** bomboz – boz, bozumtul, açıq-boz

13 Mətndə qara şriftlə verilmiş mürəkkəb sözlər arasındakı ümumi cəhət nədən ibarətdir? Bu sözləri yaranma xüsusiyyətləri baxımından neçə qrupa ayırmaq olar? Fikirlərinizi əsaslandırın və həmin sözləri müvafiq sütunlarda yazın. Sütunları əlavə misallarla zənginləşdirin.

14 Şeiri oxuyun, qırmızı rəngdə verilmiş sözlərin və birləşmələrin mənasını izah edin. Birinci hissədə neçənci şəxsə müraciət olunduğunu müəyyənləşdirin.

## AĞ ŞANI

Əsir sərin küləklər,
Yarpağına toxunur.
Səhər sənin üstünə
İnci kimi şeh qonur.
Gör necə parlayırsan
Sən babamın bağında.
Qızıl telli şəfəqlər
Oynayır yanağında.



Birdən salxım dil açdı,
Söylədi: - Ağ şanıyam!
Mən Bakı bağlarının
Şöhrətiyəm, şanıyam!
Uca göylərdən təmiz,
Sulardan duruyam mən.
Torpağın öz şirəsi,
Günəşin nuruyam mən.

**Nəbi Xəzri**

**SÖZLÜK**

şöhrət-şan

**SÖZ EHTİYATI**

qızıl telli şəfəq

# § 44. BAHAR GƏLSİN!

Gözəl bahar, gözəl bahar,
Gözləyirik, tez gəl, bahar!
Quşlar köçsün ölkəmizə,
Nəğmə desin yenə bizə.
Gəl, oyansın **sıx** meşələr,
Yasəmənlər, bənövşələr
Gəlişinlə ətir saçsın,
İydə, innab çiçək açsın.
Hər mövsümün öz yeri var,
Gəl, sevimli, gözəl bahar!
Bu düzlərdə, bu dağlarda,
Yaşıl donlu yaylaqlarda
Yenə quşlar nəğmə desin,
Həyat versin xoş nəfəsin
Bərəkətli torpaqlara –
Mehribansan uşaqlara.
Gəl Xəzərin sahilinə, –
Gözəl, sərin sahilinə.
Yayılanda günəş düzə,
Gəl-gəl desin dəstəmizə.
Ağacların xoş kölgəsi,
Bağçaların nəğmə səsi
Yayılanda dağa, daşa –
Gəl, səninlə gəzək qoşa.
Gözəl bahar, gözəl bahar,
Gözləyirik, tez gəl, bahar!

**Məmməd Rahim**

**SÖZLÜK**

iydə innab mövsüm

**SÖZ EHTİYATI**

həyat vermək qoşa gəzmək

1 Şairin yerində olsaydınız, bahar fəslini siz necə tərənnüm edərdiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

2 Qruplara bölünün və şeirdən götürülmüş aşağıdakı parçalardan biri əsasında yazın gəlişini təsvir edən təqdimat hazırlayın. Hansı qrupun cavabı daha maraqlı olacaq? Cavablar üzrə qiymətləndirmə aparın!

I. Gəl, oyansın sıx meşələr,
Yasəmənlər, bənövşələr
Gəlişinlə ətir saçsın,
İydə, innab çiçək açsın.

II. Bu düzlərdə, bu dağlarda,
Yaşıl donlu yaylaqlarda
Yenə quşlar nəğmə desin,
Həyat versin xoş nəfəsin
Bərəkətli torpaqlara.

3 Şeirdə altından xətt çəkilmiş sözləri yazın və qarşılarında tələffüz şəklini qeyd edin. Sonra həmin sözlərin hansı nitq hissəsinə mənsub olduğunu sualların köməyi ilə müəyyənləşdirin.

4 Ölkəmizdə yazın gəlişinə həsr olunmuş mərasimlərin təşkili sizi qane edirmi? Siz bu mərasimləri necə görmək istərdiniz? Fikrinizi yoldaşlarınızla bölüşün.

5 Yazın gəlişinin bayram edilməsinə necə baxırsınız? Nəyə görə yayın, payızın gəlişi bayram edilmir, ancaq baharın gəlişini hamı sevinclə qarşılayır? Müzakirəyə qoşulun.

❻ Aşağıdakı söz birləşmələrini cümlələrdə işlədin və tərcümə edin.

sıx meşələr, yaşıl çöllər, ağacların kölgəsi, göylərdən təmiz, sulardan duru, bərəkətli torpaqlar, şən uşaqlar, sərin sahil, quşların nəğməsi

❼ Aşağıdakı sözlərin şeirdəki qarşılığını tapıb səsləndirin və hər iki variantı müqayisə edin. Hansı variant daha çox xoşunuza gəldi?

qalın, yaysın, paltarlı, oxusun, bəhrəli, birlikdə, sərin

❽ Şeirdə yaşıl rəngdə verilmiş söz hansı mənada işlənə bilmir?

A) yuxudan ayılmaq
B) gözlərini açmaq
C) yetişmək
D) canlanmaq, dirilmək

❾ Şeirdə göy rəngdə verilmiş söz başqa hansı mənada işlənir? Həmin sözü gələcək zamanda müxtəlif şəxslər üzrə dəyişib yazın.

## TAP GÖRƏK

❿ Verilmiş tapmacaların cavabını, yəqin ki, asan tapacaqsınız. İkinci tapmacada altından xətt çəkilmiş sözlərin yazılışı ilə bağlı qaydanı izah edin və həmin sözləri hallandırıb yazın.

1. Bir kişinin dörd evi var:
Biri yaşıldı, o biri al,
Biri sarıdı, o biri çal.

2. Basdırmışam iki toyuq,
Biri isti, biri soyuq.

⓫ Aşağıdakı atalar sözlərindən hansını şeirin məzmununa aid etmək olar?

### ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

A) Yaz var, qış var, nə tələsik iş var!
B) Yayda işlə, qışda dişlə.
C) Yazda çalan qışda oynar.
D) Yaxşı il baharından bəlli olar.

⓬ Azərbaycanın hansı mənəvi sərvətlərinin "bəşəriyyətin qeyri-maddi mədəni irsi" siyahısına daxil edildiyini deyin və aşağıda verilmiş məlumatı yadda saxlayın.

Novruz 2009-cu il sentyabrın 30-da YUNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilib. 2010-cu il fevralın 23-də isə BMT Baş Assambleyasının 64-cü sessiyasında martın 21-i "Beynəlxalq Novruz Günü" elan edilib. Beləliklə, Novruz beynəlxalq bayrama çevrilib.

✿ Mətndə işlənmiş sayları sözlə yazın.

⑬ Müxtəlif türk dillərində Novruz təbriklərini oxuyun. Dilimizdəki "Novruz" və "bayram" sözlərinin digər türk dillərindəki oxşar və fərqli cəhətləri üzərində müşahidə aparın. Sizcə, bu dillərdə danışan insanlar bir-birini başa düşə bilərlərmi? Fikrinizi yoldaşlarınızla bölüşün.

1) Nevruz bayramınız kutlu olsun! (Türkiyə türkcəsi)
2) Naurız kuttı bolsın! (Qazax türkcəsi)
3) Nouruz meyramıgız kuttu bolsun! (Qırğız türkcəsi)
4) Novruz bayramıngız mübarek bolsun! (Özbək türkcəsi)
5) Novruz bayramımız quttu olsun! (Türkmən türkcəsi)
6) Navrız meyramıngız mübarek bolsun! (Uyğur türkcəsi)
7) Novruz bayramınızı tebrik item! (Tatar türkcəsi)

⑭ Oxuyun özbəklərin Novruz adətləri ilə tanış olun, onları Azərbaycandakı Novruz adətləri ilə müqayisə edin.

Novruz bayramı Özbəkistanda da təmtəraqla qeyd olunur. İnsanlar kütləvi gəzintiyə ("Seyir") çıxırlar, yerlərdə yelləncəklər qurulur, xoruz döyüşləri keçirilir. Özbəklər Novruz süfrəsi üçün "nişala" hazırlayırlar. Nişala şəkərdən bişirilir və ağ şokolada bənzəyir. Özbəklər bayram vaxtı öküzlərin buynuzunu yağlayırlar. Məmləkətin yaşlı adamı əlini yağa batırar və öküzlərin buynuzunu yağlayar ki, yeni il bərəkətli olsun.

❁ Qruplara bölünün, müəllimin tövsiyəsi ilə Türkiyə, İran, Əfqanıstan, Qazaxıstan, Tacikistan və Türkmənistan kimi ölkələrdən birində Novruzu qarşılama adətləri barədə təqdimat hazırlayın.

⑮ "Novruz gəlir, yaz gəlir" başlıqlı inşa yazın.

⑯ Aşağıdakı mətndə altından xətt çəkilmiş sözlərlə bağlı düzgün cavab hansıdır? Fikrinizi əsaslandırın.

İnnabın əsl vətəni Çindir. Hələ çox qədimdən onu Şərqə, Qərbi Asiyaya və Afrikaya gətirmişlər. Hazırda Orta Asiyada, Krımda və Azərbaycanda yetişdirilir. Meyvəsi xırda olur. <u>İrimeyvəli</u> sortlar Çindən Azərbaycana gətirilmiş və yayılmışdır. <u>Üç-dördillik</u> ağacları bar verməyə başlayır. <u>Altı-səkkiz</u> metr hündürlüyü olan bu ağacın budaqları tikanlı, gövdəsi <u>əyri-üyrüdür</u>. <u>Lələkşəkilli</u> yarpaqları hamar, parlaq və qayış kimidir. <u>Ulduzşəkilli</u> xırda, <u>qızılı-sarı</u> çiçəkləri, <u>qırmızı-qəhvəyi</u> rəngli parlaq şirin meyvələri olur.

A) hamısı sifətdir B) qohum sözlərdir C) quruluşca mürəkkəbdir

⑰ 16-cı çalışmadakı əlamət bildirən sözləri aid olduğu sözlərlə birlikdə yazın və tərcümə edin. Hər iki variantı müqayisə edin. Əlamət bildirən sözlər Azərbaycan dilində də aid olduğu sözlərin əlamətini qəbul edirmi? Mülahizələrinizi müəlliminizə söyləyin.

## § 45. PƏLƏNG OVU

Kərim baba söhbətinə belə başladı:

– Bizim Borçalı meşələrində pələng olmadığını bilirsiniz. Ancaq keçmiş zamanlarda varmış. Qırx-əlli il bundan əvvəl kəndin yaxınlığında bir pələng görünmüşdü. Onun qorxusundan meşəyə heç kəs getmirdi. Bir gün eşitdim ki, kəndin yaxınlığında pələng üç inək parçalayıb. Ağlım başımdan çıxdı. Tüfəngimi götürüb getdim. Kəndlə meşənin arası bir ağac olardı. Dərəni aşdım. Aşağı uzanan daşlı-qayalı bir dağ ətəyi ilə meşənin içərisinə gedirdim. Günəş saralmağa, sular qaralmağa başlamışdı. Pələngi **gözdən qaçırmamaq** üçün yan-yörəmə baxırdım. Bir də nə gördüm?! Uzaqda iki göz məşəl kimi yanır. Baxdım, pələng idi. O da məni görmüşdü. Pəncəsi ilə acıqlı-acıqlı yeri eşir, cırmaqlayırdı.

Bir az da getmişdim ki, birdən-birə pələng yerindən atılıb bağıra-bağıra üstümə gəldi. Bir daşa söykənib tüfəngimi ona tərəf yönəltdim. Pələngin bir nəcib xasiyyəti var: hücuma başladığı yerdən üç dəfə ovun üstünə atılar. Bu üç dəfənin heç birində ovlaya bilməsə, küsüb gedər. Qalxdığı yerdən iki dəfə üstümə atıldı. Üçüncü dəfə az qaldı üstümə düşsün. Tüfəngimi qaldırdım və havada üstümə gəlirkən qolları arasından nişan aldım. Pələngdən elə bir bağırtı qopdu ki, səsindən dağ-daş titrədi. Gözlərim qaraldı, tüklərim ürpərdi. O, iki-üç addım məndən aralı bir qaratikan kolu yanında yıxılıb nərildəyirdi. İki dəqiqədən sonra canını təslim etdi. Yaxınlaşdım. O igid heyvanı öldürdüyümə peşman oldum. Ürəyim kövrəldi, gözlərim yaşardı. Tüfəngimi bir tərəfə atıb, qabağında diz çökdüm. Başını qollarım arasına alıb, üzündən-gözündən öpdüm.

Pələngin dərisini soyub evə qayıdandan sonra qonşular başıma yığıldılar. Dedim ki, Borçalı torpağında bir igid var idi, o da bu gündən yaşamır. Bundan sonra Borçalı torpağı igid üzü görməyəcək.

Bir saat əvvəl sakit və dalğın halda duran bu qoca artıq nəzərimizdə böyümüşdü.

**Abdulla Şaiq**

**SÖZLÜK**

məşəl
dalğın halda
nəcib
aşmaq

**SÖZ EHTİYATI**

canını təslim etmək
ağlı başından çıxmaq
tükləri ürpənmək

1 Sualları oxuyun və cavablandırmağa çalışın. Onların mətnin məzmununu əks etdirmədiyini faktlarla əsaslandırın.

1) Borçalı meşələrində çoxlu pələng olması nə ilə bağlı idi?
2) İnsanlar nə üçün Borçalı meşələrində olan pələngdən qorxmurdular?

3) Nə üçün pələng Kərim babanı görəndə qorxub qaçır?
4) Kərim baba nişan alsa da, nə səbəbə pələngi öldürməkdən vaz keçdi?
5) Kərim babaya yaxınlaşan pələng niyə birdən geri qayıtdı?
6) Kərim baba öldürdüyü pələngi niyə acıqlı-acıqlı süzürdü?

2 Kərim baba pələngi öldürdükdən sonra niyə peşman oldu? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

3 "Bu qoca artıq nəzərimizdə böyümüşdü" cümləsinin mənasını necə başa düşürsünüz? Müəllif bu sözlərlə nə demək istəmişdir? Müzakirə edin.

4 Mətndə sarı rənglə fərqləndirilmiş cümlədəki "ağac" sözünü necə başa düşmək lazımdır?
A) bərk gövdəsi olan çoxillik bitki
B) təxminən 6-7 kilometrə bərabər uzunluq ölçüsü
C) tir, dirək, şalban
D) əsa və ya çomaq

5 Mətndə işlənmiş "canını təslim etdi" ifadəsini aşağıdakı variantlardan hansı ilə əvəz etmək daha çox yerinə düşər?
A) vəfat etdi B) həlak oldu C) öldü D) keçindi E) gəbərdi

6 Aşağıdakı cümlələri mətnin məzmunu əsasında genişləndirib yazın.
1) Bir pələng görünmüşdü. 2) Pələng üç inək parçalayıb. 3) Meşənin içərisinə gedirdim. 4) Yan-yörəmə baxırdım. 5) Pələng üstümə gəldi. 6) Tüfəngimi ona tərəf yönəltdim. 7) O yıxılıb nərildəyirdi. 8) Qonşular başıma yığıldılar.

7 Necə bilirsiniz, aşağıdakı cümlələrdə altından xətt çəkilmiş sözlər hansı nitq hissəsinə aiddir? Düzgün cavabı göstərin və fikrinizi əsaslandırın.
<u>Birdən-birə</u> pələng yerindən atılıb bağıra-bağıra üstümə gəldi. <u>Aşağı</u> uzanan daşlı-qayalı bir dağ ətəyi ilə meşənin <u>içərisinə</u> gedirdim. Pələngi gözdən qaçırmamaq üçün <u>yan-yörəmə</u> baxırdım. O, pəncəsi ilə <u>acıqlı-acıqlı</u> yeri eşir, cırmaqlayırdı.
A) isim B) sifət C) zərf D) əvəzlik

8 Kərim babanın xatırladığı Borçalı meşələri harada yerləşir və onun haqqında nə bilirsiniz? Məlumatınızı artırmaq üçün axtarış aparın və topladığınız məlumatı yoldaşlarınızla bölüşün.

9 Oxuyun və yerinə düşməyən sözləri tapıb, cümlənin mənasına uyğun gəlmədiyini əsaslandırın.

1) Bizim Borçalı göylərində pələng olmadığını bilirsiniz. 2) Bir gün eşitdim ki, kəndin uşaqlığında pələng üç inək parçalayıb. 3) Pələngdən elə bir nəğmə qopdu ki, səsindən dağ-daş titrədi. 4) O igid heyvanı güldürdüyümə peşman oldum. 5) Tüfəngimi bir tərəfə atıb, qabağında rəqs etdim.

⑩ Kərim baba pələngi hansı xüsusiyyətlərinə görə igid adlandırır? Düzgün olanlarını seçin.

A) qorxmazlığına B) cəsarətinə C) acgözlüyünə
D) məğrurluğuna E) hiyləgərliyinə

✿ Seçdiyiniz xüsusiyyətlər igid insanlara da aid edilə bilərmi? Verilmiş sözlərdən istifadə edərək “Azərbaycan igidlər diyarıdır” başlıqlı kiçik esse yazın.

⑪ Mətndə altından xətt çəkilmiş sözləri əsas, yoxsa köməkçi nitq hissələrinə aid edərdiniz? Mülahizələrinizi müəlliminizə bildirin.

⑫ Mətndən götürülmüş aşağıdakı sözlərin köklərini müəyyənləşdirib suallarını qarşılarında qeyd edin. Omonim köklərdə diqqətli olun!

saralmağa, qaralmağa, cırmaqlayırdı, yaxınlığında, parçalayıb, yönəltdim, atılar, üçüncü, ovladı, bağırtı, aralı, yıxılıb, yaxınlaşdım, öldürdüyümə

⑬ Aşağıdakı cümlələrdə fərqləndirilmiş sözlərin və onların köklərinin mənalarını izah edin.

1) Borçalı torpağında bir igid var idi, o da bu gündən yaşamır.
2) Ürəyim kövrəldi, gözlərim yaşardı.

✿ Həmin sözlərin kökü ilə bağlı düzgün cavabı göstərin və fikrinizi əsaslandırın.

A) çoxmənalıdır B) omonimdir C) antonimdir

### KƏLMƏLƏRİN “DİLİ”Nİ ÖYRƏNƏK!

***Yaşamaq*** – 1. Həyatda var olmaq, diri olmaq, sağ olmaq – 100 il yaşamaq. 2. Ömür sürmək, həyat keçirmək – Sağlam yaşamaq. 3. Davam etmək, mövcud olmaq, var olmaq – Adətlərimizi yaşatmaq lazımdır. 4. Bu və ya başqa tərzdə həyat sürmək, dolanmaq, keçinmək – Mənalı yaşamaq. 5.Bir yerin sakini olmaq, daim və ya müvəqqəti bir yerdə həyat sürmək – Kənddə yaşamaq. 6. Bir yerdə həyat keçirmək, bərabər ömür sürmək – Onunla bir mənzildə yaşamaq çətindir.

⑭ Tapmacanı cavablandırın və fərqləndirilmiş sözlərin quruluşca növünü təyin edin.

O hansı heyvandı ki, anadan saqqallı doğular. ✉

# § 46. QIRQOVULAM, TƏKƏM MƏN...

(ixtisarla)

Əvvəl belə deyildi
Bu örüşlər, talalar.
Bizim idi bu torpaq,
Bizim idi bu gülzar.
Düzlərin ən ətirli
**Çiçəyi** bizim idi.
Yaşıl biçənəklərin
Göyçəyi bizim idi.
Laylamızı çalardı
Yarpaqlar axşam-səhər.
... Suyumuz şeh damcısı,
Dənimiz gül toxumu.
... Meşə ətəkləriylə
Dəstə tutub qaçardıq.
Allah, allah, o vaxtlar
Nə arxayın uçardıq.

2

Bəs kimə neylədik ki,
Özümüzdən inciyib,
Səsimizdən bezdilər?
Axır bizi susdurub,
Nəğməmizi kəsdilər.

* * *

Dəvəquşular kimi
Qaçmağımız var idi,
İndi qaçmağımız yox.
Havalanıb qəfildən
Uçmağımız var idi,
Indi uçmağımız yox.
Necə ola bilər ki,
Budağın ola-ola,
Budaq sənin olmasın,
**Ovlağın** ola-ola,
Ovlaq sənin olmasın;
Böyük dərddir, eləmi?!

* * *

Axı niyə bu dərdi
Gizli-gizli çəkim mən?!*
Oxuyum ki, yalqızam,
Qırqovulam, təkəm mən.
Belə qəmli oxusam,
Mənə baxan olarmı?
Görəsən, quş dərdinə
Şərik çıxan olarmı?...

**Musa Yaqub**

**SÖZLÜK**

| | | |
|---|---|---|
| qırqovul | gülzar | bezmək |
| yalqız | ovlaq | göyçək |

**SÖZ EHTİYATI**

şərik çıxmaq
ətək

1. Şeirdəki əsas fikri müəyyənləşdirin. Qırqovulların susdurulmasının, sayının azalmasının səbəbi nə ilə bağlı idi? Şair insanların diqqətini nəyə cəlb etmək istəyir? Müzakirə edin.

2. Necə düşünürsünüz, şeirin birinci bəndində qırqovul hansı günləri xatırlayır? Hansı cümlələrdə bir vaxt gəzdiyi doğma yerləri yada salır? Həmin hissəni genişləndirərək öz sözlərinizlə danışın.

3 Qırqovulu kökü kəsilməkdə olan quşlar siyahısına daxil etmək olarmı? Hansı quşlar bu siyahıya daxil edilib? Necə düşünürsünüz, qırqovulun adını "Qırmızı kitab"da qırmızı, sarı, yoxsa yaşıl səhifələrdə yerləşdirmək lazımdır? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

4 Verilmiş suallara yazılı cavab verin.
1) Şeirdəki qırqovulun nəğməsi nə barədədir?
2) Nə üçün qırqovulun nəğməsi qəmlidir?
3) Qırqovulun yalqız qalmasına səbəb nədir?
4) Qırqovul nəğməsində diqqəti nəyə cəlb etmək istəyir?
5) Sizcə, qırqovulun dərdinə şərik çıxan olarmı?

5 "Görəsən, quş dərdinə
Şərik çıxan olarmı?..." – misralarında şair qırqovulun dili ilə kimləri köməyə çağırır? Qırqovulun "dərdinə şərik olmaq" ifadəsini siz necə başa düşürsünüz? Fikrinizi yoldaşlarınızla bölüşün.

6 Şeirin məzmununa uyğun olaraq üçüncü hissəyə aşağıdakı parçalardan hansını daxil etmək olar?

... Hamı düşdü pərən-pərən,
Qoymadılar nəfəs dərək,
Nə qədər çiçəkli dərə,
Nə qədər uca dağ qaldı.

... Təhlükəni, qorxunu
Bir gün almayıb vecə,
İstəyirəm oxuyum,
Oxuyum ürəyimcə.

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Kəsmək*** – 1. Kəsici alətlə bütövdən bir hissə ayırmaq – Almanı kəsdim; 2.Kəsən alətlə yaralamaq – Əlini kəsdin? 3. Qısaltmaq, gödəltmək – Saçını kəsdir; 4. Dayandırmaq, saxlamaq, getməyə qoymamaq – Ağlamağını kəs; Qabağımızı kəsdilər; 5. Daha verməmək, istifadəsini dayandırmaq – Suyumuzu kəsiblər; 6.Ara vermək, dayanmaq – Yağış kəsdi; 7. Qırmaq, doğramaq, budamaq – Quru budaqları kəsin; 8. Ölçüb-biçmək – Dərzi parçanı kəsdi; 9. Qarşısını almaq, dayandırmaq – Başının ağrısı kəsdi.

7 Şeirdə yaşıl rəngdə verilmiş əvəzliklər nə bildirir?

| | | | |
|---|---|---|---|
| 1) sual | 2) işarə | 3) qeyri-müəyyənlik | 4) şəxs |
| A) 1, 4 | B) 2, 3 | C) 2, 4 | D) 1, 3 |

8 Şeirdə göy rəngdə verilmiş sözlərin şəkilçisiz formasını deyin. Həmin sözləri ismin hallarına görə dəyişib yazın. Sözlərin son samitinin hansı hallarda dəyişdiyinə diqqət yetirin.

⑨ Mətndə üzərində ulduz işarəsi qoyulmuş cümlədəki ifadəni müəyyənləşdirib mənasını izah edin və cümlələrdə işlədin.

⑩ Aşağıdakı atalar sözlərinin mənalarını izah etməyə çalışın. Diqqətli olsanız, quşların bildiyiniz əlamətləri sizə kömək edə bilər. Özünüzü sınayın.

1) Qırqovul başını soxar kola, deyər heç kəs məni görmədi.
2) Kəklik səsini çıxartmasa, qaraquş onu tuta bilməz.

⑪ Mətndə altından xətt çəkilmiş sözlərin antonim və sinonimlərini tapıb deyin və cümlələrdə işlədin.

⑫ Aşağıdakı teleqramı oxuyun. Necə düşünürsünüz, Gəray Cabbarov düzmü qərar qəbul edib? Nəsli kəsilməkdə olan heyvan və quş növlərinin artmasına, qorunmasına bu yolla kömək etmək olarmı? Onun yerində olsaydıınız, siz də belə edərdinizmi? Müzakirə edin.

**Teleqram**

Bakı şəhəri, Bakıxanov küçəsi 29, Bakı Heyvanat Parkına.

Məndə olan bir ədəd qırqovulu Bakı Heyvanat Parkına bağışlamaq istəyirəm! Onu sizə necə çatdıra bilərəm? Cavabınızı gözləyirəm.

Lənkəran rayonu, Türkəncil kəndi, Cabbarov Gəray Həzi oğlu.

⑬ Qırqovul nəslinin kəsilmək təhlükəsini bütün insanlara mahnısını ucadan oxumaqla çatdırmaq istəyir. Bəs tarixin müxtəlif dövrlərində, o cümlədən **31 mart 1918-ci il azərbaycanlıların soyqırımı** barədə siz nə bilirsiniz? Aşağıdakı məlumatı oxuyun və tərcümə edin.

**Yadda saxlayın!** 1918-ci ilin mart-aprel aylarında erməni və daşnak birləşmələri tərəfindən Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və s. xüsusi qəddarlıqla azərbaycanlıların soyqırımı həyata keçirilmişdir. Qısa müddət ərzində **50 mindən artıq** dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir. 1918-ci ilin 31 martından aprel ayının 3-dək təkcə Bakı şəhərində 20 minə yaxın insan qətlə yetirilmiş, yandırılmış, dənizə atılmışdır.

Bu soyqırım hadisələrini yaddan çıxarmağa bizim mənəvi haqqımız yoxdur!

❀ Araşdırma aparın və məlumatınızı genişləndirin.

# § 47. DAŞYIĞAN ƏMİ

### *1-ci hissə*

Samirlə lap qardaş kimiyik. Bir dəfə o məndən soruşdu ki, Elşən, "daşyığan əmi"ni tanıyırsan? Mən tanımadığımı bildirəndə dedi ki, evimizin yanından keçəndə göstərərəm. Maraq məni rahat buraxmadı. Soruşdum ki, məgər onun öz adı yoxdur?

Dedi: "Var, ancaq uşaqlar onu öz adı ilə çağırmırlar, "daşyığan əmi" deyirlər.

Niyə belə çağırılmasının da səbəbini deyim. Eşitdiyimə görə, o, yazıçıdır. Adı da Səməd Gündoğandır. O öz yanında **daim** iki polietilen torba gəzdirir. Bağa gəlib-gedəndə və ya bağda olan vaxtlar dükana gedəndə həmin torbalara daş yığır. Deyilənə görə, öz bağında bu daşlardan nəsə düzəldir".

Mən o gündən etibarən "daşyığan əmi" ilə maraqlanmağa başladım. Bir gün dənizdən gəlirdim. Məndən **qabaqda** "daşyığan əmi"nin getdiyini gördüm. O, deyəsən, bazardan, ya da dükandan gəlirdi. Bir torbası ərzaqla dolu idi. Birdən o, dolu torbanı yerə qoyub, şalvarının arxa cibindən boş polietilen torba çıxartdı. Hasar dibinə düşmüş lazımsız daşlardan bir neçəsini götürüb, torbaya atdı. Sonra yola düzəldi. Yükü çox ağır olduğundan **yavaş** yeriyir və **tez-tez** torbaları yerə qoyub, tərini silirdi. Özümü çatdırıb, salam verdim. Köməyimi təklif etdim.

– Çox ağırdır, gücün çatmaz, elə bu sözünlə də mənə kömək eləmiş kimisən. Allah səni saxlasın! – dedi.

– Onda icazə verin, torbanın bir qulpundan tutum! – deyərək, öz fikrimin üstündə durmaq istədim.

O, ______ üçün əlacsız qalıb razılaşdı. Bağına yaxınlaşanda kişi məni evinə dəvət etdi. Mən utandım. O gülə-gülə dedi:

– Görürəm, sən çox yaxşı oğlansan, səninlə dostluq etmək olar. Sənin kimisi indi çətin ələ düşər. Buna da şükür! Deməli, hələ gələcəyə ümidlə baxmaq olar...

O, dəmir darvazaya çatanda qapını döydü. Qapını yaşlı bir qadın açdı. Danışıqlarından hiss etdim ki, bu, onun həyat yoldaşıdır. "Daşyığan əmi" **içəri** girməyimi təkid etdi və dedi:

– Daha qaçmağın yeri yoxdur. Biz dostuq. Dost qapısı dost üzünə açıqdır.

**Hafiz Əli**

Necə düşünürsünüz, Elşən "daşyığan əmi" nin təklifini qəbul edəcəkmi? O, bəlkə, "daşyığan əmi"nin daşları nə üçün yığdığını öyrənmək istəyəcək? Siz hekayəni necə davam etdirərdiniz?

| SÖZLÜK |
| --- |
| məgər |
| o gündən etibarən |

| SÖZ EHTİYATI | |
| --- | --- |
| Allah səni saxlasın | ələ düşmək |
| əlacsız qalmaq | rahat buraxmamaq |

1 Mətn üzrə aşağıdakı suallara cavab verin. Bəs siz hansı sualları əlavə etmək istərdiniz?

1) "Daşyığan əmi" kimdir?
2) Uşaqlar onu niyə belə çağırırdılar?
3) Elşən "daşyığan əmi" ilə necə tanış oldu?
4) Elşən niyə "daşyığan əmi"yə yaxınlaşıb kömək təklif etdi?
5) "Daşyığan əmi" Elşənin köməyini niyə qəbul etməli olur?
6) "Daşyığan əmi" Elşəni içəri dəvət edəndə ona nə dedi?

2 Aşağıda mətndən götürülmüş iki parça verilib. Həmin parçaları mətnin hansı hissələrinə əlavə edərdiniz?

I. O məni qadına təqdim etdi:

– Bu mənim dostum Elşəndir, ikinci dəfədir ki, mənə kömək edir. Şahnaz, bilirsən bu necə yaxşı oğlandır?!

Şahnaz xala: "Allah saxlasın!" – dedi.

II. Bakıda çoxlu dostum var. Şəhərdə hərəsi bir yerdə oxuyur. Aralarında Sumqayıtdan, Bakı kəndlərindən olanlar da var. Yeni bağ mövsümü başlayana kimi onlar üçün burnumun ucu göynəyir. Onlardan ən çox istədiyim Samirdir.

3 Aşağıdakı variantlardan hansını "burnumun ucu göynəyir" ifadəsinin əvəzinə işlətmək olmaz?

A) çox darıxmaq B) çox arzu etmək C) həsrətini çəkmək D) küsmək

4 Mətndəki hadisələr hansı fəsildə cərəyan edir? Həmin fəsil və ya bağ mövsümü haqqında yığcam inşa yazın.

5 Necə düşünürsünüz, mətndə atalar sözü işlənmişdirmi? Əgər işlənibsə, tapıb səsləndirin. Mövzuya uyğun bir neçə atalar sözü də siz tapın.

6 Mətndəki sarı boşluğun əvəzinə aşağıdakı variantlardan hansı yazılmalıdır?

A) əziyyət vermək C) xətrimə dəyməmək
B) incitmək D) çarəsizlikdən

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Çıxarmaq*** – 1. Bir şeyi bir yerdən kənarlaşdırmaq; bir yerdən götürüb başqa yerə qoymaq – Partaları sinifdən çıxartdılar; 2. Bir şeyin içərisində olan başqa bir şeyi götürmək – Cibindən pul çıxartmaq. 3. İşdən, məktəbdən və s.-dən azad etmək, xaric etmək – İşdən çıxartmaq. 4. Ayaqqabısını, papağını və s. soyunmaq – Papağını çıxar. 5. Bitdiyi yerdən çəkərək qopartmaq – Dişini çıxartmaq. 6. Nəşr etmək, çap etmək – qəzet çıxartmaq. 7. Yerin altından istehsal etmək – Neft çıxartmaq.

**7** Aşağıdakı cümlələri mətnin məzmunu əsasında tamamlayıb yazın.

1) Mən tanımadığımı bildirəndə dedi ki, ... . 2) Bir dəfə o məndən soruşdu ki, ... . 3) Yükü çox ağır olduğundan yavaş yeriyir və ... . 4) Çox ağırdır, gücün çatmaz, ... . 5) Görürəm, sən çox yaxşı oğlansan, ... . 6) Danışıqlarından hiss etdim ki, ... .

**8** Aşağıdakı sözləri qruplaşdırıb müvafiq sütunlarda sualları ilə birlikdə yazın. Bir neçəsini cümlələrdə işlədin.

çoxlu, atdı, daş, ağıl, gördüm, o, elə, torba, davam edir, polietilen, xırda, düzəldir, iri, təqdim etdi, bir qədər, maraq, saxlasın, rahat, nəsə, bir neçə, döydü, mənim, bu, dolu, onun, yazıçı, həmin, utandım, açıq, həyətə, sənin, dəmir, iki

| İsim | Sifət | Say | Əvəzlik | Feil | Zərf |
|---|---|---|---|---|---|

Bəs mətndə göy rəngdə verilmiş sözlər cədvəlin hansı sütununa yazılmalıdır?

**9** "Buna da şükür! Deməli, hələ gələcəyə ümidlə baxmaq olar...", – deməklə yazıçı Səməd Gündoğan nə demək istəyirdi? Müzakirəyə qoşulun və fikirlərinizi yoldaşlarınızla bölüşün.

**10** Mətndə altından xətt çəkilmiş sözlər üzərində müşahidə aparın. Çıxışlıq hal şəkilçisinin hansı məqamlarda yazılışından fərqli tələffüz olunmasının səbəbini öyrənin.

## BUNLARI BİLİRSİNİZMİ?

Yadda saxlayın: Sonu "n, m" samitləri ilə bitən sözlərdən sonra çıxışlıq hal şəkilçisi (-dan,-dən) [-nan, -nən] kimi tələffüz olunur: dükandan – [dükannan], gündən – [günnən], məndən – [mənnən], dostumdan – [dostumnan] və s.

**11** "Allah səni saxlasın!" ifadəsini aşağıdakılardan hansına aid etmək olar?

A) nəzakətli ifadə B) alqış-dua C) sınama D) atalar sözü

**12** Mətndən müxtəlif şəxslərdə işlənmiş feillərə aid misallar seçib səsləndirin və həmin feillərin hansı zamanda işləndiyini deyin.

# § 48. DAŞYIĞAN ƏMİ

***2-ci hissə***

Mən bir söz demədən həyətə girdim.

İçəri girəndən mənim gözüm dörd olmuşdu. Bu, bağ deyilmiş, lap cənnət imiş ki! Cürbəcür güllərin **ətri** adamı lap məst edirdi. Hər tərəfdə səliqə-sahman var idi. Yaraşıqlı* hovuz, hovuzun ətrafında daşdan hörülən güldanlar* göz oxşayırdı. Fiqurların, hovuzun divarlarının, güldanların rəngləri əlvan olmaqla yanaşı, par-par parıldayırdı. Burada hər bir daşın öz yeri vardı. Hovuzun ətrafına da daş düzümləri xüsusi gözəllik verirdi. Səməd müəllim mənim heyrətləndiyimi görüb dedi:

– Bala, adam istəsə, küçədə, yolda ayaqları əzən daşlardan çox şey yaradar. Bax, külafirənginin döşəməsi də onlardandır. Mənim üçün lazımsız heç nə yoxdur. Payızda ağacların yarpaqlarını başqaları yandırıb, tüstüsüylə havanı korlayır, külünü isə külək havaya sovurub, hər tərəfi çirkləndirir*. Mən isə həmin yarpaqları bu il yerə basdırıram, gələn il əkin üçün **təbii** gübrəyə dönür. Ümumiyyətlə, çürüyən nə varsa, torpağa basdırıram. Bircə polietilen torbaları yandırıram. Onlar çürüsəydi, onları da basdırardım. Ancaq başqaları onları küçələrə, hasarların qırağına, yollara atır. Külək də göyə qaldırıb, Abşeron çöllərinə yayır. Adam xəcalətindən gəzintiyə* çıxa bilmir.

Səməd müəllim çox şeylər danışdı. Onların hamısı beynimdə həkk olundu. Çünki onlar bizə gərəkdir. Səməd **müəllim** məni bağla tanış etdikcə heyrətlənirdim*. Ürəyimdə öz-özümə deyirdim: Abşeron bağlarında nələr əmələ gəlirmiş! Çiyələk, moruq, qarağat – həm qırmızısı, həm qarası, kök, çuğundur, tərəvəz, yemiş, qarpız... Səməd müəllim hər şey əkmişdi.

Axşam yaxınlaşırdı. Evə tələsirdim. Bilirdim ki, anam narahat olacaq. Ona görə də onunla xudahafizləşməli* oldum. Səməd müəllim evə girdi, tez də əlində bir kitab geri qayıtdı. Kitabı mənə uzatdı. Kitabın üz qabığının yuxarısında Səməd Gündoğan, ortasında isə “Abşeron baharı” sözləri yazılmışdı. Mən ona “çox sağ olun!” – deyib, darvazadan çıxdım.

Səməd müəllimin nurani, mehriban sifəti gözlərimin qabağında canlandı. Çiyinlərimdə bir ağırlıq hiss etdim. Elə bildim ki, onun qabarlı, polad kimi bərk, ağır əlləri **çiyin**lərimə enib. (ixtisarla)

**Hafiz Əli**

| SÖZLÜK | |
|---|---|
| külafirəngi | çürümək |
| xəcalət | qabarlı |

| SÖZ EHTİYATI | |
|---|---|
| məst etmək | beynimdə həkk olunmaq |
| havaya sovurmaq | göz (gözü) oxşamaq |

1 Mətnə aid plan tərtib edin və məzmununu öz sözlərinizlə qısaca danışın.

2 Mətndəki əsas fikri müəyyənləşdirin və mətnin məzmunu üzrə suallar hazırlayıb, bir-birinizə verin.

3 "Daşyığan əmi"nin həyatini öz sözlərinizlə təsvir etməyə çalışın.

4 Aşağıdakı atalar sözlərini oxuyun və mətnin məzmunu ilə səsləşməyənləri seçib səsləndirin.

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

1) Zaman keçər, söz qalar. 2) Zəhmət çəkməyən rahatlığın qədrini bilməz. 3) Zəhmətsiz bal yeməzlər. 4) Zərərin yarısından qayıtmaq da qazancdır. 5) Çalışqan əl nəyə dəysə, qızıl olar. 6) İş bacaranın, aş yeyənindir! 7) Görülmüş işdən gül ətri gələr. 8) İşləyən olsun, iş tapılar. 9) İş ustasından qorxar.

5 Mətndə yaşıl şriftlə verilmiş sözləri aşağıdakılardan hansı ilə əvəz etmək olar? Həmin sözləri seçib səsləndirin və cümlələrdə işlədin.

**Köməkçi:** əmələ gəlir, quraşdırmaq, çevrilir , düzəltmək, lazımdır, alınır, dəyərli, olur, faydalı, yonmaq, sökmək, xeyirli, fırlanır, qorumaq, həvəslənmək

6 Necə düşünürsünüz, nəyə görə Səməd müəllim küçələrə, hasarların qırağına atılan polietilen torbaları görəndə xəcalət çəkir? Bəs siz necə, belə vəziyyətlə qarşılaşdıqda hansı hissləri keçirirsiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

7 Mətndə işlənmiş meyvə və tərəvəz bitkilərinin adlarını seçib əvvəl söz birləşmələri, sonra isə cümlələrdə işlədib yazın.

8 Mətndən götürülmüş "Abşeron bağlarında nələr **əmələ gəlirmiş**!" cümləsində fərqləndirilmiş ifadəni aşağıdakılardan hansı ilə əvəz etmək olmur?

A) yetişmək B) bitmək C) becərilmək D) cücərmək

9 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözləri mənalı hissələrinə ayırın. Sözlərdəki hansı şəkilçilərin köklərin mənasında dəyişiklik yaratdığını və yeni sözlər düzəltdiyini müəyyənləşdirin. Sonra həmin söz köklərindən eyniköklü sözlər düzəldib yazın.

**Köməkçi:** gözəlliklərin – gözəl + lik + lər + in

✿ Müəyyənləşdirdiyiniz sözdüzəldici şəkilçilərlə yeni sözlər düzəldib yazın.

10 Mətndə qara şriftlə verilmiş sözlərin düzgün tələffüzünü deyin və fikrinizi əlavə misallarla əsaslandırın. Həmin sözlərin tələffüzü ilə bağlı öyrəndiyiniz qaydanı yadınıza salın.

11 Mətndə göy rəngdə verilmiş sözləri hallandırıb yazın və həmin sözlərin yazılışı ilə bağlı qaydanı yadınıza salın.

# § 49. GƏLİN ELƏ EDƏK Kİ...

Meşələrə çıxanda
Tüfəng götürməyək biz.
Bir kəkliyi qayadan
Qovub itirməyək biz.
Gülmək yerində gülün,
Susmaq yerində susun,
Bülbül enib budaqdan,
Çiynimizdə* oxusun.

Oğrun baxışlı maral
Meşələrdə deyilmi?
Gəlin elə edək ki,
Əziz dostumuz kimi
Sərin çeşmə başında
O bizə qonaq olsun.
Nə belə ürküb qaçan,
Nə belə qorxaq olsun.

Qalxsın **şabalıd**, **vələs**,
**Zoğal, iydə, tut, çinar.**
O qarlı zirvələri
Salamlayanda bahar,
Qartal xəbərə gəlsin.
Gəlin elə edək ki,
Düzləri keçə-keçə,
İnsanın arxasınca
Ceyran şəhərə gəlsin.

**Hüseyn Arif**

**SÖZLÜK**

şabalıd vələs

**SÖZ EHTİYATI**

oğrun baxışlı

1. Şeirin ideyasını müəyyənləşdirib məzmununu öz sözlərinizlə danışın.

2. Heyvanların, quşların kökünün kəsilməməsi, təbiət gözəlliklərinin qorunub saxlanması üçün şair hansı tövsiyələri verir? Bu barədə sizin düşüncələriniz nədən ibarətdir? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

3. "Gülmək yerində gülün,
Susmaq yerində susun", – misraları ilə şair nə demək istəyir?

A) Təbiətin qoynunda silah işlədib quşları, heyvanları qorxutmaq olmaz.
B) Kəkliklər, bülbüllər bizim gülüş səsimizi eşitməməlidirlər.
C) Gülməyi bacardığımız kimi, susmağı da bacarmaq lazımdır.
D) Təbiətin qoynuna çıxanda onun harmoniyasına qulaq asmaq lazımdır.

4. Meşələrdə maralların rahat gəzməsi, onların insanlardan qorxmaması, hürküb qaçmaması üçün nə etmək lazımdır? Bu barədəki fikirlərinizi esse şəklində yazın.

5. "İnsanın arxasınca
Ceyran şəhərə gəlsin", – deyən şair nəyə işarə edir? Necə düşünürsünüz, aşağıdakı cavablardan hansı ağlabatan hesab edilə bilməz?

A) Bütün ceyranlar heyvanxanalarda saxlanmaq üçün şəhərə gətirilsinlər.
B) Heyvanlar tüfəng səsi ilə hürküdülməsə, ovlanmasa, insanlardan qayğı görsələr, onlardan qaçmaz, hətta insanın arxasına düşüb şəhərə belə gələr.

C) Biz elə etməliyik ki, təbiətin yaraşığı olan heyvanlar qorunduqlarını hiss etsinlər, insandan onlara heç bir təhlükə olmadığına əmin olsunlar.

6 Cərgəni bir sözlə ifadə etmək istəsəniz, cavablardan hansını seçərdiniz?
Şabalıd, vələs, zoğal, iydə, tut, çinar ...

A) zirvə B) meşə C) şam D) dərə E) kol

## TAP GÖRƏK

7 Tapmacaları oxuyun. Onların hər ikisinin cavabı şeirdə işlənmişdir? Tapıb səsləndirin və cümlələrdə işlədin.

1. Bir balaca boyu var,
Qırmızıdan donu var. ⊠

2. Bir dağarcıq unum var,
İçində bir tumum var. ⊠

**SÖZ EHTİYATI** dağarcıq

Necə düşünürsünüz, tapmacalarda işlənmiş sözlərdən hansını "köhnəlmiş" söz hesab etmək olar? Nə üçün bu cür sözlər artıq dilimizdə işlənmir?

8 Şeirdə yaşıl rəngdə verilmiş sözlərin antonimlərini və sinonimlərini tapıb cümlələrdə işlədin.

"Dil boğaza qoymamaq" və "ağzına su almaq" ifadələrinin bu sözlərdən hər hansı biri ilə əlaqəsi varmı?

9 Misraları şeirin məzmunu əsasında tamamlayın.

1) Meşələrə çıxanda ... . 2) Bülbül enib budaqdan, ... . 3) Sərin çeşmə başında ... . 4) İnsanın arxasınca ... .

10 Şeirdə üzərində ulduz işarəsi qoyulmuş sözü müxtəlif şəxslər üzrə dəyişərək cümlələrdə işlədə bilərsinizmi? Özünüzü yoxlayın.

11 Aşağıdakı şeir bəndini oxuduqdan sonra inşa yazmalı olsanız, hansı misranı ona başlıq seçərdiniz? Fikrinizi əsaslandırın və yazın.

Yenə də yamyaşıl geyinir dağlar,
Göz kimi durulur qaynar bulaqlar.
Əriyir güneylər döşündəki qar,
Yağış da isladır o göy çəməni,
Təbiət ilhama çağırır məni!

**Səməd Vurğun**

Qırmızı rəngdə verilmiş sözlərin həqiqi, yoxsa məcazi mənada işləndiyini izah edə bilərsinizmi? Özünüzü yoxlayın.

# § 50. ÇƏKİL, İLAN GƏLİR!

***1-ci hissə***

**Birdən** Kamalın gözləri qarşıdakı divara sataşdı. Bir ilan yuvasından* çıxıb qızmar günün altında **tənbəl-tənbəl** onlara tərəf sürünürdü. Nadirin arxası onlara tərəf olduğundan* bundan* xəbəri yoxdu. Kamal ilanın yaxınlaşıb **üstlərinə** sıçraya biləcəyini düşünüb Nadirə çığırdı:



– Çəkil, ilan gəlir!

Nadir durduğu yerdən sıçradı. İlanı görən kimi bir anlığa özünü itirdi. **Əvvəlcə** Kamalın **arxasında** gizləndi. **Sonra** onun ətəyindən* tutub dartışdırdı:

– Qaçaq!

Kamal isə yerindən* tərpənmirdi, **yan-yörəsinə** baxıb nə isə axtarırdı. Nadir bunu görüb onun ətəyini buraxdı və **tez** darvazadan* **içəri** soxuldu. Kamal **tək** qaldı. İlan yolun ortası ilə düz ona tərəf sürünürdü. İlanla oğlanın arasında on metr qalmış Kamal həyətin divarından* bir daş götürüb ilanın düz başına tuşladı. **Bir an** keçdi. Kamal qolunu qolaylayıb daşı atdı. Daşın yerə düşməsi ilə ilanın havada qıvrılıb işıldaması bir oldu. Oğlan bir addım **geri** çəkildi. **Sərrast** atılan daş ilanın düz başından* **dəymişdi**.

Kamal **irəli** gəlib ilanı süzdü. Əyilib quyruğundan* yapışmaq istəyirdi ki, yolla keçən qoca bir kişi ona yaxınlaşdı:

– Ehtiyatlı ol, oğul, birdən ölməmiş olar!

Kamal əlini çəkdi. Tanımadığı qoca kişi özü əyilib ilanın quyruğundan yapışdı və onu **yuxarı** qaldırdı. **O yan-bu yana** baxdıqdan* sonra Kamala uzatdı:

– Al, ölüb, – dedi. – Qoçaq oğlansan. Daşı necə sərrast atdığını gördüm.

Qoca əli ilə Kamalın çiyninə vurdu və gülümsəyib uzaqlaşdı.

Necə düşünürsünüz, Nadir darvazanın dalından çıxıb nə baş verdiyi ilə maraqlanacaqmı, yoxsa ilanın qorxusundan gizləndiyi yerdə qalacaqmı? Bəs siz hekayəni necə davam etdirərdiniz?

| SÖZLÜK | |
|---|---|
| tuşlamaq | sərrast |

| SÖZ EHTİYATI | |
|---|---|
| qolaylamaq | özünü itirmək |

1 Sualların mətnin məzmununu əks etdirmədiyini faktlarla əsaslandırmağa çalışın.

1) Kamal ilanı görüb qorxusundan harada gizləndi?
2) Nadir ilandan qorxmadığını göstərmək üçün nə etdi?
3) İlan Kamalı görüb harada gizləndi?
4) Kamal əlindəki daşı atıb niyə qaçdı?
5) Kamal ilanın quyruğundan yapışıb nə üçün onu qocaya göstərdi?
6) Qoca Kamalın daşı sərrast ata bilmədiyinə niyə təəssüfləndi?

2 Mətndən oxuduqlarınız əsasında Kamal və Nadiri ayrı-ayrılıqda xarakterizə edin. Qaçmasına görə Nadiri qorxaq hesab etmək olarmı? Münasibətinizi bildirin.

## TAP GÖRƏK

3 Verilmiş tapmacaların cavabını tapın. Tapmacalarda işlənmiş feilləri seçib yazın və hər birinin zamanını, şəxsini, təsdiq və ya inkarda olduğunu qarşısında qeyd edin.

1. Bir qamçım var,
Əlimə ala bilmirəm. ✉

2. Gedər, gəzər, ayağı yox,
Adam vurar, əlləri yox. ✉

4 Aşağıdakı atalar sözlərini oxuyun. Hər birinin mətnin məzmunu ilə əlaqəsi olub-olmadığını izah etməyə səy göstərin. Çətinlik çəksəniz, müəlliminizin köməyindən istifadə edə bilərsiniz.

### ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) İlanı yaralı buraxmazlar. 2) Qorxan gözə çöp düşər. 3) Ehtiyat igidin yaraşığıdır. 4) İlanın quyruğunu yox, başını əzərlər. 5) İlanın quyruğunu basmasan, sancmaz. 6) Hər kəs ata bilər, amma vura bilməz. 7) Vura bilməyən daşın böyüyündən yapışar. 8) Qorxaq hər şeyi dörd görər.

5 Sözlərdən cümlələr düzəldib yazın və tərcümə edin.

1) İstirahət, yay, bağ, edirdilər, uşaq, birlikdə. 2) Çıxdı, ilan, bir, qarşılarına. 3) Qorxub, ilandan, Nadir, qaç. 4) Daş, ilan, ilə, öldürmək, cəld, Kamal. 5) Qoca, ilan, kişi, əyilib, quyruq, yapışmaq. 6) Nadir, özünü itirmək, ilan, görüb.

6 Mətndə göy rəngdə verilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu sualların köməyi ilə müəyyənləşdirin və ayrı-ayrı sütunlarda yazın.

7 Mətndə yaşıl rəngdə verilmiş sözü düzgün tələffüz edin və sinonimlərini tapıb cümlələrdə işlədin.

8 “Dəymək” sözünün aşağıdakı cümlələrdə hansı mənada işləndiyini izah edə bilsəniz, onun çoxmənalı olduğunu əsaslandırmış olarsınız. Özünüzü sınayın.

1) Dediyi sözlər qəlbimə elə dəyib ki, heç yadımdan çıxmır. 2) Yenə nə olub, gözümə birtəhər dəyirsən? 3) Heç mənim əlim ona dəymədi, bəs niyə sındı? 4) Dünənki küləkdə Sənəmə bərk soyuq dəyib. 5) Gözləyin, tez kitabxanaya dəyib qayıdırıq. 6) Atdığı ox hədəfə dəymədi.

Bu sözün omonimi olduğunu bilirsinizsə, onu cümlədə işlədin.

**KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!**

***Çəkmək*** – 1. Bir şeyi tutub özünə və ya başqa bir tərəfə dartmaq – İpi çəkmək; 2. Özünə tərəf çəkərək açmaq – siyirməni çəkmək; 3. Dartmaq, tutmaq – Ətəyindən çəkmək; 4. Özünə və ya başqasına yaxın qoymaq – Çörəyi qabağına çəkdi; 5. Lazımi yerə qoymaq, yaxınlaşdırmaq – Stulu kənara çəkin; 6. Örtmək, bağlamaq – Pərdəni çək; 7. Yemək üçün xörəyi qablara qoymaq – Xörək çəkildi; 8. Davam etmək, vaxt aparmaq – Gəzinti iki saat çəkdi.

9 Aşağıdakı sözlərdən hansılarını mətndə altından xətt çəkilmiş sözlərin kontekstə uyğun qarşılığı hesab etmək olar? Seçib səsləndirin və fikrinizi əsaslandırın.

**Köməkçi:** keçdi, daxil oldu, girdi, qaçdı, süründü, hoppandı, cumdu, tutmaq, dartmaq, bağlamaq, itələmək, tapdalamaq, sığallamaq, çəkmək, götürmək

10 Necə düşünürsünüz, baş vermiş hadisə ilə əlaqədar Kamal və Nadir uşaq birliyinin rəhbərinə izahat yazmalıdırlarmı? Axı onlar gecikmiş və ona görə də uşaqlarla birlikdə dənizə çimməyə getməmişdilər. Onların yerində olsaydınız, baş vermiş hadisə barəsində izahatı necə yazardınız? Özünüzü sınayın.

## § 51. ÇƏKİL, İLAN GƏLİR!

### *2-ci hissə*

İlan Kamalın əlində başıaşağı asılı qalmışdı. Darvazadan içəri soxulmuş Nadir Kamaldan xəbər çıxmadığını gördükdə başını qapıdan ehtiyatla çıxarıb baxdı. Gözlərinə inanmadı. Kamal ilanı əlində əsa kimi tutmuşdu. **Bunu** görən kimi, Nadir tez darvazadan çıxıb **ona** yaxınlaşdı. İkicə addım qalmış ilanın hələ də diri olduğunu güman edib geri çəkildi. Kamal gülümsündü:

– Gəl, ölüdür.

Nadiri inandırmaq üçün Kamal o biri əli ilə ilanın boğazından da tutdu.* **Bundan** sonra Nadir lap yaxınlaşdı. Kamal ilanı ona uzatdı... Nadir qorxa-qorxa ilanın soyuq quyruğundan yapışdı* və qolunu qabağa uzadıb **özündən** xeyli aralı saxladı. **Heç biri** dinmədi. Yolun o tərəfindən səslər eşidildi. Düşərgə uşaqları çimməkdən* qayıdırdılar. **Onlar** yolun ortasında Nadirin əlində ilan tutub durduğunu gördükdə çığırışa-çığırışa **onu** dövrəyə aldılar. Ölü ilanı görüb **hamı** bir ağızdan səsləndi:

– Romantik ilan öldürüb. Əhsən!  Dənizin suyu istidir.

Nadir **bu** sözlərdən elə bil diksindi. Tez dönüb Kamala baxdı. Yoldaşı dinməz-söyləməz* durdu. Uşaqlar yer-yerdən* ona suallar verməyə başladılar:

– Nadir, **necə** öldürdün?

– Nə ilə öldürdün?

Uşaq birliyinin rəhbəri də diqqətlə ölü ilana baxdı. O da uşaqların suallarını təkrar etdi:

– Nadir, **sən** öldürdün? **Nə** ilə öldürdün? Bu gün axır çərşənbədir.

Nadirin dinmədiyini gördükdə Kamal **onun** əvəzinə dedi:

– Daşla!

Uşaq birliyinin rəhbəri başını buladı:

– Eh, Romantik!.. Birdən ilan **səni çalaydı**. Gedək!

Uşaqlardan **kimsə** dedi:

– İlanı da aparaq!

Uşaq birliyinin rəhbəri razı olmadı.

– Basdırın, getsin, – dedi.

Nadir ilanı darvazanın dibinə tulladı.* Uşaqlar ilanı basdırıb, düşərgəyə qayıtdılar...

**Xalidə Hasilova**

## SÖZLÜK

dinməz-söyləməz    güman etmək    uşaq birliyinin rəhbəri

**1** Aşağıdakı suallara cavab versəniz, mətnin məzmununu dərk etmiş olarsınız. Hansı suala mətndə cavab tapmadınız? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

1) Nadir nə üçün həqiqəti uşaqlara söyləmədi?
2) Nadir düzmü hərəkət etdi? Onun yerində olsaydınız, siz necə hərəkət edərdiniz?
3) Bəs Kamal niyə həqiqəti söyləmək istəmədi?
4) Nadiri nəyə görə Romantik adlandırırdılar?
5) Uşaqlar nəyə görə ilanı Nadirin öldürdüyünə şübhə etmədilər?
6) Hekayənin bu hissəsində Kamalın hansı xüsusiyyəti aşkara çıxdı?

## HİKMƏT XƏZİNƏSİNDƏN

*Qoy sənin beynində qalsın bu sözlər,*
*Bil ki, eybi açmaq deyil çox hünər.* ***Sədi Şirazi***

**2** Kamalın yerində olsaydınız, siz də məhz bu cürmü hərəkət edərdiniz, yoxsa həqiqəti açıb uşaqlara söyləməyin doğru olduğunu düşünərdiniz? Debata qoşulun və fikirlərinizi yoldaşlarınızla bölüşün.

3 Aşağıdakı atalar sözlərini oxuyun və səhvləri tapıb düzgün şəklini yazın.

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

1) İlan çalan yatmaz, ac olan yatar. 2) İlan hər yerə düz gedər, öz yuvasına əyri. 3) İlan qabığını dəyişməz, xasiyyətini dəyişər. 4) İlanın ağına da, qarasına da lənət olmasın. 5) Zərərin yarısından da qayıtmaq olmaz.

4 Mətndə iki cümlə yerində işlənməmişdir. Həmin cümlələri tapıb səsləndirin və hər cümlədəki fikirlə əlaqəsi olan bir neçə cümlə qurun.

5 Mətnin sonundakı dialoqu öz düşündüyünüz kimi yenidən qurun və istədiyiniz qədər davam etdirin.

Nadir, necə öldürdün?

…

6 Aşağıdakı cümləni mətnin məzmununa əsasən necə davam etdirmək olar?

**Kamal sözün düzünü ona görə söyləmədi ki, ...**

A) Nadirin yalanının üstü açılsın və o pərt olsun.
B) uşaqlar Nadirdən inciməsinlər.
C) uşaqlar Nadiri yalançı kimi tanımasınlar.

7 Mətndə 10-dan artıq söz ismin çıxışlıq halında işlənib. Həmin sözləri seçib yazın və düzgün tələffüzünü qarşılarında qeyd edin. Bu sözlərdən neçəsi yazılışından fərqli tələffüz olunmalıdır? Fikrinizi əsaslandırın.

A) üçü B) beşi C) altısı D) yeddisi E) dördü

8 Mətndə göy və yaşıl rəngdə verilmiş sözləri seçib ayrı-ayrı sütunlarda yazın. Hər iki sütunda olan sözləri fərqləndirən cəhətlər barədə mülahizələrinizi yoldaşlarınızla bölüşün. Fikirlərinizi aşağıdakı suallar ətrafında ümumiləşdirin.

1) Hansı rəngdəki sözlərə sual vermək olmur?
2) Hansı rəngdəki sözlərə şəkilçi artırmaq olmur?
3) Hansı rəngdəki sözlər əşyaları, əlaməti, hərəkəti və s. adlandırmır?

❁ Altından xətt çəkilmiş sözlər bu qruplardan hansı ilə ortaq cəhətlərə malikdir? Fikrinizi əsaslandırmağa çalışın.

9 Mətndə qara şriftlə verilmiş sözün əvəzinə başqa hansı sözləri işlədə bilərsiniz? Bu sözü aşağıdakı mənalarda da cümlələrdə işlədin.

**Köməkçi:** ifa etmək, tıqqıldatmaq (döymək), biçmək, sancmaq (dişləmək), səs çıxarmaq, vurmaq ( mıxı və s.)

10 Mətndə altından xətt çəkilmiş sözlər içərisindən eyni suallara cavab verənləri seçib ayrı-ayrı sütunlarda yazın. Sonra onların aid olduğu sözləri də müəyyənləşdirib qarşılarında qeyd edin və hər sütun üçün ümumi olan mənanı izah etməyə çalışın.

## § 52. SƏTTAR BƏHLULZADƏ

Bakının yaxınlığında bir qəsəbə var. Köhnə bakılılar ona Xilə deyərdilər. İndi həmin qəsəbənin adı Əmircandır. Əmircanlılar püstə, əncir yetişdirir, taxıl becərirdilər. İstedadlı fırça ustası **Səttar** Bəhlulzadə bu yaraşıqlı, abad qəsəbədə doğulmuşdu.

Səttar kiçik yaşlarından şəkillər çəkər, rəsm məşğələlərinə xüsusi maraq göstərərdi. Qəsəbədəki yeddillik məktəbi bitirdikdən sonra Rəssamlıq Məktəbinə daxil olmuşdu.

Həmin illərdə məktəbin direktoru məşhur **rəssam** Əzim Əzimzadə idi.

Əzimzadə balaca Səttarın rəssamlıq **fəaliyyətinə** heyran olmuşdu. Odur ki, ona xüsusi qayğı göstərirdi. Təsadüfi deyildir ki, 1931-ci ildə Rəssamlıq Məktəbini bitirən Bəhlulzadəni o vaxtlar eyni zamanda **"Kommunist"** qəzetinin baş rəssamı olan Əzim Əzimzadə öz yanında işə götürmüşdü. Səttar **bədii** tərtibat işində iştirak etməklə yanaşı, tənqidi **materiallara** karikaturalar da çəkirdi. Əzimzadənin məsləhəti ilə Səttarı ali təhsil almaq üçün Moskva Dövlət Rəssamlıq İnstitutuna göndərirlər. 1933-cü ildə o, instituta qəbul olundu. Səttar institutda məşhur qrafika ustaları V.Favorskidən, Q.Şeqaldan dərs alır. 1940-cı ildə o, təhsilini başa vuraraq, Bakıya qayıtdı və özü ilə gətirdiyi diplom işini – "Bəzz qalasının **müdafiəsi**" tablosunu həmin il respublika sərgisində nümayiş etdirdi.

Böyük Vətən müharibəsi illərində Səttar həm tarixi-vətənpərvərlik mövzularına şəkillər çəkir, həm də Rəssamlıq Məktəbində **müəllimlik** edirdi. Müharibədən sonrakı bərpa illərində Bəhlulzadə ən çox mənzərə janrında əsərlər yaradırdı. Onun mənzərələrində Qubanın uca dağları və alma bağları, Qarabağın, Naxçıvanın, Muğan düzünün təbii **gözəllikləri**, "Neft daşları" silsiləsində isə Bakı neftçilərinin gərgin əməyi təsvir olunur.

Bəhlulzadə bir mənzərə ustası kimi ölkəmizin sərhədlərindən çox-çox uzaqlarda tanınır. Bakıda, Moskvada, Tbilisidə, Praqada nümayiş etdirilmiş fərdi sərgiləri sənətsevərlər tərəfindən yüksək qiymətləndirilmiş, ayrı-ayrı mənzərə və natürmortları Parisdə, Nepalda, Berlində, Vyanada, **Monrealda**, Madriddə, Havanada, Qahirədə, Dəməşqdə, Bağdadda və Beyrutda keçirilmiş sərgilərdə göstərilmişdir.

### SÖZLÜK

| | | |
|---|---|---|
| tərtibat | maraq göstərmək | tənqidi |
| sənətsevərlər | bərpa | nümayiş etdirmək |

1. Aşağıdakı suallardan hansına mətndə cavab tapmadınız?

1) S. Bəhlulzadə harada anadan olmuşdur və onda rəssamlığa həvəs nə vaxtdan başlamışdır?

2) Ə.Əzimzadə rəssamın həyatında nə kimi rol oynamışdır?

3) S.Bəhlulzadənin diplom işinin mövzusu necə adlanırdı?

4) S.Bəhlulzadə ilk diplom işini Moskvadakı sərgidə neçənci ildə nümayiş etdirdi?

5) S.Bəhlulzadə ən çox hansı janrın ustası kimi tanınır?

6) Hansı şəhərlərdə rəssamın fərdi sərgisi təşkil edilmişdir?

**2** Tərtib edilmiş plandakı uyğunsuzluğu aradan qaldırın və S. Bəhlulzadənin həyat və fəaliyyəti barədə qısaca danışın.

1) Rəssamın yaradıcılığının Böyük Vətən müharibəsi dövrü.

2) Əzim Əzimzadə ilə tanışlıq.

3) "Kommunist" qəzetindəki fəaliyyət.

4) Bəhlulzadə mənzərə ustası kimi.

5) Səttar Bəhlulzadənin uşaqlıq illəri.

**3** Mətndə altından xətt çəkilmiş sözləri aid olduğu sözlərlə birlikdə yazın. Həmin sözlərin nə bildirdiyini və hansı nitq hissəsinə aid olduğunu izah edin.

**4** Mətndə altından xətt çəkilmiş sözlərin bildiyiniz sinonimlərini və antonimlərini ayrı-ayrı sütunlarda qarşılarında yazın, onlardan bir neçəsini cümlələrdə işlədin.

| **Köməkçi:** | **sözlər** | **sinonimi** | **antonimi** |
|---|---|---|---|
| | balaca | kiçik | böyük |

**5** Mətndə mavi rəngdə verilmiş sözlərin yazılışı üzərində müşahidə aparın. Bu sözləri birləşdirən ümumi cəhətin nədən ibarət olduğunu izah edin. Sonra öyrəndiyiniz qaydalara əsasən onların düzgün tələffüz şəklini qarşılarında yazın.

**6** Mətndə qara şriftlə verilmiş eynicinsli qoşasamitli sözlərin tələffüzü üzərində müşahidə aparın. Həmin sözlərdəki qoşa samitlərin yazıldığı kimi, yoxsa yazılışından fərqli tələffüz olunması ilə bağlı mülahizələrinizi söyləyin.

### BUNLARI BİLİRSİNİZMİ?

Eynicinsli qoşasamitli sözlərin əksəriyyətinin yazılışı ilə tələffüzü fərqlənmir. Məsələn: rəssam – [rəssam], müəllim – [mə:llim], ləzzət – [ləzzət] və s.

Qoşa "tt, pp, kk" hərfləri ilə yazılan sözlərdə isə bu kar samitlərdən ikincisi cingiltili tələffüz olunur: Səttar – [Sətdar], əlbəttə – [əlbətdə], hətta – [hətda]; tappıltı – [tapbıltı], hoppanmaq – [hopbammax], səkkiz – [səkgiz] , mütəkkə – [mütəkgə], mürəkkəb – [mürəkgəb] və s.

**7** Mətndən "-lıq[4]" şəkilçisi ilə düzələn sözləri seçib yazın və üçünü cümlələrdə işlədin. Bu sözlərin nə bildirdiyi ilə bağlı mülahizələrinizi yoldaşlarınızla bölüşün.

8 Mətnin birinci abzasında "-lı⁴" şəkilçisi ilə düzələn dörd söz işlənmişdir. Həmin sözləri tapın və özünüzdən bu şəkilçilərlə düzələn əlavə misallar yazın. Yazdığınız sözlərin nə bildirdiyini izah edin və onları söz birləşmələrində işlədin.

9 Aşağıdakı sözlərin yazılışı və tələffüzü arasındakı fərqi izah edin. Sözlərin düzgün tələffüzünü qarşılarında göstərin. Çətinlik çəksəniz, müəlliminizə müraciət edin.

təəccüblə, təəssüf, müəssisə, müəyyən, müəllif, müalicə, ədəbiyyat, vəziyyət, hədiyyə, nailiyyət, xasiyyət, qalibiyyət, saat, mürəkkəb, dairə, zəif, inşaatçı, müraciət, mütəəssir olmaq

## § 53. MİLLİ ORDUMUZ

Ey ana yurdumun **mərd** cavanları,
Odlar ölkəsinin qəhrəmanları.
Eşidin bunları, bilin bunları,
Silahı **bərk** tutsa, Milli Ordumuz,
Heç zaman **basılmaz** ana yurdumuz!

Sevirik Vətəni gözümüz kimi,
Bir olsun işimiz sözümüz kimi.
Kim bizi qoruyar özümüz kimi?
Silahı bərk tutsa, Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!

**Var olsun** dostumuz, arkadaşımız,
Bizim etibarlı türk qardaşımız.
Səslənsin **ucadan** zəfər marşımız,
Silahı bərk tutsa, Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!

Xeyir-dua verin, analar, siz də,
İftixar oyansın ürəyinizdə.
Elin qeyrəti var bu adi sözdə,
Silahı bərk tutsa, Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!

**Mir Sabir**

SÖZLÜK

| | | | |
|---|---|---|---|
| silah | etibarlı | qeyrət | iftixar |

1 Şeirdəki əsas fikri müəyyənləşdirin və müvafiq misralara istinad etməklə fikrinizi əsaslandırın.

2 Torpaqlarımızın müdafiə olunmasında Milli Ordunun xidmətləri barədə nə bilirsiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

3 "Silahı bərk tutsa, Milli Ordumuz,
Heç zaman basılmaz ana yurdumuz!" misraları ilə şair nə demək istəyir? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

❁ Altından xətt çəkilmiş sözü aşağıdakı variantlardan hansı ilə əvəz etmək olmaz?

A) tabe olmaq B) məğlub edilmək C) əsir düşmək
D) tapdanmaq E) işğal olunmaq

4 Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününün tarixi barədə nə bilirsiniz? Aşağıdakı məlumatı oxuyun və BİBÖ cədvəlini doldurun.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə ilk ordu hissəsi, 5000 nəfər şəxsi heyəti olan "Əlahiddə Azərbaycan korpusu" yaradıldı. Bu ordu general Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında formalaşdırıldı.

1920-ci ildə Azərbaycan, Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Azərbaycanın hərbi nazirliyi rəsmən ləğv edildi. Azərbaycan ordusunun 21 generalından 15-i bolşeviklər tərəfindən güllələndi.

**SÖZLÜK**

əlahiddə şəxsi heyət rəsmən işğal edilmək

5 Şeirdə altından xətt çəkilmiş sözü hansı sözlə əvəz etmək yerinə düşər?
A) uğur B) əzəmətli C) qələbə D) qalibiyyət

6 Necə düşünürsünüz, hansı cavab variantında göstərilən heyət Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsinə aid edilmir?
A) Daxili İşlər Nazirliyinin Daxili Qoşunları
B) Azərbaycan Hərbi Hava Qüvvələri
C) Azərbaycan Hərbi Dəniz Qüvvələri
D) Azərbaycan Quru Qoşunları

7 Şeirdə yaşıl rəngdə verilmiş sözlərin hamısı üçün ümumi cəhət hansıdır?
A) Bütün sözlər "kim?" sualına cavab verir.
B) Sözlərin hamısı əvəzlikdir.
C) Bütün sözlər şəxs əvəzlikləridir.
D) Sözlərin hamısı zərfin yerində işlənib.

8 Həməniz Vətənimizin dilbər guşəsi Şuşanın işğaldan azad olunmasında iştirak edən Şuşa fatehlərindən biri barədə məlumat toplayıb təqdimat hazırlayın.

9 Şeirdə qırmızı rəngdə verilmiş sözlərin, ifadələrin mənasını izah edin və mavi rəngdəki sözlərin sinonimlərini tapıb cümlələrdə işlədin.

10 Mətni oxuyun, sayları sözlə yazın, sonra isə "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" mövzusunda danışın.

1992-ci il may ayının 8-də gecə erməni hərbi birləşmələri Şuşa şəhərinə hücuma keçdilər. Qeyri-bərabər qanlı döyüşlərdən sonra şəhər işğal olundu. İşğal zamanı 600-dən çox tarixi memarlıq abidəsi məhv edildi. 22 ümumtəhsil məktəbi, 7 məktəbəqədər uşaq müəssisəsi, mədəni-maarif, kənd təsərrüfatı texnikumları, orta ixtisas musiqi məktəbi, 8 mədəniyyət evi, 14 klub, 31 kitabxana, 2 kinoteatr, 8 muzey, turist bazası, Şərq musiqi alətləri fabriki və onlarla

digər mədəni abidələr talanmış və yer üzündən silinmişdir.

2020-ci il noyabr ayının 8-də Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev rəşadətli Azərbaycan ordusu tərəfindən Şuşa şəhərinin işğaldan azad edilməsi xəbərini elan etdi. Bununla da 28 il 6 ay davam edən Şuşa həsrətinə son qoyuldu və elə həmin gündən Şuşada quruculuq işlərinə başlanıldı.

11 Şeiri ifadəli oxuyun. Mavi rəngdə verilmiş sözlərin hamısına aid olan xüsusiyyətləri seçin və fikrinizi əsaslandırın.

**Bizim yolumuzu gözləyir Şuşa!**

Dayanıb dağların **baş**ının üstə,
**Göz**ləri yoldadır, **qulağ**ı səsdə,
Qoyub bir **əl**ini **qaş**ının üstə,
Baxır həsrət ilə düzə, yoxuşa,
**... Bizim yolumuzu gözləyir Şuşa!**

**Mir Sabir**

A) Sözlərin hamısı çoxmənalıdır.
B) Köməkçi nitq hissəsinə aid sözlərdir.
C) Hamısı bədən üzvlərinin adlarıdır.
D) Sözlərin bəziləri suala cavab vermir.

12 Oxuduğunuz şeirlərin motivləri əsasında "Əziz Şuşa, sən azadsan!", yaxud "Əziz Şuşa, biz qayıtmışıq!" başlıqlı inşa yazın və sinif yoldaşlarınıza oxuyun. Bu mövzuda inşa müsabiqəsi də keçirə bilərsiniz.

## § 54. XİLASKAR

### *1-ci hissə*

May ayının ilk günləri idi. Xəfif-xəfif əsən külək yaşıl budaqlara toxunduqca ağ, qırmızı, çəhrayı, sarı ləçəklər **meyvəciklərin** üstündən qopub yerə düşürdü.

Səhər yenicə açılmışdı. Günəşin zəif* şüaları* **gümüşü** saçaqlarını kəndə yaymışdı. Çiyinlərində dəryaz cavanlı-qocalı, hamı ot çalmağa gedirdi. Heyvanları qışdan salamat çıxarmaq üçün həyətlərdə hündür-hündür tayalar vurulmalıydı. Mürsəl kişi də **tələsik** bir stəkan çay içib ayağa qalxdı, qarısını **səslədi**:

– Ay arvad, tez ol, sudan-çörəkdən **hazırla**, hamı çəkilib getdi, nə çalsam, yenə qazancdı.

Tutu arvad xəstəxanadan təzəcə çıxan ərinə baxdı. Mürsəl kişini **xəstəlik** yamanca üzmüşdü. O, alaqapıdan çıxanda, nəvəsi Güllü yüyürüb yolunu kəsdi.

– Baba, məni də apar.

– Yox, ay bala, məktəb hələ qurtarmayıb, get dərsini oxu.

Güllü kövrəlmiş halda **dodaqlarını büzdü**:

– Baba, odey Sevinc də, Yaşar da, Eldar da babaları ilə gedirlər. Bu gün istirahət günüdü ey, Allah haqqı.

Bu vaxt aynabənddən Tutu arvadın da səsi eşidildi:

– A kişi, uşağın **ürəyini qırma**. Qoy getsin, qurumuş otu **toplayar**.



Güllünün **kefi kökəldi**. Babasının zənbilini aldı. Onlar zəminin arasındakı **ensiz** cığırla dərəyə endilər. Güllü topa-topa qızaran lalələri görüb qabağa **yüyürdü**. Sevinə-sevinə lalələrdən yığıb dəstə **bağladı**. Sonra ağ, sarı **rəngli xallı** kəpənəkləri qovmağa başladı. Dərənin yamaclarında ot çalanlar çox idi. Güllüdən başqa, gör nə qədər məktəbli gəlmişdi! Mürsəl kişinin ot yeri lap yuxarıda idi.

Babası **yoncalığı** çalıb qurtarmaqda idi. Başı elə qarışmışdı ki, sol tərəfdə dayanıb dəryazın **ağzındakı** otun yerə sərilməyini **səbirsizliklə** gözləyən Güllünü görmürdü. Birdən dəryazın almaz kimi iti ucu Güllünün baldırını **parçaladı**. Güllü **bərkdən** qışqırdı. Mürsəl kişi dəryazı bir tərəfə atıb, bilmədi nə etsin. Çaşıb qaldı. Ətrafda ot çalanlar yamaca sarı yüyürdülər. Güllünün qanı dayanmırdı. Hamı yerində donmuşdu.

Necə düşünürsünüz, hadisələr necə davam edəcək? Mürsəl kişi nəvəsini xilas edə biləcəkmi? Güllüyə kömək edən tapılacaqmı?

Hekayəni siz necə davam etdirmək istərdiniz? Öz variantınızı təqdim edin.

**SÖZLÜK**

| | |
|---|---|
| xəfif-xəfif | alaqapı |
| yoncalıq | topa-topa |

**SÖZ EHTİYATI**

çaşıb qalmaq
kefi kökəlmək

1. Mətnin məzmununu aşağıdakı plan əsasında qısaca danışın.
   1) Gözəl bir may səhəri
   2) Güllünün babasından xahişi.
   3) Güllünün sevinci
   4) Güllünün qışqırığı

2. Mətndə qara şriftlə verilmiş sözlərin quruluşunu müəyyənləşdirin və nitq hissələri üzrə qruplaşdırıb dəftərinizdə müvafiq sütunlarda yazın.

3. Mətndən seçilmiş aşağıdakı söz birləşmələrindəki birinci sözlər hansı nitq hissəsinə aiddir? Düzgün cavabı göstərin və fikrinizi əsaslandırın.

yaşıl budaqlar, çəhrayı ləçəklər, zəif şüalar, gümüşü saçaqlar, hündür-hündür tayalar, quru ot, ensiz cığır, sarı rəngli, xallı kəpənəklər, sol tərəf

A) isim B) sifət C) zərf D) əvəzlik

❁ Söz birləşmələrini təhsil aldığınız dilə tərcümə edin.

❹ Mətndə qara şriftlə verilmiş söz köklərindən başqa hansı sözləri düzəldə bilərsiniz? Özünüzü yoxlayın.

❺ Mətndə qara şriftlə verilmiş sözlərdən və ya onların köklərindən istifadə etməklə mürəkkəb sözlər düzəldə bilərsinizmi? Özünüzü yoxlayın.

**Köməkçi:** yonca – yoncadoğrayan, ağız – ağzıboş, ağız-ağıza vermək, ağzıbir, ağızucu, ağızdolusu, ağzıaçıq, ağzıbağlı, dil-ağız etmək, ağzıdualı və s.

❻ Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərin tələffüzü ilə əlaqədar düzgün cavab hansıdır? Müvafiq qaydaları yadınıza salın və izah edin.

A) [zəyif, şüa] B) [zəif, şua] C) [zəif, şüa] D) [zəyif, şua]

❼ Mətndən seçilmiş aşağıdakı söz birləşmələrindəki birinci sözlər hansı nitq hissəsinə aiddir? Düzgün cavabı göstərin və fikrinizi əsaslandırın.

xəfif-xəfif əsən, təzəcə çıxan, sevinə-sevinə yığıb, səbirsizliklə gözləyən, bərkdən qışqırmaq, tələsik içib, topa-topa qızaran

A) isim B) sifət C) zərf D) feil

✽ Söz birləşmələrini təhsil aldığınız dilə tərcümə edin.

❽ Mətndə altından xətt çəkilmiş sözün kontekstə uyğun sinonimi aşağıdakılardan hansıdır?

A) vurmaq B) biçmək C) sancmaq D döymək

**KƏLMƏLƏRİN “DİLİ”Nİ ÖYRƏNƏK!**

***Çəkmək*** – 9. Vurmaq, ilişdirmək – Şillə çəkmək; 10. Çəkisini müəyyənləşdirmək – İki kq. konfet çəkin; 11. Tikmək, etmək – hasar çəkmək; 12. Kanal, yol və s. düzəltmək; tikmək – Kəndə su çəkildi. 13. Telefon, elektrik, radio və s. ilə təchiz etmək üçün müəyyən işlər görmək – Evimizə telefon çəkdilər; 14. Sürtmək, gəzdirmək, sığallamaq – Əlini başına çəkdi; 15. Rəsm çəkmək – Portretini çəkdim.; 16. Fotoaparatla şəkil çəkmək – Təzə şəkillər çəkdik.

❾ Yaşıl rəngdə verilmiş sözün mətnə uyğun qarşılığı aşağıdakılardan hansıdır?

A) suda hərəkət etmək B) dərmək C) zəiflətmək D) kəsmək

❿ Mətndə işlənmiş mürəkkəb sözləri tapıb köçürün və hansı yollarla yarandığını izah edin.

⓫ “Güllünün kefi kökəldi”, – cümləsində altından xətt çəkilmiş ifadəni aşağıdakılardan hansı ilə əvəz etmək olmaz?

A) könlü açıldı B) əhvalı yaxşılaşdı C) sevindi D) arxayınlaşdı

✽ Aşağıdakı ifadələri biri-birinin sinonimi hesab etmək olarmı? Fikrinizi əsaslandırmağa çalışın.

kefi açılmaq, kefi kök olmaq, kefi durulmaq, kefi qalxmaq, kefi yuxarı olmaq

⓬ Mətndə mavi rəngdə verilmiş sözlərin sinonimlərini tapıb deyin və cümlələrdə işlədin.

⓭ Necə düşünürsünüz, mətndə təsvir olunan xoşagəlməz hadisənin səbəbi nə ilə bağlı idi? Düzgün olanı seçin.

A) laqeydlik  B) diqqətsizlik  C) ehtiyatsızlıq  D) çalışqanlıq

## § 55. XİLASKAR

### *2-ci hissə*

Birdən 14-15 yaşında qarayanız, ortaboylu qız camaatın* arasından özünü irəliyə atdı. Güllünün* yarasını bağlamışdılar, lakin qan sarğının üstündən də axırdı. Şəfiqə ani olaraq “İnsan” kitabından “Qanaxmalar zamanı ilk yardım” mövzusunu gözünün önündə canlandırdı.

– Mürsəl əmi, siz bir az səbir edin. Mən bu saat* qanı **saxlayacağam**, – deyə sarğını açdı. Buna turna qoymaq lazımdır.

Hamı bir-birinin üzünə baxdı. Turna nədir? Şəfiqənin dostları Hüseyn, Sevinc, Barat hərə bir tərəfdən **qışqırdılar**:

– Şəfiqə **düz deyir**, turna qoymaq lazımdır.

Solmaz tez başındakı yaylığı Şəfiqəyə verdi. Şəfiqə yaylığı eşib, Güllünün qalın buduna bağladı. Sonra da üzünü dostlarına tutaraq:

– Uşaqlar, tez olun bir taxta parçası, ya da nazik dəmir tapın, – dedi. Uşaqlar ətrafı **gəzdilər**. Sevinc Mürsəl kişinin zənbilinin yanındakı uzunsov yeyəni götürüb Şəfiqənin yanına yüyürdü. Hamı [tə:ccübnən]* uşaqlara baxırdı. Şəfiqə yeyənin nazik ucunu sarğının altından keçirdi və onu möhkəm-möhkəm sağ tərəfə **hərləyib** burdu. Sarğı budun ətini sümüyə sıxdı. Bir azdan qanaxma **kəsildi**. Mürsəl kişi gözlərinin yaşını silə-silə heç bilmirdi nə desin, uşaqlara necə təşəkkür etsin*. Hadisə yerinə maşınla gələnlər də vardı. Güllünü rayon xəstəxanasına apardılar...

İlk imtahan günü idi. Məktəbin həyətinə çoxlu uşaq **toplaşmışdı**. Məktəbin direktoru, müəllimləri* də burada idilər. Birdən həyətə ucaboy, saqqalı* çoxdan ağarmış bir kişi girdi. Nəvəsi Güllü də yanında idi. Hamı **sevindi**. Onlar şagirdlərin arasından keçib, direktorun qarşısında dayandılar. Mürsəl kişi əvvəl **minnətdarlıq*** hissi ilə direktora, sonra da şagirdlərin üzünə baxdı və titrək səslə soruşdu:

– Şəfiqə balam kimdi?

Şəfiqə irəli çıxdı. Hamının gözü ona zillənmişdi*. Mürsəl kişi yaxınlaşıb onu **bağrına basdı**, alnından öpüb:

– Çox sağ ol, qızım, – dedi. Balamın ilk həkimi sən oldun, onu mənə sən qaytardın.

Məktəbin direktoru gah dünyagörmüş Mürsəl kişiyə, gah da şagirdinə baxıb gülümsəyirdi...

**Həzər Dərgahov**

| SÖZLÜK | | |
|---|---|---|
| qanaxma | yeyə | sarğı |
| dünyagörmüş | eşmək | burmaq |

| SÖZ EHTİYATI |
|---|
| turna qoymaq |
| gözünün önündə canlandırmaq |

1 Mətndəki əsas fikir nədən ibarətdir? Düzgün olanı seçin və fikrinizi əsaslandırın.

A) Hər hansı bir işi görəndə diqqətli olmaq lazımdır.

B) Bir yerə gedəndə lazımi tibbi ləvazimat götürmək lazımdır.

C) Bir hadisə baş verəndə özünü itirməkdənsə, tez çıxış yolu axtarmaq, çevik hərəkət etmək və bacardığın köməyi göstərmək lazımdır.

D) Göstərilən köməyə görə təşəkkür etmək lazımdır.

2 Necə düşünürsünüz, mətndəki əsas və ikinci dərəcəli faktlar hansı bənddə düzgün verilmişdir?

A) 1) Güllünün baldırının parçalanması; Şəfiqənin qanaxmanı dayandırması; 2) Güllünün babası ilə biçənəyə getməsi; Güllünün yarasının bağlanması; uşaqların yeyəni tapması; Mürsəl kişinin Şəfiqəyə təşəkkür etməsi

B) 1) Güllünün babası ilə biçənəyə getməsi; Mürsəl kişinin Şəfiqəyə təşəkkür etməsi; 2) Güllünün çiçək toplaması; Güllünün baldırının parçalanması

C) 1) Mürsəl kişinin ot çalmağa getməsi; Güllünün xəstəxanaya aparılması;
2) Güllünün babası ilə biçənəyə getməsi; Şəfiqənin qanaxmanı dayandırması

3 Mətndəki "Turna nədir?" sualının cavabı olan cümləni tapıb oxuyun. Turnanın nə demək olduğunu öz sözlərinizlə izah etməyə çalışın.

4 Necə düşünürsünüz, Şəfiqəni xilaskara çevirən nə oldu? Aşağıdakı variantlardan hansına daha çox üstünlük verirsiniz? Qruplara bölünün və debata qoşulun.

A) Şahidi olduğu hadisə.

B) Cəldliyi və dərslikdən oxuyub öyrəndikləri.

C) Yoldaşlarının ona dəstək olmaları.

D) Kitablardan oxuduğunu tətbiq etmək bacarığı.

5 Mətndən götürülmüş hansı sözlər həm feil, həm də başqa nitq hissələri kimi işlənə bilər? Fikirlərinizi əsaslandırın.

dayan, sarı, yay, dəryaz, yeyə, iç, yol, quru, dərə, qarış, at, qan, yer, qışqır, yaylıq, apar, həkim, üz, topla, sağ, nazik, tut, çoxlu, bağışla

✿ Seçdiyiniz sözlərdən bir neçəsini hər iki mənada cümlədə işlədin.

6 Hər hansı bir hadisədə sizə ehtiyac duyulsa, ilk yardım ( insanlara, heyvanlara, quşlara və s.) göstərə bilərsinizmi? Bu barədəki fikirlərinizi yoldaşlarınızla bölüşün və fikirləriniz əsasında kiçik həcmli esse yazın.

7 Hər hansı bir bədbəxt hadisə baş verdikdə hansı variantdakı müvafiq nömrələrdən birinə zəng etmək lazımdır? Doğru cavabı göstərin.

A) 101, 102, 103, 109 B) 101, 189, 166, 104 C) 101, 103, 112, 168

8 Aşağıdakı cümlələri mətnin məzmunu əsasında istədiyiniz şəkildə genişləndirib yazın və tərcümə edin.

1. Mürsəl kişi tələsik ayağa qalxdı. 2. Güllü qabağa yüyürdü. 3. Güllü dəstə bağladı. 4. Solmaz yaylığı verdi. 5. Sevinc Şəfiqənin yanına yüyürdü. 6. Mürsəl kişi bağrına basdı. 7. Məktəbin direktoru gülümsəyirdi.

9 Mətndə tələffüz şəkli verilmiş aşağıdakı sözün düzgün yazılışı hansı variantda verilib?

A) təəcüblə B) təəccübnən C) təccüblə D) təəccüblə

10 Üzərində ulduz işarəsi qoyulmuş eynicinsli qoşasaitli və qoşasamitli sözləri yazıb düzgün tələffüzünü qarşılarında qeyd edin. Hansı sözün düzgün tələffüzünü müəyyənləşdirməkdə çətinliklə qarşılaşdınız? Fikrinizi deyin.

## BUNLARI BİLİRSİNİZMİ?

Qoşa "qq" samitləri ilə yazılan sözlərdə həmin samitlərdən birincisi karlaşaraq [ k ] kimi tələffüz olunur. Məsələn: saqqız – [ sakqız], saqqal – [sakqal], doqquz – [dokquz], rəqqasə – [ rəkqa:sə], haqqında – [hakqında], diqqət – [dikqət] və s.

11 Mətndə altından xətt çəkilmiş sözlər üçün ortaq cəhət nədən ibarətdir?

A) hamısı mürəkkəb sözdür B) hamısı defislə yazılır

C) hamısı bitişik yazılan mürəkkəb sözdür D) hamısı zərfdir

12 Mətndə göy rəngdə verilmiş sözlərin mətnə uyğun sinonimlərini deyin və cümlələrdə işlədin.

## KƏLMƏLƏRİN "DİLİ"Nİ ÖYRƏNƏK!

***Yaymaq*** – 1. Bir şeylə yastıladaraq nazik qat halına salmaq, uzatmaq, açmaq, böyütmək – yuxa yaymaq; 2. Ətrafa səpələmək, sərbəst otlamağa buraxmaq – Sürü yamaca yayılmışdı; 3.Hamıya bildirmək – Bu xəbərləri hər tərəfə yayın; 4. Paylamaq, dağıtmaq – Qəzetləri yaymaq kimə tapşırılıb? 5. Öz təsirini (qoxu, səs və s.) ətrafda hiss etdirmək, ətrafı doldurmaq – Çiçəklərin ətri hər tərəfə yayılır.

# § 56. ƏN QİYMƏTLİ HƏDİYYƏ

Bir gün Fuadla Lalə divarda bir elan oxudular: “İyun ayında həyətdə Çiçək bayramı müsabiqəsi keçiriləcək. Müsabiqədə iştirak etmək istəyənlər öz çiçək dəstələrini ayın son günü saat 12-də münsiflər heyətinə təqdim edə bilərlər”.

Lalə Fuada dedi:

– Fuad, gəlsənə Çiçək bayramında biz də iştirak edək!

Fuad Lalə ilə razılaşdı:

– Bu, çox maraqlı olar. Amma necə iştirak edək? Axı bizim çoxlu pulumuz yoxdur gözəl gül dəstəsi almağa.

Lalə isə başqa bir şey təklif etdi:

– Hələ iyun ayına çox var. O vaxta qədər gülü özümüz əkə bilərik.

Fuad maraqla* soruşdu:

– Biz bunu bacararıq?

– ______, bacararıq! – deyə Lalə **qətiyyətlə** bildirdi.

Dostlar danışdıqları kimi də elədilər. **Fuad** evlərindən balaca* bel, Lalə isə gül toxumları gətirdi. Onlar bağçada bir xeyli* işləyib , çoxlu gül əkdilər. Toxum alıb həyətdəki* bağçaya səpdilər.

Artıq bir neçə gündən sonra uşaqların əkdikləri toxumlar yavaş-yavaş* cücərməyə başladı. Uşaqların sevinclərinin həddi-hüdudu yox idi.

Müsabiqə başlayana qədər isə əkilmiş toxumlardan çox gözəl* **lalə**lər açdı. **Məhəllə** adamları gülləri görəndə Fuadla Laləyə “əhsən” söylədilər. Onları təriflədilər.

Fuad da, **Lalə** də çiçək müsabiqəsində mütləq qalib gələcəklərinə inanırdılar.

Gözlənilən vaxt gəlib çatdı. Müsabiqə qonşu məhəllədə keçirilirdi. Fuad və Lalə əkdikləri güllərdən gözəl bir dəstə düzəltdilər. Onu gözəl* gül kağızlarına büküb müsabiqəyə təqdim etmək üçün apardılar. **Amma** onlar yaxınlaşanda fikir verdilər ki, düzəltdikləri gül dəstəsi başqalarının gül dəstələrindən kiçikdir. Özü də lalələr **dər**iləndən sonra başlarını aşağı dikmişdilər. Lalə Fuada heç bir söz deməsə də, dostu onu başa düşdü. Bahalı* lentlərlə bağlanmış böyük* səbət dəstələrinə baxanda uşaqlar bikef oldular. Başa düşdülər ki, gətirdikləri güllərlə müsabiqədə heç vaxt qalib gələ bilməyəcəklər. Lalə kefsiz-kefsiz* Fuada “gəl gedək”, – dedi.

Onlar dinməzcə* gülü stolun üstünə qoyub, həyətlərinə qayıtdılar. Sakitcə* bağçada oturub, əkdikləri güllərə baxmağa başladılar. Onları nahaq yerə **qır**dıqlarına peşman oldular.

Bir xeyli* keçəndən sonra uşaqlar gördülər ki, münsiflər heyətinin üzvləri və müsabiqə iştirakçıları onların həyətinə gəldilər. Lalə dəstəsi də onların əlində idi. Uşaqlar **əvvəlcə*** heç nə başa düşmədilər. Həyətlərində yaşayan Soltan əmi

də münsiflər heyətinin üzvü idi. O, bağçanı, hələ qönçə olan açılmamış gülləri hamıya göstərib dedi:

– Görürsünüz, bizim müsabiqənin ən balaca* iştirakçıları öz əkdikləri güldən müsabiqəyə təqdim ediblər. Onlar ən böyük* mükafata layiqdirlər. Fuadla Lalənin müsabiqəyə təqdim etdikləri gül dəstəsi güllərin ən gözəli, ən ətirlisidir. Çünki həmin gül dəstəsi bu balaca* uşaqların əllərinin zəhmətidir.

Uşaqlar sevincdən həyəcanlandılar. Dostların çəkdikləri zəhmət hədər getməmişdi. Həm həyət yaşıllaşmış və gözəlləşmiş, həm də onlar müsabiqənin ən yüksək* hədiyyəsinə layiq görülmüşdülər.

Onların hər ikisinə **hədiyyə** verdilər. Bu, Fuadla Lalənin ən sevincli* günlərindən biri idi.

**Gülzar İbrahimova**

**SÖZLÜK**

| | |
|---|---|
| müsabiqə | qönçə |
| mükafat | təqdim etmək |

**SÖZ EHTİYATI**

bikef olmaq
münsiflər heyəti

1 Aşağıdakı suallar mətnin məzmununu əks etdirirmi? Fikrinizi faktlarla əsaslandırmağa çalışın.

1) Fuadla Lalə niyə müsabiqədə iştirak etmək istəmədilər?
2) Uşaqların əkdiyi güllər niyə bitmədi?
3) Uşaqlar gətirdikləri gül dəstəsi ilə niyə qürur duyurdular?
4) Uşaqlar gül dəstəsini niyə gözəl gül kağızlarına bükməmişdilər?
5) Münsiflər heyətinin üzvləri niyə uşaqlar yaşayan həyətə gəlmədilər?
6) Nə üçün mükafat Fuadla Laləyə yox, başqalarına verildi?

2 Necə düşünürsünüz, mətndəki **əsas faktlar** hansı bəndlərdə verilmişdir? Fikrinizi əsaslandırmağa çalışın.

A) Balaca uşaqların öz yetişdirdikləri güllərlə müsabiqədə iştirak etməsi.
B) Fuadla Lalənin ən yüksək mükafata layiq görülməsi.
C) Uşaqların gül dəstəsini gözəl kağızlara bükmələri.
D) Fuadla Lalənin elanı oxuması.
E) Uşaqların toxum alıb həyətdəki bağçada səpməsi.

3 Nəyə görə münsiflər heyətinin üzvləri adi bir gül dəstəsini belə yüksək qiymətləndirdilər? Düzgün olanı seçin və fikrinizi əsaslandırın.

A) Fuadla Lalənin düzəltdiyi gül dəstəsi həqiqətən çox gözəl idi.
B) Uşaqlar balaca olduqları üçün mükafatı onlara verdilər.
C) Balaca uşaqlar müsabiqəyə öz əkdikləri güllərdən təqdim etmişdilər.
D) Başqalarının təqdim etdikləri gül dəstələri çox bər-bəzəkli idi.

4 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözləri aid olduğu sözlərlə birlikdə yazın. Həmin sözlərin nə bildirdiyini və hansı nitq hissəsinə aid olduğunu izah edin. Onları başqa sözlərlə də əlaqələndirib cümlələrdə işlədin.

5 Mətndəki sarı boşluğa hansı söz yazılmalıdır?
A) hökmən B) mütləq C) əlbəttə D) yəqin ki

6 Üzərində ulduz işarəsi qoyularaq altından xətt çəkilmiş sözləri aid olduğu sözlərlə birlikdə yazın. Həmin sözlərin nə bildirdiyini, hansı suallara cavab verdiyini müəyyənləşdirin. Onların ulduz işarəli sözlərdən nə ilə fərqləndiyini izah etməyə çalışın.

7 Aşağıdakı cümlələrdəki fərqləndirilmiş sözləri biri-birinin əvəzinə işlətmək mümkündürmü?
Onlar **dinməzcə** gülü stolun üstünə qoyub, həyətlərinə qayıtdılar. **Sakitcə** bağçada oturub, əkdikləri güllərə baxmağa başladılar.

8 Mətndə qara şriftlərlə verilmiş qoşasaitli və qoşasamitli sözlərin yazılışı ilə tələffüzü arasında fərq olub-olmadığını faktlarla əsaslandırmağa çalışın.

9 Mətndə bənövşəyi rəngdə verilmiş sözlərin işləndiyi cümlələri oxuyun. Eyni sözün cümlənin ortasında gah böyük, gah da kiçik hərflə yazılmasının səbəbini izah edin. Əlavə misallarla fikrinizi əsaslandırın.

10 Mətndə işlənmiş omonim sözlərdən bir neçəsini seçib yazın, mənalarını tərcümə etməklə izah edin və cümlələrdə işlədin.

11 Bildiyiniz gül və çiçək adlarını sadalayın, sonra onlardan bir neçəsini cümlələrdə işlədin. Həmin sözlərdən hansılarını həm də xüsusi isim kimi işlətmək olar?

12 Mətndə yaşıl rəngdə verilmiş sözlərin sinonimlərini tapıb səsləndirin və cümlələri həmin sözlərlə də oxuyun. Cümlələrin məzmununda hər hansı bir dəyişiklik müşahidə etdinizmi? Fikrinizi söyləyin.

13 Necə düşünürsünüz, mətndə mavi rənglə fərqləndirilmiş sözləri biri-birinin əvəzində işlətmək olarmı? Cümlələri bir daha oxuyun və fikrinizi söyləyin. Həmin sözləri başqa cümlələrdə də işlədin.

# § 57. GÜL

Yerim bağça-bağ mənim,
Rəngim ağappaq mənim.
Bir ətirli güləm mən,
İstəyirəm güləm mən.
Ay yoldan ötən* oğlan,
Məni **inci**dən oğlan,
Gözüm doldu yaş ilə,
Ağac ilə, daş ilə
Sən məni döymə, döymə,
Xətrimə dəymə, dəymə.
Neyləmişəm mən sənə?
Yolunu düz keçsənə!
Utan boy-buxunundan,
Ay sözəbaxmaz oğlan!
Gəl, dəcəllik etmə sən,
Yoxsa ki bilməyirsən,
Yanaqlarım **inci**dir,
Yanaqlarım **incədir**!
Gözüm doldu yaş ilə
Ağac ilə, daş ilə
Sən məni döymə, döymə,
Xətrimə dəymə, dəymə.

**Əli Kərim**

| SÖZLÜK | boy-buxun | sözəbaxmaz |
|---|---|---|

1 Şeirdəki əsas fikri müəyyənləşdirin. Bu şeirlə şair sizlərə nə demək istəyir? Şeirin məzmununu danışın və onu əzbərləyin.

2 Təbiəti gözəlləşdirən bitki növlərindən biri də güllərdir. Onların faydası haqqında nə bilirsiniz? Hər hansı bir gülə qulluq etmisinizmi, özünüz gül yetişdirmisinizmi? Hər hansı bir gülə qulluq və ya onun yetişdirilməsi barədə bildiklərinizi yoldaşlarınızla bölüşün.

3 Sizcə, şeirdə dəcəl oğlana hansı gülün dilindən müraciət olunur? Həmin gülü təsvir edən söz və ifadələri şeirdən seçib səsləndirin və həmin çiçək barədə öz bildiklərinizi də yoldaşlarınızla bölüşün.

4 Şeirdə şikayət edən gülü incidən kimdir? Gülləri yerli-yersiz qıran, yaşıllıqlara ziyan vuran, dalaşqan, dəcəl uşaqlara sizin münasibətiniz necədir? Belələrinə haqq qazandırmaq olarmı? Bəs siz gülləri qorumaq üçün nə edərdiniz? Şeirdəki gülün etirazını bildirən sözləri bir daha oxuyun və müzakirəyə qoşulun.

5 Şeirdə yaşıl rəngdə verilmiş sözlər haqqında düzgün fikir hansıdır?
A) 3-cü misradakı söz feil, 4-cü misradakı söz isimdir.
B) Hər ikisi hərəkət bildirir.
C) 3-cü misradakı söz isim, 4-cü misradakı söz feildir.
D) Hər iki söz əşya bildirir.

6 Sizcə, üzərində ulduz işarəsi qoyulmuş sözün sinonimi bu şeirdə işlənibmi? Fikrinizi əsaslandırın və həmin sözü tapıb səsləndirin, onu başqa cümlələrdə də işlədin.

7 Şeirdə qara şriftlə verilmiş sözlər haqqında nə deyə bilərsiniz? Onların biri-birinə hər hansı münasibəti varmı? Düzgün cavabı tapın və fikrinizi əsaslandırın.

A) sinonim B) omonim C) antonim D) eyniköklü

Necə bilirsiniz, şeirdə bu sözlərdən birinin sinonimi işlənibmi?

8 Şeirdə göy rəngli sözün işləndiyi cümlədə bu sözü aşağıdakılardan hansı ilə əvəz etmək yerinə düşməz?

A) zərif B) nəfis C) nazik D) yumşaq

9 Şeirdə altından xətt çəkilmiş cümlədəki fikri necə başa düşmək lazımdır?

A) öz yolu ilə getmək, başqa şeylə işi olmamaq
B) küçədə düz addımlamaq
C) gedərkən heç yana baxmamaq
D) yolu gedərkən səhv etməmək

10 Şeirdəki mürəkkəb sözlərin yaranma yollarını, bitişik və defislə yazılmasının səbəbini izah edin. Onları cümlələrdə işlədərək yazın.

## TAP GÖRƏK

11 Tapmacaların cavablarını tapmağa çalışın. Xatırladırıq ki, hər ikisinin cavabı gül adlarıdır.

1. Ağacın* tutmaq olmaz,
Ətrindən doymaq olmaz.

2. Özü ala Para-para,
Yeri tala. Qəlbi qara.

12 Mətni oxuyun, məzmununu danışın və tərcümə edin.

Şuşa dağlarında qeyri-adi, əsrarəngiz gözəlliyə malik bir gül yetişir. Bu möcüzəli gül xarıbülbül adlanır. Gülə bu ad bülbülə bənzədiyinə görə verilib. Gülün quruluşu elədir ki, bülbül sanki çiçəyin üstünə qonub və oradaca donub.

Xarıbülbül Yer kürəsində yalnız Qarabağda, xüsusilə də Şuşada bitir.

Onunla bağlı çoxlu əfsanə və rəvayətlər var. Deyilənə görə, Fətəli şah Şuşa üçün qəribsəyən arvadı, Qarabağ xanı İbrahimxəlil xanın qızı Ağabəyim ağa üçün bir bağ saldırır. Bu bağda Qarabağda, Şuşada bitən bütün ağacları, gülləri əkirlər. Hamısı bitir, bircə xarıbülbüldən başqa. Bu mahnı da həmin vaxt yaranıb:

*Vətən bağı al-əlvandır,*
*Yox üstündə Xarıbülbül.*

*Ömür sürməli dövrandır,*
*Səsin gəlsin barı, bülbül.*

13 Sevdiyiniz güllərdən birini təsvir edin və onun haqqında bildiklərinizi danışın.

## SÖZLÜK

### A a

**abad etmək** – abad olmaq, yaxşılaşmaq, yaşayış üçün lazım olan hər cür şəraitlə təmin olunmaq
**acışdırmaq** – göynətmək, ağrıtmaq
**acqarına** – heç bir şey yemədən, tamamilə ac halda
**ahəng** – səslər, rənglər və s. arasında uyğunluq
**alaq otları** – tarlada, bostanda və s.-də bitən və becərilən bitkilərin inkişafına mane olan yabanı bitki
**alaqapı** – evlərin böyük küçə qapısı; darvaza
**alay** – böyük dəstə
**alçaq** – hündürlüyü, ucalığı az olan, yerdən, hər hansı bir səviyyədən azacıq hündür olan
**alqış** – şifahi ədəbiyyatda nəcib, xeyirxah diləyi ifadə edən və müəyyən mərasimlərlə bağlı arzuları bildirən söyləmə
**aqibətin xeyir** – "sabahın (axşamın) xeyir!"ə cavab olaraq işlədilən ifadə
**aqil** – ağıllı, müdrik, tədbirli
**arabir** – hərdənbir, bəzən
**aşırım** – dağın beli, dağın aşıb keçmək üçün yararlı yeri
**aşırmaq** – yıxmaq, döndərmək, çevirmək, devirmək, endirmək, düşürmək, salmaq
**aşkar** – açıq, aydın, göz qabağında olan, bəlli, məlum
**aşmaq** – hündür bir şeyin üstünə çıxıb o biri tərəfinə enmək, düşmək, hoppanmaq
**avadanlıq** – bir iş üçün lazım olan təchizat və ləvazimat; maşınlar, alətlər, cihazlar, mexanizmlər, qurğular və s.

### B b

**basılmaz** – basılması mümkün olmayan, basıla bilməyən, məğlub edilə bilməyən, məğlubedilməz
**başlanğıc** – bir işin, hadisənin ilk anı, əvvəli, ibtidası
**bel** – insanın və bəzi heyvanların qarnının arxa tərəfi, sağrı ilə çiyinlər arasındakı hissə
**bezmək** – usanmaq, bezikmək, təngə gəlmək, cana gəlmək
**bəhərli** – meyvə verən, məhsul verən, bar verən; meyvə gətirmiş
**bərpa** – əvvəlki normal halına salma
**bıçqı** – mişar
**bilavasitə** – vasitəsiz olaraq, arada heç bir vasitə olmadan; arada heç bir şey (şəxs) iştirak etmədən; birbaşa
**bildirçin** – quşların toyuqkimilər dəstəsindən olan, taxıllıqlarda yaşayan, oxuyan, əti yeyilən çöl quşu
**bir müddət** – bir neçə vaxt, bir zaman, bir qədər
**birlik** – burada: ittifaq
**biryolluq** – birdəfəlik, həmişəlik, qəti olaraq
**biz** – deşik açmaq üçün ucu şiş metal alət
**boy–buxun** – qədd, qamət
**boyunbağı** – zinət üçün qadınların boyunlarından asdıqları muncuq və s. düzümü
**burmaq** – düz şeyi buruq hala salmaq, qıvrım etmək
**büllur** – şəffaf və parlaq daş
**bürümək** – qaplamaq, çulğalamaq, yayılıb tutmaq
**büsat** – müəyyən qayda və üsullarla tərtib edilmiş şənlik, məclis, bayram, məc. təmtəraq, dəbdəbə, dəsgah

### C c

**can** – 1. Dini etiqada görə, ölümlə vücuddan ayrılan qeyri-maddi varlıq; ruh. 2. Həyat, varlıq. 3. Tab, taqət, hey. 4. Bədən
**cəmiyyət** – konkret tarixi-maddi həyat şəraiti ümumiliyi əsasında birləşmiş insan toplusu
**cəngəllik** – sıx ağaclıq, kolluq, kolkosluq; keçilməz qalın meşə, ya kolluq
**cingiltili** – zil, nazik
**cürətli** – heç şeydən qorxmayan, çəkinməyən;cəsarətli, ürəkli, qoçaq, cəsur, igid

### Ç ç

**çağ** – vaxt, zaman
**çapar** – keçmişdə: atla bir yerə məktub, əmr, xəbər aparıb-gətirən şəxs; qasid
**çarx** – öz oxu ətrafında fırlanmaqla minik və ya başqa nəqliyyat vasitələrini hərəkətə gətirən dairə; təkər
**çeşmə** – yerin altından sızıb çıxan su mənbəyi; bulaq, qaynaq
**çevirmək** – burada: vərəqləmək
**çərəz** – adətən, xörəkdən sonra yeyilən quru meyvə, şirniyyat şeyləri, desert
**çöküntü** – mayenin dibinə çökən şeylər; torta
**çürümək** – mikroorqanizmlərin təsiri altında pozulub xarab olmaq

### D d

**damaq** – ağız mənasında
**dalğın halda** – dərin fikrə batmış, çox fikirli, fikri bir şeylə məşğul
**daşmaq** – kənarlarından çıxaraq ətrafı basmaq (su haqqında)
**daşyonan** – tikinti üçün daşları yonub müəyyən şəklə və ölçüyə salan usta
**day** – biryaşar at balası, dayça
**daz** – xəstəlik, qocalıq və b. səbəblərdən başının tükü tökülmüş, başı tüksüz
**dərviş** – qapı-qapı gəzərək, yaxud meydançalarda adamları başına yığaraq peyğəmbərə, imamlara və kərbəla hadisələrinə həsr olunmuş qəsidələri avazla oxuyub pul yığan adam
**dəvəquşu** – isti ölkələrdə yaşayan, itiqaçan, lakin uça bilməyən çox böyük quş
**diksinmək** – hürkmək, qorxmaq, xoflanmaq
**diləkli** – diləyi olan, təmənnası olan; arzulu
**dilli–dilavər** – dilavər, danışmaqda usta və cəsarətli
**dinməz-söyləməz** – sakitcə, heç bir söz söyləmədən
**dirənmək** – söykənmək, dayanmaq
**diyar** – ölkə, məmləkət
**dodaqaltı** – yavaşcadan, pəsdən, öz-özünə
**dünyagörmüş** – həyat təcrübəsi çox olan, mübarizələrdən, sınaqlardan çıxmış; təcrübəli, müdrik
**düzü** – doğrusu (bəzən "sözün" sözü ilə birlikdə); ara söz kimi – açıq desək, doğrusunu desək

### E e

**ehtiyac** – hər hansı bir şeyə olan və onsuz keçinmək mümkün olmayan tələbat, gərəklik; yoxsulluq, kasıblıq
**eşmək** – burada: burmaq
**etibarlı** – etibar edilməyə layiq olan, etibarı olan, inanılacaq, etimad ediləcək, sədaqətli, vəfalı

### Ə ə

**əkinçilik** – əkin əkib biçmə işi; ziraət
**əks-səda** – qayalara, bina tağlarına və s.-yə toxunandan sonra təkrar qayıdan və eşidilən səs
**əlahiddə** – ayrı, başqa
**əlamətdar** – çox böyük əhəmiyyəti olan
**əməl etmək** – yerinə yetirmək, icra etmək, riayət etmək
**əməlli-başlı** – əsaslı surətdə, lazımınca, istənildiyi kimi
**əmlak** – 1. Mülklər (torpaq, əkin yerləri, malikanə və s.). 2. Birinin sahib olduğu pula dəyər şeylərin, varın, mal və mülkün məcmusu
**əsər** – iz, nişanə, əlamət, bir şeyin varlığına dəlalət edən hal
**əsilsiz** – 1. Əsli, əsası olmayan. 2. Əsli, nəcabəti olmayan
**əsir** – dustaq, azadlıqdan, sərbəstlikdən məhrum edilmiş
**əskilmək** – məc. alçalmaq, özünü alçaltmaq, hörmətdən, nüfuzdan salmaq
**əsla** – heç, heç bir vaxt, qətiyyən
**əslinə baxsan** – əslində, həqiqətdə, həqiqətə gəldikdə
**ətraf mühit** – içərisində hər hansı bir orqanizmin fəaliyyəti cərəyan edən təbii və ya ictimai şəraitin məcmusu; coğrafi mühit
**əzişdirmək** – ora-burasını əzmək, bərk əzmək. məc. döymək, kötəkləmək, qol-qabırğasını əzmək
**əzmək** – basıb, ya sıxıb yastılamaq, şəklini pozmaq

### F f

**fağır** – aciz, yazıq, məzlum; dinc, sakit
**fənd** – hiylə, kələk, fırıldaq, dolab, qurğu, biclik
**firavan** – çox, bol, çoxlu, varlı

### G g

**gərnəşmək** – qollarını qaldıraraq gövdəsini sağa-sola qanırıb bədən əzələlərini hərəkətə gətirmək
**gil** – yer səthində və ya altında olan, yaş halda özlü kütləyə çevrilən çöküntü süxuru (dulusçuluq, heykəltəraşlıq və tikintidə işlədilir)
**girov** – 1. Borc alınan pul və s. müqabilində təminat üçün verilən şey. 2. Tələblərin yerinə yetirilməsini təmin etmək məqsədilə zorla tutulub saxlanılan adam
**göyçək** – gözəl, qəşəng. // xoşagələn
**göyərmək** – zərbə və ya bərk şeyə toxunma nəticəsində bədənin bir yeri göy olmaq
**gözgörəsi** – göz görə-görə, açıq-açığına, aşkarda, açıq–aşkar
**gübrə** – bitkiləri daha yaxşı qidalandırmaq və məhsuldarlığını artırmaq üçün torpağa qatılan üzvi və ya qeyri-üzvi maddə
**gülzar** – çoxlu gül olan yer; gülüstan, çiçəklik, güllük
**güman etmək** – fikirdə olmaq, ehtimal etmək, zənn etmək
**günəmuzd** – əmək haqqı gün hesabı ilə ödənilən
**güzəran** – dolanacaq, dirilik, yaşayış, həyat

### H h

**haqlamaq** – yüyürüb çatmaq, dalınca qaçıb yaxalamaq, başının üstünü almaq.// məc. çatmaq, yetmək, yetişmək
**haram** – zəhmətlə, əməklə, düz yolla qazanılmayan, əldə edilməyən
**havalanmaq** – havaya qalxmaq, uçmaq
**heyran-heyran** – vurğuncasına, valehcəsinə
**hədər** – boş-boşuna, əbəs, heç bir nəticə verməyən; mənasız, faydasız
**hərbi xidmət** – hərbi vəzifə yerinə yetirmə, ordu sıralarında və ya donanmada qulluq etmə; əsgəri vəzifə
**həzm** – yeyilən şeyin həzm cihazında həll olunması
**hophop (şanapipik)** – əyri dimdiyi, darağabənzər kəkili, ala-bəzək lələyi olan quş
**hürkütmək** – hürkməsinə səbəb olmaq; hürkdürmək, ürkütmək, qorxutmaq
**hüsn** – gözəllik, camal
**hüznlü** – qəmli, kədərli; qüssəyə, qəmə, kədərə batmış, qəm, kədər, hüzn doğuran, kədər ifadə edən

### X x

**xata** – qorxulu, təhlükəli, faciə ilə nəticələnə bilən iş, hərəkət, əməl; qorxu, təhlükə
**xəcalət** – utanılacaq hal, utanmağa səbəb olan şey, utanma
**xəfif-xəfif** – mülayim, yüngül, yumşaq

### İ i

**iblis** – şeytan
**icbari** – məcburi
**iftixar** – fəxr, fəxr etmə
**iftixarla** – qürurla, fəxrlə, iftixar hissi ilə
**ixtiyar** – qoca, yaşlı; pirani
**ilişdirmək** – bir şeyi başqa bir şeyə keçirib bənd etmək, taxmaq; bağlamaq, bənd etmək
**ilqar** – söz vermə, əhd, vəd, vəfa
**ilxıçı** – ilxı çobanı
**imtina etmək** – boyun qaçırmaq, çəkinmək, istəməmək, rədd etmək
**imza** – bir məktubun, sənədin və s.-nin altında öz dəst–xətti ilə adını və ya familiyasını yazma, qol çəkmə, qol qoyma; qol
**incəliklərinə qədər** – ən xırda təfərrüat, bir şeyin ən spesifik cəhəti və ya cəhətlərinə qədər
**innab** – isti yerlərdə bitən, ətirli çiçəkləri olan ağac və bu ağacın dərisi sərt, əti ağ un halında olan meyvəsi
**insaf deyil** – rəva deyil, insafa müğayirdir
**irs** – əvvəlki dövrlərdən, əsrlərdən, böyük şəxsiyyətlərdən qalmış mədəniyyət əsəri
**israr etmək** – dediyi sözün, tələb etdiyi şeyin, irəli sürdüyü fikir və ya iddianın üstündə durmaq, dediyindən döndərmək, təkid göstərmək
**istehza** – ələ salma, rişxənd etmə, masqaraya qoyma; masqara
**işğal edilmək** – hər hansı bir dövlətin hərbi qüvvələri tərəfindən başqa dövlətin torpağının tutulması; tutmaq, zorla soxulmaq
**iydə** – açıq-sarı çiçəkləri olan, quraqlığa davamlı ağac və bu ağacın qırmızı qabıqlı, bərk çəyirdəkli xırda, şirin meyvəsi
**izahat** – bir məsələni, sözü və s.-ni ətraflı surətdə aydınlaşdırma, şərh etmə, bəyan etmə; müfəssəl izah

### K k

**karvansara** – özgə yerlərdən gələn karvanların və yolçuların müvəqqəti qalması üçün böyük həyəti olan xüsusi bina
**keçə** – yunu döyüb basmaqla hazırlanan sıx qalın material
**kifli** – kifi olan, kif iyi verən, kif bağlanmış
**kirəcləşmə** – kirəc halına gəlmək

**kor-peşman** – istədiyini əldə etməmiş, arzusuna çatmamış; əliboş, peşman halda
**köks** – bədənin boyundan qarına qədər olan ön hissəsi, sinə
**kömür** – odunu yandırıb basdırmaqla alınan tünd-qara rəngli bərk yanacaq
**külafirəngi** – evin üstündə və ya bağlarda istirahət üçün üstüörtülü tikili; talvar
**külləmək** – lavaşı yandırmamaq üçün saca, hisdən qorumaq üçün qazana və s. -yə küllü palçıq yaxmaq
**kündə** – sonradan yaymaq, yastılamaq üçün yumru hala salınmış xəmir parçası
**kürən** – saçı, tükü parıltılı sarı-qırmızı rəngdə olan
**küt** – məc. kütbeyin, gec başa düşən, dərrakəsiz, fərasətsiz, qanmaz, qavrama qabiliyyətindən məhrum

## Q q

**qabarlı** – qabarla örtülmüş; döyənək
**qalaqlamaq** – qalaq vurmaq, komalamaq, bir yerə toplamaq, üst-üstə yığmaq
**qamarlamaq** – bir şeyi tez və qaba surətdə qapıb götürmək; əlləri ilə bir şeydən bərk-bərk yapışmaq, tutub saxlamaq
**qamaşdırmaq** – parlaq bir şeyə və ya çox güclü işığa baxmaqdan, yaxud qaranlıqdan işığa çıxarkən qaralıb görməz hala düşmək
**qan təzyiqi** – damarlarda qanın təzyiqi
**qanaxma** – qan damarlarından qanın dışarıya çıxıb axması
**qanırmaq** – burmaq, əymək, qatlamaq, bükmək
**qanrılmaq** – çevrilmək, dönmək, üzünü çevirmək
**qansız** – məc. rəhmsiz, mərhəmətsiz, insafsız, amansız, qəddar
**qeyrət** – vətən, xalq, ailə namusu; ən əziz və müqəddəs sayılan bir şeyin təəssübünü çəkmə, şərəfini, heysiyyətini qoruma
**qəhərlənmək** – mütəəssir olmaq, kədərlənmək, kövrəlmək, doluxsunmaq, boğula-boğula ağlamaq
**qəsidə** – böyük bir şəxsi və ya tarixi bir hadisəni mədh və tərif edən, adətən təntənəli, uzun lirik şeir
**qırqovul** – toyuq fəsiləsindən rəngarəng tüklü, ləzzətli əti olan iri ov quşu
**qidalılıq** – qidalı olma, bəsləyici olma; bəsləyicilik; qidalı şeyin keyfiyyəti
**qisas** – intiqam; edilmiş pisliyin, düşmənçiliyin əvəzini çıxma, qanını yerdə qoymamaq
**qismət** – tale, nəsib, qədər, bəxt; bəxtə çıxan şey
**qovuşmaq** – çatmaq, yetişmək, nail olmaq
**qönçə** – açılmamış qızılgül və ya başqa çiçək; gül və ya başqa çiçəyin tumurcuğu
**quduz** – azğın, zalım, qəddar, qudurğan, qızmış
**qulluq** – xidmət, iş, vəzifə
**qübbə** – yarımkürə şəklində dam; günbəz

## L l

**layiqli** – münasib, yaxşı, ləyaqətli
**ləngimək** – bir yerdə lazım olduğundan, yaxud bir səbəb üzündən artıq qalmaq, ilişib qalmaq
**loğman** – bütün dərdlərə çarə edən, adamlara yol göstərən bilici şəxs mənasında işlənir

## M m

**macəra** – başa gələn həyəcanlı hadisə; qəziyyə, sərgüzəşt
**maraq göstərmək** – həvəs göstərmək, maraqlanmaq
**maşa** – ocaqdan od və ya qızmar bir şeyi götürmək üçün metal alət
**mədə** – insanda və heyvanlarda qarın boşluğunun yuxarı hissəsində yerləşən həzm orqanı
**məftil** – nazik və ya qalın ip şəklində olan metal məmulat
**məgər** – sual məqamında işlənib, şübhə, inamsızlıq və ya təəccüb bildirir: olmaya, bəs, yoxsa
**məğlubiyyət** – məğlub olma, basılma
**məxmər** – üzü qısa xovlu parlaq ipək parça
**məharət** – bir iş görməkdə ustalıq, bacarıq, qabiliyyət, hünər
**mənəvi** – insanın daxili, ruhi aləmi ilə bağlı olan, mənəviyyatla əlaqədar; qeyri-maddi, qeyri-cismani
**mərcləşmək** – mərc gəlmək, mərc tutmaq, çəkişmək
**məsuliyyət** – məsul olma, cavabdehlik
**məşəl** – ətrafı işıqlandırmaq üçün ağac və s. başına sarınaraq yandırılan yağlı (neftli) əsgi, yaxud ağac başına keçirilmiş içində yanar maddə olan qab
**məsum** – günahsız; heç bir günahı, qəbahəti olmayan. // “yazıq, zavallı” mənasında
**mətin** – bərk, möhkəm, sarsılmaz, dönməz
**meynə** – üzüm tənəyi
**mövsüm** – ilin dörd fəslindən hər biri; fəsil
**murdar** – müsəlman dini etiqadınca təmiz sayılmayan
**muştuluqçu** – xeyir xəbər, muştuluq xəbəri gətirən adam; müjdəçi
**müayinə etmək** – hərtərəfli yoxlamaq, nəzərdən keçirmək, müayinədən keçirmək
**müxtəlifcinsli** – bir cinsdən olmayan, cinsləri müxtəlif olan, başqa-başqa cinslərdən törəmiş
**mükafat** – birinin hər hansı bir sahədəki xidmətlərini, müvəffəqiyyətini qeyd etmək üçün ona verilən pul və ya başqa qiymətli bəxşiş
**münasib** – uyğun, müvafiq, yaraşan
**müqəssir** – təqsiri olan, günahı olan; təqsirkar, günahkar
**müsabiqə** – iştirakçıları içərisindən ən yaxşılarını seçib ayırmaq üçün keçirilən yarış; konkurs
**müştəri** – daimi alıcı, sifarişçi və ya bir iş üçün gələn
**müzəffər** – üstün gələn, zəfər qazanan, qələbə çalan; qalib, qalibiyyətli

## N n

**naşı** – nabələd, xam, təcrübəsiz, bir işdən yaxşı xəbərdar olmayan
**nəcib** – nəcabəti, əsli olan; əsilli, soylu, nəcabətli
**nimçə** – boşqab
**nişanlı** – adaxlı, nişanlanmış, ad edilmiş, deyikli
**niyyət** – məqsəd, məram, qəsd
**noxud** – paxlalılar fəsiləsindən girdə dənəli birillik bostan bitkisi, həmin bitkinin bişmişdə istifadə edilən dənələri
**nümayiş etdirmək** – göstərmək, bildirmək, ifadə etmək, təzahür etdirmək

## O o

**o cümlədən** – çox şey və ya çox adam arasından bir şeyi və ya bir adamı ayırıb göstərmək üçün işlədilir

**o gündən etibarən** – başlayaraq, sayılmaq surəti ilə
**ovlaq** – heyvan və quşların daim olduğu, yaşadığı yer
**ovsunlamaq** – mövhumatçıların təsəvvürüncə: ovsunla özünə tabe etmək, öz təsiri altına almaq
**ovuntu** – bir şeyin ovulmuş hissəcikləri, qırıntıları

**Ö ö**

**öd kisəsi** – qara ciyərdə olan və öd ifraz edən kisəyəoxşar orqan; ödlük
**ögey** – doğma olmayan
**öyüd** – pis hərəkətlərdən çəkindirmək üçün deyilən sözlər; nəsihət

**P p**

**paslı** – pası olan, pas atmış; paxırlı, cəngli
**pərişan olmaq** – qəmlənmək, kədərlənmək, qüssələnmək, çox məyus olmaq
**pərvazlanma** – uçmaq

**R r**

**rəsmən** – rəsmi olaraq, rəsmi surətdə
**rəşadət** – igidlik, qoçaqlıq, qəhrəmanlıq
**rəvayət** – bir hadisə, əhvalat və s. haqqında qısa nağıl; hekayət
**ruh** – məc. ürək, qəlb
**ruhlandırmaq** – ürək vermək, cəsarət vermək, ürəkləndirmək
**rütubətli** – rütubəti olan, yaş, islaq, nəm

**S s**

**sadəlöhvlüklə** – sadədil olma, ürəyisaflıq, ürəyitəmizlik, hiyləbilməzlik, sadəqəlblilik, safürəklilik
**saf** – tərkibi təmiz olan, heç bir qatışığı olmayan, xalis, qatışıqsız
**sancılmaq** – taxılmaq, asılmaq, bənd edilmək, keçirilmək
**sarğı** – 1. Yaranı sarımaq, sınığı bağlamaq və s. üçün uzun kəsilmiş tənzif, bez və s. parçası; bint. 2. Müəyyən məqsədlə qola bağlanan ensiz parça
**səadət** – bir şəxsin hər hansı bir şeydən duyduğu dərin məmnunluq və sevinc hissi; xoşbəxtlik
**səbirli** – səbri olan, səbir edən
**səda** – səs, avaz
**sədd** – yıxılmaz, dağıdılmaz, çox möhkəm
**səfalı** – xoş mənzərəli, axar-baxarlı, ürəkaçan, xoşagələn
**səmt** – cəhət, tərəf, yön, istiqamət
**sənətsevərlər** – incəsənətin bu və ya digər növünə maraq göstərənlər
**sərgüzəşt** – birinin başına gələn hadisə, qəziyyə, əhvalat, macəra
**sərmək** – bükülmüş, lülələnmiş, qatlanmış bir şeyi açılmış hala gətirmək
**sərrast** – duz, düzgün, dəqiq, hədəfi düz vuran
**sızlamaq** – yüngülcə ağrımaq, sızı vermək
**silah** – hücum və ya müdafiə üçün alət; yaraq
**simli** – simi olan, sim salınmış, simli saz
**sinədolusu** – dərindən, köks dolusu
**sivri** – iti, şiş
**siyasi xadim** – hər hansı ictimai fəaliyyət sahəsində özünü göstərmiş, xidmətləri olan şəxs
**sözəbaxmaz** – deyilənə əməl etməyən, məsləhət qəbul etməyən, sözə qulaq asmayan
**süküt** – susma, danışmama, dinməmə; sakitlik

**Ş ş**

**şabalıd** – qoz, fındıq cinsindən qabıqlı meyvə və bu meyvənin ağacı
**şairanə** – gözəl, qəşəng, füsunkar, məftunedici, valehedici
**şanı** – çox şirin, şirəli, ətirli üzüm növü
**şəfalı** – şəfa verən, şəfaverici, sağaldıcı
**şəfəq** – gün çıxmadan və ya batarkən göydə görünən qızartı; məc. parıltı, bərq, şölə
**şəxsi heyət** – hər hansı bir idarədə, müəssisədə, hərbi hissədə və s.-də xidmət edən şəxslərin heyəti
**şərik** – hər hansı bir işdə (ticarətdə və s.-də) başqası ilə birgə iştirak edən adam; ortaq
**şərikli** – ortaqlı, birgə
**şiş** – iti, sivri
**şişman** – çox kök, yekəqarın, şişqarın
**şöhrət** – zəhmət, xidmət, istedad, məharət və s. nəticəsində hamı tərəfindən tanınma; məşhur olma, şərəfli ad qazanma, məşhurluq, ad-san; // Adı çıxma, ad qazanma
**şütümək** – bərk qaçmaq, sürətlə getmək, bərk sürüb getmək, ötüb keçmək

**T t**

**tağ** – qovun, qarpız, xiyar, pomidor və s. bostan bitkilərinin yerlə sürünən kolu
**talvar** – dirəklər üzərində qurulmuş üstüörtülü kölgəlik; çardaq
**tavan** – binanın daxilinin üst örtüsü
**təbib** – həkim
**tədricən** – yavaş-yavaş, tədriclə, az-az, dərəcə-dərəcə
**təəssüf** – heyif ki, əfsus ki
**təqdim etmək** – vermək üçün əlində tutaraq birinin (adətən böyük və ya hörmətli bir şəxsin) qabağına gətirmək, vermək
**tələbkar** – çox böyük və ciddi şeylər tələb edən, hər şeyə çox ciddi yanaşan; ciddi, zabitəli
**təmsil etmək** – birinin müvəkkili olmaq, bir işdə onu əvəz etmək, onun adından danışmaq; birinin mənafeyini, fikrini, görüşünü və s.-ni ifadə etmək
**tənqidi** – burada: tənqid edən, nöqsanları və onların düzəlməsini göstərən
**tərəfgirlik etmək** – tərəfdar olma, tərəfini tutma, tərəfgirlik
**tərgitmək** – adət etdiyi pis və ya zərərli adətdən əl çəkmək, həmin işi daha etməmək
**tərtibat** – tərtib olunmuş bir şeyin xarici görünüşünü, görkəmini təşkil edən xüsusiyyətlərin (kitabın, qəzetin şəkillərinin, şriftlərinin, ya səhnə tamaşasının dekorasiya və geyimlərinin və s. -nin) məcmusu
**topa-topa** – qalaq-qalaq, yığın-yığın
**tor** – balıq, quş və s. tutmaq üçün ipdən çarpaz toxunaraq bərabər məsafələrdə düyünlə bərkidilmiş alət
**torağay** – əsasən səhralarda və çəmənliklərdə yaşayan sərçəkimilər dəstəsindən oxuyan quş
**tunc** – burada: qızılı-qəhvəyi rəng
**tuşlamaq** – nişan almaq, nişanlamaq, hədəfə yönəltmək
**tutaşmaq** – vuruşmaq, döyüşmək, yaxalaşmaq, dalaşmaq, qovğa etmək, höcətləşmək

## Ü ü

**üçlükdə** – üçü bir yerdə
**ülgücləmək** – ülgüclə qırxmaq

## V v

**val** – qrammofon və ya patefonda çalınmaq üçün xüsusi üsullarla üzərinə səs yazılmış yastı çarx; plastinka
**veyil-veyil** – avara-avara, boş-boşuna, heç bir işdən yapışmayaraq, boş-bikar
**vələs** – oduncağı bərk, qollu-budaqlı hündür meşə ağacı
**viran olmaq** – dağılmaq, uçulmaq, bərbad olmaq, xarabalığa dönmək

## Y y

**yalqız** – tək, kimsəsiz, yalnız, tək-tənha
**yanıqlı** – kədərli, qüssəli, qəmli, həzin; kədər gətirən, təsirli
**yanlış** – düzgün olmayan, doğru olmayan; səhv, qələt, xata
**yapmaq** – bişmək üçün təndirin divarına yapışdırmaq
**yara** – hər nə şəkildə olursa olsun, bədənin bir yerində əmələ gəlmiş zədə
**yararlı** – yarayan, əlverişli, uyğun, lazımlı, işə gələn, faydalı
**yarğan** – müvəqqəti su axınlarının əmələ gətirdiyi dik-yamaclı çuxur
**yarmaq** – maneəni dəf edərək yol açmaq, yarıb orta-sından keçmək
**yaş** – canına su, rütubət hopmuş; rütubətli, çox nəm, az islaq, sulu; hələ canında su qalmış, qurumamış
**yekəpər** – çox yekə, çox iri, cüssəcə çox böyük
**yenilməz** – basılmaz, məğlubedilməz
**yeyə** – metalı yonmaq, təmizləmək üçün üzəri diş-diş olan polad alət
**yırtıq** – cırığı, deşik yeri olan; yırtılmış; köhnəlib dağıl-mış; üzülmüş, parça-parça, deşik-deşik olmuş
**yoncalıq** – yonca bitən yer, yonca tarlası
**yuxayayan** – xəmir yaymaq üçün taxtadan düzəldilmiş alət
**yüyən** – atın başına keçirilən kəm və cilovdan ibarət qoşqu ləvazimatı

## Z z

**zəfər** – qalibiyyət, qələbə
**zümrüd quşu** – qədim əfsanələrdə özünü odda yandırıb sonra küldən törəyən əfsanəvi quş

# SÖZ EHTIYYATI

## A a

**ağ günlər** – xoşbəxtlik, səadət
**Ağ yal** – yer adı
**ağlı başından çıxmaq** – məc. bərk hirslənmək, acığı tutmaq
**ağlı kəsməmək** – 1. Başa düşməmək, dərk edə bilməmək. 2. Mümkün hesab etməmək, güman etməmək
**alışıb yanmaq** – məc. qızarmaq
**allah səni saxlasın** – birinə cansağlığı və uzun ömür arzusu
**ayğır** – döllük erkək at

## B b

**beynində həkk olunmaq** – məc. həmişəlik qalmaq, unudulmamaq (zehnində, qəlbində və s. sözlərlə)
**beyninə girməmək** – mümkün hesab etməmək, inan-mamaq; məc. təsir etməmək
**bəxti gətirmək** – müvəffəq olmaq, işi düz gətirmək, ta-leyi gətirmək
**biçarə** – yazıq, miskin, fağır, məzlum; bədbəxt
**bihuş olmaq** – özündən getmək, bayılmaq
**bikar** – işsiz, peşəsiz, məşğuliyyətsiz
**bikef olmaq** – kefi yerində olmamaq, kədərlənmək, məyus olmaq
**biqərar** – arasıkəsilməz, aramsız, uzunsürən
**boy atmaq** – uzanmaq, böyümək, inkişaf etmək
**boyun qaçırmaq** – imtina etmək, qəbul etməmək, boy-nundan atmaq

## C c

**canfəşanlıq etmək** – həddən artıq səy göstərmək, çalışmaq, cəhd göstərmək
**canını təslim etmək** – ölmək
**car çəkmək** – yüksək səslə camaata bir şeyi xəbər vermək, elan etmək, bildirmək
**cürəti çatmaq** – cəsarətlənmək, cürətə gəlmək, cəsarətə gəlmək, ürəklənmək

## Ç ç

**çanaq** – içi oyulmaqla ağacdan (taxtadan) hazırlanan qab növü
**çarə qılmaq** – çıxış yolu tapmaq, vəziyyətdən çıxmaq, əlac tapmaq
**çarəsi kəsilmək** – çarəsiz qalmaq, əlacı kəsilmək, çıxış yolu tapmamaq
**çaşıb qalmaq** – özünü itirmək, nə edəcəyini bilməmək
**çöhrə** – üz, surət, sima
**çömbəlib oturmaq** – ayaqlarını dizlərindən qatlayıb pəncələri üstündə oturmaq

## D d

**dadına çatmaq** – köməyinə gəlmək, haraya gəlmək, kömək etmək
**dağarcıq** – kiçik dağar; çox vaxt dəridən tikilən kiçik torba, çanta
**darılıq** – yumru toxumları olan birillik taxıl bitkisinin əkildiyi yer
**dəhşət götürmək** – bərk qorxuya düşmək, dəhşətlənmək
**dərinliyə varmamaq** – dərinliyə getməmək, çox da cid-di yanaşmamaq
**dərisini boğazından çıxarmaq** – bərk cəzalandırmaq, cəza vermək, divan tutmaq
**dilini dibindən kəsmək** – 1. Çox zülm edərək öldürmək; 2. Bərk cəzalandırmaq
**divan** – tar. ali hökumət məclisi; divanxana, hökumət idarəsi, dövlət dəftərxanası
**dodaqaltı gülmək** – istehza ilə gülmək
**dövrəyə almaq** – əhatə etmək, mühasirə etmək, dörd tərəfinə yığışmaq, ətrafına yığışmaq

## Ə ə

**əlacsız qalmaq** – çarəsiz, imkansız, çıxılmaz vəziyyətdə qalmaq
**əldən cıxmaq** – qeyb edilmək, itirilmək, yox olmaq
**ələ düşmək** – tapılmaq, ələ keçmək, hasil olmaq
**əmək itirmək** – zəhməti boşa getmək, zəhmətinin nəti-cəsini görməmək
**ər** – sözündə möhkəm, mərd; qəhrəman, igid, qoçaq

**ərənlər** – (adətən cəm şəklində) 1. Ər, qoçaq, igid. 2. Dünyagörmüş, müdrik, ağıllı adam
**əsrarəngiz** – sirli, əsrarlı, sirr ilə dolu; anlaşılmaz
**ətək** – dağın, yamacın və ümumiyyətlə, hündür yerin aşağı tərəfləri
**əziyyət çəkmək** – əzab çəkmək, məşəqqət çəkmək, ağrı-acı çəkmək

**F f**

**fikir dəryasına qərq olmaq** – bir şeyin fikrini çəkmək, bir şeyin dərdinə qalmaq, fikirləşmək, düşünmək
**fikir götürmək** – bir şey, hadisə haqqında fikir etmək, fikirləşmək, fikrə getmək, düşünmək, fikrini məşğul etmək, təşvişə, narahatlığa səbəb olmaq
**fikrindən döndərmək** – fikrindən əl çəkməyə məcbur etmək, fikrini dəyişdirmək
**fürsəti əldən vermək** – bir işi görmək üçün yaranmış şəraitdən və vəziyyətdən dərhal istifadə etməmək

**G g**

**gecəni gündüzünə qatmaq** – artıq çalışmaq, gecə də, gündüz də işləmək
**göstəriş vermək** – nə etmək, necə hərəkət etmək haqqında əmr, təlimat, məsləhət, izahat
**göz (gözü) oxşamaq** – xoşlanmaq, bəyənilmək, gözünə xoş gəlmək
**gözdən itmək** – görünməmək, görünməz olmaq, çəkilmək, yox olmaq
**gözləri alacalanmaq** – təəccüb, qorxu nəticəsində gözləri irilənmək, iri açılmaq
**gözləri dikilib qalmaq** – birinə baxıb durmaq, gözünü ayırmamaq, baxa-baxa qalmaq
**gözlərinə inanmamaq** – 1. Gördüyünə inanmamaq. 2. Təsəvvürə gəlməz bir iş qarşısında təəccüblənmək, çaşmaq
**gözlərini yayındırmaq** – fikrini, diqqətini, nəzərini bir şeydən uzaqlaşdırmaq, kənara, başqa tərəfə cəlb etmək
**gözü dörd olmaq** – diqqətlə baxmaq, nəzərdən keçirmək
**gözüm üstə yerin var** – əziz, hörmətli adamı nəzakətlə dəvət məqamında söylənir
**gözünü çəkməmək** – uzun müddət baxmaq, davamlı baxışlarla süzmək, gözünü götürməmək
**gözünün önündə canlandırmaq** – məc. unudulub getmiş, yox olmuş bir şeyi hafizədə bərpa etmək, yada salmaq, onun haqqında aydın təsəvvür yaratmaq

**H h**

**halay vurmaq** – dövrə vurmaq, halaylamaq
**haqq yolu** – doğru, düz, düzgün, həqiqi
**havaya sovurmaq** – havaya qaldırmaq, səpələmək, dağıtmaq
**həyat vermək** – canlandırmaq, ruhlandırmaq
**hürriyyət** – azadlıq
**huşunu itirmək** – bihuş olmaq, özündən getmək, huşdan getmək, bayılmaq, qəşş etmək

**X x**

**xeyir-dua vermək** – birinə səadət, xoşbəxtlik arzulamaq, uğurlar diləmək
**xəyalına gəlmək** – 1. Yada düşmək, anılmaq, xatırlanmaq, təsəvvürə, fikrə gəlmək, xəyalında canlanmaq. 2. Ağlına gəlmək, düşünmək
**xəyalında canlanmaq** – təsəvvüründə, hafizəsində canlanmaq, gözünün qabağına gəlmək, yadına düşmək
**xəyanət işləmək** – xain çıxmaq, satqınlıq eləmək, satılmaq, etibarsız çıxmaq

**İ i**

**icad etmək** – vücuda gətirmək, yoxdan var etmək, yaratmaq, ixtira etmək; uydurmaq, düzəltmək
**icarəyə götürmək** – müəyyən şərtlərlə müvəqqəti istifadəyə götürmək
**ifa etmək** – dinlənilmək və ya tamaşa edilmək üçün çalmaq, oxumaq, göstərmək (incəsənət əsərini)
**ixtiyar** – haqq, hüquq, səlahiyyət
**intəhasız** – sonu, axırı olmayan, nəhayətsiz, sonsuz
**işgəncə vermək** – əzab vermək, əziyyət vermək, çox incitmək
**işığa qərq olmaq** – çox işıqlı olmaq, işığa bələnmək

**K k**

**kefə alışmaq** – vaxtını xoş, nəşə ilə keçirməyə adət etmək
**kefi kökəlmək** – şadlanmaq, könlü açılmaq, fikri dağılmaq, əhvalı yaxşılaşmaq
**kələfin ucunu itirmək** – pis vəziyyətə düşmək, hadisələrdən baş açmamaq, nə edəcəyini bilməmək
**koğuş** – böyük ağacların gövdəsi içindəki boşluq
**korlamaq** – xarab etmək, pis vəziyyətə salmaq, yaramaz hala salmaq; pozmaq
**köks ötürmək** – dərindən nəfəs almaq (fikirdən, qüssədən, qəmdən və s. hisslərin təsirindən)
**kökünü kəsmək** – tamamilə, bir daha törəməyəcək şəkildə yox etmək, məhv etmək
**kürt yatmaq** – bala (cücə) çıxarmaq üçün yumurta üstündə oturmaq

**Q q**

**qanını almaq** – məc. intiqam almaq
**qaragül buxara papaq** – Orta Asiyada yetişdirilən qiymətli, qıvrımtüklü qoyun dərisindən papaq
**qaydaya salmaq** – nizam, səliqə; bir şeyin düzgün vəziyyəti, nizamda olması, qayda yaratmaq
**qərar tutmaq** – bir yerdə, ya bir işdə sabitləşmək, dayanmaq
**qayğı canını almaq** – fikir, əndişə, təlaş içində olmaq
**qəlbinə toxunmaq** – incitmək, ürəyinə toxunmaq, könlünü qırmaq
**qılıncdan keçirmək** – hamısını qılıncla öldürmək
**qızıl telli** – qızıl kimi bərq vuran şüalar
**qolaylamaq** – birini vurmaq və ya bir şey atmaq üçün qolunu qaldırıb dala gərmək
**qol-budaq atmaq** – şaxələnmək, ətrafa yayılmaq, genişlənmək
**qoşa gəzmək** – ikisi bir yerdə, ikisi yan-yana; birgə, bərabər, birlikdə, bir yerdə gəzmək
**qurbanı olmaq** – bir hadisə nəticəsində həlak olmuş adam; hər hansı bir iş üzündən zərər çəkmiş, mənəvi iztirab və haqsızlığa məruz qalmış adam haqqında

**L l**

**layiq görülmək** – bir şeyə layiq olduğu qəbul edilmək, layiq hesab edilmək

**M m**

**macal tapmaq** – imkan, fürsət, vaxt; macal tapmaq
**mayallaq aşmaq** – başın üstündən o biri tərəfə çevrilmək, aşmaq
**məruz qalmaq** – tutulmaq, düçar olmaq, uğramaq, düşmək

**məst etmək** – məc. kefləndirmək, nəşələndirmək, bihuş etmək, məftun etmək
**məşəqqətə dözmək** – əzab, əziyyət, sıxıntı, zəhmətə davam gətirmək, səbr etmək, qatlaşmaq
**məzlumanə** – yazıq-yazıq, fağır-fağır, zavallı-zavallı, məzlumcasına
**münsiflər heyəti** – müsabiqələrdə, yarışlarda, sərgilərdə və s. -də mükafat təyin edən mütəxəssislər heyəti; jüri
**mütəəssir olmaq** – əhvalı pozulmaq, qüssələnmək, kədərlənmək, təsirlənmək

### N n

**naçar qalmaq** – əlacsız qalmaq, çarəsiz qalmaq, naəlac qalmaq, heç bir şeyə, yerə ümidi gəlməmək
**nacins** – cinsi təmiz olmayan, cinsi pozuq; cinssiz, alçaq, nanəcib, rəzil
**naəlac** – çarəsiz, imkansız
**neftxuda** – neft sənayesi ilə məşğul olan sahibkar
**nərə çəkmək** – bərk bağırmaq
**nur saçmaq** – işıq vermək, işığını yaymaq

### O o

**od saçmaq** – işıq vermək, işıqlandırmaq
**od tutub odlanmaq** – alışıb-yanmaq
**oğrun baxışlı** – gizlicə, başqalarına sezdirmədən, başqalarına bildirmədən baxan

### Ö ö

**özlərini günə vermək** – açıq havada, günəş şüaları altında qalma, qızınma
**özünü itirmək** – çaşmaq, nə edəcəyini bilməmək
**pərələnmək** – burunun xarici deşiklərinin genişlənməsi

### R r

**rahat buraxmamaq** – incitmək, əziyyət vermək, narahat etmək, dinc qoymamaq, sakit qoymamaq

### S s

**sağlıqla işlədəsən** – salamat, zədəsiz istifadə etmək; faydalanmaq
**salavat çəkmək** – dua oxunduqdan sonra sağ əli üzə çəkmə ayini
**səsini içinə çəkmək** – tam sükut etmək, səsini çıxartmamaq, tamamilə susmaq
**sığınmaq** – bir təhlükədən etibarlı bir yerdə gizlənmək və ya birinə pənah gətirmək, himayəsi altına girmək, daldalanmaq
**sınama** – şifahi ədəbiyyatda janr
**söz almaq** – burada: məlumat əldə etmək
**sözünü ağzında qoymaq** – danışmağa imkan verməmək, sözünü yarımçıq qoymaq
**süfrə açmaq** – burada: qarşılamaq, qulluq etmək

### Ş ş

**şan** – ad-san, şöhrət, şərəf
**şərik çıxmaq** – bir işdə iştirak etmədiyi halda şəriklik iddiasında olmaq

### T t

**tabaq** – düyü, buğda və s. qoymaq və ya başqa məqsədlər üçün enli taxtadan oyulmuş dayaz, girdə, ya uzunsov qab; teknə
**tamah salmaq** – tamahını, nəfsini saxlaya bilməmək, özünü saxlaya bilməmək, həddindən artıq tamahkarlıq göstərmək
**təltif etmək** – orden, medal, fəxri ad, keçici bayraq, qiymətli şey və s. vermək
**təminat vermək** – təmin etmək, şərait yaratmaq, imkan yaratmaq
**təqib etmək** – tutmaq, ələ keçirmək, göz qoymaq və s. məqsədlə birinin izini tutub dalınca getmək; izləmək
**təsisat** – qurulmuş, təsis edilmiş, yaradılmış müəssisələr, idarələr, qurğular
**turna qoymaq** – qanı kəsmək üçün bədənin müəyyən hissəsinə elastik sıxıcı rezin borucuq bağlamaq, yerləşdirmək
**tükləri ürpərmək** – tükləri biz-biz qalxıb dərisi qabar–qabar olmaq (qorxudan, dəhşətdən və s. hisslərdən)

### Ü ü

**ümid bəsləmək** – yaxşı bir şeyin olacağına inanmaq, birinə arxayın olmaq
**ünsür** – məc. hər hansı ictimai təbəqənin nümayəndəsi
**ürəkləri oxşamaq** – həzz vermək, ləzzət vermək, zövq vermək, xoşuna gəlmək
**ürəyi titrəmək** – birinin həsrətində olmaq, arzulamaq
**üz gözünü turşutmaq** – üz əzələlərini yığmaq, üzünü qırışdırmaq surətilə öz narazılığını ifadə etmək
**üzündən nur yağmaq** – burada: təbəssümlə, xoş üzlə, mehribanlıqla
**üzüqara** – utanılacaq, əskik işi olan; xəcalətli, utanılacaq vəziyyət, iş

### V v

**vəsf etmək** – bir şeyin xüsusiyyətlərini, sifətlərini, keyfiyyətini təfərrüatı ilə göstərmək, təsvir etmək
**vəznəli çuxa** – qafqazlıların üstdən geyilən, beli büzməli, uzun, kişi milli geyimi

### Y y

**yadigar qalmaq** – xatirə olaraq verilən, saxlanılan, yaxud qalan şey
**yanaqlarından qan daman** – sağlam, dolğun, qırmızıyanaq adam haqqında
**yerinə düşmək** – burada: münasib vaxtda olmaq, məqamında olmaq, uyğun olmaq

### Z z

**zərər dəymək** – ziyan çəkmək
**zəmanət vermək** – zamin olmaq, təminat vermək
**zindan** – keçmiş zamanlarda: qaranlıq və müdhiş dustaqxana (adətən yerin altında olardı)
**zillət** – çətinlik, ağır şərait, pis vəziyyət, ağır maddi ehtiyac, yoxsulluq, məşəqqət
**ziyarət etmək** – hörmət əlaməti olaraq birini görməyə, biri ilə görüşməyə gəlmək; görüşə gəlmək; vizit

**PULSUZ**

## Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



